

MƏNZƏRƏ SADIQOVA

# QADINLAR və KİŞİLƏR





*Mənzərə Sadıqovanın bu şəkli illərlə İrəvan şəhərindəki Mirzə Fətəli Axundov adına №9 orta məktəbin "Şərəf lövhəsi"ni bəzəyib. Bədii yaradıcılığa şeirlə başlayıb. İlk qələm "həvəs"ləri uşaq mətbuatında dərc olunub. IV sinifdə "Ana" poemasını yazıb. Sonradan mənsur şeirə və nəsrə keçib. Qələmini publisistika və elm sahələrində də sınayıb.*

*Qəzet və jurnal, radio və televiziya jurnalistikasında böyük uğurlara imza atan M.Sadıqova dəfələrlə mükafatlandırılıb. AzTV-də informasiya jurnalisti kimi məşhurlaşıb. Telejurnalist fəaliyyəti ilə yanaşı "Qız qardaşım" radiojurnalının yaradıcısı və aparıcısı olub. Azərbaycan radiosunun "Qızıl Fondu"nda saxlanılan çoxsaylı verilişlərin müəllifi və aparıcısı kimi də böyük dinləyici auditoriyası qazanıb.*

*Cəfər Cabbarlı dramaturgiyasının qonşu xalqların ədəbi-mədəni mühitinə təsiri ilə bağlı 40 illik dövrü (1920-1960) araşdırıb. Dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsinə layiq görülüb. Mənzərə Sadıqovanın tədqiqatları cabbarlışünaslıqla yekunlaşmayıb. O, Üzeyir Hacıbəyov, Səməd Vurğun və b. kimi dahi sənətkarların yaradıcılığından vüsət alan ədəbi-mədəni əlaqələrimizlə bağlı xeyli maraqlı faktları da elmi ictimaiyyətin diqqətinə çatdırıb.*

*Mənzərə Sadıqova 2011-ci ildə çoxşaxəli yaradıcılığından seçmələrin yer aldığı "YaşaM" adlı kitabı ilə oxucuların görüşünə gəlibdir. "Qadınlar və kişilər" müəllifin ilk hekayələr kitabıdır.*

MƏNZƏRƏ SADIQOVA

# Qadınlar və kişilər

BAKI – "Nurlan" – 2014

**“Qadınlar və kişilər”**
(Hekayələr və povest)

**Redaktor: Nizami CƏFƏROV**
Azərbaycan MEA-nın müxbir üzvü, əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor

**Mənzərə SADIQOVA,** filologiya üzrə fəlsəfə doktoru
**“Qadınlar və kişilər”. Bakı, “Nurlan”, 2014, 272 səh.**

Kitaba müəllifin son illərdə mətbuatda çap olunan, internetdə yayılan nəsr əsərləri daxil edilmişdir. Müasir ruhlu hekayələrdə zəmanəmizdəki qadın-kişi münasibətlərindən bəhs olunur. Sürətlə dəyişən dünyada yeni çalarlar kəsb edən milli-mənəvi, əxlaqi dəyərlərimizə güzgü tutulur. XXI əsrin reallıqları zəminində İNSANın yaşantıları, ruhi çırpıntıları ön plana çəkilir. Hisslərin zəngin çalarlı palitrası fonunda xarakterlərin psixoloji dərinliyinə baş vurulur. Oxucu öz müasirlərini bir az da yaxından tanıyır.

$\frac{4603000000}{N098-2014}$ *qrifli nəşr*

**© M.Sadıqova 2014**
**© “Nurlan” 2014**

# Hekayələr

# EŞQ

Nadir içdikcə dəniz sərxoş olurdu. Və sərxoş olan dəniz Nadirin sevgilisinə təpədən-dırnağa sahiblənirdi. Kişini heç vecinə almırdı. Bu çağacan onun qıymadığı, təmizliyinə büt kimi sitayiş etdiyi gözəlin vücudunu əldən-ələkdən keçirirdi Xəzər. Löngər vuran dalğalarıyla qıza hücum edir, qəfil həmləylə onu ağuşuna alır, sarıb-sarmalayır, sonra da istədiyi kimi öpüb sığallayırdı. Dənizin ləpə dodaqları qızın sinəsini yaladıqca Nadir dəli olurdu. Qəlbini qısqanclıq bürüyür, beyni dumanlanırdı: "Buna bax, zərrəbəzərrə qovuşur mənim gözəlimə. İcazəsiz-filansız, nikahsız-kəbinsiz varlığını qızın canına hopdurur. Nadir həsrət içində yansın, sən kef elə, həə?.."

Bu axşam dəniz yaman təlatümlüydü. Havada sazaq vardı. Amma şəhərin istisindən qaçıb Bilgəhin sərinliyinə, çimərliyin mərhəmətinə sığınan Nilufər suya girməkdə qərarlıydı. Nadir nə qədər təkid etsə də, qız sahildə bənd almamışdı. Canının yanğısını dənizdə söndürmək, imtahanların yorğunluğunu atmaq istəyirdi. Dənizlə qaynayıb-qarışan Nilufərin bir gözü sahildəki sevgilisindəydi. Eşq indi bu ağsaçlı kişinin cildinə girib, onun gözlərindən gü-

lümsəyirdi qıza. Yanaşı duranda heç yaraşmırdılar. Amma kişinin cildindən boylanan eşq qızı elə sehrləmişdi ki, gözünə heç nə görünmürdü. O, kişini deyil, eşqi sevirdi. Nəfəs qədər ona yaxın olan, içinə dolub yaşamaq həvəsini coşduran, həyatına möcüzəli anlar bəxş edən eşqi.

Qəfildən mavi sularda qızın yaddaşı güzgüləndi. Sehrli bir əl Xəzərdən boylanan aynanın tozunu aldı. Toz-torpağın altından küncə sıxılmış tələbə gəncin konturları zorla sezilirdi. Yaddaşın ön plana çıxardığı oğlan qıza elə yad gəldi ki... Nilufər qəlbinin gözü ilə həmin tozlu rəsmə xeyli vaxt laqeyd-laqeyd baxdı. Kim olduğunu kəsdirincə... bir az yazığı gəldi. Körpəlikdə bezib atdığı oyuncaqları kimi lazımsızdı. İçində ona dair heç bir hiss qalmamışdı. Daha ondan heyf çıxmaq da istəmirdi.

Yaddaş dalğası bir anlıq dənizin üzərinə çıxardığı görüntünü dərhal da sulara qərq etdi. Amma olan olmuşdu. Nilufərin qanı qaralmışdı. Acı xatirələrin əsarətinə düşməməkçün tez nəzərlərini güzgüdən ayırıb sahilə baxdı. Nadir oradaydı. Qayaya qonmuş şahin kimi görünürdü. Qızın ürəyi çırpındı. Bədənindən isti cərəyan keçdi. Damarlarında qanı qaynadı. Nadirin məhəbbət dolu baxışlarından saçılan enerji uzaqdan da ona güc verirdi. Qəlbini nurlandıran işığa, qollarına qüvvət verən eşqə doğru tələsən Nilufər suları döyə-döyə üzməyə başladı. Bilmədi, qaçıb arzuolunmaz güzgüdən uzaqlaşmağa tələsir, yoxsa sevgilisinə yaxınlaşmağa...

Şalvarın balaqlarını dizəcən çırmalayan Nadir ləpədöyəndəki qayanın üstündə oturmuşdu. Yalın ayaqları suda sərinlədikcə sevimli viskisindən qurtum-qurtum içib xoşhallanırdı. Ayaq sərinləşdikcə baş qızışır, ürək alışıb yanırdı. Nilufər suların qoynunda şıltaq Xəzərlə çarpışırdı. Dənizlə sevgilisinin qovğasını seyr edən kişinin ürəyindən birdən dəniz olmaq istəyi keçdi. İstək onu elə çulğadı ki, bütün varlığı ehtizaza gəldi. "Dəniz olsam, problemlər gölündə boğulmazdım. Mən də Xəzər kimi rahatca vüsala yetərdim. Gör bir dənizə nə qədər səlahiyyət verilib!? Bu boyda Xəzər yox ey, lap təbiətin ən zərif çiçəyi də yeri gələndə mənim vəzifəmdən qat-qat qüdrətlidir."

* * *

Həyatından çox qadınlar keçmişdi. Zərif gözəllərdən kamını almışdı. Amma gözəllikdən doyulmaz ki!.. Nadir o kişilərdən idi ki, ailəsinə sədaqətini qorumağı da, nəfsinə korluq verməməyi də bacarmışdı. Xanımlarla münasibətində tezcanlıydı. Nədənsə Nilufərə qıymırdı. Məhəbbət kişini təzədən yaratmışdı. Meyarlar dəyişmişdi. Köhnə şakərləri yada düşmürdü bu qızla görüşəndə. "Həyatında hər şey olub: şöhrət, pul, vəzifə, qadınlar... Ancaq heç biri dünyanı sənə bağışlamayıb. Nilufər – sənin dünyandır! Onunla birgə keçən günlər ən böyük mükafatındır, Nadir. Qədrini bil!"- söyləyirdi ürəyində. Ona görə də tələsmirdi. Bu yaşda sevib-sevilməyin dadı yaman şeydi. Nadir əlinə düşən səadəti doyunca yaşamaq istəyirdi. Vüsal bütün eşqlərin tacı, zirvəsiydi. Kişi sonranın dərdindəydi, görən vüsaldan sonra nələr olacaq?

O özündən arxayındı. Hisslərindən də. Amma... başına gələn başmaqçı olar, - deyiblər. Evlənəndən sonra uğradığı xəyal qırıqlığını bir də yaşamaq istəməzdi. Cütlüyün duyğuları qovuşub, qaynayıb-qarışandan sonra məhəbbət süfrəsinə hansı nemətlər düzüləcəkdi? Bu, məchuldu. Birdən sevgi bitsə, eşq tükənsə?.. Bir-biri üçün adiləşsələr?.. Niluferin gözündə ucaltdığı pyedestaldan düşsə?.. Məhəbbətin əsrarəngiz dünyasından sürgün edilsə?.. Canını yandıran atəşlər sönsə?.. Cisminin hər zərrəsini dilləndirən həyəcanlar qeybə çəkilsə?.. Ruhundakı təzələnmə dayansa?.. Qəlbi kilidlənsə?..

Beyninin ən dərin qatlarından boy göstərən qorxular kişinin əlini-qolunu bağlayırdı. Naməlum aqibət onu çox həyəcanlandırırdı. Dünyanı yorub-yortmuşdu. Heç belə çətinə düşdüyü olmamışdı. Bu dəfə uzun müddət sevişən, illərlə nişanlı qalan, vüsala yetmək üçün toy gününü gözləyən cavanların yolunu tutacaqdı...

Xəzər yenə Nadirə göz verib, işıq vermirdi. Bayaq sahilə doğru üzən qız yenidən özünü dənizin qollarına atmışdı. Dalğalarla sarmaş-dolaş sevişirdilər. "Bunun da canında az yoxdur. Heç gör sudan çıxır?" Nilufər ənginliklərə doğru üzürdü. Bu axşam dənizdən çıxmaq fikri yoxuydu. Sanki ruhunu suya çəkirdi, arınmaq istəyirdi. Adətən onu seyr etməkdən xoşlanan Nadir bu gün yaman darılırdı. Viskinin təsirindən idi, nədirsə, sərxoş Xəzəri rəqib gözündə görürdü.

* * *

Nadir ailəli idi. Evlənəndə özü bəyənmişdi arvadını. Amma illər elə düzəlişlər etmişdi ki, onun hisslərinə... Sevgi alovlanmamış sönmüşdü. Arada quruca hörmət qalmışdı. Və bu ailəni dağılmağa qoymayan bağ o idi: Əlahəzrət Hörmət! ...Sonuncu kursda ikən vəzifəli oğlana ərə gedən Elnarə rəfiqələri arasında çox forslanardı: "Nadirə deyəcəm mənə qırmızı diplom alsın...Nadirə deyəcəm məni rektora tapşırsın, institutda saxlasınlar... Nadirə deyəcəm.., Nadirə deyəcəm.., Nadirə deyəcəm..." Qızın istəkləri bitib-tükənmirdi. İlk illər Elnarənin xahişləri ərinə ləzzət edirdi. Özündən on yaş cavan arvadını hər mənada himayə etmək xoşuna gəlirdi.

Günün birində bacısı Aidənin bircə kəlməsi bütün illüziyalarını alt-üst etmişdi: "Gəlin xanım, sən qaqaşımı lap toruna düşmüş qızıl balıq kimi istismar eləyirsən haaa..." Dilli-dilavər Aidə evin kiçiyi, həm də ərköyünü idi. Hər kəsin yanlışını gözünün içinə oxuyardı, kimsədən çəkinməzdi. Onun sözü şimşək olub çaxmışdı Nadirin beynində və çox qaranlıqları aydınlatmışdı. Deyəsən, Elnarə Nadiri ər gözündə görmürdü. Ona tramplin kimi baxırdı. Huşu-fikri öz yüksəlişindəydi. Necə olmuşdu ki, indiyə qədər bunu sezməmişdi?

İnsanın içinə şübhə toxumu düşdüsə, mütləq göyərəcək. Nadir də çox dözmədi. Bir müddət sonra ər-arvad arasında açıq söhbət oldu:

– Mən anamın səhvini təkrarlaya bilmərəm, Nadir. Təzə evlənəndə atamın şirin dillərinə aldanıb, qırmızı

diplomla oturub evdə. Bir də baxıb ki, tay-tuşları harda, o harda... İllər keçdikcə dönüb olub bozbaş bişirən, uşaq doğan, əski yuyan evdar qadın. Mənim anam akademik olası, nazir olası, deputat olası qadın idi, ərinin güdazına getdi. Bütün gələcəyini ailəsinə fəda etdi. Evin hər ağırlığını öz çiyninə yüklədi, beş övlad böyütdü. Atam da asudə gəzib-dolandı, kreslodan-kresloya hoppandı. Sonra da arvadını yanına yaraşdırmadı. İndiyə qədər də toya-məclisə özü tək gedir. Atamı qınamıram, çünki anam o mühitdən çox aralı düşüb. Bunu özü də bilir. Ona görə dinmir.

– Ailədə ayrı-seçkilik olaar? Ərin, ya arvadın dəxli yoxdu, uğur elə hər ikisinin uğurudu, Elnarə! Beş övlad böyütmək xırda şeydi?

Nadir bir az susub hirsini cilovladı, yenə davam etdi:

– Sənin qabağa getməyini mən hamıdan çox istəyirəm. İndi dövr başqadı, psixologiya dəyişib. Biz kişilərin adı bədnamdı. Əslində ərlər, illah da vəzifəlilər arvadlarının uğuruna sevinirlər, adam arasındakı hörmətiylə öyünürlər. Mən istəmərəm ki, həyat yoldaşım kimdənsə geri qalsın. Görürsən, bir sözünü iki eləmirəm. Amma bir az da mənə diqqət!.. Bir az sevgi!.. İşdən yorğun gəlirəm, bir gülər üzə, bir şirin sözə möhtac qalıram. Elə rəsmi davranırsan ki, elə bil ərin yox, müdirinəm.

Nadir sözünə ara verib Elnarənin üzünə baxdı. Sözlərinin təsirini yoxlayırdı. Özünü toplayıb əsas mətləbə keçdi:

– Sən gəl daşı ətəyindən tök, körpəmizi dayə ümidinə buraxma, özün tərbiyə et. Uşaq böyüsün, sonra yenə hər şeyi sən istədiyin kimi edərik.

Elnarə əsəbdən titrəyirdi. Ərindən bunu gözləmirdi. "İmkanı da yaxşıdır, niyə uşağı mən saxlamalıyam?" İçindəki narazılığı vulkan kimi püskürdü:

– Hansı sonra?? İkinci, ya üçüncü uşaqdan sonrakı sonraaa? İnsafın olsun, ay Nadir, mən o qədər vaxt itirə bilmərəm. Sən başımın tacısan. Oğluma da canım qurban. Amma bu dünyada hər kəsin öz həyatı var. Heç kəs ömrünü başqalarına qurban verməməlidir! Mən sizə bundan artıq vaxt ayıra bilmərəm.

İlk dəfəydi ki, belə sərt danışırdılar. Nadirin cavabını verən Elnarənin qulağında anasının öyüdü səslənirdi: "Kişilər etibarsız olur, qızım. Birinci özünü fikirləş. Mənim günümə düşmə. Ən vacib sənin arzularındır. Vəzifə sənin əlində olsun, bax gör kişi necə sürünəcək dalınca... Kişilər qabaqda gedən qadının həsrətini çəkərlər, arxalarınca gələnin yox. Ərini sev, hörmətini saxla, namusunu-qeyrətini qoru. Amma özünü ailə mənafeyinə qurban vermə. Unutma, birinci sənsən! Ərdən də, uşaqdan da vacib özünsən!"

* * *

İşdən toplantı adıyla çıxmışdı:

– Nazirlər Kabinetinə gedirəm...

Hökumət evindən uzaqlaşan kimi sürücüsünü buraxıb şəxsi avtomobilini götürmüşdü. Maşına oturan kimi pencəyini, qalstukunu soyunub rəsmiyyətdən yaxa qurtardı: "Oooxxx!! Nə gözəldir asudəlik!!"

Nazirlikdə aramı-qaramı yoxuydu. İş başdan aşırdı.

Yaman yorulmuşdu. Rahat nəfəs almaqçün ümid dəniz kənarınaydı. Nadir Süleymanlı universitetin həyətindən sevgilisini də yanına alıb şəhərdən sürətlə uzaqlaşdı. Bakı küçələri arxada qaldıqca, sanki qayğılar da yaxasından əl çəkirdi. Nilufərin imtahan sessiyası başladığından axır vaxtlar seyrək görüşürdülər. Bugünkü fürsət ələ düşməzdi. "Həm imtahanların başa çatmasını qeyd edərik, həm də doyunca görərəm..."

Nadir bilirdi ki, Xəzər çox qonaqpərvərdir. Mehriban qoynunda hamıya yer verəndir. Ən gözlənilməz müsafirlərə də qucaq açandır. Qəfil gələni qarşılayıb rahatlamaqda Xəzərin yerini verən olmaz. Bu əminliklə də sevgilisini dənizə qonaq apardı.

Gün aşağı əyildikcə Bilgəh sahilləri dolmağa başlayırdı. İşdən çıxan arvad-uşağını başına yığıb gəlirdi. Dənizdə tay-tuşlarıyla əylənən kim, çimərliyi xəlvəti görüş yeri seçən kim... Bir həngamə vardı gəl görəsən. Dəcəl uşaqların səsi yavaş-yavaş dənizin səsini üstələyirdi. Və Xəzər eşidilməz olunca Nadir daha çox iç dünyasına qapanırdı. Nəzərləri mavi sularda itib-batmışdı. Yenə əzizləri  fikrində dolaşırdı.

...İkinci uşağın dünyaya gəlişi də Elnarəni evə bağlaya bilmədi. Nəsibinə karyerist qadın düşmüşdü. Vəzifədə irəlilədikcə Nadirdən daha çox uzaqlaşırdı. "Belə ailə olmaz ki. Bir evdə iki yad adam kimi yaşayırıq." Ər-arvadın axırıncı dəfə nə zaman ürəkdən dərdləşib-bölüşdüyü heç birinin yadına gəlmirdi. Nadir bir müddət mübarizə apardı. Sonunda yorulub taleyilə barışdı. Hərdən özünü

qınayırdı: "Gül kimi qız aldın, ancaq özünü sevdirə bilmədin, Nadir bəy... Bil-mə-din! Elnarə bütün fikrini işinə verib. Sən onu cəzb eləyə bilsən, belə olmazdı. Necə olur o boyda idarələrə, böyük-böyük kollektivlərə rəhbərlik edə bilirsəəən, ancaq öz ailənlə bacarmırsan? Heyf! Sevgi olmayan yerdə gül də ətir qoxmur. Yazıq uşaqlarım var-dövlət içində, bolluq içində aclıq çəkdilər – sevgi aclığı. Əzizləyənləri də, yedizdirib-geyindirənləri də yadlar oldu – dayə, qulluqçu, sürücü..."

Oğulları böyümüşdü, magistraturanı bitirib iş-güc yiyəsi olmuşdular. Bugün-sabah evlənəcəkdilər. Nadirlə Elnarə baba-nənə olacaqdılar, amma istəkli ər-arvad ola bilməmişdilər. Bu, Nadiri çox ağrıdırdı. Nadir Süleymanlı kafedra müdiri olmuşdu, prorektor olmuşdu, professor olmuşdu, baş direktor, şirkət prezidenti, nazir olmuşdu, amma sevilən kişi ola bilməmişdi. İndi Xəzərdə üzən gənc sevgilisinə baxdıqca həyatının ən mühüm arzusuna yetməyindən ləzzət alır, qürrələnirdi.

* * *

Nilufərlə təsadüfən rastlaşmışdılar. "Təsadüfdən zərurət doğar" deyən dialektik materializm haqlıymış. İndi onu bir gün görməyəndə süstləşirdi, işləməyə həvəsi olmurdu. Kədərli və şıltaq qız Nadirin həyatının mənasına çevrilmişdi. Nilufər su kimi dupduru görünüb, alov kimi qarsırdı. Ona ürcah olandan Nadir nazir olmaqdan əl çəkmişdi. Yox ey, vəzifəsini yerə qoymamışdı, yalnız nazirliyin qayğıları ilə yaşamağı

tərgitmişdi. Hər dəfə güzgüyə baxanda qadın gözündəki cazibəsini ölçüb-biçirdi, nazir görkəmində olub-olmadığı daha eyninə gəlmirdi. Dostları deyirdilər ki, bu qız sənin təkcə qəlbini yox, beynini də fəth edib, özünü gözlə.

Həyatındakı boşluq tamam dolmuşdu deyə, Nadir halından məmnun idi. O yatanda da, duranda da ancaq Nilufəri düşünürdü. Məhəbbət başını elə qatmışdı ki, indi dünyada Nadirçün Niluferdən daha vacib adam, iş, məşğuliyyət yoxuydu. Qızı yerindəki gözəlin sevgisindən taxdığı qanadlar onu bəxtiyarlığın ənginliklərində süzdürürdü.

* * *

İlk məhəbbətinin süqutu, sevdiyinin dönüklüyü Niluferin həyatında dağıdıcı zəlzələ təsiri yaradıb, bütün daşları yerindən oynatmışdı. Məhəbbət saydığı duyğunun səbəbsiz-filansız çırpıb getdiyi qapıdan şəstlə içəri girən ayrılıq onu varından yox etmişdi. Gənc qız sönmüş ocaq kimi tüstülənirdi. Beyni, qəlbi, ruhu duman içindəydi. Ayrılıq onu gözəgörünməz məxluqa çevirmişdi. Universitetdə də, evdə də ruh kimi gəzib-dolaşırdı. Heç kimə qaynayıb-qarışmırdı. Dünyadan küsmüşdü. Özü üçün hər şeyin bitdiyini düşünürdü. "Bir daha kimsəyə inana bilmərəm", - deyirdi ki... Nadirə rast gəldi. İnandı və sevdi. Həyatına xoşbəxtlik gətirən sevgini sevdi. O gün Niluferin həyatının dönüş nöqtəsi oldu: mənəvi ölümdən diriliyə doğru. Bu sevgi onu göylərə pərvazlandırdı.

Qız kədərin daşını atıb bütün varlığıyla aşiq oldu bu maraqlı kişiyə. Bircə ona təəccüblənirdi ki, bu necə baş

verdi? Axı, bir də sevəcəyinə inanmırdı. Rəfiqələri ha deyirdilər ki, özünü yorma, eşqin niyəsi yoxdur, EŞQ elə buna görə eşqdir.

* * *

Dənizdə külək başlamışdı. Ruzgar sahilin qum çarşabını qaldırıb dincələnlərin üstünə örtürdü. Qüruba enən günəş Xəzərdə əsrarəngiz gözəllik yaratmışdı. Nilufər suları yara-yara Nadirə doğru üzürdü. Nəhayət, fərqinə varmışdı ki, sahil yaman dolub. "Tanıyan-bilən olar. Kişinin başını dərdə salmayım. Aşkımı incidərlər..." - düşüncəsiylə sahilə tələsirdi. Əslində onların getmək vaxtı çoxdan çatmışdı. Yay axşamlarında Bilgəh çimərliyi Nadirin nazirliyindəki "Açıq qapı günü" sayaq bir yerdi. Amma bu axşam kişinin beyni elə dumanlanmışdı ki, heç nə eyninə gəlmirdi. Nadir içdikcə beynindəki duman aydınlaşır, ona yol göstərirdi: "Bu gözələ sahiblənməyin yeganə yolu izdivacdır! Əksi nakişilik olar. Elnarədən ayrılmaq lazımdır. Onsuz da hərə öz aləmində yaşayır. Eyni yataqda uyuyan iki hissiz bədən..."

– Aşkım, nə düşünürsən? Qətifəni mənə versənə, - deyə sahilə çıxan qız nazlandı. Qətifə bəhanə oldu. Nadir qızı qətifəqarışıq qucaqlayıb bağrına basdı.

– Səni dənizə elə qısqandım ki!.. Az qaldım od vurub Xəzəri yandıram.

– Afərin mənim aşkıma. Ginnesin rekordlar kitabına düşəcək. Dünya yaranandan belə hünər göstərən olmayıb.

– Sən inanma. Mən yandırım, sən də bax.

Deyəsən, içki Nadiri tutmuşdu. O, alışqanını yan-

dırıb dənizlə məzələnməyə başladı. Ətrafdakılar gənc sevgilisinə eşqini isbatlamaq istəyən ağsaçlı kişini maraqla izləyirdilər.

– Yaxşı, yaxşı, inandım. Neftimizə od vurma. Avropanın enerji təhlükəsizliyinə zamin durmuşuq. Qoy yaşayaq.

Nilufərin sözü çimərlikdəkiləri güldürdü. Dənizi yandırmaqdan vaz keçən Nadir indi də sevgilisinin adını quma həkk etməyə başladı. İri hərflərlə "MƏN NİLUFƏRİ SEVİRƏM!!!" yazdı.

Xəzər indicə qucağından buraxdığı gözəli necə qısqandısa, əlinin tərsi ilə dərhal sildi cümləni. Nadir inada düşdü. Xəzər sildikcə o yazırdı. Bir gözəlin iki aşiqi əməlli-başlı yarışırdılar. Axırı Nadir qalib gəldi. Rəqibinin əli çatmayan qumsallığa həkk etdi eşqini: "NİLUFƏRİ SEVİRƏM!" Xəzər hirsli-hirsli baxırdı Nadirə. Dalğalar şahə qalxıb bir şapalaq vurdu sahilin yanağına. Ancaq qumsallıq əmanətə xəyanət etmədi, qorudu Nadirin ürək sözünü. Hər hərfin qumda açdığı cığırları fəxrlə izləyən gözəl gülümsəyərək başını bulayırdı: "Yeniyetmə oğlansan, Nadir, yeniyetmə oğlan. Sonra da deyirsən "qocayam". Ay Nadiiiir..."

Ürəyində sevilməyin sevincini yaşayan Nilufər qələmə çevrilmiş taxta parçasını Nadirin əlindən alıb dənizə tulladı. Sevgilisinə sarıldı. Zarafat deyildi, bu boyda nazir millətin içində ona eşq elan etmişdi. Hərflərin hərəsi bir adam boyundaydı. Nilufərin qəlbi cəh-cəh vururdu. Orijinal eşq elanını sevgililərin uzun sürən öpüşməsi müşayiət etdi. Bir anlığa çimərlikdəkilər yaddan çıxdı.

Özünü günə verənlər arasında pıçhapıç düşdü. Hər ağızdan bir avaz gəlirdi:

– Aaaa, bunlara baax, ətiniz tökülsüüün...

– Ay qız, bu kişi nazirimiz Nadir Süleymanlı deyilmi? Vaxseeeeyyy.

– Kəsin səsinizi. Baxmağa yer tapmırsıız? - deyə tosqun arvadların yanındakı kişi onlara təpindi. Dedi-qoduçular qəfil bəd xəbərdən ləzzətli tikəsi boğazında qalanlar sayaq susdular. Kişi öz-özünə donquldanırdı:

– Mənə deyən gərək bunları niyə gətirirsən? Nə qədər çölə-bayıra az çıxsalar, o qədər qulağım dinc olar.

Bir az aralıda sarı adyalın üstündə oturub qarpız yeyən gəlinlər də him-cimlə opüşənlərdən danışırdılar:

– Odu dəə, ağəz. Özüdü ki var. O gün AzTV-də göstərirdilər, oddu-oddu danışırdı. Yəqin yanındakı qızıdır.

– Allah evini tiksin. Ata qızını elə öpüüüür?

– Lağla deyirəm dayna. Pul qudurdub bunnarı. Millətin balalarını yoldan çıxarıllar. Harınlar...

Sevgililərə baxan çox olsa da, əhəmiyyət verən az idi. Axır vaxtlar gözləri alışmışdı belə şeylərə. Arvadların dedikləri Nilufərgilin durduğu yerdən anlaşılmasa da, külək "Nadir Süleymanlı" kəlməsini qızın qulağına çatdırmışdı. O, çimərlikdən uzaqlaşmağa tələsdi. "Bu məmləkətdə insana rahatlıq yoxdu. Deyən gərək, niyə öz dərdinizlə ölmürsüz?"

* * *

Nilufər Nadirə elə bağlanmışdı ki, yaş-filan gözünə görünmürdü. Kişiylə tay-tuşu kimi davranırdı. O bu sevdaya düşəndən gözəlləşmişdi. İrəliləyən yaş

da yavaş-yavaş şıltaq qızcığazın uşaq sifətinə qadınlıq məlahəti gətirirdi. Üzünün dərisi parlayırdı. Çöhrəsinin düzgün cizgiləri, gözləri və dodaqları yeni anlam kəsb etmiş, sirli bir cazibəyə bürünmüşdü. Ruhuna hopmuş sevgi Nilufərin yerişindən-duruşundan hayqırırdı. Hər hərəkətiylə ətrafdakılara "xoşbəxtəm.., qayğısızam..." mesajını verirdi.

Dikdaban tuflilərin üstündə kəpənək tək uçan, fırfıra tək fırlanan sevgilisinə baxdıqca Nadir Süleymanlı da azı on yaş cavanlaşırdı. Oturuşunda-duruşunda çeviklik, enerji axını tüğyan edirdi. Bunu tabeliyindəki işçilər də sezirdilər. Elnarə də duyuq düşmüşdü, amma adəti üzrə vecinə almırdı: "Neyləyir, eləsin. Təzəcə rektor təyin olunmuşam. Gərək universitetdə yeniliklər edəm ki, yerimi bərkidəm. Gözə girmək lazımdı. Nadir qaçmır."

* * *

Kosmetikaya çox da aludə olmayan Nilufər tez-tez gözünün rəngini dəyişməyi xoşlayırdı. Bilirdi ki, yaşıl linzada Nadirin ağlını başından alır. Bu gün hazırlıqlı gəlmişdi. Yuyunub-geyinən kimi linzasını taxdı. Yüngülvarı sərxoş olan Nadir lap havalandı.

– Gözəlim! Gözlərinin alasına qurban olum!

– Nadir, yavaş. Camaat içindəyik.

– Olaq daa. Mən eşqimi gizlətmirəm. Kimsədən çəkindiyim yoxdur.

– Bilirəm mənim aşkım cəsurdur. Bir də baxassan işçilərin burdadır. Gedək.

– "Aşkım" nədi, gözəlim, məni öz dilimizdə əzizlə. Türk seriallarından öyrəndiyin sözlərlə dindirəndə elə bilirəm rol oynayırsan. Nə deyirsən de, ana dilimizdə de!

Nadirin iradından Nilufərin könlündə tufan qopdu. Onsuz da ətrafdan eşitdikləri, onları izləyən xoşagəlməz baxışlar qanını qaraltmışdı. Dodaqları büzüldü. Ağlamsındı. Bu halında elə gülməliydi ki. Nadir qızın cazibəsinə dayana bilmədi:

– Yaxşı, yaxşı... Arabir də böyük sözünə bax. İndi maşına. Yolçu yolda gərək.

Nilufərin məyusluğu duman kimi seyrəldi. Kişinin amiranə tonda danışmağını xoşlayırdı. İçinə dolan qəribə sevincdən, fərəhdən köksü qabardı. Uşaq kimi atlanıb sükan arxasında yerini tutdu:

– Sən içkilisən. Maşını mən sürəcəm.

Nilufər mahir sürücüydü. Ona görə də Nadir tam arxayınlıqla sükanı gözəlinə etibar etdi. Sevgililər Bakıya doğru üz tutdular. Yol boyu Xəzərdən əsən meh adamın ruhunu dincəldirdi. Magistral yola çıxanadək susub fikrə daldılar. Səssiz söhbət edirdilər. Nəzərləri bir-birinə sataşanda gülümsəyirdilər. Maşında elə rahat aura vardı ki! Nilufər çimib yüngülləşmiş, ağırlığını dənizdə qoyub gəlmişdi. Qəlbini təşvişə salan pıçıltıları eşitməsəydi, kefinə kef çatmazdı. O, Nadiri sevirdi və bu sevgidə xoşbəxtliyini tapmışdı. Gerisi taleyin əlindəydi.

Nadir isə özünün viski qonaqlığında mühüm bir qərara gəlmişdi: bu axşam evdə məsələni açacaqdı. Elnarənin razılığını alacağından əmindi. Oğullarından utanırdı. Bir də... boşanma məsələsi karyerasına zərbə vura bilərdi. Sarsıtmasa da, laxladardı mövqeyini. Müavini Akifgil nə vaxtdır belə fürsət gözləyirdilər. Yeznə-qayın birləşib həngamə qoparacaqdılar. "Əşi, indi nə dövrdü? Fransa prezidenti Nikola Sarkozi

arvadını boşayıb təzə arvad ala bilir, sıravi nazir Nadir Süleymanlı alammır??"

* * *

Nilufər vəzifə hərisi deyildi. Görüb-götürmüş ailənin qızıydı. Nadir nazir oldu, ya müəllim – onuncün fərqi yoxuydu. İlk tanışlıqda bilməmişdi bu kişinin nazir olduğunu. İş işdən keçəndən sonra xəbər tutmuşdu ki, qəlbində taxt quran adam nazirdir. Nadirə də elə bu lazımıydı: kişi kimi sevilməyi. Eşq Nadiri elə tilsimləmişdi ki, əlindəkilərdən əl çəkməyə hazırdı. "Yüksəklərdə uçmaqdan doydum. Nə qədər olar vəzifə dərdi çəkmək, bəsdir dəə?! Sevilən kişi olmaq... böyük səadətdir! Qalan ömrümü Nilufərə həsr edəcəm. Oğullarım tezliklə evlənib yerbəyer olacaqlar. Elnarəyə də mən lazım deyiləm. İndi daha özünün əli hər yerə çatır. O qədər qayğıyla yükləndim ki, başım da vaxtsız ağardı... Özüm üçün yaşamağın vaxtı çatdı artıq. Bu şansı əldən versəm..."

Ağsaçlı kişinin qəlbində tonqal alovlanırdı. Qarşıdan gələn payızını-qışını cavan sevgilisinin bahar ömrünün hərarətiylə isitmək istəyirdi. Nilufərin ömrünün yayında qızınmaq, o yayın Sevgi Günəşinin atəşində yanmaq istəyirdi. Maşın Bakıya doğru şütüyürdü. Nilufər həzin melodiyaların yazıldığı diski CD-pleyerə daxil etdi. Musiqi təranələri maşına doldu. Nadir başını sükan arxasında olan Nilufərin çiyninə söykəyib gözlərini yumdu. Bir azdan o da mahnı oxuyurmuş kimi həzin-həzin dilləndi:

– Nilufər, mənim Nilufərim! Sən ağac olsan, Nadir o ağacın altında çürüyən meyvə olmaq istəyər. Tor-

paq olsan, qar yorğanıyla sənin üstünü örtüb, şaxtadan-ayazdan qorumaq istəyər.

İlk dəfəydi Nilufər Nadirdən belə romantik sözlər eşidirdi. Əvvəlcə bilmədi kişi onunla zarafat edir, yoxsa ciddidir. Elə ki baxdı Nadir bulaq kimi çağlayır, qız diqqət kəsildi:

– Nilufər, hərəmiz okeanın bir tayında olsaq və okeanın üstünə duman sallansa, mən gəmi olub yenə sənə doğru üzərəm... Bil ki, atmosferin ozon qatını yarıb keçsən, raketə çevrilib ardınca Günəşədək uçaram... Yağış olub göydən yağsan, torpaq olub səni canıma hopduraram... Alova çevrilsən, odun əvəzinə özümü sənin ağuşuna ataram...

"Buna noolub? Görəsən, hardansa əzbərləyib, yoxsa öz sözüdür?" Nilufər eşitdiklərini hardasa oxuyub-oxumadığını götür-qoy etməyə macal tapmamış Nadir dalını gətirdi:

– Sən çox bəyəndiyin "Lexus"a çevrilib səyahətə çıxsan, mən yol olub təkərlərinə döşənərəm... Dənizə çevrilsən, ada kimi qoynuna sığınaram... Aysberq olsan, suya dönüb səthini sığallayaram...

"Yoox, bunlar əzbərlənmiş sözə oxşamır. Deyəsən, aşkımın öz yaradıcılığıdı." Aram-aram söylənən sözlərdəki eşq yağmuru yavaş-yavaş Nilufərin varlığına hopur, onu sehrləyirdi. Qız EŞQin qanadlarında səmalara uçurdu. Nadirin səsi ilahidən gələn səda kimi ruhunu oxşayırdı:

– Nilufər, mənim Nilufərim! Söz olsan səsə, musiqi olsan nota çevrilib tərkibinə daxil olaram. İkimizin birliyindən ecazkar mahnılar yaranar... İnformasiya xisləti daşısan, elektron vasitəyə çevrilib səni



öz məkanımın hüdudlarında əsir saxlaram. Səni kimsəyə verməròm!.. Kometa olub kosmosdan düşsən, kainat olub səni bağrıma basaram. Bizdən törəyən meteoridlər milyon-milyon illər Yer kürəsinə məhəbbət çiləyər!..

Nadir Nilufərin bütün vücuduna, varlığına çevrilmək istəyirdi, hər zərrəsinə çevrilmək istəyirdi. İstəyirdi.., istəyirdi.., elə çox şey istəyirdi ki! Əslində, bunların hamısını EŞQ istəyirdi. Ağsaçlı kişini dilləndirən, onu şairə, filosofa çevirən də EŞQ idi. Nadirlik bir şey yoxuydu. O anda Nadir qəlbinə sığmayan eşqini dünyaya bəyan etmək istəyirdi. Nilufər elə təsirlənmişdi ki, daha heç nə eşitmirdi. Nadir gözlərini iri açmışdı. Eşqdən süzülən gözlərilə Nilufərə baxa-baxa nəsə deyirdi. Dodaqları məhəbbət püskürürdü. Baxışlarından od yağırdı. Aeroport yolundan çıxsalar da, maşın yüz iyirmi ilə gedirdi. Nilufərin məst olmuş zəkası sürəti aşağı salmağı unutmuşdu. EŞQin sehrli aləmindəki rahatlığı birdən... toqquşma səsi pozdu "daaaaanq!"...

Üç maşın qarın-qarına girmişdi. Fil dişi rəngində "Lexus" ikitərəfli əzilmişdi. Kiminsə salamat çıxacağı möcüzəydi. Bir anın içindəcə siqnal səsləri küçəni başına götürdü. Arxadan gələnlər maşınları saxlayıb köməyə tələsirdilər. Badımcanı taksidən boylanan bir arvad qışqırırdı:

– Aaaaa! Bunlar ki bayaq öpüşənlərdiiii!?.

***yanvar, aprel 2013***



## EHTİRASLAR LABİRİNTDƏ

İt susmaq bilmədən hürürdü. Neçə gündü qonşular Bənövşəgilin itinin səsindən zinhara gəlmişdilər. Bozdar pəncəsiylə qarajın qapısını cırmaqlaya-cırmaqlaya zingildəyirdi. Nə qədər qulluğunda dursalar, xeyri olmurdu. Nə qabağında qalaqlanmış sümüklərə məhəl qoyurdu, nə də Seymurun xırdaca əlləriylə çəkdiyi sığala. İki-üç dəfə su qabını da vurub aşırtmışdı. Allahın heyvanı elə bil insanları qandırmaq istəyirdi ki, dərdim yemək-içmək deyil. Bozdara yaxşı bələd olan Bənövşə itin narahatlığından şübhəyə düşmüşdü. "O bizə nəsə anlatmaq istəyir. Bəlkə qarajda oğru var. Ya da ilan girib. Hər nədisə, Bozdarın harayı qarajla bağlıdı."

Aslan səfərdəydi. Yenə Polşaya getmişdi. İşlədiyi firmanın Azərbaycan təmsilçisiydi deyə, ilin on iki ayı bir ayağı orda olurdu. Ezamiyyətə maşınla getdiyindən qarajı da bağlayıb açarı özüylə aparmışdı. İndi bu dəmir qapını necə sındıracaqları fikri Bənövşəni almışdı. Gecəni Bozdarın səsindən yatammamışdı. Sübh tezdən qarajın qapısında durub ulayan iti görcək qəti qərara gəldi ki, nə təhər olur-olsun, bu gün qarajın qapısını açdıracaq. Bənövşə eyvandan qonşularını harayladı:

– Nazim dayı, ay Nazim dayı, alətlərini yığıb gəlsənə biz tərəfə. Qarajın kilidini kəsək görək bu it nə istəyir, niyə gecə-gündüz əl çəkmir burdan.

– Aslan gəlib hirslənər ay Bənövşə, bir itin hürməyilə qarajı şikəst eləmə. Bizim arxitektorun acığına gələr, - deyə qonşu hay verdi.

– Acığına gələrsə gəlsin. Neçə gündü yuxumu da qarışdırıram. Gedəndən bir dəfə zəng eləməyib. Narahatam. Bozdar da bir yandan qanımı qaraldır. Sən açmasan atamı çağırtdıracam, gəlib açdırsın.

– Bənövşələr bənövşəsi, sən bir az da səbr elə, - deyə Nazim usta qızı kimi əzizlədiyi cavan gəlini sakitləşdirməyə çalışdı. – Ərinin qayıtmağına çox qalmayıb. Gəlsin yeddi qıfıl altında saxladığı qarajını özü açsın, sən də rahatla. Orda nə matahı varsa, dədəm Nurəddinin yuxusunda görmədiyi kilidləri vurub qapısına. Rəqəmsal texnikadı-nədi, mənim başım çıxan şey deyil bunlar.

Bu məqamda Nazimin arvadı yırğalana-yırğalana özünü yetirdi. Hündürboylu, cantaraq Laləzar qapıbir qonşusunu yaman çox istəyirdi, Bənövşəgillə birevli kimiydilər. Öz övladları xaricdə yaşadığından ər-arvad mehrlərini bu ailəyə salmışdılar. Uşaqlıqdan Laləzargilin əlində-ovcunda böyüyən Aslan da əvvəllər yaxşı oğlanıydı – mehriban, hörmətkeş... Ona nə oldusa, Polşaya ayaq açandan sonra oldu. Son illər yolunu azmışdı, hərdən içib gəlir, arvadının gününü qara eləyirdi. Elə bu qış kefin havasına neçə dəfə Bənövşəni gecəyarı döyüb çölə atmışdı. Səsə oyanan Laləzar cavan gəlini evinə gətirib ovutmuş, yer açıb yatırtmışdı. Səhər oyananda

arvadını yanında görməyən Aslan dəli kimi Bənövşəni axtaranda sorağını Nazim dayıgildən alıb sakitləşərdi. Siftə-siftə bir-iki gün utanardı dədə-baba qonşularından. Bir müddət sonra əhvalat yenidən təkrarlanardı.

Laləzar ərinin səsinə səs verdi:

– Yeddi qıfıl altına qoyar da, a kişi. "Maserati"di, nədi ona iki yüz minə yaxın pul sayıb uşaq. Bizim bütün nəslimiz o boyda pulu bir yerdə görməyib.

Simsar bildiyi qonşudan bir şey çıxmayacağını görən Bənövşənin əlacı kəsildi. Atasına zəng vurub məsələni danışdı. Aydın kişi polisdə işləyirdi, qızı onu axtaranda bölmədəydi. Əvvəl-əvvəl Bənövşənin təşvişi ona gülməli gəldi:

– A qızım, bağlı qarajda ilan nə gəzir? Ərin evdə yoxdu deyə, səni qara basır deyəsən. Həm də it ilandan hürkməz axı, ağlın özünə getməsin, a bala...

Elə ki Bənövşə oğru məsələsinin üstündə israr etdi, söz mayorun ağlına batdı. O dərhal yeznəsigilə yollandı. Hər ehtimala qarşı tədbirli gəlmişdi. İdarədən iki nəfər əməliyyatçı da götürmüşdü. Aslangilin həyətinə polislərin gəldiyini görən məhəllə camaatı dərhal ora toplaşdı, yoldan ötənlər də ayaq saxlayıb nə baş verdiyini öyrənməyə çalışınca, həyətdə adam əlindən tərpənməyə yer qalmadı.

Nazim usta polislərin köməyi, qonşuların şahidliyi ilə qarajın qapısını sındırmağa başladı. Yaman qəliz kilidə rast olmuşdu, hələm-hələm öhdəsindən gələmmirdi. İt də bir yandan işi çətinləşdirir, düz qapının qabağında quyruğunu bulaya-bulaya ulayırdı. Nə qədər

təpinsələr də, Bozdar öz postunu tərk etmirdi. Get-gedə adamları sirli bir xof basır, qorxu bürüyürdü. Oğlunu qucaqlayıb həyəcanla qapının açılmağını gözləyən Bənövşə havadan fəlakət qoxusu duyurdu. Ürəyində Allaha dua edir, yalvarırdı. Bir də başını qaldıranda yuxarıdan, səmadan bir cüt yaşıl gözün ona zilləndiyini gördü. Bu, Aslanın gözləriydi. Bənövşəni titrətmə tutdu.

O arada polislər də ətrafı nəzərdən keçirib bu fikrə gəlmişdilər ki, belə qıfıla girişən oğru hələ anadan olmayıb. Ətrafda heç bir şübhəli iz-filan yox idi. Paqon yoldaşları Aydın Rüstəmzadəni kənara çəkib məsləhət verirdilər:

– Mayor, qızını sakitləşdir, nahaq yerə bu cür texnikanı zay eləməsin. Bağlı qaraja kimsə girəmməz. Əldə fakt yox, dəlil yox. Bir itin hürməyilə qapı sındırmazlar...

Aydın kişi çox dedi, qızı az eşitdi. Bənövşə atasını dinləmək istəmədi. Göydəki gözləri görəndən sonra içindəki fəlakət hissi anbaan güclənirdi. Mütləq qapını açdıracaqdı. Kilid tilsimə düşmüşdü elə bil. Usta Nazimin sınaqdan çıxartmadığı hoqqa qalmadı, kilid açılmadı ki, açılmadı. Adamlar üşüsələr də heç kəs evinə getmək istəmirdi. Saatlar keçdikcə insanları bürüyən maraq artırdı. Əlini-əlinə sürtə-sürtə qızışmağa çalışan, ayaqları donmasın deyə tez-tez atılıb-düşən qonşulardan biri ortalığa söz atdı ki, dəmir qapını qaynaq aparatıyla kəsmək daha asan olardı. Bu fikir ağıllarına batdı. İki-üç saat kilidlərlə əlləşəndən sonra, nəhayət, qapını kəsib açdılar.

Qaraj açılan kimi hamını heyrət bürüdü: Aslanın maşını içəridəydi. Halbuki həftənin əvvəlində məhəllənin gözü qabağında özünəməxsus ədayla "Maserati"sini sürüb getmişdi, bir daha evə qayıtdığını görən olmamışdı. Kəngərli qəsəbəsi kiçik yerdi. Buralarda kimin evində asqıran olsa, kimin toyuğu tərs yumurtlasa, hamı xəbər tutardı. Amma...

Qapı azca aralanan kimi Bozdar aradan sivişib içəri cumdu. İt "Maserati"nin şüşələrini döyəcləyib cırmaqlamağa başladı. Ulartısı tükürpədici ahəngə yüksəlmişdi. Hövlnak özünü qaraja atan Bənövşəni ömrü boyu unuda bilməyəcəyi dəhşətli mənzərə gözləyirdi: maşının içində qaralmış lüt kişi silueti sezilirdi. Sifəti yataqfason açılmış oturacağa kipləşdiyindən üzü seçilmirdi. Boynunun ardında quyruq kimi bağladığı uzun sarışın saçlarından Aslana oxşayırdı. Bənövşənin ürəyi qopdu: "Allah iraq eləsin." Eybəcər pozada uzanmış kişinin başı altdakının çiynindən yana sürüşmüşdü. Sifəti qapqara qaraldığından ilk baxışda kişi, ya qadın olduğu sezilməyən həmin ikinci şəxs də lüt idi. Maşındakıların heç biri tərpənmirdi.

O an Bənövşəyə elə gəldi yuxu görür. Arxadan uzanan bir əl onun gözlərini qapadı və belinə dolanan qüvvətli bir qol Bənövşəni sürükləyib buradan uzaqlaşdırmağa cəhd etdi. İçindəki müqavimət hissi necə güc gəldisə, Bənövşəni maşından aralamaq mümkün olmadı. Əlləri qapıların tutacağına pərçimlənmişdi. Ayaqlarını yerə necə dirəmişdisə, deyərdin bəs, qızı buraya mıxlayıblar. Xeyli dartışmadan sonra

mayor Aydın Rüstəmzadə vəziyyətə təslim oldu. Qızının gücünə məəttəl qalmışdı: "Bənövşə bu gücü hardan alıb?"

Mayorun ürəyi qan ağlayırdı. Qızı burdaykən vəzifəsini icra edəmmirdi. Bundan da qorxunc cəsədlərin şahidi olmuş mayor soyuqqanlılığını itirmişdi. Onun başı Bənövşəyə qarışan vaxt yoldaşları bölməyə zəng vurub vəziyyəti bildirmiş, ekspertiza çağırmışdılar.

Gözləri zülmətdən, bədəni zindandan qurtulandan sonra Bənövşə silkinib ətrafına baxdı. Bir də əyilib maşının içinə nəzər yetirdi. Bu, o idi! Aslandı! Daha şübhə yeri qalmamışdı. Kimsə qarajın işıqlarını yandırmışdı, hər yan işıq selində üzürdü. Polislər camaatı qarajdan çıxartmağa çalışırdılar. Adamların üzündə qorxu, heyrət, rişxənd, təəccüb, acıma ifadələri vardı. Laləzar lap yaxınlıqda yerə sərilmişdi, kimlərsə onun üzünə su çiləyir, sinəsini isladırdılar. Qadın ağırçəkili olduğundan, görünür, gücləri çatmırdı onu yerdən qaldırmağa. Dəhşətli nidaların, qışqırıq və hıçqırıq səslərinin içindən oğlunun qorxmuş, hürkmüş hönkürtüsü gəldi Bənövşənin qulağına. Balasını axtarmağa başlayan ana səsə tərəf boylansa da, Seymuru görəmmədi. Yenidən gözləri qaraldı. Kirpiklərini qovuşdurub şüurunu aydınlaşdırmağa çalışdı.

Yavaş-yavaş kösöv tək qaralmış siluetdə ərinin cizgilərini tanımağa başlayırdı. Bəli, maşın Aslanındı, içindəki də özüydü! Bəs, nə vaxt qayıtmışdı evə? Həyətə səssiz girmək mümkün deyildi axı... Bənövşə çox ayıq yatırdı, illah da, Aslan evdə olmayan gecələr

səksəkəli olurdu. Yataq otaqları ikinci mərtəbədəydi, pəncərəylə üzbəüz olan darvaza açılan kimi səsi eşidilirdi. Kürsülü ata-baba evini söküb yerində bu mülkü tikən Aslan nədənsə qarajın yerini dəyişməmişdi. Həyətin bir küncündə, şam ağaclarının altında yerləşən qarajı əməlli-başlı təzələmişdi. Bənövşə bu işlərə çox da baş qoşmazdı, çünki Aslan memar idi, zövqünə də söz yoxuydu.

Bənövşə ərinin sevimli "Maserati"sinə hər baxdığında yeni bir detal kəşf edirdi. Aslanın qucağındakı qadınıydı. Yaşı on səkkiz-iyirmi ancaq olardı. Qarasaçlı-qaraqaşlı olsa da, buraların adamına oxşamırdı. Başqa millətdəndi. Bədbəxtin qızı nə biləydi, eşqbazlıq elədiyi maşın ona məzar olacaq.

Polislər maşının qapılarını sındırıb cəsədləri çıxardana qədər Bənövşəni ordan tərpətmək mümkün olmadı. Axıradək durdu. Hər şeyi gözüylə gördü. Təkrar-təkrar baxdı, yəqinləşdirdi. O, heykəl kimi donmuşdu. Nə danışır, nə tərpənirdi. Xəbəri alan anası Oksana da özünü yetirmişdi. – Fia, mənim balam, Fia, – deyə sızıldayırdı.

* * *

Gözəlliyilə gözlərə meydan oxuyan bu qadını Aydın tələbə vaxtı Xarkovdan gətirmişdi. Anası tapşırmışdı ki, oğlum, xaxolların qızları gözəl olur, mənə ordan elə bir gəlin gətirərsən ki, qəsəbədə əlinə su tökməyə yarayan gəlin olmasın, Tərifənin gəlini adnan deyilsin. Aydın da anasının sözünü yerə salmayıb özüylə birgə milis məktəbində oxuyan bu qızla evlənmişdi. Ancaq evə dönəndən sonra arva-

dını cinayət-axtarış sistemində işləməyə qoymamışdı, öz yanındaca dəftərxanaya düzəltmişdi. Necə olsa bura Azərbaycandı, rayon yeriydi, cavan gəlinin oğru, cani axtarması söz-söhbət doğurardı. Anası Tərifə ölən günədək gəlininin gözəlliyi, ağlı-kamalıyla fəxr eləmişdi. Oksana Aydına bir oğul, bir qız doğmuşdu. Oğulları Səməd iki il qabaq Kürdə batan uşaqları xilas edəndə boğulmuşdu. İndi də bu faciəylə üzləşən qadın şoka düşmüşdü, gözlərini qızından ayırmadan zülüm-zülüm ağlayırdı. Qəhərdən boğazı qurumuşdu. Səsi çıxmırdı. Eləcə gözlərindən yaş sellənirdi.

Bənövşənin əsl adı Fiona olsa da, qəsəbədə hamı onu nənəsinin qoyduğu adla çağırırdı. El arasında bununla bağlı gülməli bir əhvalat da danışırdılar. Deməli, anasının qoyduğu ad nənəsinin, nənəsinin qoyduğu adsa anasının dilinə yatmırmış. Körpəlikdən daha çox Bənövşə deyə çağırılmasına öyrəşən qızcığaz məktəbə gedəndə sənəddəki adını tanımayıb. Müəllim neçə dəfə "Rüstəmzadə Fiona" adını oxusa da, sinifdə ayağa qalxan olmur. Axırı məsələ aydınlaşır və uşağı çaşdırmamaq üçün jurnalda onu özünün bildiyi adla qeydə alırlar. Beləcə, məktəbi bitirənə kimi Bənövşə adı qalır üstündə. Sənəddə Fiona, həyatda Bənövşə. Ərə gedənədək ona anasından başqa Fia deyən yoxuydu...

* * *

Əməliyyatçılar hadisə yerində müayinəni başa çatdırıb cəsədləri morqa götürdülər. Sahibinə məzar olmuş "Maserati" də ekspertizaya göndərildi. Akt

tərtib edib şahidlərə imzalatdılar. Aslanın min bir arzuyla tikib keçən yay içinə köçdüyü ev hüzrə gələnlərlə dolub-daşdı. Həyətdə adam əlindən tərpənməyə yer qalmadı. Qohum-əqrəba qol çırmayıb işə girişdi. Yas mərasiminin qəfil sazağı bir anın içində toylu-büsatlı evin bütün qapılarını açıb, mülkü öz əsarətinə aldı. Vay-şivənlə həyətə girən Nura Bənövşənin üstünə yeriyib – qardaşımı sən öldürdün! – deyərək ona bir şillə çəkəndə çoxlarının əlindən stəkan düşdü, isti çay üst-başlarına dağıldı. Baldızına donuq nəzərlərlə baxan Bənövşə Nuraya heç nə demədi, dilini ağzında sürüyərək – qayınanama teleqram vurun, gəlsin, – dedi.

* * *

Aslanın anası Svetlana üç ildir Almaniyadaydı. Əri öləndən sonra buralarda bənd ala bilməmişdi. Yaxşı pul qazanmaqçün xaricə üz tutmuşdu. Beş dildə sərbəst danışan Svetlana keçmiş raykom işçisiydi, vaxtilə ikinci katib olmuşdu. İndi Münhendəki holdinqlərdən birində tərcüməçi işləyirdi. Hər il bayramlarda gəlib övladlarına baş çəkərdi.

Vaxtilə oğlunun sevib-seçdiyi Bənövşəni həvəslə almışdı. Özü rus olduğundan qudasının ukrain olması ürəyindən xəbər vermişdi.

– Gənclərin ikisi də qarışıq ailədəndi, bizimki yaxşı tutar, - demişdi əri Valehə. Aydıngillə qohum olmaq Valehin də döşünə yatmışdı. Bənövşəni ancaq Nuranın gözü götürməmişdi. Qardaşı evlənən gündən gəlinin gözünü oymuşdu, ta özü ərə gedənəcən. İndi də araları soyuq idi. Baldız-gəlin yola getmirdilər. Nuranı təbdən çıxartmaqda Bənövşə də azacıq aşın duzu

deyildi. Oksana qızını nə qədər danlasa, xeyri olmurdu. Deyirdi ki, ana, sən bilmirsən o mənə necə nifrət edir, hər addımda məni ərimin gözündən salmağa çalışır. Mən də fürsət düşdükcə onu pisləyirəm Aslana, qoy bacısından zəhləsi getsin.

İndi Nuranın əlinə yaxşı girəvə keçmişdi. Qardaşının ölümündə gəlini günahlandırıb dama basdıracaqdı. Qorxusu bircə maşında ölən qızın kimliyindəndi: "Mənim tapdıqlarımdan olmasın... Lap olsun. Kim sübut edə bilər ki?!" Bənövşəni dəmir barmaqlıqlar arxasında təsəvvür edincə, az qaldı Aslanın ölümünə sevinsin. Qəhqəhə çəkib gülmək istəyirdi ki, gözü ətrafdakılara sataşdı. Nənəsi Səriyyə ağı deyib ağlayırdı, bibiləri də ona qoşulub bayatıyla oxşayırdılar cavan qardaşbalasını.

– Vay Aslan, vay! Bu nə işdi tutdun? – sədaları ərşə dirənmişdi. Nura tez özünü yığışdırdı. – Səni görüm yanasan Fia, axır qardaşımın başını yedin, – deyə qışqırıb ağlayanlara qoşuldu.

O həmişə eqoist olmuşdu. Özündən başqa kimsənin yaxşı gününü istəməzdi. Axır vaxtlar Aslanın qaz vurub qazan doldurması Nuranı lap acıqlandırmışdı. – Bəsdi, qazanıb bu adamaoxşamaza yedizdirəsən. Pulun var, bir az da özünə bax, – deyirdi qardaşına. "Əvvəl-axır birinə ilişər, Fianı boşayar" ümidiylə onu gəzəyən yeniyetmələrlə tanış edirdi. Öz evindəsə Aslanın adını bayraq eləyib ərinin gözünü oyurdu:

– Ay əfəl, Aslana bax, gözünə su ver. Görürsən, arvadını necə bəsləyir? Mənim nəyim ondan əskikdi? Bəxtim yoxdu, bəxtim,  - deyə Vaqifi tənbehləyir, boy-

nuna minnət qoyurdu ki, əslində sənə ərə gəlməyimin baiskarı qardaşımdı. Gedib o zəhləmgetmişi almasaydı, mən də məcbur qalıb evdən uzaqlaşmazdım.

* * *

Ekspertizanın cavabı bəlli olanda Svetlana hələ gəlib çatmamışdı. Avropada havalar pis keçdiyindən təyyarələr vaxtında uça bilmirdi. Xəbər yollamışdı ki, mənsiz oğlumu basdırmayın. Nuranın orda-burda yaydığı şayiələr ayaq açsa da, yeriyəmmirdi. Camaat bağlı qarajın necə açıldığına şahid idi. Ancaq yenə də ürəklərə xal düşürdü. Nura qabağına çıxana danışırdı ki, Aslan Fionanı boşamaq istəyirdi, o da tələ qurub qardaşımı evlənəcəyi qızla birgə qaraja salıb, öldürüb. Yoxsa, hardan bilirdi onların yerini? Niyə kəsdirirdi dəmir qapını? Atası da polisdə işləyir, arxayındı ki, işi düzüb-qoşacaq, sudan quru çıxacaq.

Bənövşənin ata-anası bilmirdilər qızlarının başına gələn faciənin dərdini çəksinlər, yoxsa onu Nuranın böhtanlarından qorusunlar. Əlqərəz, vəziyyət çox gərgin idi. Aslanın qohumları gözünü Svetlananın yoluna dikmişdi. Son sözü o deyəcəkdi.

Svetlana qəsəbəyə çatanda taksini birbaşa polis idarəsinə sürdürdü. Ekspertizanın imzalı-möhürlü kağızında yazılmışdı ki, hadisədə qəsd əlaməti tapılmadı. Ölənlər intim münasibətdə olarkən qazdan boğulublar. Yəqin üşüdükləri üçün maşının peçini yandırıbmışlar, bağlı qarajda çıxmağa yer tapmayan qaz tədricən içəridəkiləri zəhərləyib. Aslanın yanındakının şəxsiyyətini müəyyənləşdirmək hələlik mümkün olmamışdı. Qadının çantasında heç bir

sənəd yox imiş. İstintaq meyidin yiyəsinin tapılacağına ümid bağlayırdı.

Ordan çıxan kimi morqa gedən ana nəyin bahasına olur-olsun oğlunun cəsədini görmək istəyirdi. Öləndən sonra günlərlə bağlı maşında, havasız yerdə qalan meyitlər qaralıb şişmişdi. Morqda lazımi dərmanlar vurulsa da, baxılası təhərdə deyildilər. Amma ana ürəyi oğlunun cəsədini görməmiş sakitləşməzdi, inanmazdı onun ölümünə. Nə qədər dilə tutsalar, Svetlananı yola gətirəmmədilər. Qohum-əqrəba hamısı bura yığışmışdı.

Ananın ürəyi də, gözləri də qan ağlayırdı. Ciyərparasının vücuduna dönə-dönə, nəsə axtarırmış kimi diqqətlə baxdı, baxdı... Qarşısındakı cəsəddə Aslanın yaraşığından əsər-əlamət qalmamışdı. Baxdıqca gözləri yanırdı. Sanki cəsəddən gözəgörünməz zəhərli qaz ifraz olunub araya pərdə çəkirdi. Svetlananın gözləri bulandı və o heç nə görə bilmədi. Var gücünü toplayıb yenə gözlərini zillədi, dumanlı baxışlarıyla "pərdə"nin o üzünə nüfuz etməyə, ciyərparasını görməyə çalışdı. Cəsəd onu özünə doğru çəkirdi. Qəfildən burnuna xoşagəlməz iy dəydi. Qeyri-ixtiyari silkinən Svetlana ağxalatlı kölgənin nəyəsə etiraz etdiyini gördü, uzaqdan gələn "olmaz, olmaz" səsləri qulağına çatdı, amma şüuru bunların nə olduğunu aydınlaşdıra bilmədi. Bircə onu hiss etdi ki, ürəyini bulandıran qoxu burnundan uzaqlaşdı, ancaq o iy ciyərlərinə dolub içində qaldı.

Svetlananın idrakı sönmüşdü. Cəsədi qucaqladığını dərk etmirdi. Elə bərk yapışmışdı ki!.. Zorla qopardılar ananı baladan. İyirmi səkkiz yaşlı oğlunun

itkisi dözülməz idi. Kəngərli qəsəbəsinə çatanadək əldən-dildən düşmüş Svetlana həyatının ən ağır görüşündən sonra ayaq üstə ölmüşdü. Evinə yetişəndə darvazanın ağzındaca huşunu itirdi.

* * *

Sabahısı Aslanı dəfn elədilər. Yas yerində iynə atsan, yerə düşməzdi. Svetlana camaata məhəl qoymadan gəlinini qabağına qoyub, ağlına gələni danışırdı:

– Bu nə qəzaydı başıma gətirdin, Fialka? Oğluma sahib çıxmadın. Ha deyirdim mənim balam gözəllik sevəndi, özünə fikir ver. Hər gələndə sənə ən gözəl alt paltarlarını alıb gətirirdim Avropadan. Deyirdim, oğlumun qoynuna girəndə bunları gey...

Svetlananın yanan ürəyindən qopan sözlər məclisdəkilərin acığına gəldi:

– Bu nə danışır, az? Heç hənanın yeridi? İçəridə ağbirçəklər var.., kişilər eşidiiir...

– Urus nə qanır ayıbı.

– Elə deməyin. Varı-yoxu bir oğlu vardı. Yazıq neyləsin. Tüstüsü təpəsindən çıxır. Deyəsən, arvadın başına hava gəlib.

Hıçqırıqlar içində boğulan Svetlanaya bir az su içirtdilər. Toxtayan kimi başladı yenə gəlini danlamağa.

– Aslanımın evini yıxdın, Fialka. Seymuru doğandan sonra oğluma baxmadın. Biz də ana olmuşuq. Bəyəm uşaq olandan sonra ərə fikir verməzləəər?? Yandırdın məni, qız, yandırdın. Məni də, özünü də. Bu hayıfı səndə qoymaram.

Bayaqdan özünü güclə saxlayan Oksana dözməyib qudasına təpindi:

– Əl çək uşağımın yaxasından, Sveta. Oğlun balamın evini yıxdı, bəs olmadı, sən də bir yandan yarasına duz basırsan. Yekə arvadsan. Sözünü bil.

Tənə rusca səslənsə də, məclisdəkilərin hamısı başa düşdü. Qudaların gərginliyi yasa gələnlərə də sirayət etdi. Gözəgörünməz bir əl adamları iki cəbhəyə böldü...

Bənövşə isə nə dinir, nə ağlayırdı. Donuq baxışlarını bir nöqtəyə dikib məlul-məlul baxırdı. O nöqtədən Aslanın yaşıl gözləri Bənövşəni izləyirdi. Bənövşə şokdaydı, ağır depressiya yaşayırdı. Öz içinə elə qapanmışdı ki, ətrafdakıların səsini duymur, nə dediklərini anlamırdı. Çalışdığı bankın bütün işçiləri burdaydı, məktəb yoldaşları, Aslanla birgə sıx-sıx görüşdükləri ailəvi dostları, rəfiqələri... Hamısı onun dərdinə yanırdı. Bənövşənin ruhu cisminin bulunduğu yerdən o qədər aralanmışdı ki, başsağlığı verənlərə də key-key baxırdı. Unutmadığı yeganə varlıq oğluydu, o da qaraj açılan gün necə qorxmuşdusa, xəstəxanalıq olmuşdu. Həkimlər Seymuru yas yerindən uzaqda tutmağı məsləhət görmüşdülər.

* * *

Aslanın yeddisi çıxmamış Nura ərini də qoltuğuna vurub qardaşı evinə yerləşdi. Eşidib-bilənlər – gör nə canıyanan qızdır, bu ağır günündə anasına, gəlininə dayaq olmağa çalışır, – dedilər. Bircə Səriyyə arvad hiss edirdi ki, bu xına o xınadan deyil.

...O vaxt – Valehin qızı doğulanda sevinə-sevinə anasını muştuluqlamışdı:

– Nəvən sənin adını daşıyacaq!

Anası da – bunun düşər-düşməzi olar, oğlum, – demişdi. – Həm də Səriyyə köhnə addır. Sən gəl, balamın adını Nuriyyə qoy, Səriyyə-Nuriyyə. Gör nə qəşəng yaraşır.

Molla duasını başa vurub uşağın adını üç dəfə qulağına oxuyan kimi – məni bu qara qızla anacaqlar, – deyə arvad ərindən qalan qır-qızılını körpəyə vəsiyyət eləmişdi. Onun bu səxavəti doğmaca qızlarının bərk xətrinə dəymişdi: "Anamız bizə qıymadığını nəvəsinə verdi..." O vaxtdan hey umu-küsü edərdilər ki, Nuriyyəni yaman əzizləyirsən haa, ay ana, bizimkilər nəvən deyil?.. Arvad heç özünü o yerə qoymazdı.

Qız da nə qız – qara kişmiş. Amma Nuriyyə böyüdükcə nənəni dilxorçuluq basırdı. Çünki "qara kişmiş" deyə sevələdiyi şipşirin nəvəsi yaman paxıl qız olmuşdu, əmiuşağı-bibiuşağıyla yola getmirdi, məhəllədə hansı oyuna qatılsa dava salırdı, kimlə dostlaşsa başlayırdı o biri uşaqlarla bunun arasını vurmağa... Nənənin öyüd-nəsihəti nəticəsiz qalırdı. Səriyyə arvad ha fikirləşirdi ki, gəlinim də xoşxasiyyətdir, qanacaqlıdır, mərhəmətlidir... Nəslimizdə yoxdur beləsi, bu uşaq kimə çəkib?

"Qara kişmiş"in əməlləri Səriyyənin ürəyində gizlicə qubar bağlamışdı. Üstəlik xəbər tutanda ki, raykomda işləyən gəlini uşağın adını yaş kağızında "Nura" yazdırıbmış, bir az da pərt olmuşdu. Ancaq yenə də Nuriyyəni hamıdan çox istəyirdi. İndi Aslanın ölümüylə ciyəri dağ-

lanan nənə istəkli nəvəsinin əməllərindən yaman təşvişə düşmüşdü. Dalağı sancırdı ki, bu gəlişin axırı yaxşı qurtarmayacaq.

* * *

– Dərd bir olsa, çəkməyə nə var, – deyə Səriyyə arvad gileylənirdi. – Bu Sivet də Aslanın ölümünü Bənövşədən görür. Elə hey deyir, Fia ayıq yatır, necə olub Aslanın gəlişindən xəbər tutmayıb? Sivet deyir, bəlkə oğlumun yanındakı qızı görüb, qısqanclıqdan qapını özü bağlayıb üstlərinə...

Ömrünün yükünü güclə çəkən Səriyyə arvad işığı sönmüş gözlərini sualedici baxışlarla övladlarının üzünə dikib dodaqaltı söyləndi:

– Vallah, babalı öz boyunnarına, mən inanmıram. Bənövşə belə qansızlıq edər yəni?

Ev əhlindən səs çıxmadı. Aslanın ölümündəki müəmma ölümün özündən betərdi. Bu müəmmanın yükü itkinin yükündən qat-qat ağırdı. Doğmalarının qəddini də, başını da əymişdi. Əgər qardaşoğlu hamı kimi öz əcəliylə, adam kimi ölsəydi, dərd yarıydı. İndi əmilər-bibilər bilmirdilər camaatın ağzını necə yumsunlar. Hər ağızdan bir avaz gəlirdi: "Kişi də lotusunu evə gətirib, arvadının qulağının dibində mazaqlaşar?.. Bəyəm Aslanın pulu yoxuydu kefini bir oteldə-zadda çəkə?.. Aaz, bunnarın istəyi Leyli-Məcnunu keçmişdi. Nooldu birdən-birə gəlib bu yerə yetişdilər?.."

Həə, elin ağzı çuval kimi açılmışdı, yığıb-yığışdırmaq da qohum-əqrəbanın öhdəsinə düşmüşdü. Bibilər söz-söhbəti səngitməyə çalışırdılar. Nura isə hər yerdə yanan ocağın üstünə neft tökürdü. Yetənə deyirdi ki,

qardaşımın başını Bənövşə yedi. Svetlana da gəlinini dindirmirdi. Bənövşə gözünə dəyən kimi – niyə oğlumu qorumadın, Fia? Oğlumu sənə əmanət etmişdim, – deyə danlamağa başlayırdı. Gərginlik gündən-günə artırdı. İndi əsəblər daha tarım çəkilmişdi.

* * *

Bənövşə hələ özünə gəlməmişdi. İçinə qapanıb yaşayırdı. Daha doğrusu, yaşamırdı, sürünürdü. Evdə, həyət-bacada kölgə kimi dolaşırdı. Soyuğa-sazağa-şaxtaya məhəl qoymadan saatlarla qarajın qabağında hərəkətsiz dayanır, arada başını yuxarı qaldırıb hansısa məchul nöqtəyə baxır-baxır, qəfildən diksinib ayılantəhər olur, yenidən gözlərini qarajın içinə zilləyirdi. Onun bu halı Nuranı yaman sevindirirdi: "Deyəsən, dəli olur. Lap yaxşı! Atdıraram dəlixanaya."

Hərdən də hövsələdən çıxırdı: "Bircə dəlimiz çatışmırdı. Özünü artistliyə qoymağına bax." Tez-tez təkrarlanan bu halların baş verdiyi günlərin birində Nura dözmədi:

– Bu nömrələr mənim yanımda keçməz, ay çoxbilmiş. Özünü camaata göstərmə. Keç içəri, - deyə Bənövşəni qarajın qabağından itələməyə başladı. Gəlin yerindən tərpənmədi. Sanki baldızını eşitmirdi.

– Aaz, məni saymırsan? Demədim rədd ol evə? - Nuranın qışqırığı həyəti bürüdü. Hasarın o tayından səsi eşidən Laləzar özünü yetirənədək iş işdən keçmişdi. Gözü qızmış Nura gəlinin təpəsinə-təpəsinə döyəcləyirdi. Balaca Seymur qorxu içində yalvarır, – bibi, noolar anamı öldürmə, – deyib ağlayırdı.

Durduq yerdə Nura elə vəhşiləşmişdi ki, bir qarama da uşağın başına saldı. Seymurun yerə yıxıldığını görən Bənövşə sanki yuxudaydı ayıldı və qolaylanıb tərs şillə çəkməyilə Nuranın burnundan qan fışqırmağı bir oldu. Həyətdə bir mərəkə qopdu, gəl görəsən. Qəbir üstündən qayıdanlar küçədən səsi eşidib hövlnak özlərini həyətə atdılar. Ayaqlarını güclə sürüyən Svetlanadan qabaq baldızları, qayınarvadları və qudası içəri girdi. Nuranın qana bulaşmış üz-gözünü, hələ də yerdə sərili qalan Seymurun "anamı öldürmə" yalvarışlarını, ayaq üstdə tir-tir titrəyən Bənövşənin donuq baxışlarını görüb hamısı mat qaldı.

Oksana tez qızının üstünə qaçdı, Bənövşəni qucaqlayıb ona dayaq olmağa çalışdı. Bənövşə ruh kimi anasının qolları arasından sürüşüb torpağa çökdü. O, huşunu itirmişdi. Mayor Aydın təcili yardım çağırtdırdı. Bənövşəni ayıltmaq asan olmadı. Həkimlərin dediyinə görə o, dərin əsəb gərginliyi keçirmişdi.

Bu arada bibiləri əl-ayağa düşüb Nuranın burnuna duzlu pambıq qoymuşdular. Qan kəsilmişdi. Amma onu susdurmaq olmurdu. Qışqırır, Bənövşənin qarasınca deyinir, özünü təmizə çıxarırdı.

İki od arasında qalan Svetlana nəvəsini qucağına alıb kiritməyə, evdə nə baş verdiyini öyrənməyə çalışırdı.

– Sənə noolub, mənim balam? Nənəsinin ulduzu, günəşi!

Nəvazişdən bir az da kövrələn Seymur nənəsinin boynunu qucaqlayıb hıçqırdı:

– Bibim anamı öldürmək istəyirdi, dedim eləmə, məni də vurdu.

Uşağın sözü qaranlıqda şimşək olub gizlinləri aydınlatdı. Anlaşılmayan tək şey Nuranın qəzəblənməsinin səbəbiydi. Əmiləri peşman-peşman əllərini yellədilər. Qohumların reaksiyasını görən Nura – yalan danışma! – deyə qışqırıb uşağın üstünə yeriyəndə Svetlana dözmədi. Qızına möhkəm təpindi. Evdə bir neçə dəqiqəlik sükut yarandı. Axşam camaat dağılışandan sonra anası Nuranı dilə tutub evinə yollamaq istədi. Qız iki ayağını bir başmağa dirəyib getmədi.

– Mən burda qalacam. Gedirsə, o getsin. Bura mənim atamın evidir, mayor Aydının xarabası deyil!

– Görəcəkli günlərim varmış, - deyə Svetlana dodağının altında mızıldandı.

Oksana vəziyyəti belə görüb – mənim qızım sahibsiz-zad deyil ki, başına-başına döyəsiz, – deyərək qapıdan yel kimi çıxdı. Ərini həyətdə tapan kimi qolundan tutub kənara çəkdi. Dil boğaza qoymadan birnəfəsə dedi:

– Aydın, elin qınağından keçib, qırxa qədər balamı burda qoysam, uşağımı çərlədərlər. Kim nə deyir-desin. Gözümün ağı-qarası bircə övladım qalıb. Onu da Nuranın əlinə verib məhv edəmmərəm.

Aydının dinmədiyini görən Oksana onu yola gətirmək üçün ürəyindəkilərin hamısını dilinə tökdü:

– Anası bir yandan burunlayır qızımı, balası bir yandan. Evə aparsaq, bir həkimə də göstərərik. Üç həftə keçir, hələ bu qız kəlmə kəsməyib. Eləcə məlul-məlul baxır. Eşitdin, təcili yardım nə dedi? Qıza əməlli-başlı müalicə lazımdı. İndi üstünə düşməsək, sonra gec olar.

Qadın elə həyəcanlı, elə hikkəliydi ki, əri istəsə də bu məqamda ona etiraz edə bilməzdi. Oksananın gözəl çöhrəsini hirs boğmuşdu, əlləri titrəyirdi. Əslində Aydının da ürəyindəndi qızını acı xatirələrin girdabından uzaqlaşdırmaq. Amma elin tənəsindən, yaman söz-söhbətdən çəkinirdi.

Həmin axşam Aydıngil qudalarıyla məsləhətləşib qızlarını apardılar. Balaca Seymur da anasıyla getdi. Uşağın gözü yaman qorxmuşdu, elə bilirdi anasını gözdən qoyan kimi o da öləcək. Darvazadan çıxanda Bənövşə ayaq saxlayıb qaraja tərəf döndü, sonra adəti üzrə yuxarı – səmaya boylandı. Baxışlarıyla kiminləsə vidalaşdı. Seymurun əlindən bərk-bərk tutub atasının maşınına doğru irəlilədi.

O an heç kəs bilmirdi ki, ər evinin darvazasından adlayan Bənövşəni hansı sürprizlər gözləyir. Nuradan başqa evdəkilərin hamısı kövrəlmişdi. Aslanın qırxı çıxmamış arvad-uşağının doğma ocağı tərk etməsi yaman yer eləmişdi onlara. Ev dağılan tifaqa oxşayırdı. Səriyyə arvadın ürəyinə qorxu çökmüşdü: "Birdən bu gedişin dönüşü olmaz..."

Bənövşəgil evi tərk edəndən iki-üç gün sonra Bozdar da yoxa çıxdı. Həyət-baca sahibsiz qalmışdı. Bozdarın sayıqlığına öyrəşmiş qəsəbə camaatı onun yoxluğunu dərhal sezirdi. Xeyli sonra soraq aldılar ki, Bozdar qəbiristanlıqda yurd salıb. Aslanın vəfalı köpəyi gecələr sahibinin qəbri üstə uzanıb səhərədək ulayırmış.

Bu xəbəri eşidənlər him-cimlə Nuranı göstərib – bunda Allahın heyvanı qədər vəfa yoxmuş, qardaşı ölən kimi arvad-uşağını perikdirdi, – deyə pıçıldaşırdılar.

* * *



Havalar get-gedə lap soyuyurdu. Arada qar yağır, gecələr şaxta düşürdü. Svetlana isə ürəyində qalanmış ocağın atəşində yanırdı. Ona elə gəlirdi ki, ev çox istidir. Qapı-pəncərəni ha açıq qoysa da, ev sərinləmirdi ki, sərinləmirdi. O nə adam içində dinclik tapırdı, nə də təklikdə. Elə yanırdı ki, cızdağı çıxırdı. Ana qəlbindəki yanğının alovu anbaan şiddətlənirdi. Aslansız ev Svetlanaya yaman işgəncə verirdi.

Yasa gələn-gedənin arası kəsilmirdi. Axşamdan xeyli keçənədək Aslanın mülkündən əl-ayaq çəkilmirdi. Zarafat deyil, Svetlana Qriqoryeva-Mehdizadə on beş il bu rayona rəhbərlik eləmişdi. Camaata əl tutan ikinci katib olmuşdu.

Valehin də el arasında xətri-hörməti çoxuydu. Mehdizadələr bu rayonda köklü nəsil idilər. Üstəlik mayor Rüstəmzadəylə qohumluqları onları bir boy da ucaltmışdı. Amma başlarına gələn müsibətdə min xətir-hörmət bir itkinin yerini doldurmurdu. Doğmaların ürəyi Aslanın yoxluğuyla barışmırdı.

Svetlana itiyi itmiş adamlar sayaq otaqları gəzirdi. Ümid edirdi ki, hansısa qapını açanda oğlunu görəcək. Aslan irəli gəlib onu qucaqlayacaq. "Eşitdiklərin hamısı yalandır, səninlə zarafat edirdim, möhtərəm Svetlana Qriqoryeva," – deyəcək. – "Heç mən elə iş tutaram? Bilirsən ki, Fianın dərdindən ölürəm."

Ancaq nə qədər axtarsa da oğluna rast gəlmirdi və bu onu darıxdırırdı. Bütün günü ürəyində oğluyla söhbətləşirdi: "Özünlə birgə evimizin rahatlığını, sevincini də apardın, oğul. Bu səssizlikdə mən necə yaşayım? Sənin ölümündə Fianın barmağının olub-

olmadığını necə öyrənim? Gəzirdin, belə lap yaxşı eləyirdin. Qaraja niyə girdin, yer başına qəhət idi, ay oğul? Nura hey deyir... Yoox, yaxşısı budur, sən heç bilmə onun dediklərini. Qanın qaralmasın. Başım ayazısın araşdıracam görüm, qızım deyənlər nə dərəcədə düzdür. Mən bu işi belə qoymaram. Çox da ki hamı deyir "qəzadır". Qızım deyənlər düz olsa, Fialkanı yandırıb-yaxacam. Ona cəhənnəmi bu dünyada yaşadacam.

Düz olmasa da... səndən sonra gözüm götürmür onu. İncimə oğlum. Sizi qoşa görməyə öyrəşmişdim. Sən öldün getdin, arvadın sappasağ durur. Ona hər baxanda yanındakı boş yer tikan olub batır bəbəyimə. Kaş, o öləydi, sən qalaydın. Sənin bir telini yüz gəlinə dəyişmərəm, Aslan. Səndən sonra gəlin nəyimə gərək. ...Oğuuul, ay oğuuul! Həmişə deyərdin ki, böyüyəndə memar olacam, ana, sənə böyük ev tikəcəm. Bu yurdu kimə qoydun getdin, ay oğuuul? Sənsiz nəyimə gərək bu boyda ev? Qalmışam tək Nuranın ümidinə. Otuz il bir yastığa baş qoyduğum ərimdən mənə bircə qız qaldı. Ailəmdən yeganə yadigar odur."

* * *

Hava proqnozunda bu gecə yolların buz bağlayacağını demişdilər. Ona görə də cümə axşamına gələnlər erkən dağılışdı. Bibilər də qab-qacağı yuyub-yığışdırandan sonra evlərinə sarı üz tutdular. İkisi də qəsəbənin o başında yaşayırdı. Yıxılmamaqçün bir-birinə söykənib gedirdilər. Yorulub əldən düşmüşdülər. Bu yas onları yaman əzirdi. Fikirdən başları çatlayırdı.

– Bu havada ölüsü düşən kəfən almağa getməz, biz hələ çöldəyik.

– Anamız gedib evinə yığışsa, biz də hər gün gəlmək məcburiyyətində qalmarıq. Svet də yazıqdı. Bilmir oğlunun dərdini çəksin, yoxsa gələn-gedənin yanında otursun, - deyib susdular. Danışmağa heyləri qalmamışdı.

Qəsəbənin mərkəzindəki marketin döngəsini dönən kimi irəlidə iki qaraltı göründü. Geyim-kecimlərindən bayaq Nuranın yanına gələnlərə oxşayırdılar. Ucadan danışa-danışa gedirdilər. Başları söhbətə elə qarışmışdı ki, səslərinin necə yüksəldiyini hiss etmirdilər. Rəfiqələrin söhbətinə istəmədən qulaq müsafiri olan bibilər Aslanın adını eşidincə diqqət kəsildilər.

– Bu Nurada kin varmış haa, axır ki dediyini elədi.

– Nə kin?

– Yadındadı, biz doqquzda oxuyanda Bakıdan yazıçılar gəlmişdi? Raykomda görüş oldu haa? Orda bunnar yaman tutaşdılar. Güldən başlayan dava nüfuz məsələsinə döndü.

– Səndə söhbətlər var haa... Bir əməlli-başlı danış görüm nə gül, nə nüfuz?

– O vaxt Svetlana Qriqoryeva ikinci katibiydi. Görüşün təşkilinə bizi də qoşmuşdu. Mən girişmədim. Nura eləmədi tənbəllik, neçə gün əldən-ayaqdan getdi. Gecələr yatmayıb plakatlar hazırladı. Gələnlərin ən məşhur kitablarının şəklini çəkib, yanında da sitatlar verdi. Qonaqların qabağına salınan süfrələri elə yuyub kraxmallamışdı ki, hamısı şax

durudu. Gülləri də bircə-bircə Əhməd dayının bağından seçib dərmişdi, sonra da canı çıxa-çıxa payi-piyada raykoma gətirmişdi.

Bu yerdə ağ şubalını gülmək tutdu:

– Sən canın, düz deyirsən?

– Əlbəttə, – deyə boz-qara zolaqlı xəz gödəkçə geyən təsdiqlədi, – salona girəndə oğlanlar sataşdılar ki, qucağındakı güllər özündən böyükdü. Hələ bu harasıdı. Qızda həvəsə bax ki, gedib özünə təzə kofta da tikdirmişdi.

– Aaaa... Başı xarabdı ki? Yazıçılar ona elçi düşəcəkdilər?

– Yazıçılar yox, prokurorun oğlu Camal.

– Belə deee. Nura xanımın umacağı varmış.

– Görüş qurtaranda Nura forslana-forslana keçdi qabağa, məktəblilər adından təşəkkür edib gülü verdi qonaqlara. Bir əzilib-büzülürdü gəl görəsən. Onu bir ömürlük nifrətlə silahlandıran hadisə orda baş verdi. Raykomun qızına quruca "sağ ol" çatdı, Bənövşəyə dəstə-dəstə güllər. Hələ bir kompliment də aldı Bənövşə xanım.

Əhvalatı danışan dilini-ağzını əyə-əyə həmin yazıçını yamsıladı:

– Biz də bu gözəl gülləri özü çiçək olan məktəbli qızımıza bağışlayırıq!

Gəlinlərdən bir qəhqəhə çıxdı, gəl görəsən. Xeyli güləndən sonra əhvalatı danışan qəfildən ayaq saxlayıb – bu dərdə dözmək olaar? Kim dözsə də, Nura dözməz – deyərək başını arxaya çevirəndə az qalmışdı söhbətə qulaq verənlər yaxalansınlar. Qaranlıq

qanlarının arasına girdi. Nuranın rəfiqələri daban-dabana arxalarınca gələnlərə fikir vermədən yola davam etdilər.

– Yazıq. Əməli-başlı təhqir olunub ki. Dərdindən öldüyü oğlanın gözü qabağında sındırıblar qızı. Vay-vaaay. Deyəsən, həmin gün hazırlığım vardı, müəllim yanına gedirdim deyə tez çıxmışdım görüşdən. Hayıf, çox şey itiribmişəm.

– Elə bilirsən bununla iş bitdi? Bitmədi. Bakıdan gələnlər salondan çıxan kimi cumdu Bənövşənin üstünə. Gözünə döndüyüm də Nuraya bir od qoydu, tüstüsü təpəsindən çıxdı. Nazlana-nazlana qayıtdı ki, layiq görsələr sənə verərdilər, mənə yaraşdırdılar ki, mənə verdilər!

– O da azacıq aşın duzu deyil haa.

– Əsas mərəkə sonra başladı. Yuxarı sinifdəki caniklər Nuranın ədasını lağa qoyub gülüşdülər. Başladılar ki, raykom balası olanda noolar, gərək hər şey sənə çata? ...Adama oxşamır, gör özünü kiminlə müqayisə edir... Atmacalar Nuraya lap od qoydu. Pərtlikdən bilmirdi harda gizlənsin. O vaxtdan Bənövşəyə düşmən kəsildi. Həmişə deyirdi ki, məni Camalın gözündən o hadisə salıb. Ta xəbəri yoxuydu ki, oğlanın bundan zəhləsi gedirdi.

– Deyirsən yəni o hayıfı çıxır gəlinindən? Gör aradan neçə il keçir.  Prokurorun oğlunu ələ keçirəmmədi, məhkəmənin oğluna ərə getdi, evdə qalmadı ki. Onsuz da Bənövşə də yarımadı. Bədbəxt oldu.

– Sən Nuraya bələd deyilsən? O unudaar? Qardaşı arvadı yox, lap gözünün işığı ola, yenə Nura nə

unudar, nə də bağışlayar. Qaldı Vaqif, yazıq qız həmişə gileylənir ki, məhkəmə oğlu olsa da əfəlin biridi.

– Məni qınama, qızın içindəki zəhər sifətinə çöküb elə bil. Belə baxanda üz cizgiləri pis deyil, qaşıgözü yerindədi. Di gəl ki, Nurada bir zərrə xoşagəlimlik, cazibə yoxdu. Məktəbdə adını "zəhər tuluğu" qoymuşdular, yadındaa? Vaqif də onu xətirlər xətrinə aldı.

– Qardaşı Bənövşəylə evlənəndə Nura hirsindən çat verib çatlayırdı. Bütün günü qızı qaralamaqla məşğuldu. Ancaq Aslanın məhəbbəti elə güclüydü ki, bacısının qarayaxmaları milçək vızıltısına dönürdü.

– Yaxşı görək sən də. Belə güclüydü ki, getdi lotuşkasıyla qarajda öldüü? Arvadını sevən kişi bu qələti eləməzdi. Lüt olduqlarını bütün rayon görüb...

– Sən bilmirsən onları ayırmaqçün Nura nə hoqqalardan çıxırdı. İlk illər bütün cəhdləri daşa dəyirdi. Aslan firmaya düzələndən sonra nooldusa, düşdü bacısının toruna. Əlinə yaxşı pul gələn kimi, Nuranın tapdığı gözəlçələrə xərcləyirdi.

– Öz aləmində həyatdan kam alırmış daa...

– Əvvəl-əvvəl ötəri əyləncə sandığı könüləyləndirmələr yavaş-yavaş vərdişə çevrildi. Nuranın əlində oyuncaq olmuşdu Aslan. Çıxammırdı onun torundan. O qədər üzü üzlər gördü ki, pozuldu. Axırı da öz başını yedi.

Söhbətə qulaq verən bibilər qorxularından səs çıxarmasalar da, mat-məəttəl bir-birinin üzünə baxır, qaş-gözlə təəccüblərini bildirirdilər. Qardaş ocağındakı intriqaların səbəbi agah olduqca Nuranın yarat-

dığı şübhələr sovrulur, içlərində qaynayan qarma-qarışıq hisslər qəzəbə çevrilib hədəfini dəyişirdi. Bənövşənin Aslana qəsd etmədiyi gün kimi aydın idi. Bibilərin qəlbi bu sarıdan rahatladı. Sanki çiyinlərindən yük götürüldü. Addımlarını yeyinlədib qabaqda gedənləri ötdülər.

* * *

İndi əsl qisas məqamıydı. Nura bütün heyfini Bənövşədən çıxacaqdı. Gəlinin yığışıb atası evinə getməsi lap əl-qolunu açmışdı.

– Ana, bu evi mənim adıma saldıracaqsan. Ölsəm qoymaram atamın yurdu, qardaşımın evi "sarı pişiyə" qalsın.

– Nə sərsəmləyirsən, Nura? Lap həddini aşdın haa. Mən ölmüşəm bəyəm, evi sənin adına saldıram? Sənin evinə nə gəlib?! Ərini də götür, günü bu gündən get otur evində! Məni hövsələdən çıxartma.

Anasının bərk qəzəbləndiyini görən Nura hiyləyə əl atdı. Sifətinə yazıq ifadə verib – Allah eləməsin, sənə bir şey olsun... – deyə yalandan ağlamsınmağa başladı. – Səndən başqa kimim var mənim? Atam ölüb, qardaşım da bu adamaoxşamazın badına getdi. Özün bilirsən ki, qohumların da Aslanı sevirdilər, məni gözləri götürmür. Yetim qalan canım. Uşağım da olmur. Sabah Vaqif məni boşasa, küçələrdə qalacam. Səncə, "sarı pişik" imkan verər, mən gəlib burda yaşayam?

Uşaq söhbəti Svetlananın yarasına duz basdı. Neçə dəfə Almaniyaya da aparmışdı qızını, ən yaxşı həkimlərə göstərmişdi. Çarə tapılmamışdı. Əslində

Nuranın elə bir xəstəliyi də yoxuydu ki, müalicə eləsinlər. Sadəcə, uşağı olmurdu. Ümid Allaha qalmışdı.

Bir xeyli fikrə gedən Svetlana handan-hana dilləndi:

– Neçə ki mən sağam, gəlin sənə "gözün üstə qaşın var" deyə bilməz! Lazım olsa, burda yaşayacaqsan. Mərtəbənin birində sən olarsan, birində də onlar. Gözünə soxmayacaq ki, bu boyda mülkü?! Amma hələ ki, ərin-evin var, bu sevdan baş tutmaz. Nə bilirsən, bəlkə sabah doğacaqsan? İndidən başlamısan qara-qara fikirlərə.

Axırıncı sözləri deyəndə Svetlana qəhərlənmişdi. Nura anasının yumşaldığını hiss etdi. Axır ki, zəhərini damızdıra bilmişdi. Bundan sonrası çətin olmayacaqdı.

* * *

Svetlananı qəfildən işə çağırmışdılar. O, oğlunun qırxını gözləmədən getməli olmuşdu. Valehin qohum-əqrəbası yaman narazıydı bu gedişdən. Səriyyə arvad lap mat qalmışdı gəlininə. – Oğlumu itirdim, işimi də itirmək istəmirəm, – demişdi Svetlana.

Qırxda ağalıq edən Nuraydı. Ev də, məclis də onun ixtiyarındaydı. Fikri vardı ki, Bənövşəgili qəti yaxına buraxmasın. Nənəsigil birtəhər yola gətirmişdilər onu. Aslanın evində ab-hava tamam dəyişmişdi. Soyuq ruzgarın əsdiyi bu malikanədə Aslanlı-Bənövşəli günlərin hərarətindən, parıltısından, qonaqpərvərliyindən əsər-əlamət qalmamışdı. Nura qardaşıyla arvadının şəkillərini də ortadan götürmüşdü. Evdəki dəyişiklik camaatın gözündən yayınmadı.

Svetlananın gedişindən cəmi bir həftə keçirdi, amma ev suyu sovulmuş dəyirmana oxşayırdı. Nuraya söz deмək olmurdu deyə, ərki çatan hirsini Vaqifə tökürdü. Yeznəni xəcalət təri basmışdı. Hərdən özü də iyrənirdi arvadının əməllərindən. Amma qoyub gedə bilmirdi. Tənələrdən bezən Vaqif mərasim bitər-bitməz Nuranı da götürüb evinə dönmək fikrindəydi. O axşam ər-arvad yaman deyişdilər.

– Mən atamın yurdunu boş qoyub heç yerə gedən deyiləm! Bunu sırqa elə, as qulağından.

– Atanın yurdunun qeydinə qalmaq sənə düşüb? Oğlu ölübsə, yerində arvad-uşağı durur, dağ kimi nəvəsi var. Bu gün uşaqdı, sabah yekə kişi olacaq! - deyə Vaqif içinə yığılmış hirsini tökməyə başladı.

Xeyli söz güləşdirəndən sonra Nura baxdı belə olmayacaq, indiyədək gizlətdiyi niyyətini açıb ərinə dedi:

– Bu boyda mülkü "sarı pişiyə" verənə oxşayıram, səncə? Baax, anamla da danışmışam. Evi mənim adıma saldıracaq.

O danışdıqca Vaqifin gözləri alacalanır, hirsindən sifəti qaralırdı. Sanki arvadının dediklərini dərk etməkdə çətinlik çəkirdi. Bunu sezən Nura səs tonunu dəyişib nazlanmağa başladı.

– İstəməzsən uşaqlarımız gen-bol yerdə böyüsün, biz də adam kimi yaşayaaq?

– Öz evimizə nə gəlib ki, burda uşaq böyüdək? Sən Bənövşəylə yola gedənsən? Qəsdin nədi, ayrılmaq istəyirsən? Bilirdim axırı belə olacaq. Aslan varlanandan, bu mülk tikiləndən sonra mənim evim sənə dar gəlir, özüm də gözünə xoxan-xortdan cildində görünürəm, -

deyib yerindən dik qalxan Vaqif qapıya tərəf üz tutdu. Nura tez onun qarşısına keçib ərinin sinəsinə sığındı:

– Əsəbiləşmə, həyatım, ayrılmaq nə sözdür. Sənə kim deyir ki, Bənövşəylə bir evdə yaşa. Onun kitabı bağlandı. Bir də bura dönəmməz.

– Bəs Seymur? Aslanın oğluu...

– Seymuru boş ver. Onu mayor babası oğulluğa götürüb. Neyləyir iki mülkü?

Sözünə bir az ara verib əlavə etdi:

– Bizim evi də satıb sənə yağı üstündə modnı bir maşın alarıq, atan verən köhnə "X5"-dən yaxan qurtarar. İstəsən lap "Rance Rover"in təzə modelini alarıq. Ya da "Bentley". Bilirəm, çoxdan gözün ondadı.

Vaqifə elə gəldi ki, eşitdiklərini yuxuda görür. Arvadı ağlasığmaz şeylər danışırdı. Nura əlini köynəyin düymələrinin altından salıb ərinin tüklü sinəsini sığallamağa başladı. Bu, Vaqifin zəif damarıydı. Birdən arvadının ətrini duydu, nəvazişdən kişinin beyni dumanlanırdı...

* * *

Aslanın ölümündən sonra Bənövşə düz bir il işə çıxa bilmədi. Hamıdan utanırdı. Kişi tayfasından qorxurdu. Ailəvi dostlarından da qaçırdı. Küçədə-bacada köhnə tanışlara rast gələndə gizlənirdi. Elə bilirdi bütün qəsəbə ona gülür. Anası nə qədər danlasa, öyüd-nəsihət versə, xeyri olmurdu. Bənövşə özünü bütün dünyadan təcrid etmişdi. Söz-söhbət səngisə də, Kəngərli camaatı o məşum hadisəni unutmamışdı. Dükana-bazara çıxanda bir balaca işarət duyan kimi canı sıxılırdı Bənövşənin, yenidən evə qapanırdı.

Qayınanası Almaniyadan hər gələndə Laləzarı qudasıgilə göndərib nəvəsini yanına apartdırırdı. Amma bir dəfə də olsun gəlinini evə çağırmamışdı.

– Uşağı görsəm bəsimdi, Fianı görəndə gözüm ağrıyır. Oğlumu nə təhəri perikdirdisə evdən, balam küçə arvadlarının ümidinə qaldı. Axırı da o boyda igid əldən getdi, - deyirdi Svetlana. Laləzar ha çalışsa da, qonşusunun inadını qıra bilmirdi. Məcbur qalıb ürəyində vəziyyətlə barışırdı: "Svetlana ağıllı qadındır, başa düşür gəlinin günahsız olduğunu, amma qəbul edə bilmir."

Bir axşam yaman sözləşdilər. Svetlana Bənövşəyə olan hirsini-hikkəsini Laləzara tökdü. Qonşuluq pərdəsi aradan götürüldü. Laləzar da dişinin dibindən çıxanı əsirgəmədi.

Nazim kişi evə girən arvadının qaşqabağından anladı ki, yenə Bənövşənin üstündə Svetayla mübahisə edib. Himə bənd olan Laləzar qapını örtər-örtməz gileyə başladı:

– Ay kişi, belə iş olar? Sənin oğlun getsin lotusuynan mazaqlaşanda ölsün, sən gəl yapış gəlinin yaxasından?

– Noolub, laləm-gülüstanım. Gəl bir çay iç. Dincəl. Sonra danışarsan.

Laləzar ərinin dediklərinə məhəl qoymadan ürəyini boşaltdı:

– Başa düşürəm, oğlunun itkisiylə barışammır. Qınamıram da. O, anadır. Ancaq ta belə də olmaz axı. Oğlunun biabırçı ölümünün acısını çıxartmağa günah keçisi axtarır, yapışıb Bənövşənin yaxasından. O yazıq gəlin bunnarın əlində zülmə düşdü, atası

evində xan kefində yaşayırdı, kaş heç gəlməyəydi Aslana. Svetin əlində əlacı olsa, günü bu gün qızı qəbrə gömər. Aslandan sonra Bənövşənin yaşaması darıxdırır onu. Elə hey deyir: "Kaş o maşında ölən Fia olaydı, oğlum sağ qalaydı. Ya da ikisi birlikdə öləydi." A kişi, belə olmaz axııı...

Laləzar yanını divana qoyub ərinin süzdüyü çaydan bir qurtum aldı:

– Hərdən görürəm, Seymurun da yaşamağını qısqanır. Uşağa elə pis-pis baxır ki... Allah keçsin günahımdan, başa düşəmmirəm bu necə nənədir? Nəvələrimə qurban olum, onnarsız biz nəyə lazımıq? Nənə olan bəndənin içində qəzəb necə kükrəyirsə başlayır ki, Seymur doğulmasaydı oğlum arvadıyla şən və məsud yaşayardı, indi sağ olardı. Deyir: "Uşaqdan sonra Bənövşə oğlumdan soyudu. Ər də kişidir, gedəcəkdi də..."

Laləzar içindəki yanğını söndürməkçün armudu stəkanı başına çəkib əllərini dizlərinə çırpdı:

– Mən ölü olaram, sən diri, baxarsan, bu xəmir hələ çox su aparacax, Nazim...

* * *

Bənövşə qayınanasındakı dönüşün fərqinə varmırdı. Onun soyuqluğuna fikir vermirdi. Huşu-fikri Aslanın əməlindəydi. Sevgili ərinin xəyanətini yozmağa çalışırdı. Hara getsə, Aslanın səmadan zillənmiş gözləri Bənövşəni izləyirdi. O gözlər hər gecə Bənövşənin yatdığı otağa gəlir, sübhədək projektor kimi yamyaşıl işığını arvadının üzünə salırdı. Bənövşə o gözlərin təqibindən yaxa qurtarammırdı. Bilmirdi bunu Aslanın peşmançılığınamı yozsun, qısqanclığınamı, yoxsa

qəzəbinəmi. Qorxu canına hakim kəsilmişdi. Hətta ürəyində Aslanın barəsində pis düşünməyə çəkinirdi. Elə bilirdi o saat yuxarıdan baxan gözlər qəlbindəkilərdən xəbər tutacaq və onu öz atəşində qovuracaq.

Camaatsa danışırdı. Deyirdilər ki, Aslan öldü, Valehin yurdunda bayquşlar ulayır. Deyirdilər ki, yəqin Bənövşə başqa ərə gedəcək, o boyda xəyanətdən sonra oturarmı, o üzdən yığışmır öz ev-eşiyinə... Deyirdilər ki, yazıq Sveta, nə oğuldan yarıdı, nə gəlindən, qız da qardaşının mülkünü bəhlənmək hayındadı, qardaş balasını salıb küçələrə. Deyirdilər ki, bu boyda haqsızlıq olar, indi cavanlıqdı, bir qələt eləmişdi Aslan, əvəzini də canıyla ödədi, dalda oğlu var axı...

* * *

Aslanın ili verilən gün yenə hava qaşqabağını sallamışdı. Kəngərli qəsəbəsi şaxtadan donurdu. Ayaz kəsirdi adamları. Qanıqara insanları soyuq da bir yandan sərtləşdirmişdi. Mərhumun başına gələn qəza yaddaşlarda bir də çözələnib-təzələnirdi. Dilini dinc qoymayanlar ölənlərdən çox, qalanların dərdiylə əlləşirdi:

– Bənövşə niyə evinə qayıtmır?

– Svetlana doğrudan gəlinini çölə atıb? Bənövşədə günah yoxdursa, raykom kimi arvad niyə belə hərəkət eləsin?

– Seymur harda böyüyəcək? Yazıq uşaq, atadan yetim qaldı, üstəlik də yurdsuz-yuvasız...

Ehsan bişirilən ocaq başındakı pıçıltılar, açıq-aşkar eyhamlar Bənövşəni təbdən çıxartdı:

– Seymurun atası ölüb, anası da ölməyib ki, dərdini el çəkə... Oğlumu nazir balası kimi böyüdəcəm. Oxudacam. Atasızlığını hiss etdirməyəcəm.

Səriyyə qarı da söhbətə qarışıb Bənövşəyə qahmar çıxdı:

– Nəslimizi yer-yurd tutmur, Valehin bircə nəvəsinə sahib durammayacıx? Belə mənim balam oturacax atasının mülkündə, böyüyüb Aslanımın nəslini davam etdirəcək, - deyib söz-söhbətə son qoydu. O anda içəri girən Nuranı nədənsə gülmək tutdu.

Nəvəsinin rişxəndli baxışı Səriyyənin gözündən yayınmamışdı. Axşam camaat dağılışandan sonra Nuranı yanladı. Az keçməmiş ilan vurmuş kimi geri sıçradı:

– Allah bəlanızı versin, bu nə qələtdi, elədiz?! Ay Sivet, yekə gəlinsən, sən niyə buna qoşulub Aslanın balasını çöllərdə qoydun? Gözünə soxacax bu boyda mülkü sənin qısır qızın? Almaniyada otura-otura nə vaxt düzdün-qoşdun o sənədləri? Məhkəməni nətəhəri yoldan çıxartdın? Qudalığını işə saldın, eləmi?? Heç vicdanın sızlamadı? Axı, bu uşaq sənin nəvəndi... Otuz illik gəlinimi indi tanıyıram deyəsən. Bərəkallah sənə.

Pərtlikdən qıpqırmızı qızarsa da Svetlananın cavabı qısa oldu:

– Dağ kimi oğul əmanət etmişdim Fiaya, o mənim oğlumu qoruyammadı! Evimi necə etibar edəydim?!

Səriyyə qarı kəlağayısını başına atıb evi tərk etdi. Yol boyu deyinə-deyinə gedirdi. Əsəbdən hövllənmişdi. Oğulları arxadan güclə yetişdilər ona. İlki Valeh dünyasını dəyişəndə infarkt keçirən qadın o axşam ikinci infarktla xəstəxanaya aparıldı. Valehgilin tayfası olanlardan dəhşətə gəlmişdi. Svetlanadan gözləməzdilər bu əməli, onu ədalətli qadın bilirdilər.

– Ana-bala bunların heç birində qan yoxmuş. O Seymur sənin oğlunun belindən gəlib axı, ay Svet, necə yeyəcəksən onun haqqını?

– Görmürsən, o ifritə Nura nələr deyir? Deyir ki, mayorun oğlu Səməd Kürdə boğulanda Seymuru övladlığa götürübmüş, ona ev lazım deyil. Deyən gərək, Aydının evi kimə qalacaqsa-qalsın, sənə nə, ay qansız?

– Deyir, Bənövşə bu gün-sabah ərə gedəcək, gətirib mənim qardaşımın evinə salacaq ərini, hazır özüm oturaram daa.

– Hamısı bunların uydurmasıdı. O gəlin bir ildə evdən bayıra çıxmayıb. Bir kişiyə gözünün ucuyla baxmayıb. Adamın üstündə Allah var. Heç ərə gedənə oxşayır o?

– Vallah babalı Svetin boynuna, bu Nurada bizdən əsər-əlamət yoxdu! Heç deməzsən Valehin qızıdı. Bizim tayfada belə nanəcib görünməyib. Kimə çəkdi bu?.. Əstəğfürullah.

* * *

Əhvalatın məğzi Bənövşəgilə çatanda şok oldular. Zavallı Bənövşə ərinin eşqbazlığı ucbatından düşdüyü labirintdən çıxmamış, baldızının sərvət hərisliyinin labirintinə düşmüşdü. Nura bir yana, qayınanasının belə işə qol qoyacağına inanmazdı. Əslində o hələ depressiyadan çıxmamışdı. Ərinin ruhuyla əlləşirdi. Var-dövlət hayında deyildi. Amma ortada günahsız körpə vardı. Və nənə, bibi olan doğmaları Seymurun haqqını tapdamışdılar. Oksana yenə qızını danlayırdı:

– Vaxtında özünü toplayıb ayağa dursan, gedib evində otursan, bu iş də başına gəlməzdi. Sən hələ yas saxla. Çox matah ərin vardı... Sənə yaman hörmət qoymuşdu...

Anasına heç nə demədən Bənövşə yataq otağına girib qapını bağladı. O, baş verənləri çözməyə çalışırdı.

“Mən mübarizə aparmalıyam. Oğlumun haqqını almalıyam. Sabahdan işə çıxmaq lazımdı. Dünya dərəbəylik deyil.”

* * *

Bənövşə məhkəməyə, prokurorluğa gedib-gəlməkdən usandı, iş düzəlmədi ki, düzəlmədi. Vəziyyəti belə görəndə atası işə girişdi. Mayor Aydın Rüstəmzadə aylarla çalışdı, dost-tanışa üz tutdu, məhkəmələrə nə qədər ayaq döydüsə xeyri olmadı. Haqsızlığın qarşısındakı gücsüzlüyü ona yaman təsir eləmişdi:

– Məsələ evdə deyil, Oksana. Bir balam var, ona canım da qurban, evim də! Məsələ ondadı ki, bu sistemdə can qoymuş mayor Rüstəmzadə qızının haqqını ala bilmir, hüququnu bərpa edəmmir. Belə vicdansızlıq olmaz axı. Bilirsən mənə nə deyirlər? Deyirlər ki, altı ay evində yaşamayan ordakı mənzil hüququnu itirir. Ay balam, hamı bilir axı Bənövşənin ordan niyə çıxdığını. Kefindən gəlib oturmayıb ha atası evində?.. O qız necə beynini yedisə, raykom Svetin başını xarab elədi. – Aydın əsəbi-əsəbi var-gəl edib – eybi yox, Svetlana Qriqoryeva, eybi yox, – dedi. – Bir gün möhtac olarsan nəvənə! Onda deyəcəm sözümü.

* * *

Gözəl bir yay günüydü. Azərbaycanın aran rayonlarına məxsus bürkülər hələ başlamamışdı. Qış soyuq keçdiyindən isti ləzzət eləyirdi. Bankdan dönən Bənövşə Katerinayla şirin-şirin söhbət edirdi. Onun toyundan sonra ilk dəfəydi dayısı qızının buralara qonaq gəlməyi. Qızlar qəsəbənin mərkəzindəki parka çatanda oturdular. Söhbət hərlənib-fırlanıb yenə Aslanın üstünə gəldi.

– Evliliyimizin ilk illərində elə bəxtəvər idik ki! Aslanın dostlarıyla dağlara gedirdik, çadır qurub iki-üç gün qalırdıq... O məni çox sevirdi. Heç xətrimə dəyməzdi. Tələbəliklə ailə həyatım bir-birinə qarışmışdı, Aslanın köməyi olmasa öhdəsindən gələmməzdim. O vaxtlar xörək-zad da bişirə bilmirdim. Evdarlıq hara, mən hara? – deyib gülümsündü. – On səkkiz yaşında ərə getmişdim. Sevincdən göylərdə uçurdum. Sevdiyim oğlan yanımda, həyat gözəl, maraqlı...

Bənövşə başını yuxarı qaldırıb səmaya baxdı. Barmağını bir nöqtəyə tuşlayıb – bax, Aslanın gözləridir, məni izləyir, – dedi. Vahimələnən Katerina ha boylansa da yuxarıda heç nə görməyib Bənövşəni lağa qoydu:

– Bəsdir, ay qız, lap mövhumatçı olub gedibsən. Göydə göz nə gəzir? Dünən gecə də otağın küncündən Aslanın yaşıl gözlərinin parıldadığını dedin, xətrinə dəymədim, amma bütün gecə qorxudan yatammadım. Bir də belə şeylər uydurma.

– Doğrudan görmədin?

– Bəsdir, bəsdir. Aslanın sümükləri də çürüyüb, sən hələ onun gözlərini axtarırsan. İncimə, Fialka, mənim elə ərim olsa, bir gün yasını tutmazdım.

– Nə olur-olsun, ərim mənə Seymur kimi oğul qoyub gedib. Ona minnətdaram. Təsəvvür edirsən, Seymursuz həyatım necə cəhənnəmə dönərdi?

– Dönməzdi. Əgər sənin ağlın olsa. Qadınsan, qadınlığını yaşa. Aslan öldü, getdi. Ya zəlzələdən, ya vəlvələdən. Nə fərqi var? Əsas odur indi yanında yoxdur. Səninsə cəmi otuz yaşın var. Beş ildir özünə zülm edirsən.

– Mənim oğlumun on yaşı var. Bir azdan sevib-sevilməyə başlayacaq. İndidən qızlarla arası yaxşıdı.

– De ki, atasına çəkib daa...

Katerina bilmədi söz ağzından necə çıxdı. Bibisi qızının tərs baxışlarını görüb özünü yığışdırdı.

– Seymur oxuyacaq, institut qurtaracaq. Evlənəcək. Mənə nə yaraşır ər?

– Demədim ki, toy çaldırıb ərə get. Deyirəm, həyatını yaşa. Yazıqsan.

– Katya, bilirsən ki, kişilərdən iyrənirəm. Hamısı yalançıdı. Xaindi. Pozğundu.

– Hamısı deyil.

– İlk vaxtlar deyil. Sonra hamısı eyni bezin qırağı olur.

– Yox, ay qız. Görürəm Aslanla birgə kişi tayfasına olan inamını da qəbrə gömübsən. Amma nahaq. Sən bir sına. Odur ey, şöbə müdiriniz. Ölür sənin dərdindən. Ona get. Ya da hər gün bir bəhanəylə banka gələn biznesmenə. Əgər rəsmi surətdə ailə qurmaq istəmirsənsə, əlaqə saxla. Nəsə bir şey elə. Belə yaşama.

Bənövşə eşitdiklərinə məhəl qoymadan yenə ərindən danışdı. Danışdıqca neçə illər ürəyində yığılıb qalan, heç kəslə bölüşmədiyi sirlərin üstü açılırdı.

– Bilirsən, Aslan son illər necə dəyişmişdi? Mənə zülm edirdi. Ərimi tanıyammırdım. Bilirsən, niyə gecələr məni döyüb çölə atırdı?

– Bilməsəm də anlayıram. Məlum məsələdi. Evə sərxoş gələn kişi arvadının yanında olduğunu unudur. Orda-burda könül əyləndirəndə vərdiş etdiyi rəftarı istəyir. Qadın da razılaşmayanda küçəyə atılır.

"Görəsən, bu hardan bilir?" - deyə heyrətlə dayısı qızına baxan Bənövşə yazıq səslə Katerinanın sözlərini təsdiqlədi:

– Həə...

Dərhal da pıçıldadı:

– Heç kimin yanında demə haa, Katya, utanıram. Ayıbdı.

– Demərəm. Amma sən Aslana yas saxlamağı burax. Həyatını qur.

– Məni ancaq oğlumun gələcəyi maraqlandırır.

– Oğlun da onların toxumudu daa, ay Fialka, niyə başa düşmürsən? Qayınanan evi də əlinizdən aldı, səni afsayda qoydu. Atangil olmasa, bir uşaqla çöllərdə qalacaqdın. Demirəm ki, oğlunu at. Deyirəm, özünü də düşün. Lap köç gəl Kiyevə. Bizimlə yaşa. Həyatını dəyiş. Elə bilirsən, bədbəxt ananın oğlu olmaq uşağa xoşdur? Seymuru ürəkli-böyrəkli böyütmək istəyirsənsə, ilk növbədə özün xoşbəxt olmağa çalışmalısan.

Katerina ona diqqətlə baxan Bənövşənin bulud kimi tutulmuş çöhrəsinə nəzər salıb – bir üzün gülsün daa, ay qız, gülmək qadağan deyil haa? – dedi.

* * *

Dayısı qızını Kiyevə yola salandan sonra Bənövşə uzun müddət onun öyüd-nəsihətini unuda bilmədi. Hey fikrində təkrarlayıb Katyaya acıqlandı, özünə bəraət qazandırdı: "Yeddi il ərdə olmuşam, bəsimdi. Həyat bir dəfə qurular. Bir daha özümü sınaq meydançasına çevirə bilmərəm."

Hərdən də tərəddüd edirdi: "Amma Kiyevə köçmək pis fikir deyil. İndiyədək heç ağlıma gəlməyib. Camaatın ağzını bağlamaq olmur. Seymur böyüyür, gü-

nün birində atasının necə öldüyünü öyrənəcək, sınacaq uşağım, utanacaq yoldaşlarından. O gün məktəbdə dava eləməsi də deyəsən, atasıyla bağlıydı. Nə qədər soruşdum, bir söz demədi, eləcə "ata" deyib ağlayırdı. Oğlumu buralardan uzaqlaşdırsam, pis olmaz."

* * *

– Ərimdən sonra həyatımda iki kişi olub.

– Danışma, heç nə bilmək istəmirəm.

– Yox, mən səninlə tam səmimi olmaq istəyirəm. Aramızda sirr qalmasın.

– Dedim, heç nə bilmək istəmirəm.

– Hərəsiylə bir-iki dəfə görüşmüşəm.

– Sus. Sən mənim mələyimsən. Tanıdıqlarım arasında ən təmiz qadınsan. Hesabata gərək yoxdur.

Kişi bərk həyəcanlanmışdı. O, əsəblərini cilovlayıb özünü ələ alana qədər Bənövşə dilinə qıfıl vurdu.

– Mən evli adamam. Heç vaxt ailəmi atmayacam. Sənin də oğlun var. Yəqin məni başa düşərsən. Ancaq səndən çox xoşum gəlir. Razılaşsan, bundan sonrakı həyatımızı birləşdirərik. Razılaşmasan, dost kimi qalarıq. Anlayıram, mənə inanmırsan. Həyatında o qədər ağır şeylər yaşayıbsan ki... Ancaq bil: mən sənin yaralarını sarmağa hazıram.

Neçə aylardı Kişi dostyana davranışıyla Bənövşənin rəğbətini qazanmışdı. Bu gün ilk dəfə eşqini bəyan edirdi. Qəlbindəki səs pıçıldayırdı ki, mətləbi açmağın məqamı yetişib – ya bu gün, ya heç vaxt. O da intuisiyasına arxalanıb ürəyini açırdı.

* * *

Bənövşənin intim dünyasına baş vuran Katerina hər dəfə onu dilə tuturdu ki, gəl daşı ətəyindən tök,

səni istəyən finlandiyalıya ərə get. Görüşdüyün kişi səni sevsə də, almayacaq. Ya da “Facebook”da yazışdığın kanadalıyla ailə qur. İkisinin də yaxşı imkanı var. Neçə ki cavansan fürsəti əldən vermə, gələcəyini təmin et.

Qara günlərin əsarətindən çıxmış Bənövşə yenə dirənirdi:

– O məni həqiqətən sevir. Rəsmi qeydiyyatımız olmasa da, özünü ər kimi aparır. Günəşimdi mənim, şirinimdi. Dəlicəsinə aşiqəm ona. Ömrüm boyu belə münasibətin həsrətində olmuşam, Katya. Bu cür incəliklə sevilmək istəmişəm. İndi sən deyirsən, rəsmi arvad olmaq naminə, bir parça kağız naminə əl çəkim ondan? Nəfəsim kəsilər.

– Başını gicəlləndirən bu sevda günün birində yoxa çıxacaq. Arzum budur, o vaxt səninçün çox gec olmasın, - deyə Katerina növbəti məğlubiyyətilə barışırdı.

* * *

Seymur Kiyevdəki həyatlarından çox razıydı. Nəhayət, anasının üzü gülürdü. Burda xoşbəxt idilər. Nənəsi Svetlana da mehribanlaşmışdı. Tez-tez Avropadan zəng edir, Seymurun təhsiliylə bərk maraqlanırdı. Yay aylarında gəliniylə nəvəsini Krımda, Antalyada, ya da Bodrumda dincəlməyə yollayırdı. Aradakı buzlar ərimişdi.

Svetlana Qriqoryeva oğlunun ölüm faktını araşdırıb arxayınlaşmışdı. Aslan sonuncu dəfə ezamiyyət adıyla evdən gedəndə ölkədən çıxmayıbmış. Firmanın Varşavadan göndərilən yeni işçisiylə birgə Bakıda, “Excelsior” otelində qalırmış. Necə olubsa, qızı rayona gətirib. Sonra da maşındakı qəza baş verib.

* * *

Nura ərinin evini satdırandan bir müddət sonra onu oturduqları mülkdən qovmuşdu. Vaqif də təhqirlərə dözməyib arvadını boşamışdı. Ayrılandan sonra Nuranı Kəngərli qəsəbəsinə bağlayan tel qalmamışdı. Onsuz da qohumlar üzünə baxmırdılar. O, qardaşı Aslanın mülkünü satıb Moskvaya köçmüşdü.

* * *

Bənövşə Kişinin yataqdan qalxdığını hiss edincə oyandı. Amma onu duyuq salmamaqçün gözlərini açmadı. Yumulu kirpiklərinin arasından izləməyə başladı.

Sevdiyi qadını oyatmaqdan qorxan Kişi barmaqlarının ucunda yeriyib dəhlizin işığını yandırdı. Otağa dönüb Bənövşəyə nəzər saldı. Könlünün kraliçası mışıl-mışıl uyuyurdu. Kişi çarpayının yanında yavaşca diz çökdü. Yatmış gözəlin çöhrəsini bir qədər seyr etdikdən sonra astaca adyalı üzərindən çəkdi. Bənövşə bir anlıq üşəndi, az qaldı özünü ələ versin. Ancaq təhlükə olmadığını duyub rahatladı və vücudunu sevgilisinin nəvazişlərinə təslim etdi. Qadının bərk yatdığına inanan Kişi onun ayaqlarını öpür, sığallayır, gözəlinə heyranlıqla tamaşa edirdi. Ehtirasın ağuşunda xumarlanan Bənövşə ömrünün ən xoşbəxt anlarını yaşayırdı... O yenə labirintdəydi.

***iyul, oktyabr-noyabr 2013***



## KİŞİ

Kişi sükan arxasında qıvrılırdı. Bir gözü tıxacda, bir gözü mobilinə gələn sms-lərdə idi. Evdə anasının halı xarab olmuşdu. Təcili ona dərman çatdırmalıydı. Qayğısı tək bu olsa, dərd yarıydı. Kişinin bütün əzaları üsyana qalxmışdı. Sevdiyinin yanında olmaq istəyirdi. Bir əli sükanda onun nömrəsini yığmağa başladı. Səsini duyunca sevindi. Sanki ruhuna rahatlıq süzüldü. Sevdiyinin elə məlahətli, elə şaqraq, elə gümrah səsi varıydı ki... Anındaca qayğılarını unutdu. Zarafata başladı:

– Qonağın var.

– Aaa yox, televizorun səsidir.

– Görürsən, yenə fikrimi tutmadın. Deyirəm qonağın var.

Dəstəkdəki səs üşənən kimi oldu:

– Doğrudaan?.. Mən o qədər də qonaqpərvər deyiləm.

– Mənə bir balınc versən yetər. Qıvrılıb yataram.

– Yooox. Olmaz!

– Onda sən aşağı düşərsən. Maşında gecələyərik.

– Bu hardan çıxdı??

Qadının heyrət və çaşqınlıq dolu səsində naz da varıydı. Bu da Kişinin qulağından yayınmadı. Ürə-

yinə ümid doldu: "Razılaşacaq. Məni sevir! Əvvəl-axır qovuşmalıyıq da."

Yol bir az açılmışdı. Maşının sürətini artırdı. O qədər ruhlanmışdı ki, daha heç nəyin fərqində deyildi. Nə Sevdiyinin etirazlarını qavramırdı, nə də istəklərinin indiyə qədər aralarında olan sərhədi keçdiyini anlamırdı. Ya da anlamaq istəmirdi. Kişinin canı yanırdı. Və bu yanğını ancaq Sevdiyinin yanında söndürə bilərdi. O, yaman cəsarətlənmişdi. Çətini əsas mətləbini açıncaya qədərdi. İndi daha dil boğaza qoymurdu:

– Anamın təzyiqi qalxıb. Ona dərman çatdırım, gəlirəm. Bilirsən nə geyin? İstəyirəm əynində qəşəng gecə paltarı olsun. Penuarın var? Ağ rəngdə. Sən hazırlaş, mən indicə qayıdıram. İyirmi-iyirmi beş dəqiqəyə sizdəyəm.

Təəccübdən donan qadından qəribə bir səs çıxdı. O an qadının obrazı səsdən ibarət idi. Üzü görünməsə də, səsi bütün emosiyalarını büruzə verirdi. Həyəcanlı və çaşqın qadın eşitdiklərinin alt qatdakı mənasına varınca onu həya təri bürüyürdü. Və sükan arxasında olan Kişi kilometrlərcə uzaqdan bunu duyurdu. Duyduqca da xoşhal olurdu. Çoxdankı tanışlıqdan, xoş-beşdən sonra nəhayət mətləb üstünə gələn Kişinin kefi durulmuşdu. Romantik aşiqlər kimi zümzümə edir, mahnı oxuyur, şeir deyirdi. Qadına olan istəyini çox özünəməxsus formada izhar edirdi.

Get-gedə sürəti doxsana, yüzə, yüz iyirmiyə qaldıran Kişi sevdiyi iki qadının yanına tələsirdi. Öncə anasını rahatlamalıydı. Sonra Sevdiyinin yanına getməliydi. İctimai məzmunlu görüşlərinə son verərək

bu gecə yeni başlanğıca imza atacaqdı. O, bundan əmindi. Şəhərin o başından bu başına bütün yolu Sevdiyi ilə söhbətləşən Kişi evlərinə çatanda darvazanın ağzındaca "hələlik", - deyə sağollaşdı. Qaçaraq anasına baş çəkdi.

Oğlunun təlaşını görən ana gülümsündü. Onun gəlişimi yaxşı təsir elədi, gətirdiyi dava-dərmanmı, bilinmədi. Ana yatağında dirsəkləndi. Ev əhli də rahat nəfəs alıb hərə öz işinin dalınca getdi. Ana-oğul söhbəti fiziki ağrıları yavaş-yavaş unutdururdu yataqdakı qadına. Az sonra ana iynənin təsirindən mürgülədi. Oğul da yuxarıya, öz otağına qalxdı. Dərhal Sevdiyinə zəng etdi.

Qadının bütün etirazlarına rəğmən Kişinin "gələcəyəm!" qətiyyəti onu – Kişinin Sevdiyini çıxılmaz duruma salmışdı. Zəng səsindən diksindi. Elə bildi qapıdır. Sövq-təbii üst-başına baxdı. Ürəkaçan görkəmdə deyildi. Kişinin təkidlə verdiyi romantik sifarişlərdən sonra qadın kəşf etmişdi ki, onun kişi qarşısına çıxası gecə geyimi yoxdur. Ərindən ayrılandan sonra heç bu haqda düşünməmişdi. Yetərincə qazanırdı, yaxşı yaşayırdı. Amma... qadın gözəlliyinə gözəllik qatan gecə geyimi yox idi! Heç ipək xalatı da yoxuydu. Ev idman geyimləriylə doluydu.

Kişi ilə münasibətində çox da dərinə getmək fikrində olmayan qadın hər halda onu öz evində ilk dəfə ağırlayacaqdı və istərdi ki, ev xanımına oxşasın. Kişinin yolboyu davam edən nəğməli monoloqunu dinlədikcə qadın ürəyində bu məsələni götür-qoy etmişdi və onun paltar seçimi lap Hamletin "olum,

ya ölüm?" dilemmasına, Çernışevskinin "nə etməli?" sualına dönmüşdü. Qadın həm romantikliyi, həm də ciddiliyi özündə ehtiva edən bir geyim axtarırdı. Heç nə tapmaq şansı olmadığını görüb bərk məyuslaşmışdı ki, zəng gəldi. Pərt halda qapıya doğru istiqamətlənən qadın birdən hiss etdi ki, zəng otaqdan gəlir. Kişinin həyəcanlı səsi dəstəyi bürümüşdü. Şükür ki hələ öz evindəydi. Ailə qayğıları onu elə ağuşuna almışdı ki!.. Sanki az öncə Sevdiyinə dediyi sözləri, vədləri, tələbləri... unutmuş durumdaydı.

– Necəsən, anam bir az rahatladı. İndi yatır. İstəyirsən sənin üçün skripka çalım.

Az keçməmiş skripkanın səsi otağı başına götürdü. Qadın telefonun selektrini açmışdı və çalınan musiqi yanındaymış kimi səslənirdi. İfada bir az alətə yadırğama vardı. Amma olsun. Yenə də maraqlıydı. Musiqini dinlədikcə fikirlərini nizama salmağa çalışan qadın bərk yorulduğunu hiss etdi. Gərilmişdi. "Kaş, heç gəlməsə..." düşüncəsi beynindən keçən kimi bu fikirdən də xoşlanmadı. Təzadlı duyğular selində çırpınan qadın başa düşdü ki, şüurlu surətdə istəməsə də, şüuraltında yavaş-yavaş görüş əhvalına köklənirmiş. Kişinin zorla gəlmək istəməsi onun da işinə yarayırmış. Çünki cəmiyyətdə qazandığı ciddi qadın imici ilə və bu xasiyyətlə kimsəni xoşluqla yaxına buraxmayacaqdı. O ancaq ilk gəncliyində qadın olmuşdu və o zaman da qandığı bu idi ki, qadınlıq yaxşı evdarlıqdan ibarətdir. Vəssalam. On ildən çoxuydu kişisiz yaşayırdı. Ev üçün kişi missiyasını da, qadın missiyasını da özü yerinə yetirirdi.

Skripkanı əlindən yerə qoyan kimi Kişi şeir oxumağa başladı. Özününkülər, özgəninkilər... Klassik poeziya, müasir lirika... Tanınan-tanınmayan şairlər, aşıqlar... Sevən, həsrət çəkən, vüsala yetən-yetməyən... Bu axşam hamısı Kişinin "otağındaydı" və onun diliylə danışırdı. Misralardan, beytlərdən məhəbbət yağırdı.

Əyləncəli poeziya dəqiqələrinə telefonun o başından eşidilən çağırış ara verdi. Kişi üzrxahlıq edib aşağıya – anasının yanına düşdü. O, yerinə gətirə bilməyəcəyi təkliflə qadının dünyasını alt-üst etdiyinin fərqində deyildi. Getməyi çox istəsə də, evdən ayrıla bilmirdi. Vurnuxa-vurnuxa qalmışdı. Belə vəziyyətdə evdəkilərə nə desin, necə çıxsın?.. Allah eləməmiş, birdən o gedəndən sonra anasının halı xarablaşsa... Məsələnin bu tərəfi qadının da ağlına gəlmiş və onu qorxutmuşdu: "Allah qorusun, birdən peşmançılıq yaşansa, ömrüm boyu mən qalaram günahkar durumunda. Gəlməsin, istəmirəm." Amma Kişi hələ də gedəcəyinə ümidliydi.

O az sonra daha böyük təlaşla otağına qayıtdı və avtomatik olaraq barmaqları nömrəni yığdı. Kişinin canı yanırdı. Və bu yanğını musiqi qanadlarında, poeziya atəşində söndürməyə çalışdıqca daha da alovlanırdı. İdrakın diktəsi onu evdə oturub anasının sağlıq durumuna şəxsən nəzarət etməyə çağırırdı. Ürəyi isə başqa məntiqlə çırpınırdı. Bədəninin hər zərrəsi Sevdiyinə doğru can atırdı. Kişi telefonu əlindən yerə qoymağa qorxurdu. Elə bilirdi ki, dəstəyi yerə qoyan kimi araya dağlardan sədd çəkiləcək. Əslində məsafə etibarilə bir-birindən çox uzaqdaydılar. Naəlac qalan Kişi

Sevdiyi yanındaymış kimi davranır, onu və özünü əyləndirməyə çalışırdı. Sevdiyi üçün çalıb-oxuduqca ona elə gəlirdi ki, birlikdədirlər.

Gecə yarı olmuşdu. Saat üçü keçmişdi. Bundan sonra getmək müşkül məsələydi. Qadın da yorulmuşdu. Səhər ikisi də işə gedəcəkdi. Yatıb dincəlmək lazım idi. Amma zaman Kişi üçün dayanmışdı. Və dünya deyilən yerdə iki qadın qalmışdı: biri anası, biri sevdiyi. Bu gecə sevgili olacaqdılar. Olammadılar. Kişi reallığa təslim olmaq istəmirdi. Ümidini üzmürdü. Sevdiyinə qovuşacağına inanırdı. Arada ustad sənətkarların vallarını oxutdu. Muğamata, segaha dair fikirlərini bölüşə-bölüşə qadını dinləməyə məcbur edirdi. Hisslərini ram edəmmədiyini görəndə pianonu dilləndirməyə başladı. Dili də dinc durmurdu:

– Səhər işə getmə. Tezdən sizdəyəm.

– Elə şey olmaz. Mühüm görüşlərimiz var. Vacib sifarişçilərimiz gələcək.

– Onda... zəngləşərik. Hə, indi de görüm, bu parça hansı simfoniyadandır?

– ...

– Belə sadə şeyləri də bilmirsən, özün də deyirsən ziyalıyam.

Zarafatyana gülən Kişi əslində bir növ qadının könlünü almağa çalışırdı. Pianonun səsi aşağı mərtəbədə yuxulamış ananı oyatdı. "Ey böyük Allah, möhlət ver, bunu da evləndirim, sonra canımı al!" nisgili ixtiyar qadının qəlbindən qopdu.

...Nəhayət, sağollaşa bildilər. Kişinin halı hal deyildi. Beyni uğuldayırdı. Bir daha anasına baş çəkdi.

Böhranlı anlar arxada qalmışdı. Təzyiq sabitləşmişdi. Qalxıb yatağına uzandı. Qeyri-ixtiyari taleyini düşündü. Yaşamağı, bu dünyada doyunca qalmağı, həyatdan kam almağı elə çox istəyirdi ki!.. Kişinin səhhətində ciddi problemi vardı. Xəstəliyi həyati təhlükə daşıyırdı. O üzdən evlənmirdi. – Kimsəni körpə uşaqla yarı yolda buraxıb getmək istəmirəm, – deyirdi anasına. Elə bu məntiqlə də tay-tuşu olan qızlarla məsafəli davranırdı. Bir az da özündən müştəbehliyi vardı. Ona elə gəlirdi ki, hansısa subayla oturub-dursa, o qız yapışıb qalacaq yaxasında. Əslində buna cəhd edənlər də yox deyildi. Çünki cavan qızlara nə lazımdı ki? Ev var, maşın var, vəzifə var, pul var...

Kişi dəqiq bilirdi ki, göstəricilərinə görə onunla maraqlananlar arasında SEVƏN yoxdur. O isə sevgi axtarırdı. Öləcəyini düşünüb üzüldükcə, həyatdan nakam köçməmək üçün yollar arayırdı. Ölümündən sonra da bu həyatda yaşamaq istəyirdi. Sıx-sıx xatırlanmaq istəyirdi. Dalınca yanan, üzülən, əzab çəkən, həsrətdən qovrulan bir qadının olmasını istəyirdi. Rəsmi nikahına alacağı qadını gözüyaşlı qoyub getməyə qıymayan Kişi qeyri-rəsmi eşq yaşayacağı qadına bütün bu əzabları yaşatmağı rəva görürdü. O özü də anlamadan, bəlkə də şüurlu surətdə, bilərəkdən qurbanlıq quzu axtarırdı. Və axtardığını bu qadının timsalında tapmışdı: "Bu qadın vəfalıdı. Məni unutmaz. Bu qadın namusludu. Məni başqasına dəyişməz."

Əslində Kişini evlənməkdən çəkindirən hiss daxilində gizlənmiş eqoizm idi. O qorxurdu ki, öləndən sonra arvadı ərə gedər. El-oba qarşısında bunu özü-

nə, adına rəva görmürdü. Qeyri-rəsmi əlaqə saxlayacağı qadının isə ona aid olduğunu kimsə bilməyəcəkdi. Min bir oyuna girib özünü sevdirmişdi. Məqsədi bu qadını xoşbəxt etmək deyildi. Onun sevgiyə susamış qəlbindən özünə məhəbbət donu biçmək idi. Amma özü haqda yüksək fikirdə olduğundan əsl niyyətini özünə də etiraf etməyə çəkinirdi. Əsas bu idi ki, qadına ərki vardı. Ona güvənərək son aylarını məsud yaşamaq istəyirdi.

Səhər adi qaydada qalxıb işə yollandı. Gün ərzində bir dəfə də olsun qadını aramadı. Bu minvalla bir həftə keçdi. Kişi qadına münasibətində heç bir məsuliyyət hiss etmirdi. Daha doğrusu, məsuliyyətdən qaçırdı. Sanki "o axşam" heç yaşanmamışdı. Günlər aya döndü. Payız yerini qışa verdi. İl dəyişdi. Kişi hələ susurdu. Günlərin birində yenə şıltaqlığı tutanda götürüb işdən qadına zəng etdi və heç bir şey olmamış kimi zarafata başladı. "O axşam"dan sonrakı sükutu özünə qarşı təhqir bilən qadın həvəssiz və soyuq danışırdı. Bunları vecinə almayan Kişi isə zarafatı zarafat üstünə yağdırırdı. Yenə görüş eyhamı vururdu. Qadını çox istədiyini və özünün də istəndiyini deyirdi.

Beləcə, telefon zəngləriylə məhdudlaşan iki il də ötdü. Nəhayət, qarlı bir qış günündə qovuşdular. Yenə qadını qəfil yaxalamışdı, evə çatıncayadək mobili əlindən yerə qoymadığı üçün qadın macal tapıb özünə əl gəzdirə bilməmişdi. Kişi bu əməlini hünər bilirdi, qadını makiyajsız, təbii həyat rejimində yaxa-

ladığını görüb sevinirdi. Qadın düşünürdü ki, bu onun təcrübəsizliyindən irəli gəlir, hər halda bir az vaxt versə, pis olmazdı.

Kişi çox həyəcanlanmışdı. Neçə illər həsrətində olduğu qadına qovuşmaq onu silkələmişdi. Bir az şıltaqlığı, bir az əzazilliyi olsa da Kişi insan idi və insana məxsus zəifliklər ondan da yan keçməmişdi. Elə ilk görüş axşamındaca sirrin üstü açıldı. Məlun xəstəlik onu "satdı". Kişi qürurunu əzən, onu varından yox eləyən xəstəliyi hamıdan cidd-cəhdlə gizlətsə də, məhrəm münasibətdə bulunduğu qadından gizlədə bilmədi. İkisinin də qəlbi göynəyirdi. Qadın məhəbbət və şəfqət mələyinə çevrilmişdi. Aralarında qəribə bir aura yaranmışdı. Sevinc, məyusluq, müdhiş ağrı qarşısında acizlik, utanc hissi, qürur, qorxu, yaşamaq eşqi... hamısı bir-birinə qarışmışdı. Həyatda illər-aylar deyil, bir gün də artıq qalmaq üçün bütün fiziki-mənəvi-psixoloji potensialını səfərbər edən Kişi xəstəliyə yenilmişdi.

Bundan sonra hər necə davransa, qadın onu qınamayacaqdı. Anlamağa çalışacaqdı. Sevəcəkdi. Əzizləyəcəkdi. Uca tutacaqdı. Ölümünə yanacaqdı. Allaha asi düşəcəkdi. Ölüb sevdiyinə qovuşanacan heç bir kişiylə iltifat qurmayacaqdı. Bircə anlığa özünü büruzə verən xəstəlik Kişinin bir ömürlük arzusunu həll etmişdi.

İlk görüşün ardını laqeydlik müşayiət etdi. Yenə saymazlıq. Yenə sükuta bürünmüş aylar. Əvvəlki mehribanlığın, ılıq axşam zənglərinin, ərkyana məsləhətləşmələrin yerini dərin boşluq tutmuşdu. Təsadüfən rastlaşmasalar, Kişinin onu arayıb-axtaracağı

yoxuydu. Bəzən maşınları yolüstü rastlaşanda Kişi qadının yanından yel kimi sürüb keçərək sanki ona "səni heç görmürəm!" mənasında meydan oxuyurdu. Halbuki qadının avtomobilini əla tanıyırdı və hər gün şəhərin küçələrində gözü onun maşınını axtarırdı. Kişi gözə görünmədən Sevdiyinə uzaqdan baxmağı çox xoşlayırdı, daim onunla maraqlanırdı, nə etdiyindən xəbər tuturdu, yerində olub-olmadığını yoxlamaq üçün işinə zəng edərək susurdu. O, qadını ağrıtdığını, incitdiyini, üzdüyünü bilirdi və bundan xüsusi həzz alırdı. Aralarındakı münasibət Kişinin səbatsızlığı ucbatından xəstəhal bir əlaqəyə çevrilmişdi. Və həmin əlaqə yaxşı heç nə vəd etmirdi.

...Arabir görüşürdülər. Arabir deyəndə ki, fasilə aylarla ölçülürdü. Qadın onu ürəyindən ata bilmirdi. Nanəcibliyinin səbəbini az-çox bildiyindən, güzəştə gedirdi. Ərindən ağzı yanmışdı. Sevdi də yarımadı. Daha bundan sonra həyatına üçüncü bir erkəyi daxil edəsi deyildi. "Cəhənnəmə ki..." – deyə fikirləşirdi. İl yarım da belə keçdi.

Kişi dolğun həyat sürürdü. İşində-gücündəydi. Ona kəmənd atan qızlarla da görüşməyə başlamışdı. Birdəfəlik eşq macəraları yaşayırdı. Dissertasiya yazdırırdı. Elmi ad almağa çalışırdı. Maşınını təzələyirdi. Karyerasında irəliləyirdi. Dostlarıyla görüşürdü. Xeyrə-şərə yarayırdı. Bir sözlə, kənardan baxana qətiyyən xəstə təsiri bağışlamırdı. Qadın da məəttəl qalmışdı. Bir tərəfdən, ömrünün yarıda kəsilməməsi üçün gecə-gündüz Allaha dua etdiyi bu insanın yaşadığını gördükcə sevinirdi. Digər tərəfdənsə, özünə qarşı ögey

münasibətin səbəbini anlayammadığı üçün ürəyində ona qəzəblənirdi. Qadın aciz qalmışdı.

Kişi hələ də onu sevirdi. Amma "qadını sevəndə adama əzab verir" fikrində olduğu üçün inadla uzaqlaşırdı. Qadının əzablarını vecinə almırdı. Daha bayramlarda da yada salmırdı Sevdiyini. Bunu güclü kişi olmaq kimi dəyərləndirirdi. Özü üçün orijinal yol seçmişdi: yalnız kefinə düşəndə iltifat edib zəng vurardı. Onda da giley-güzar eşidən kimi bəhanə tapıb danışığı yarımçıq kəsərdi. Qəddarlığından zövq alırdı. "Mən nə istəsəm nail olaram..." düşüncəsinə özünü yaman inandırmışdı.

Kişi müntəzəm müalicə altındaydı. Yaşamaq uğrunda mübarizəsini bir an belə dayandırmırdı. Xarici ölkələrdəki növbəti müayinələrdən birində möcüzə gerçəkləşdi. O, tamam sağalmışdı. Həyati təhlükə sovuşmuşdu. Şad xəbəri əzizlərinə çatdırdı. Vətənə döndükdən sonra qadınla görüşməyə dəfələrlə təşəbbüs etdi. Aralarında soyuqluq olsa da, bu xəbəri onunla paylaşmağı özünə borc bilirdi. Sevdiyi isə Kişini yaxına buraxmırdı. Deyəsən, özünü qorumaq fikrindəydi. Kişi qadını anlayırdı. Axı, hər görüşdən sonra ona cəhənnəm əzabı yaşadırdı. Aylarla susur, yüz səksən dərəcə dönürdü. Məntiqə sığmayan bu davranışı Sevdiyi üçün əsl tapmacaydı. Kişinin sükutu qadını əzirdi. Onu ruh düşkünlüyü girdabında boğurdu. Yarpaq kimi həyatdan qoparırdı. Taleyin axarında ruzgara sovururdu. Kişi isə ürəyində qadınçün darıxsa da, bunu büruzə vermirdi.

Arada məsafə saxlayırdı. Çünki Sevdiyinə sıx bağlanmaqdan qorxurdu.

Nəhayət, görüş baş tutdu. Sevdiyinə iki müjdəsini birdən verdi Kişi: xəstəliyə qalib gəldiyini bildirdi. Və evlənəcəyini söylədi. Alicənab qadın elə şad oldu ki!.. Dualarını qəbul etdiyi üçün ürəyində Allahına şükürlər etdi. Həmin gün onlar sevgilidən daha çox iki möhkəm dost kimiydilər. Çox mehriban ayrıldılar. Aralarında ruha qida verən bir istilik yarandı. Yenə əvvəllərdəki kimi tez-tez zəngləşib xəbərləşirdilər. Belə getsə, yaşadıqları sivil dünyada sivil formada ayrılan azsaylı azərbaycanlılardan olacaqdılar. Amma bircə həftədən sonra mehribanlığın yerini soyuq rəsmiyyət və kobudluq tutdu. Hər şey o qədər qəfil və əsassız baş verdi ki, qadın yenə bu duruma hazırlıqsız yaxalandı.

Kişinin içində iki kişi yaşayırdı: biri qadını sevirdi, o biri qadından nəyinsə qisasını alırdı. Qadın qisas məsələsini başa düşmüşdü. Amma nəyin qisası olduğunu anlayammırdı.

Günlərin birində qadına dəvətnamə gəldi. Kişi onu toyuna çağırırdı. İlk reaksiyası sevinc oldu. Qadın bu xəbəri çoxdan gözləyirdi və özünü həmin duruma hazır sanırdı. Amma yanılmışdı. Qadınlıq heysiyyatı tapdanmışdı, qüruru əzilirdi. Qadın ta başlanğıcdan bilirdi ki, kişinin ailəsi boşanmış gəlinlə evlənməyinə razı olmaz. Çünki ortada "el-oba nə deyər?" məsələsi vardı. İndi gördü ki, bir şeyi bilmək başqa, onu yaşamaq başqaymış. Xəbəri eşidəndən

canı yanırdı. İçdən qovrulurdu. Toya gedib-getməyəcəyini müəyyənləşdirə bilmirdi. Kişi isə həyatından və qərarlarından məmnun idi. Qalib ədayla gülümsünürdü: "Qoy gəlib görsün. Yanıb töküləcək. Yansın daa... biri də bizimçün yanmalıdır... Bəlkə rəqsə də dəvət etdim. Qoy toyun bəyi ilə oynayıb özünü gəlin yerində hiss etsin. O da belə kam alsın məndən."

Kişi qadından o axşamın qisasını alırdı. Xəstəliyinin üzə çıxdığı axşamın. Sirrini ona bağışlaya bilmirdi.

...Toy gözəl keçdi. Şən, təmtəraqlı. Gəlin o qədər xoşbəxt idi ki, Bəyin gözünün qapıda qaldığını sezmədi. Bütün toyu qadının gəlişini gözləyən Bəy evə çatan kimi xəlvət bir guşə tapıb Sevdiyinə zəng etdi:

– Sən niyə mənim toyuma gəlmədin?..

Yuxulu-yuxulu rabitəsiz sözlər mızıldanan qadının mürgülü şüuru öncə sorğunun tonundakı çalara kilidləndi: amiranəydi, yoxsa təlaşlı?.. Çözəmmədi. Sonra bu darmacalda aranması faktı beynini qurcalamağa başladı: sönmüş ocaqdakı axırıncı közərtiydi, yoxsa qor tutmağa hazır qığılcım? Biləmmədi.

***29 dekabr 2011***





## QADIN

Saat Qadının üzünə dirənmişdi. Vaxt getmirdi. Gecənin məngənə qolları Qadını öz ağuşunda kilidləmişdi, zülmət barmaqlarıyla onun gözünü oyurdu. Qalın pərdə Ay işığını pəncərənin o tayında əsir etmişdi. Nə qədər baxsa da, sübhün gəlişindən əsər-əlamət görünmürdü. Düşüncələr fırtınasında çırpınan Qadın gecənin ağuşundan qurtulmaq istəyirdi. Səhər açılsa durub işinə-gücünə gedəcəkdi. Həyata qaynayıb-qarışacaqdı. Gecənin ona dəxli yoxuydu. Yaşamı gündüzün ömrü qədərdi.

Qadın ağlamaq istəyirdi. Ağlaya bilmirdi. Dünən aldığı zərbədən bu gün beli də ağrıdırdı. Yataqda dönəmmirdi. Əziyyət çəkirdi. Yıxılıb əzilmişdi. Şəhərin küçələri bərbad, yollar sökük-dağınıq. Kimin ağlına gələr gündüzün gün işığında, şəhərin mərkəzi prospektində belə bir sürprizlə qarşılaşacağı?!. Abadlığın tozu-dumanı milləti boğur. Heç kəs heç kəsin zəhmətini, çəkilən xərci qiymətləndirmir. Biri asfaltı təzələyib başa çatdıran kimi, o biri gəlib sökür ki, bəs mən də abadlaşdırıram; suyun, kanalizasiyanın, daha

nə bilim nəyin borularını dəyişəcəm... O da belə bir bəhsəbəhsin güdazına getmişdi. Əsas ağırlıq travmalı ayağına düşdüyündən çox göynədirdi.

Beynində dünənlə bugün, keçmişlə indi bir-birinə qarışmışdı. Kadrlar elə sürətlə bir-birini əvəzləyirdi ki, hadisəni aydınlaşdırmağa macal tapmırdı. Bu dəfə yaxşı qurtulmuşdu. İyirmi iki il öncəki hadisədən sonra ayağı iki ay gipsdə qalmışdı. Yenə həmin ayaq, tanış ağrılar. Tarix geri dönmüşdü?? Neqativ hadisələr təkrarlanırsa, dalınca düşüb onun taleyindən əl çəkmirsə, o halda pozitiv hadisələr niyə təkrarlanmır?! Elə bəxtəvər olardı ki! ...O zaman anası yanındaydı, qızını şahzadə kimi əzizləyirdi, indi anasızdı. Yəqin ona görə Allah betərindən qoruyub...

...Yıxılanda aldığı zərbədən yerə mıxlanıb qalmışdı. Yoldan keçənlərin köməyilə özünü evə çatdırmışdı. Anbaan, saatbasaat şiddətlənən ağrı Qadının bütün əzalarını sarmışdı. Ayağı elə ağırlaşmışdı, sanki bir ton idi. Amma Qadın sevinirdi. Sevinirdi ki, nə yaxşı sınığım-çıxığım yoxdur. Tənhalıq belə şeydir. Ağrının şiddətindən qovrulan Qadın kövrəlmək, hələlik yanında olan doğmalarına nazlanmaq əvəzinə sevinirdi və Allahına şükür edirdi...

O, qadın olmaq, zəif olmaq haqqından istifadə edəmmirdi. "Öz ayağım üstə dura bilirəm, yeriyirəm, kimsənin köməyi olmadan pilləkənləri qalxıram,

bəsimdir! Bunların müqabilində ağrı nədir ki? Dözmək olar...” – düşüncəsiylə özünə təsəlli verirdi.

Qadın işə gedəndə hər səhər altmış bir pilləkən qalxırdı. Yıxıldığı gecəni qorxu içində keçirmişdi: “Birdən çıxammasam...” Səhər pilləkənləri öz ayağıyla qalxanda həyatının ən böyük sevinclərindən birini yaşamışdı. Gün boyu kəpənək kimi uçmuşdu. Bunu xatırlayıb bir daha təsəlli tapdı. Ağrı canını üzürdü. Amma qüruru ona yüngülvarı axsamağa belə icazə vermirdi. Dost-düşmən içində dik durmağı vacib saydığından canını dişinə tutub dərhal yerişini nizamlayırdı.

Yatağında bu olayları bir daha şüurundan keçirən Qadın birdən hönkürdüyünü eşitdi. Nəhayət, bulağın gözü açılmışdı. “Eybi yox, bir az ağlayıb yüngülləşər, canımda toplanmış mənfi emosiyalardan qurtararam.” Bu fikirlər şüuraltında yer alınca Qadını gülmək tutdu: “Sən bir işə bax, gör nəyə sevinirəm – ağlaya bildiyimə.” Kranın suyu kəsilən sayaq anındaca göz yaşları yox oldu. “Ay axmaq, niyə ağlayırsan? Səni ovudanmı var? Üç sutka bu yataqda gecə-gündüz ağlasan, kimsənin ruhu duymaz. Qalx, üzünü yu, özünü topla.” İçindəki səs qeyri-ixtiyari onu yataqdan qaldırdı. Qadının göz yaşları duzluydu. Ağlayan kimi yanaqlarını yandırırdı. İndi də elə oldu. İslanmış balınca etinasız nəzər fırladıb

hamama keçdi. Əl-üzünü yuyan kimi dərisi xoşuna gəldi. Yağışdan sonra açılan göy üzü kimiydi. – Ağladım, rəngim açıldı, sifətim boğulmuşdu, – deyə gülümsədi. Əslində rəngi avazımışdı.

Hamamdan birbaşa mətbəxə keçən Qadının baxışları dibçəkdə bənd aldı. Qəlbini ovundurmaqçün gündüz özünə dibçək gülü almışdı. – Mən səni sevdim, sən də məni sev, – pıçıldamışdı təzə çiçəyinə. Dədə-baba həyətlərindəki qırxdüymə deyilən gülə oxşayırdı. Uşaqlığı, güllü-çiçəkli bağ-bağatları, güllərə canı-dildən qulluq edən Səkinə nənəsi durdu gözünün qabağında. Elə bildi ki, sübhün gözü yenicə açılıb, nənə yenə gülləri suvarır...

Qadın fikirlərini nizamlaya bilmirdi. Fırtınalı dənizdəki dalğalar kimi təlatümlüydü fikri-düşüncəsi, suyun üzünə hərdən bir şey çıxarırdı. "Hə, bu gülə bizdə qırxdüymə deyərdilər. Özü də dibçəkdə yox, torpaqda bitərdi. Sarısı olmazdı, yalnız qırmızı rəngdəydi, qızılgülün kiçik formatında. Mövsümü başa çatınca solar, gələn ilki ömrünü daha dolğun yaşamaqçün yaza qədər torpaqdan güc yığardı." Bir anlığa üzünə doğma yerlərin mehi toxundu, boyun-boğazını yalayıb keçən ılıq hava axını ardınca bağçalarındakı güllərin ətrini gətirdi, Qadın özünü sevimli tut ağacının budaqlarında gəzdiyi dövrlərdə hiss etdi. Həsrət çox güclüydü. Amma o bilmədi ki,

uşaqlığının geri qayıtmasınımı istəsin, yoxsa indisinin ürəyincə olmasınımı.

Qadın yeddi rəqəmini sevirdi. Dibçəkdəki sarışın gözəlin də açmış yeddi gülü olduğunu sezəndə bunu xoş əlamətə yozdu. Dərhal da kefi pozuldu: "Günümə bax, nəylə təsəlli tapıram..."

Qadın pəncərəyə baxdı. Uğradığı kiçik qəzadan iyirmi altı-iyirmi yeddi saat keçirdi. Qaranlıq düşmüşdü. Təsəlli reallığı dəyişdirmirdi. Yenə ağrılarıyla, qayğılarıyla baş-başa qalmışdı. Hamı öz evinə çəkilmişdi. Onun nə durumda olduğunun kimsəyə dəxli yoxuydu. Əslində heç kəsi qınamırdı da. Hərənin öz dərdi-səri vardı. Son vaxtlar Qadın adamların laqeydləşdiyinə daha tez-tez şahid olurdu. Bilmirdi günah dövrandadır, yoxsa insanlar cılızlaşıblar. Amma fakt faktlığında qalırdı. Televizor qarşısında dünyanın o başındakı bəd xəbərlərdən təsirlənən insanlar lap yaxındakıların halına yanmırdılar. Mənəvi dayaq olmaq anlayışı cəmiyyətin əxlaq normalarını tərk edirdi. Hələ maddi kömək heç mümkün deyildi, indiki dövrdə Allah kimsəni kimsəyə möhtac eləməsin, hamının sıxıntısı var.

Yenə tək və tənhaydı. Elə durumdaydı ki... bu anda hətta sevdiyi gəlsə, qapını açmazdı. Kimsəni görmək istəmirdi. Əslində kimsəyə görünmək istə-

mirdi. Xüsusilə ona. Bir az hisslərinin cilovunu boşaltmışdı. Güclü qadın imicində özünü toplayıb cəmiyyət arasına çıxmaqçün nəfəsini dərməliydi. "Zəng etsə, telefonlara cavab vermərəm. Səsimi duyunca ağladığımı biləcək. Heç xəbəri olmasın. Olsa nə fayda?! Yaxşı, birdən gəlib evin qarşısında dursa və işığın yandığını görsə?? Yox canım, gəlməz! Bu saatda onun burda nə işi var? Dərdi tökülmüşdü elə. Lap gəlsin. Mənə nə. Hər kəsin öz saxlancları var. Onun da var. Mən nədən bayram süfrəsi kimi sərgilənməliyəm?.. Açıq sandığı qurdalayan, maraq göstərən çox olar. Amma... içindəkilərdən yararlanmaq üçün baxarlar... Nə isə. Türklər demiş, boş ver."

Beləcə, xatirələr düşüncələri, ağrılar xatirələri əvəzləyirdi. Vücudu, beyni çalxanırdı. Sanki sürətlə hərlənən karuseldəydi. Təsvirləri tez-tez dəyişən monitorda bir ip ucu tapılmırdı. Kələf kimi hər şey dolaşmışdı. Fiziki ağrılar səsini ucaldan kimi, ruhunun iztirabları küncə qısılıb darısqallıqda daha bərk ağrıtmağa başlayırdı. Neçə günüydü ondan da xəbəri yoxuydu. Bilərəkdən arayıb-axtarmırdı. Qeyri-müəyyənlikdən bezmişdi. Qüruru incimişdi. "Nədən həmişə canıyanan mən olmalıyam?" İndi lap aləm bir-birinə dəymişdi. Nəyə daha çox üzüldüyünü aydınlaşdırammırdı. Cahanda mövcud olan

hər şey yoxa çıxmışdı və dünyanın bütün nemətlərinin yerində bir tək ağrı qalmışdı.

Gecənin intizar gözləri sübhün qapısına zillənmişdi. Açılan kimi o, yox olacaqdı. Növbəti ölümünü növbəti həvəslə gözləyirdi gecə. Könüllü olaraq qeybə çəkilməyə hazırıydı. Gecənin bu centlmenliyində arxayınçılıq notları da var idi. Sabahın axşamında yenidən öz postuna qayıdacağına əminiydi. Qadınsa qeyri-müəyyən ağ atlının gələcəyi qeyri-müəyyən günü gözləməkdən usanmışdı. Qismətinə düşən həyatda istədiyi kimi yox, bacardığı kimi yaşayırdı. Və bacarmadığı o qədər çox şeylər varıydı ki!.. Dərdin dərdini çəkməkdən lap dərd əhlinə dönmüşdü. Bu da ilk növbədə özünün xoşuna gəlmirdi.

***mart 2009***



## KARUSEL

Toyun şıdırğı yerində özünü çatdırmışdı məclisə. Bu həndəvərdəki şadlıq evlərini bir-bir ayaqdan salmışdı. Bəxtindən ailə dostlarından biri foyedəydi. Əri mütləq burda olacaqdı. Özünü itirən Tahir – ay Xumar bacı, sən burda neynirsən – demək istəyirdi ki, sözünü boğazından qaytardı:

– Xoş gördük, Xumar xanım... Bilsəydik siz də gələcəksiz yanımızda yer şaxlardıq, – deyib suçuxdu. Əməlli-başlı həyəcanlanmışdı. Rəngi avazımış Xumar suala cavab vermədən – çağır onu, – dedi. – Bilirəm, burdadı!

Çıxılmaz duruma düşən Tahir bir istədi Teymurun toyda olduğunu inkar etsin, qadının qırımına baxıb çəkindi. Necə olsa ailəvi dost idilər, gediş-gəlişləri vardı, bir ton duz-çörək kəsmişdilər.

– Xumar bacı, sən alicənab qadınsan... Sənə yaraşmaz. Gəl bir taksiyə mindirim get evə. Sakitləş. Axşam gələr, söhbət edərsiz. Bütün işçiləri, çevrəsi burdadı. Yaxşı düşməz...

Nazik dodaqları gömgöy göyərmiş Xumar hikkəylə qışqırdı:

– Sənə dedim çağır o oğraşı, yoxsa özüm girəcəm içəri. O küçə qızının toyunu qara gətirməsəm, onu

alan o biqeyrəti rüsvay eləməsəm, mən də heç Mehbalı kişinin qızı döyüləm.

Qadının əlləri əsirdi. Çöhrəsindəki bütün əzalar titrəyirdi. Tahir heç onu belə görməmişdi. Bu an sezdi ki, Xumarın dizindən qan sızır, ətəkləri də tozludur. Görünür, tələsdiyindən yolda yıxılmışdı. Toy salonuna girsə, Allah qorusun... biabırçılıq ərşə dirənəcəkdi. Hirsi-hikkəsi yeri-göyü yandırırdı. Bir bəhanə tapıb onu burdan uzaqlaşdırmaq lazım idi. Tahir Xumarın qolundan tutub divanda oturtmaq istədi:

– Dizin sıyrılıb, ay Xumar bacı, salfet gətirim qanını sil.

Xumar bomba kimi partladı. Qadın get-gedə səsini yüksəldirdi. Foyedəkilər də diqqət kəsilib nə baş verdiyini öyrənməyə çalışırdılar. Naəlac qalan Tahir Teymuru çağırmağa getdi.

Məclisdə bir vur-çatlasın vardı, gəl görəsən. Teymur Arifəni qucağına sıxıb fırfıra kimi fırladırdı. Dövrə quran işçiləri də tamaşaya durmuşdu. Tahirin ürəyi qopdu, içində nə isə "gupp" elədi: "Xumarın gözündən iraq..." Tez qapıya boylandı.

– Harda qalmısan, Tahir? Bayaqdan gözüm səni gəzir. Bir görəydin Teymur Rəcəbli məşuqəsinə nə tariflər qoşdu... Deyərsən bəs, ərə gedən mələkdi. İndi də kollektivini rəqsə qaldırıb. Bəy də maşallah yaman mərifətli oğlandı, quzunu qurda tapşırıb, – deyərək Tahirə göz vuran Əhməd istehzayla əlini oynayanlara tuşladı – yəqin hörmətdəndi...

O ara musiqi dəyişdi, bayaqdan əl çalanlar da "Süleymani"nin sədaları altında süzməyə başladılar. Tahirin bəxti gətirdi. Fürsətdən istifadə edib dostuna yaxınlaşa bildi:

– Tez eşiyə çıx. Xumar gəlib.

Tahirin pıçıltıyla dediyi söz Teymura göy gurultusu kimi gəldi. Sanki qulağının dibindən möhkəm şapalaq ilişdirdilər, sifəti çuğundura döndü. Elə bildi hamı eşidib. Hövlnak çölə çıxdı. Xumarı görüncə qan beyninə sıçradı:

– Nə gəzirsən burda, evin-eşiyin yoxduuu?!

– Düş qabağıma, oğraş. Sənnən evdə danışacam.

– Ağzını topla, məni hövsələdən çıxartma! Get burdan!

Xumar yerindən qımıldanmadı. Arvadın tərpənmədiyini görən Teymur hədəyə keçdi:

– Axşam baxarsan... Kimin kim olduğunu göstərəcəm sənə.

– Səndə bir tikə abır-həya qalmayıb, utanmırsan? Neçə il başımın üstündə məşuqə saxladın doymadın, indi də toyuna gəlibsən?

– Nə qanmaz şeysən, aaz? Səni o nazirlikdə necə saxlayırlar bilmirəm. Məəttələm, o boyda şöbəni necə idarə edirsən... Yüz dəfə demişəm, mənim heç kəslə əlaqəm yoxdu! Arifə mənim işçimdi. Hörmətimnən oynama. Gözünlə görürsən ki, camaatın qızı ərə gedir, yenə böhtan atmağından qalmırsan. Ayıbdı. Çıx get!!

O lal-dinməz kişi dönüb olmuşdu şiri-nər. Xumar qarşısındakını tanıya bilmirdi. Bu hökmlü, özündən-

razı kişi onun əriydi? Evdə qız-qadın söhbəti düşəndə mülayimcəsinə etiraz edən, arvadını incitməməyə çalışan Teymurdan əsər-əlamət yoxuydu bu adamda. "Suyun lal axanıymış..." Özü də yaman yaraşıqlıydı. Lap təzə bəyə oxşayırdı. Ağlı başında olmayan Xumar bunu qadınlıq fəhmiylə duydu. Hikkəli səslə bağırdı:

– Sənsiz bir addım da atmaram! Düş qabağıma dedim! Yoxsa...

Xumar nə təhər reverans elədisə, Teymur onda gördü ki, arvadı məclisin qapısındadır. Kişi iri addımlarını atıb onu güclə tutdu. Teymur hündürboylu, pəhləvan cüssəliydi, arvadı isə bəstəboy, tökməbədən. Xumarın boynunun ardından tutub necə sıxdısa, qadının ürəyi getdi, tir-tap yerə yıxıldı. Arvadını sərçə kimi yerdən alıb divana uzadan Teymur tez ofisiantları hayladı. Elə bil əmrə müntəzir dayanmışdılar. O saat peyda oldular. Dava-dərman tapıb gətirdilər.

Xumar gözlərini açanda ilk gördüyü Teymurun acıqlı gözləri idi. Daha deyiləcək söz qalmamışdı. Qadın durub suyu süzülə-süzülə evinə yollandı. Ağlaya bilmədi. Nə yolda, nə evdə. Boğazına nəsə tıxanmışdı.

* * *

O axşam Teymur Rəcəbli toyda doyunca oynadı. Yedi-içdi, dedi-güldü, bir nəşələndi gəl görəsən. Bəy yalan olmuşdu. Gəlinin çalışdığı şirkətin böyüyü hamıdan çox sevinirdi. Bütün toyu üç dost – Teymur, Əhməd və Tahir ortadan çıxmadılar. Hərçənd Tahir bir az sarsılmışdı, ürəyində hey söylənirdi: "Xumarın

gəlişi yaxşı olmadı, heç yaxşı olmadı...Xumar bacı ləyaqətli qadındı. Gərək bu həngaməni özünə rəva görməyəydi..." Gözə görünməyən vicdan ona rahatlıq vermirdi. Nəhayət, araqla beynini deşən ağrıları birtəhər keyləşdirib özünü yenidən toy əhvalına köklədi. Əslində dostların ailəsi bu izdivaca Xumarın qələbəsi kimi baxırdılar. "Bir əyləncəydi, keçdi getdi. Qız ailə qurur, deməli, Teymurla əlaqələri kəsilib. Baş gicəlləndirən eşqdən heç nə qalmayıb... Ər-arvad arasındakı söz-söhbətsə boş şeydir. Barışarlar... Ortada üç uşaq var."

Teymur o gecə evə gəlmədi. Xumar sabaha qədər həyətdə oturub, qapının taqqıldamasını gözlədi. Amma nə maşın səsi eşidildi, nə də qapı döyüldü. "Küsdü. Ayıbına kor olmur, bu yolla mənə dərs verir. Ora getməyim şəstinə toxundu. Lap yaxşı elədim. Bu neçə ildə ürəyim şişdi. Havaxta qədər susacam. ...Görəsən, harda gecələyib? Yəqin dostlarıyla gecə klublarından birində əylənir. Həə, cənab Rəcəbli, demək istəyirsən: "Baaax, indi heç kəs yoxdur, amma gəlmirəm!" Olsun..."

Xumar qaranlıq həyətdə oturub qara günlərini qablayırdı. Bundan sonra kişini əlində tuta biləcəkmi? "Yaxşı, bu həyasız ərə getdi, başqaları peyda olmayacaq? On beş ildir evlənmişik. Nə qandım bu illərdə? Dişimnən-dırnağımnan ev qurdum Teymura. Əli qazanca çatanda əlimdən çıxdı."

Şaqqıltı səsi qadını fikirdən ayırdı. Budaqlar bir-birinə dəydi. Damda boğuşan pişiklər ağacın üstünə tullanmışdılar.

– Gecənin bu vaxtı əməllərinə bax. Çor dəysin sizə, - deyib yenə öz dünyasına daldı. "Bizi pis saxlamayıb. Di gəl ki, kallığı canımı boğazıma yığıb. Ona söz qandırınca, evdə bir işi gördürüncə anadan əmdiyim süd burnumdan gəlib. Uşaqlar iriləndikcə "baz"lığı da bir yandan çıxdı ortaya. Bu dərdə hansı qadın dözər? Nənəm demiş, gözəl ağa çox gözəliydi, vurdu çiçək çıxartdı. ...Elə bu qancığa da kallığından ilişmişdi. Qanıb-qandırmır ki. Bildiyi ancaq çertyoj-du, daşdı-qumdu-sementdi. Adamlardan baş çıxart-mır. O çoxbilmiş Teymuru yox ey, Teymurun pulunu istəyirdi, pulunu! Bunu sevirdisə duraydı da, niyə durmadı? İki daşın arasında ər tapdı."

Ürəyində keçmişini, gələcəyini götür-qoy edən Xumar özü də bilmirdi ki, o toyda nə axtarırdı. Qıs-qanclıqmı dartdı apardı, qadınlıq heysiyyatımı yol-dan çıxartdı Xumarı, qürurumu yol vermədi ərinin o məclisdə olmağına göz yumsun?.. Bu neçə ildə çox istəmişdi Teymuru məşuqəsiylə bir yerdə tutsun, xəya-nətini gözünə soxsun. Ancaq toy bunun yeri deyildi axı. "Kişi düz deyir də, camaatın qızı ərə gedir. Nəyi sübut edəcəksən bundan sonra."

* * *

Yalan sözdür ki ər-arvadın suyu bir yerdən götü-rülüb. Teymurla Xumarın görkəmləri kimi xasiy-

yətləri də tutmurdu. Qadın zirəkdi, qoçaqdı, gündə bir ideya irəli sürürdü. Kişi astagəl, ətalətli adam idi. Maraqlandığı bircə tikinti sahəsiydi. O barədə harda bir yenilik olsa, tapıb oxuyacaqdı. Öyrənib tətbiq edəcəkdi. Bacarıqlı inşaat mühəndisiydi Teymur. Məişətə gəlincə, Xumar ərini ha danlayırdı, bir şey çıxmırdı. Qohum-əqrəba da öyrəşmişdi onun məclis başında kişini pisikdirməsinə, el-gün yanında tənbehləməsinə. Adi qəbul edirdilər. Bircə qardaşları qeyzlənirdi Teymura: "Kişidə bu qədər hövsələ olar? Mənim arvadım camaatın yanında belə rəftar eləsə, həmin gün yollaram atası evinə..."

Məşuqə söhbəti ortaya çıxandan qadın başını itirmişdi. Teymur boynuna almırdı. Dedi-qodu da səngimirdi. Xumar yandığından bilmirdi neyləsin. İşdə kabinetini yas çadırına döndərmişdi. Tək qalıb fikir eləməsin deyə, işçilərin biri gedib-biri gəlirdi. Dərdinə şərik olurdular.

Səhər-səhər yenə ərdən narazıları çənəsinin altına salıb əsəbi-əsəbi deyinirdi:

– Bu mənim qədrimi bilmir. Bilmədi. Namus-qeyrət deyirsən, məndə. Savad deyirsən, vəzifə deyirsən, məndə. Bu, şirkəti qurandan sonra qudurdu, ay qızlar, buraxmayın ərinizi vəzifəyə. Az qazansın, amma yanınızda olsun. Deyin görüm, mənim kimi təmizkar, qoçaq gəlin harda var? Camaatın arvadı beş kilo ətdən ortalığa düz-əməlli yemək çıxarda

bilmir. Amma mən ömrüm boyu bir kilo ətdən beş cür yemək hazırlayıb düzmüşəm Teymur bəyin süfrəsinə. Evə gələn də elə bilib var-dövlət başdan aşır. Eltilərimin altısı yığılsa, mənim təkbaşıma gördüyüm işi görə bilmir. Xeyirdə də belədi, şərdə də. Kənd başıma and içir. Əfrasiyab müəllimin gəlinnərindən söz düşəndə adım başda çəkilir.

Rəfiqələri onu səbrlə dinləyirdilər. Bilirdilər ki, "ömür boyu bir kilo ət" məsələsi doğru olmasa da, Xumarın qabiliyyətinə söz yoxdur. Çox bacarıqlı ev xanımıydı, biş-düşdən xüsusi zövq alardı. Evindən qonağı əskik olmazdı. Açdığı süfrələr dillərdə deyilərdi.

– Bu mənim nəyimi bəyənmir, hee? Mənim qadınlığım yoxdu bəyəm? Fiquramı bəyənmir? Lütləri xoşlayır, bundan sonra mən də soyunacam! Bəzək istəyiiir, kosmetikanı elə yaxacam yoldan keçənə gəl-gəl desin. Müasirlik istəyir həə, bundan sonra evdə qazan asana lənət! Axır vaxtlar haqqın yolunu tapmışam. Bacı, gec gələndə demir – vacib yoldaşlarnan restorandaydıq, – indi də biznən getsin. Astanadan içəri girən kimi deyirəm – soyunma, xörək bişirməmişəm, apar restoranda yeyək, həm də gözümüz adam görsün. – Malını dağıtmaqdısa, mən də belə dağıdacam. Bəsdi ona ev yığdım, özümə hər neməti əsirgədim. Vaxtsız qocaldım bu kişinin əlində. Uşaqlarımı da başıma yığıb gedirəm restoranda allı-əlvanlı yeyirəm, sonra da ortalığa düşüb oynayıram.

Qoy qısqansın. Görsün kişilər mənə necə baxır. Bəlkə ağlı başına gələ.

Xumar xanım yaxşı insan idi. Üz ağardan müdir idi – bacarıqlı, mərhəmətli. Abırlı-ismətli qadınıydı. Nazir başda olmaqla işdə hamı xətrini istəyirdi, hörmətini saxlayırdı. Amma ərinin xəyanəti, soyuqluğu yıxmışdı gəlini. İndiki halında özgələşmişdi. Özünə bənzəmirdi. Teymurun acığına paltarlarının ətəyini dizdən yuxarı qaldırmışdı. Koftaları elə şəffaflaşmışdı ki, altdan nə geyinsə, görünürdü. Saçı gündə bir rəngə çalırdı. Əlqərəz, Xumar baxırdı görsün, əri hansı görkəmdə onu istəyəcək... və məşuqəsindən əl çəkəcək...

* * *

Toydakı çəkişmədən sonra Xumar hövllənmişdi. Evə-eşiyə fikir vermirdi. Həmişə sevincə bələnmiş pəncərələrindən indi məyusluq yağırdı. Çirkli, tozlu şüşələr həyətə girənin sinəsindən itələyib çölə çıxarırdı. İçəri girməyə həvəs qalmırdı. Gələn adam uzaqbaşı həyətdə oturub bir-iki kəlmə kəsəndən sonra yolun uzununu alırdı əlinə. Dadlı-ləzzətli təamlarla dolu süfrələrdən əsər yox idi. Uşaqlar da hiss edirdilər ki, analarının bişirdiyi xörəklərin dadı-tamı qalmayıb. Məyusluq bu ailəni yeyib-bitirirdi. Arifənin toyu çalınan o axşam analarının üstünə üç-dörd təcili yardım gəlmişdi. Ürəyi sözə baxmırdı. Elə bil Allahın uşaqlara yazığı gəldi, qadını ölümdən döndərdi.

Zaman keçdikcə ər-arvadın çəkişməsinə maraq azalırdı. Ardı-arası kəsilməyən şikayətlər yorurdu camaatı. Ha fikirləşirdilər ki, uşaqları da böyüyüb, belə ərdənsə boşansa daha yaxşı olmazmı? Ancaq Xumar xanım boşanmaq sözünü yaxına buraxmırdı: "Ərimi öz əlimnən aparım verim o qancığa? Heç vaxt! Ölərəm, boşanmaram."

Xumarın huşu-fikri ərinin diqqətini cəlb etməkdi. Bütün günü özünə sığal verirdi. Gözəllik salonlarını su yoluna çevirmişdi, elə keçəndə də girirdi, belə keçəndə də.

* * *

Toydan üç il keçirdi. Teymurgilin şirkəti iflasa uğramışdı. Bütün tikinti materiallarını, inşaat avadanlıqlarını, texnikanı satıb bankın borcunu vermişdilər. Dostlar indi çörəklərini başqa işdən çıxarırdılar. Azərbaycandan maşın-maşın meyvə-tərəvəz yükləyib şimaldakı ölkələrdə satdırırdılar. Qədim Azərbaycan xalçaları, gümüş qablar, zinət əşyaları... Bu biznesin də öz ləzzəti var idi. Həm ticarət olurdu, həm ziyarət. Hərəsi Rusiyanın, Ukraynanın, Baltikyanı ölkələrin birində oxumuşdu. İnstitutdan sonra qalıb işləmişdilər də. O tərəflərə beş barmaqları kimi bələd idilər. Səfərlər ləzzətli keçirdi: dost-tanışlar, tələbə yoldaşları.., dadı damaqlarında qalmış əyləncələr... Yenə səfərdəydilər.

– Ay Tahir, sən bilərsən, bu Teymur hər axşam eyvanda saatlarla kimnən danışır? Olmaya bizdən

pul qırpır? Alıcıları bişirib baha satır, bizə də kələk gəlir...

– Bu nə sözdü, Əhməd? Birdən-ikiyə Teymurun fırıldağını görübsən? Yəqin gözəlçələrlə behləşir.

– Sən nə istəyirsən de, mən bunu güdəcəm. Görüm kiminlə nə danışır.

Tahir dildə etiraz etsə də, ürəyində Əhmədin sözündən alınmışdı. Fikrində aranı dağa, dağı arana daşıyırdı: "Görən, Teymur əmanətə xəyanət edər? Belə olsa bir dəqiqə durmaram burda! Tüpürərəm sifətinə, yolumu ayıraram. Ancaq Teymurdan xəyanət – inandırıcı deyil..." Tahir ha baş çatlatdı, Əhmədin şübhəsinə yozum tapmadı.

Teymur Rəcəbli yenə otelin eyvanına çıxmışdı. Şübhələrin əlində əsir-yesir qalan Əhməd də xəlvətcə onu dinləyirdi. Üzündə əvvəlcə heyrət, sonra təəccüb peyda oldu. Axırı hirs bürüdü çöhrəsini. Çarpayıda uzanıb Əhmədi gözdən qoymayan Tahir gördüklərini bildiyi kimi yozdu: "Yəqin bu çoxbilmiş düz deyirmiş. Yaman hirsləndi. Tfuuu sənə Teymur, kələk gəlməyin də varmış?.."

Əhməd necə təsirlənmişdisə, dostu otağa qayıdan kimi hücuma keçdi:

– Cənab Rəcəbli, sən nə vaxt ağıllanacaqsan? Öz ailəni bədbəxt elədin yetmədi, indi də xalxın qızının ailəsini dağıdırsan? Demirsən, əri evdə olar, qalmaqal düşər...

Əhməd coşduqca mətləb Tahirə aydın olurdu: “Hmmm. Bu, köhnə məşuqəsiylə danışırmış. Yaxşı ki, hövsələmi basdım. Ticarətdə suçlasam, məni bağışlamazdı. O qızda nə tapmışdısa, görünür unuda bilmir.” Yataqdan qalxıb Əhmədə dəstək verdi:

– Teymur, heç yaxşı iş görmürsən. Camaatın qızı ərə gedib. Gül kimi toyu oldu, özün də ağayana iştirak elədin. Aranızda nə olmuşdusa, bitdi-getdi. Xumar bacı da günahından keçdi. Gəl, daşı ətəyindən tök. Qızın evini yıxma.

Teymur Rəcəblidən bir şaqqanaq çıxdı, gəl görəsən.

– Siz məni dolayırsız, başınıza zarafat qəhətdir? Yoxsa doğrudan qəflət yuxusunda yatıbsız?

Kişinin əzələli çiyinləri atılıb-düşdükcə sifəti çuğundur tək qızarırdı. O qədər güldü ki, gözündən yaş gəldi.

– Ay kişi, doğrudan bilmirdiz ki, o toy mənim öz toyumdu!?

Oteldə bomba partlasa, ya zəlzələ olsa, belə təsir etməzdi. Xəbər dostları ayağa dik qaldırdı.

– Nəəəə? Bəs o bəəəyyyy?? Bəy vardı axıııı?

– Bəyi pulla tutmuşdum. Haqqını verib icarəyə götürmüşdüm. Necə razı salmışdımsa, qabağımda mil dururdu. Ağzı nəydi, ssenaridən qırağa çıxa. Dərsini yaxşıca əzbərlətmişdim. Mən elə bilirdim, başa düşmüsüz, canı-dildən vururduz axı. Görmədiz, bütün toyu gəlini özüm oynatdım!?

Tahir fikirli-fikirli başını yellədi:

– O üzdən Xumar bacı gələndə getmədin. Qaldın kef elədin. Heç halını pozmamışdın. Mən də fikirləşdim ki, möhkəm adamsan. Deməli, öz toyunmuş...

Əhməd hələ şokdaydı. Xəbəri götür-qoy edib, beynində yerləşdirməyə çalışırdı:

– Belə çıxır, sən iki arvad saxlayırsan? Əəə, qırışmal, bu lal-dinməz canında nələr var sənin?

Teymur Rəcəbli bir xeyli də güləndən sonra vəziyyəti dostlarına başa saldı:

– Arifə xanımın ailəsi narahat olmuşdu, mən də kişi kimi toy çaldırıb qızı gəlin köçürtdüm. Kəbin də kəsdirmişəm. Amma ağzınızı bərk tutun. Arvadlarınız bilsə, o saat Xumarın ovcuna qoyacaqlar. Qulağım ancaq dincəlib.

* * *

Bina tikən vaxtlar əli bağlama-bağlama pullara öyrəşmiş Teymur Rəcəbli kasıblıqla yola gedəmmirdi. Ticarət işi tikintinin yerini vermirdi. Borc yaxasından yapışıb əl çəkmirdi. Evlərini, bağlarını, Xumarla uşaqlarına aldığı qızılı-brilyantı satmışdı. Amma tanış-bilişə olan borc qurtarmırdı. Kasıblığın yaman acı sürprizləri varmış. Dünənə qədər qapısında yatanlar qəpiklərinin də dalınca gəlirdilər. İnsanların üzü dönmüşdü. Tahirlə Əhməd sakitcə aradan çıxmışdılar. Müflis olmuş şirkət prezidenti ən arzuolunmaz dosta çevrilmişdi. Nömrəsini görəndə telefonu açmırdılar. Xumar çox çalışsa da, ərinin yükünü yüngülləşdirə bilmirdi.

– Ta faizə pul tapma. Gündən-günə şişir. Bütün qazancımı faiz yeyir. Litvadan da xəbər çıxmadı. Bilmədik mallar satıldı, qaldı? Belə getsə başımı götürüb qaçacam burdan. Başqa çarə yoxdu.

– Sən qaçdın, bəs biz? Borc yiyələri bizə rahatlıq verəllərmi? – deyə Xumar qayğılandı.

– Siz qalırsız. Qızların institutu var. Gedim pul qazanım ki, borcları verə bilək.

– Elə şey olmaz. Sən harda, biz də orda!

– Xumar, qanımın bu qara vaxtında sən də bir yandan hövsələmi daraltma. Mən bilmirəm nə vaxt iş tapacam, harda qalacam.

O gün Teymur çox dedi, Xumar az eşitdi. Axırı belə razılaşdılar ki, Teymur yolunu-izini öyrənsin, gedib yerləşsin, arvad-uşaq dalınca yollanar. Bu minvalla Teymur Rəcəbli Avropaya üz tutdu. Əslində ərinin Bakıdan getməyi Xumarı sevindirirdi. "Nə qədər burdan uzaq olsa, yaxşıdır. "O"nu da unudar. Ağlı başına gələr."

* * *

İş yoldaşları Xumarı çox danladılar. Faydası olmadı. Teymur hələ razılıq verməsə də o, işbazlardan Avropada məskunlaşmağın yolunu öyrənmişdi. Sənədlərini düzüb-qoşdu. Və... sürgündəki dekabrist ərlərinin dalınca Sibirə yollanan rus zadəgan xanımları kimi, ərinin dalınca namüəyyən gələcəyə doğru yol aldı.

...Mühacir həyatı sürdükləri Fransada ərlə arvad başqa-başqa şəhərlərə düşmüşdülər. Ailə nadir hallar-

da görüşürdü. Dil bilmədikləri ölkədə iş tapmaq müşkül məsələydi. Fransada vətəndaşlıq almaq, boyunlarında qalmış borcları ödəmək naminə ən çirkli və ağır işlərdə çalışırdılar. O da xəlvəti. Yoxsa, dərhal müavinətlərini kəsər, özlərini də ölkədən çıxarardılar.

– Bakıdakı vəziyyətimiz bunun yanında toya getməliydi, ana, – deyə Ülviyyə şikayətlənirdi. – "Uf" demədən bizi universitetdən ayırdın. Oxuyub doxdur olacaqdıq. Burda biz kimə lazımıq? Sənin xəbərin yoxdu, Məlahət bütün günü ağlayır. Axırımız nə olacaq?

– Qızım, elə mən də sizin gələcəyinizi düşünüb gəlmişəm. Ailəmizi bir arada tutmaq üçün.

– Xumar xanım, bəsdi nağıl danışasan, – Məlahətin etiraz səsi ucaldı. – Sən ərindən ayrı qalmamaqçün gəlmisən, bizə görə deyil!

Qızı isterika tutmuşdu. Titrəyə-titrəyə ağlayır, hönkürtü içində sözünü deyirdi. Övladının dilindən axan zəhər ananın damarlarına yeriyirdi. Xumarı topla, tüfənglə vursalar belə sarsılmazdı. Hər kəlmə, hər ittiham onu şillə kimi tuturdu. Sözün zəhəri qana işlədikcə gah saralır, gah qızarırdı.

– Bizi uşaq yerinə qoyub tovladın. Bu nə yaşayışdır? Bakıda o boyda vəzifəniz varıydı, fərəhlənirdik ki, atamızın şirkəti var, anamız nazirlikdə işləyir. İndi kimik? Necə deyək ki, ziyalı anamız öz ölkəsində gül kimi işini qoyub gəldi burda fransızların tualetini təmizləyir, otellərdə çirkli qabları yuyur... Budur sənin bizə vəd etdiyin parlaq gələcək? O qədər əziy-

yət çəkib Tibb Universitetinə girmişdim. Sən bizi də, arzularımızı da öz nəfsinə qurban verdin. Atamız getmişdi evdən, sən oturaydın yerində. Biz də tay-tuşdan ayrı düşməzdik. Dərsimizi oxuyardıq. Burda darıxıb ölürük.

* * *

Vəziyyət heç dəyişmirdi. Yaxşı günlərin küləyi əsmirdi bu tərəflərdə. Sanki işıqlı həyatı zindana salıb, qapısına da üç-dörd qıfıl vurmuşdular. Üç aydan bir sosial işçilər gəlib mühacirləri yoxlayırdılar. Qayda beləydi. Vaxtaşırı keçirilən məhkəmələr qoymurdu deportasiya qorxusu Xumargilin canlarından çıxa. Böyüklü-kiçikli hamısının əsəbləri gərilmişdi. Çıxış yolunu boşanıb evlənməkdə gördülər. Gələcəkdə Fransa vətəndaşlığını ala bilməkçün Teymur saxta izdivaca girəcəkdi, sonra da yenidən ailəsi ilə birləşəcəkdi.

Beləliklə, uzaq Avropada rəsmi boşanma gerçəkləşdi. Bakıda Arifəyə vermədiyi ərini öz razılığıyla fransız xanıma təslim etdi Xumar. Amma ürəyinə dammışdı ki, bu xına o xınadan deyil. Qərbli qadından kişisini qoparmaq asan olmayacaq.

* * *

Teymur fransız arvadıyla çox rahat ömür sürürdü. Qəşəng ev-eşikləri vardı. Qabağında qulluqçular işləyirdi. Ketrin onu tikinti sifariş verənlərlə calaşdırmışdı. Teymur Rəcəbli özünü suda balıq kimi hiss edirdi. Orta məktəbdən az-çox bildiyi fransız dilində indi sərbəst danışırdı. İşini yola verirdi,

ünsiyyətə girməyə çətinlik çəkmirdi. Avropalı qadınla qurduğu ailə çox fərqliydi. Əvvəlkilərə bənzəmirdi. Teymur bu maraqlı həyatı yaşamaq istəyirdi. Mücadilə etməkdən yorulmuşdu.

Beləcə illər keçirdi. Qara günlərin ağaracağını gözləyən Xumar intizarda qalmışdı. Növbəti məhkəmələrin birində deportasiya qərarı çıxdı. O, bu dəfə hakimləri siyasi qaçqın olduğuna inandıra bilməmişdi. Anayla həddi-büluğa çatmamış oğlu ölkəni tərk etməliydilər.

Qızlar artıq ailəliydilər. Qismətləri yaxşı yerdən açılmışdı. İkisi də Fransada yaşayan türklərə ərə getmişdilər. Ülviyyənin məsumluğu, Məlahətin saflığı qərb mühitində o saat nəzərə çarpmışdı. Düşdükləri evdə ürəyəyatan gəlin olmuşdular. İllər öncə ərinin ayrılığına dözəmməyən Xumar indi həm ərini, həm qızlarını qürbətdə qoyub vətənə dönürdü.

* * *

Teymur xəstələnmişdi. Onu klinikaya yatıran Ketrin ərinin tibbi sığortasını həll edib getmişdi. Həftələrlə yanına gəlmirdi, işdən-gücdən macal tapmırdı, telefonla xəbərləşirdilər. Bakıya doğru yol üstündə olan Xumarsa özünü yetirmişdi. "Dünya fani dünyadır. Bilmək olmaz bundan soora başımıza nələr gələcək. Bir də görüşmək qismət olacaqmı?.."

Uşaqların anasının gəlişi kişiyə yaman yer eləmişdi. Xəstəxana çarpayısında bütün həyatını xəyalından keçirən Teymur doğmaları üçün qəribsə-

yirdi: "İstiqanlılıqda bizimkilərə çatan olmaz..." Hardansa yadına "hər çiçəyin öz ətri, hər gülün öz rəngi var" deyən mahnı düşdü. Dodaqaltı zümzümə etməyə başladı.

* * *

O vaxt Avropaya gələndə durumu necəydisə, indi vətənə dönüşdə eləydi: Xumargili hamıdan və hər kəsdən öncə çətin günlər qarşılayacaqdı. Hünər istəyirdi yenidən yurd-yuva qurmaq, iş tapmaq... Gücü yetəcəkdimi? O üzülmüşdü, yanılmışdı, ərsiz qalmışdı. Təyyarə Binə aeroportuna enənədək fikir yaxasından əl çəkmədi.

Aeroport yolu boyunca hərə öz aləmindəydi. Ana-bala yol boyu sükut içində şəhəri seyr edirdilər. Bakı yaman dəyişmişdi.

– Biz qoyub gedəndə nə gündəydi, indi tanımaq olmur. Nüsrət, bizə bələdçi lazım olacaq, – deyə zorla gülümsünən Xumar səssizliyi pozdu. Oğlunun könlünü almaq istəyirdi. Nüsrətin qaşqabağı açılmırdı. Onsuz da dərdi başından aşan Xumar oğlunun bu halını görüb bir az da qayğılandı: "Atasının xiffətini eləyir. Yaşının pis vaxtıdır. Bunun qabağını nə təhər alacam Teymursuz..."

Qohumlar hamısı süfrə başındaydı. Xumargilin görüşünə gəlmişdilər. Bacısı Xatirə bir plov dəmləmişdi, ölü yesə dirilərdi. Yeməkdə nə hikmət vardısa, birinci qaşıqdaca ayrılığın yaratdığı həsrəti sovuşdurdu. Orda necə bişirsə də, plov bu dadı vermirdi. Özünü hələ də qonaq kimi hiss edən Xumar plovun

ətrini ciyərlərinə çəkdikcə qəribə duyğular yaşayırdı. Bir an ona elə gəldi ki, ömrünün mühacirət dövrü heç olmayıb, həyat həmişəki axarıyla davam edir, Teymur da süfrə başındadır, qızları da.

Vücuduna rahatlıq gətirən bu hissdən Xumarı sorğu-sual ayırdı. Hərəni bir şey maraqlandırırdı. İçindəki dünyadan aralanıb doğmalarına nəzər salan Xumar birdən kəşf etdi ki, hamı dəyişib. Qayınanası Zeynəb müəllimə qocalmışdı. Nisgilli gözlərini gəlininin ağzına dikib oğlundan soraq gözləyirdi. Yad ölkədə ailəsini taleyin ixtiyarına buraxan Teymura nə qədər acığı tutsa da, qohum-əqrəbasını çox istəyirdi Xumar. Odur ki, ahıl qadını intizarda qoymadı:

– Zeynəb müəllimə, Teymur orda evlənsə də, Fransa vətəndaşlığını almasına illər lazımdı. Qaydaya görə sınaq müddətində heç yerə gedə bilməz. Ancaq sən narahat olma. Oğlun o fransız gözəlçəsiynən doğrudan-doğruya evlənib. Ona görə də, vaxtı çatanda vətəndaşlıq alacaq. Sonra hara istəsə gedə bilər. Oğlunu görəcəksən, darıxma.

Xumarın səsindəki istehza notları, Teymurdan narazılıq çaları qulaq deşirdi. Süfrə başındakılar elə bil yatmışdılar, oyandılar. Onun qəlbində nə böyüklükdə yara açıldığını səsindən başa düşdülər. Həlim, mehriban Xumardan əsər-əlamət qalmamışdı. Təkcə səsi yox, bütün görkəmi əsəbi və gərgin idi. Üzü Fransada yaşadığı ağır günlərin aynasıydı. Halbuki, Xumar uşaqlıqdan Fransanın vurğunuydu. Fransız romanlarını əlindən yerə qoymaz,

filmlərinə baxmaqdan doymazdı. Sən demə, cənnətdə də cəhənnəm həyatı yaşamaq olarmış...

– Ay qızım, sizinki yaxşı gətirmədi. Neynək. Sən Allah, qəlbini bulandırma oğluma qarşı. Deyirsən, özü də xəstədi.

Qadın bir az nəfəsini dərib ağlamsındı:

– Kimnən olur-olsun, bircə oğlumun sağ səsi gəlsin! Neçə ki ölməmişəm boynuna sarılıb üzündən öpüm, doyunca görüm, başqa dərdim yoxdu.

Ana qəlbinin həyəcanı süfrə başındakıların içini titrətdi. Boşqablara toxunan qaşıq səsləri kəsildi. Əllər salfet qabına uzandı. Hamı kövrəlmişdi. Zeynəb nənə nəvəsini bağrına basmışdı, taxtaya dönmüş quru əllərilə Nüsrətin kürəyini sığallayır, saçlarını oxşayır, qoxulayırdı. Ondan Teymurun ətrini almağa çalışırdı. Salfet götürənlər onu gözlərinə sıxırdılar...

* * *

Zamanla hər şey yoluna düşdü. Teymur da doğmalarının yanına gəlib-getməyə başladı. Qohumlar araya girib küsülüləri barışdırdılar. Xumar özgəsilə rəsmi nikahda olan Teymuru ər kimi qəbul etdi. Çox dəm vurduğu halallıq söhbətini bu dəfə heç yada salmadı. Özünü haqlı sayırdı. Elə bil cavanlıqda ərə getdiyi bu kişini o vaxtdan özəlləşdirmişdi.

Teymurun bir ayağı Bakıda, bir ayağı Marseldəydi. Tez-tez doğmalarının görüşünə gəlirdi. Ketrin alicənab qadın idi. İlk vaxtlar hey deyirdi ki, oğlunu da gətir, bizimlə yaşasın, Nüsrət xalis fransıza oxşa-

yır. Teymur da arvadını başa salmışdı ki, Xumar ölər, amma uşağını verməz. Ketrin Teymurun Azərbaycana tək getməyini də söz eləmirdi. Xumarla yaxınlığından şübhələnsə də, üstünü vurmurdu. Teymur Marseldə olmayanda gününü köhnə dostlarıyla yola verirdi. Nə vaxtsa Bakını əri ilə birgə gəzib-dolaşacağına inanırdı. O günü gözləyirdi.

* * *

Xumarın təzə iş yoldaşları vəlvələyə düşmüşdülər. Natellanın bacısı təcili yardımda çalışırdı. Çağırışa gedəndə ağlasığmaz hadisəylə qarşılaşmışdı: Arifəgilin qapısını Xumarın əri Teymur açmışdı, qucağında da xəstə uşaq. On yaşlı qız Teymurun dost-doğmaca övladıymış – Rəcəbli Şirin Teymur qızı!

"Qələm" nəşriyyatında hamı Xumar xanımın başına gələnlərdən xəbərdarıydı. Nigaran qalmışdılar:

– Bilsə infarkt keçirər, Xumara deməyin.

Teymur Rəcəblinin həyatı karuselə dönmüşdü, nəfəsini dərib dövrəsini hər təzələyəndə onu bir ayrı evinə götürürdü. Bir-birinə heç bənzəməyən üç doğma ocaq, bir-birini görməyə gözü olmayan üç istəkli arvad bu kişinin yolunu gözləyirdi.

***aprel 2013***



## TALE OYUNU

Zülqədər gəlinbacı "Eurovision" mahnı müsabiqəsinin eşqinə rayondan durub Bakıya gəlmişdi. Neçə il idi iş-güc imkan vermirdi. Axır vaxtlar doğmalarıyla internet vasitəsilə əlaqə saxlayır, skaypda görüşürdü. – Allah atasına rəhmət eləsin internet çıxardanın, daha qabaxlardakı kimi poçta getməyə ehtiyac qalmır. Elə otur öyündəcə, danış istədiyin qədər, – deyirdi qonum-qonşuya. Ötən payızdan bu yana Zülqədər gəlinbacını da yaşına görə pensiyaya göndərmişdilər. Yeni qanun çıxandan sonra müdir onun tənhalığını, kimsəsizliyini daha nəzərə ala bilməmişdi:

– Vallah gəlinbacı, imkanım olsa yenə saxlardım. Amma bu dəfə əmr böyük yerdəndi. Yuxarıdan gəlib yoxlasalar – yaşı səksəni haxlayan adamı işdə saxlamısan, – deyə atamı yandırarlar. Sən Allah, keç günahımdan.

Vəziyyətin ciddiliyini anlayan Zülqədər də dirənməmişdi. Bilirdi ki, rayonda hamı onun xətrini istəyir. Mümkün olsa, saxlayardılar. Axı o, az qala yarım əsr vardı ki, bu camaatın gəlinbacısıydı...

Nə isə. Bekar qalan Zülqədər qışın soyuğunu evində yola salıb, yazın ən gözəl ayında Bakıya üz

tutmuşdu. Burada yaşayan bacısı Həvvagilə gəlmişdi. "Həm uşaqları görər, həm şəhəri gəzərəm. Deyirlər Bakı yaman gözəlləşib. Gəlsinlər o əcnəbilər, görsünlər Azərbaycanın inkişafını, qüdrətini. Ölkələrinə qayıdanda danışsınlar", – deyə paytaxta səyahətini planlamışdı. İçdən sevinirdi müsabiqəyə görə. "Arada doxdura da gedərəm. Axır illər gözüm yaman zəifləyib. Gərəkdisə, əməliyyat etdirərəm. Yoxsa ömrümün bu sinnində mayıf qalsam kim mənə baxacax?"

Bu düşüncələrlə paytaxta yol alan Zülqədər Bakıdan da Orta Asiyaya gedəcəkdi. Kiçik qardaşı orada yaşayırdı. "Kim bilir, bəlkə bir də qismət olmadı görüşmək. Evdən çıxmışkən gedim Həmidi də görüm."

Zülqədər neçə gündü şəhəri dolaşırdı. Yeniliklər gözünü-könlünü oxşadıqca, illərin o tayında qalmış xatirələrinin məskənlərini daha inadla axtarırdı. Yerli-dibli yox olmuşdular sanki. Axtarıb-axtarıb tapmayanda ürəyi göynəyirdi: "Gərək belə eləməyəydilər..."

Bu gün də yolunu filarmoniya bağından salmışdı. Əvvəllər "Vahid poeziya evi" adlanan tikilinin arxasındakı fontanı, ağzından su püskürən heykəlləri doyunca seyr etmişdi. Ağ mərmər oturacaqları əlləri ilə sığallayıb, naxışlarını əzizləmişdi. Hərdən gözünə günəş düşdükcə durub yerini dəyişir, həzin musiqinin fonunda fəvvarəyə əzəmət verən ağ mərmər sütunlara tamaşa edir, dönüb bir də İçərişəhərin Qala divarlarına baxırdı. Bağı baş

aşağı-baş yuxarı iki-üç dəfə dolaşan Zülqədər keçmişdən gözünə tanış olan obyektləri nəzərdən keçirirdi ki, birdən heyrətlə dilləndi:

– Booy, ay qız, Vahid hara gedib??

Qeyri-ixtiyari ucadan səsləndirdiyi sual ətrafdakıların qəhqəhəsinə səbəb oldu. Yanından ötən bir dəstə gənc gözləri yaşarınca güldükdən sonra – ay nənə, fikir eləmə, çox uzağa getməyib, – dedilər. – Elə bu qapıdan girsən, – gənclər əllərini İçərişəhərin darvazasına tuşladılar, – görəcəksən.

Utandığından qadının yanaqları allandı. Pərt halda tez-tələsik dedi:

– Yox a bala, kişini axtarmıram eey, qəzəlxan Əlağa Vahidi deyirəm. Baxdım gözə dəymir.

– Biz də elə onu deyirik, ay nənə.

– Noolar, a bala, Qala divarının bu tayında olmasın, o tayında olsun. Əlağa Vahidə nə fərq edər ki?!

Söz Zülqədərin ağzından çıxar-çıxmaz gəncləri yenə gülmək tutdu:

– Məzən olsun, ay nənə, sevənlərçün heç fərqi yoxdu... – deyib eyhamlı gülüşlə uzaqlaşdılar.

Yerində qurcuxan Zülqədər nə fikirləşdisə, İçərişəhərə girmədi. Qəzəlxanın büstünün yerindəki dəyirmi oturacağa sarı irəlilədi. Bu gün gördüklərini, eşitdiklərini götür-qoy edə-edə yenicə əyləşmişdi ki, qulağına kişi səsi gəldi:

– Dişləmə, adam ol...

“Yəqin uşaq dəcəllik edir.” Ağlına gələn fikirdən Zülqədərin gözlərinin içi güldü, ürəyi açıldı. Uşağı görməkçün arxaya boylandı. “Görəsən bu dəcəl bala

qızdı, yoxsa oğlan?" Amma dəyirmi oturacağın ortasındakı dibçəkdə əkilmiş kol nəsə görməyə imkan vermədi.

Tənəli kişi səsi bu dəfə lap hirsləndi:

– Dedim dişləmə! Adam ol, eşşək olma!

Səsin ahəngindən tərbiyəsizlik yağırdı. Zülqədər lap həyəcanlandı: "Kaş, indi mənim də yanımda nəvəm-nəticəm olaydı, əlimi-ayağımı dişləyəydi... Heç uşağnan da bu cür danışarlaar?" Uşağı görməkçün yerindən qalxan Zülqədər eşitdiyi qadın səsindən ürpəndi. Elə bil dizinin tabı qırıldı. Oturacağa çökdü. Sırtıq bir səs həyasızlıqla deyirdi:

– Dişləyəcəəəəm. Neyləyim, adam olammıram daaaa... Səni görəndəə...

Sözlərin sonunu uzadan qadın guya yanındakına nazlanırdı. Səsi də, sözü də o qədər eybəcər, bayağı təsir bağışlayırdı ki, ağbirçəyin lap hövsələsi daraldı. Yorğun ayaqlarına güc verib dik qalxdı. Arxa tərəfdə uşaq-zad yoxuydu. İki cavan əyləşmişdi.

"Lənət sənə kor şeytan! İndikilər lap yollarını azıblar ey. A bala, eviniz-eşiyiniz yoxdu? Axşam olmayacax? Nə vurhavurdu gündüzün günorta çağı bu boyda millətin gözünün qabağında..." - deyə ürəyində deyinirdi ki, cütlüyün söhbəti yenə qulağını deşdi:

– Onu da belə dişləm-dişləm edirsəən?

– O kimdir?

– "Ərim" dediyin...

– Qələt eləyir! Mən ona heç vaxt "ərim" deməmişəm, – deyə canfəşanlığa başlayan qadın özünə

bəraət qazandırmağa tələsirdi. – Qələt eləyir... Mən ona "ərim" deməmişəm. Deməmişəm.

Bu sözləri eşidən Zülqədərin başından duman qalxdı. Hiss etdi ki, yaylığının altında saçları qabardı. Ağbirçəyin tükləri biz-biz olmuşdu. "Bunlar heç ər-arvad döyülmüşlər ki!.. Ona görə küçənin ortasında... Əstəğfürullah. Yoox. Belə olmaz. Bu cavanları internet korlayıb. Hayıf döyüldü sovetin dövrü. Kinonun açıq-saçıq yerlərini kəsirdilər. Qoymurdular camaatın əxlaqı pozulsun. İndi azadlıqdı. Şükür, müstəqil olmuşuq. Dünya qabağa gedib. Televizordan qabax kompüteri açıb hər şeydən, hər yerdən xəbər tutursan. Amma açanda biliyini artır daa, niyə pis şeylərə baxırsan... Bala, biz azərbaycanlıyıq axı. Niyə axmaq-axmaq şeylərə meyllənirsiz. Bəyəm müasirlik budu?"

Qadın ərini söyüb-yamanladıqca yanındakının canına kərə yağı kimi yayılırdı. Rəqibini qaralayan təhqiramiz sözlər kişiyə necə ləzzət elədisə, özgə arvadını qucaqlayıb marça-marçla öpməyə başladı.

– Mən səni yeyəcəm.

– Hi-hi-hi-hiii.

Marçıltılar Zülqədərə söyüş kimi gəldi. Elə iyrəndi ki... Durub uzaqlaşmaq, başını götürüb qaçmaq istədi. Ona elə gəldi ki, azacıq ləngisə, şahidi olduğu çirkaba bulaşacaq, ləkələnəcək. Ancaq ağbirçəyin ayaqları yerə mıxlanmışdı. Boğazına tıxanmış qəhər onu boğurdu.

* * *

Zülqədər səksən bir illik ömrünü ağrı-acı içində yaşamışdı. Amma bir gün də olsa, namusuna-qey-

rətinə toz qondurmamışdı. Heç xəyalında da ərinə xəyanət etməmişdi. Qadın başdan-başa sədaqət mücəssəməsiydi, vəfa timsalıydı. El-oba nahaqdan ona gəlinbacı demirdi ki!.. Həyat onuncün bir nöqtədə donub qalmışdı: gəlinbacı olduğu nöqtədə.

Tale Zülqədərin əlindən istəklilərini alsa da, gözəlliyini oğurlaya bilməmişdi. İllərin açdığı izlər çöhrəsinə qəribə bir cazibədarlıq vermişdi. Ağbirçəyi görən mütləq ona zəndlə baxardı. Sanki çöhrəsindən yaşadığı ömrü oxuya biləcəkdi. Nəsibinə xoş gün yazılmasa da, Allahın kəramətindən ömür payı bol idi. Bəlkə də xoşbəxt yaşamalı olduğu illərin əvəzinə verilmişdi. Zülqədər də taleyin acığına yaşayır və sevdiklərini öz ömründə yaşadırdı.

Həyatını bir sevgiyə qurban verən Zülqədər indi şahidi olduğu hadisədən dəhşətə gəlmişdi. Gördükləri onun əxlaq anlayışına tamam yad idi. Gəlinbacı için-için ağlayırdı. Səsi çıxmırdı. Eləcə gözünün yaşı axırdı. Arada çiyinləri qalxıb-enirdi. Kövrəldiyini görən olmasın deyə, başını aşağı salıb yumruqlarını gicgahlarına söykəmişdi. Damcılar ayaqqabılarını, asfaltı naxışlayırdı.

* * *

Atası Bahadır kişi kərpickəsən idi. Çörəyini daşdan çıxarırdı. Böyük ailəsini dolandırmaq üçün gecəsini gündüzə qatıb çalışırdı. Uşaqların əli iş tutar-tutmaz atalarına kömək edirdilər. Zülqədər evin böyüyü idi, kərpic kəsməyi hamıdan tez öyrənmişdi. Əl birliyi ilə on iki nəfərlik ailənin ruzisini qazanırdılar. Anaları gündüz bağda-

bostanda işləyir, axşam uşaqların dərsinə fikir verirdi. – Biz oxuyammadıq, barı siz oxuyun, bir yana çıxın, – deyirdi övladlarına.

Zülqədər on səkkiz yaşına qədəm qoyanda sevdalanmışdı. Bakıda Politexnikdə oxuyan Nəriman onun ürəyinə yol tapmışdı. Oğlan institutu bitirən kimi evlənəcəkdilər. Qəlbində cücərən ilıq duyğular, ilk məhəbbətin həyəcanları gənc qızın ali təhsil nisgilini azaldırdı. O, Çəmənli kənd məktəbinin gözüydü. Ancaq valideynlərində imkan nə gəzirdi Bakıda uşaq oxutmağa... Taleyə boyun əyib evdə oturmuşdu. Hansı pulla gedəcəkdi Bakıya, harda qalacaqdı? Kənd camaatı, müəllimləri heyfsilənirdilər. Ancaq əllərindən bir iş gəlmirdi. Bahadırla Lətifə daxilən əzab çəkir, qızın gözünün içinə dik baxammırdılar. Zülqədər vəziyyəti yumşaltmağa çalışırdı:

– Ay ata, fikir eləmə. İşləyib evə əl tutacam. İnşallah, qardaşlarımı oxudarsan.

Ata susur, ana söylənirdi:

– Can bala. Qızın canında o qədər qeyrət var ki!.. Oxumaqçün ürəyi getsə də, özünü sındırmır. Bizi düşünür.

Evdə hər dəfə oxumaq söhbəti təzələnəndə Bahadırın içində tufan qopurdu. Arvadının dediklərini tənə kimi qəbul edirdi. Əsəbləri gərilirdi.

Kənd camaatı əmin olanda ki, Bahadır kişinin qızını oxutmaq fikri yoxdur, evə elçilər ayaq açmağa başladı. Sanki ata-ananın çiynindən dağ götürüldü. Ailənin bu durumunda ən yaxşı çıxış yolu tapılmışdı.

Zülqədər həm gözəliydi, həm qoçağıydı. Necə deyərlər, uçuq evin dirəyi idi. Belə gəlini kim istəməzdi?!

Bir axşam süfrə yığışandan sonra Lətifə çəkinə-çəkinə ərinə eşitdirmişdi ki, briqadir Fərruxgil bizə gəlmək istəyir. Bahadır da əlüstü soruşmuşdu ki, qızın rizası varmı? Lətifə başını aşağı salıb susmuşdu. Əri də bunu razılıq əlaməti bilib dərindən ah çəkmişdi. O, ataydı. Sevinirdi ki, qızın bəxti yaxşı yerdən açılıb. Amma Zülqədəri oxuda bilməməsi ürəyini göynədirdi. Bulud kimi tutulub-açılan Bahadır kişi qəlbində duyduğu sızıltının ardınca üç-dörd dəfə köksünü ötürüb yüngülləşmişdi. Sanki ciyərlərinə bolluca oksigen dolmuşdu. Onu içinə çəkib rahatlanmağa çalışırdı.

– Ay kişi, ixtiyar sahibi sənsən! – deyə pıçıldayan Lətifə altındakı döşəkcəni kişiyə tərəf sürüşdürüb onu çiyni ilə dürtmələdi. – İstəmirsən, verməzsən.

– Yox ay Lətifə, niyə vermirəm!? Oxudammadıq qızı, arzuları gözündə qaldı, odu məni üzən. Qız uşağı kəsikdi, – deyirlər. Kim bilir bəxti-taleyi necə olacax?.. Oxusa, əlinə savad-sənəd alsa, ürəyim rahat olardı. Ancaq Fərruxgil də tanınmış tayfadılar. Elə bilirəm o kişinin oğlu pis olmaz.

O axşam uşaqlar hərəsi bir səmtə dağılışmışdı. Naxırın qabağına çıxan kim, toyuq-cücəni dama qatan kim. Balacalar fürsətdən istifadə edib məhəlləyə qaçmışdılar. Hay-küylə qaçdı-tutdu oynayırdılar. Zülqədər suyun başında qabları yuyurdu. Evin ikinci qızı Züleyxa da cəld dəsmallayıb təmiz qabları ləyənə yığırdı.

* * *

Bu axşam Filarmoniya bağında yaman qələbəlikdi. Hava xoş, yer rahat. Şəhər əhli istirahət edirdi. Əcnəbilər həvəslə sərgiləri gəzirdilər. Milli Azərbaycan süvenirləri yaman alınırdı. Ağacdan düzəldilmiş tar-qaval-kamança dəstinə baxan kim, Qız qalasının fiquruna aludə olan kim, milli geyimli gəlinciklərə maraq göstərən kim. Elə turist yox idi ki, göz önündə bişirilib, isti-isti satılan qutabdan yan keçə. Azərbaycan nemətlərini dadan üstündən də bir stəkan sərin ayran içib ləzzət alırdı. Sərbəst davranışa vərdiş etmiş əcnəbilər əllərində şəkərbura, paxlava, qoğal yeyə-yeyə bağdan keçib dənizkənarı bulvara üz tuturdular. Əlqərəz, Zülqədər gəlinbacı bu büsatı qoyub getmək istəmirdi. Adam arasında olmaq ona həmişə ləzzət edirdi. Bircə oturacağın o üzündəkilər qanını qaraldırdı. "Ər-arvad olmasalar da, taydırlar. İkisi də bir ağıldadı. Hardan peyda olur beləlləri? Kişi cəhənnəm, kişidir. Bəs sən, ay abırsız, evdə ərin ola-ola bu nə pəstəhadı çıxarırsan? Qorxmursan bir tanıyan-bilən görəə?"

Bu fikirlərlə beynini yoran Zülqədər ha çalışdı məsələni başqa səmtə yoza, yol tapa bilmədi. O, institut qurtarmasa da, çox savadlıydı. Ömrü boyu kitab əlindən yerə düşməmişdi. Dar düşüncəli deyildi. "Bəlkə yazığı zornan heyvanın birinə ərə veriblər, o üzdən kişiyə xəyanət edir? – deyə bağın ortasında sevişən ərli qadını anlamağa çalışırdı. – Özü də dedi ki, ona heç vaxt ərim deməmişəm."

Zülqədər köksünü ötürüb – keçmə bizim rayon adətlərindən, hələ də köhnə beyinlər var, – deyə fik-

rində qadının valideynlərini qınadı. – Bu zəmanədə də qızı zornan verərlər? Yəqin boşanacax. Yoxsa, ərdə ola-ola ona nə düşüb xalxın gədəsiynən bağda...

Ağbirçəyin fikirlərinin təsdiqi kimi kolun dalından kompliment yağışı yağmağa başladı:

– Qəbrimin üstündə başdaşım, sevgilim! – deyə kişi qadını oxşayırdı. – Həyatsan ey, həyat. Alaq otu kimi ürəyimə sarmaşıbsan. Bundan soora məndən başqasına baxsaaan...

– Mən səndən ötəri ölürəm. Onu heç istəməmişəm. Zəhləm gedir oğraşdan! Sən mənim həyatımsan. Ay mənim qəbiristanlıqda yandaşım, qəbrimin üstündə başdaşım, sevgilim, - deyib nə etdisə, kişi yenə acıqlandı:

– Dedim eşşək olma.

– Hi- hi- hiii... Neyləyim, sənin yanında özümü saxlayammıram. Hi- hi- hiii... Sənin eşşəyinəm daaa. İstəmirsən?

Söhbətin ahəngi Zülqədəri açmasa da, "oğraş" sözünü tutdu. "Həə, yəqin əri gəzəyəndi. Bu da yandığından acıq çıxır. Amma heç yanındakı da əməli-salehə oxşamır. Ərli qadını yoldan çıxarır. Deyək ki, qız ərinə hirslənib, gözü ayağının altını görmür. Bəs sənə nə gəlib? Adını kişi qoyubsan, sabah biri sənin arvadınla hingildəşsə, xoşuna gələr? Əgər xoşlanırsansa, boşat ərindən, ədəb-ərkanla al! Niyə küçələrdə üzünün suyunu tökürsən? Nə də olsa, azərbaycanlı qızıdır axı..."

Ağbirçəyin düşüncələri təbii ki, cavanlara təsir edə bilməzdi. Susub-sakitləşsələr durub yaxınlaşar, məslə-

hət verərdi... Hərçənd çəkinirdi də. “Nə bilmək olar, necə qarşılayacaqlar? Birdən artıq-əskik danışsalar, ağır söz desələr?..” Zülqədər bilmirdi ki, Bakı boyda meqapolisdə kimin nə ixtiyarı var, tanımadığı adamın işinə qarışa! Çox da ki ağbirçəksən?! Hərə özünə cavabdehdir. El qınağı rayon yerlərində bəlkə qalıb, paytaxtda isə çoxdan unudulub.

O arada gələn görüşlərini vədləşən cavanlar ciddi söhbətə girişmişdilər. Zülqədər başa düşdü ki, onlar hardasa eyni yerdə işləyirlər, bura da işdən gəliblər.

– Bundan soora hər axşam görüşürük. Gəlməyən kişi qızı döyül. Öncə mən, soora...

– Nə “soora-soora” salıbsan? Dedim “yox” dəə. Yatmıram onnan.

Ağbirçəyi xəcalət təri basdı: “Bu nə danışır, aaz? Lənət sənə kor şeytan. Mən də bayaqdan öyüd-nəsihət vermək istəyirəm. Beləsi söz dinləyəər?”

– Zəhləm gedir ondan. İt yerinə qoyub üzünə baxmıram. Bircə sənə, bircə sənnən... - deyə dili topuq vuran qadın həyasız hırıltılarla sözünün deyilməmiş hissəsini anladıb vədinə möhtəşəm bildiyi yekunu vurdu:

– Ay mənim qəbiristanlıqda başdaşım, sevgilim!

Ağbirçək mat qalmışdı: “Bunların nə tərifi tərifdir, nə də istəyi sevgi. Yaxşı ki, ətrafda ədəb-ərkanla oturub-duran, şirin-şirin söhbət edən başqa cütlüklər də var. Yoxsa adama elə gələr ki, dünyanın axırı çatıb.”

Zülqədər yenə xatirələrin əsarətinə düşdü.

* * *

Axşamın qaranlığı ətəklərini sallayıb başı qarlı dağları gizlətdikdən sonra nazlana-nazlana Çəmənliyə doğru irəliləyirdi. Ala-toranda kəndin o başındakı toyun çal-çağırı daha cazibədar ahəng alırdı. Subayların qəlbində arzular cücərirdi. Sevənlərin iç dünyası çalxanırdı. Uzaqdan gələn zurna-qavalın, şənliyin səsi birdən boğuldu. Vay-şivən kəndi başına götürdü. Toyda dava düşmüşdü. Qonşu kəndin cavanları Bakıdan gələnlərin oynadığı havanı tez-tez dəyişdirib özlərini meydana atırmışlar. Bu saymazyanalıq Çəmənlinin dəliqanlılarına acıq gəlmişdi.

– Ayə, bunların yekəxanalığına bax ki, gəmidə oturub gəmiçiynən dava eləyirlər, öz kəndimizdə bizə sataşırlar, – deyə onların "dərsini verməyə" girişmişdilər.

Əslində toyda qıraq adam yoxuydu. Şəhərdən gələnlər yerli camaatın institutda oxuyan balalarıydı, qonşu kənddən gələnlər də qohum-əqrəbaydı. Ara qızışıb, məzhəb itmişdi. Zülqədərin istəklisi Nəriman da qonaqlardan birini bıçaqlamışdı. Əsgərlikdən təzəcə qayıdan Mirmahmud yerindəcə keçinmişdi.

Kənd yerində xəbər tez yayılır. İllah da, qara xəbər ola. Zülqədər dava xəbərini alan kimi toy evinə qaçdı. Nərimanı mağardaca həbs edib aparmışdılar. Görə bilmədi. El-oba oradaydı. Aləm bir-birinə dəymişdi. Bahadır kişi də özünü yetirmişdi. Atasının gözünə görünməsin deyə, çəpərin dalına sinən Zülqədər bir qədər çömbəlmiş vəziyyətdə irəliləyəndən sonra durub evlərinə doğru yollandı.

Heyi kəsilmiş Zülqədərə o axşam ata ocağının yolu çox uzaq gəldi. Elə bildi dünyanın o başınacan gedib, amma evlərinə çata bilmir. Artıq gecəydi. Torpaq qaranlığı paltar kimi əyninə geyib bütün eyiblərini örtmüşdü. Çala-çuxura düşüb çıxa-çıxa qaranlıq kənd yolunda bir kölgə ayaqlarını sürüyürdü. O axşam Mirmahmuda sancılan bıçaq əslində Zülqədərin bəxtini paralamışdı. Səadət yoluna daş qoymuşdu. Gözünün ilk ovu, kəndin sayılıb-seçilən kişilərindən Fərruxun oğlu Nəriman qatil olmuşdu. Zülqədər həmişəki yerində durmuşdu, xoşbəxtlik duman kimi sıyrılıb ətrafından çəkilirdi.

...Məhkəmə çox uzanmadı. Ölən də məlum idi, öldürən də. Şahidlər də bir toyun adamı. Nərimana on dörd il iş verdilər. Ölüm cəzasından qıl payı qurtardı. Dustaqlığını Bakıda, ciddi rejimli həbsxanalardan birində çəkəcəkdi. Türməyə girən Nəriman yol tapıb sevdiyinə sifarişini uçurmuşdu: "Zülqədər, səni sevirəm. Gözlə məni." Qız da cavabı gecikdirməmişdi: "Gözləyəcəm!"

Evdə-eşikdə özünü tox tutan Zülqədər ürəyində nələr çəkdiyini kimsəyə hiss etdirmirdi. İşdən-gücdən beşəlli yapışmışdı. Çəmənli kəndi rayon mərkəzinə bitişikdi. Qız gündüzlər rayona gedib kombinatda işləyir, axşamlar evdə tikmə tikir, gecələr kərpic kəsirdi. Səliqəsinə söz yox idi. Zülqədərin naxışladığı yataq ağları, süfrələr, dəsmallar əl-əl gəzirdi. Alıb cehizə qoşurdular. O, pul qazanıb ailənin

dolanışığına kömək etmək, həm də türmədəki sevgilisinə azuqə apara bilmək üçün özünü fəda edirdi. Yorulub usanmaq bilmirdi.

Toydakı faciədən sonra üstünə su səpilmiş kimi gəzən Lətifə də xəlvətcə sevinirdi ki, yəqin qızın könlü yoxuymuş. Mən yanılmışam. Yoxsa bir ağlardı, saralıb-solardı... Ancaq evə gələn elçilər dalbadal rədd cavabı aldıqca Lətifənin kürkünə birə düşürdü. Hərdən Bahadır kişi də darılırdı. Bir gün üstüörtülü dedi:

– Ay qızım, bəsdi məni utandırdın. Evin qəhrini çəkmək mənə düşər, sənə yox. Bizə bənd olma. Tay-tuşların hamısı köçüb. Sənin də vaxtındır. Şükür, qapımızı döyən də çoxdur. Özünü həlak etmə. İstəyirsən qiyabi instituta gir. Biz ananla külfətimizi yola verərik.

– Utandırmaq nə sözdür, ay ata? Mənim çax-çux eləməyimə baxma ey, evi dolandıran sənsən. Mən yalandan tozanaq edirəm.

Ata-bala qucaqlaşdılar. Bahadır kişi qüvvətli qollarını qızının boynuna salıb onu özünə tərəf çəkdi, Zülqədərin başını sinəsinə sıxıb xeyli beləcə saxladı. İkisi də kövrəlmişdi. Lətifə yaylığının ucunu qaldırıb nəmlənmiş gözlərini silirdi.

– Bu nə ayrı-seçkilikdi, ay qağa, heç məni belə əzizləmirsən? - deyə  Züleyxa araya girib atasıyla bacısını ayırdı.

Zarafat yerinə düşmüşdü. Bir az da keçsə, kişini hönkürtü tutacaqdı. O gündən sonra Bahadır kişi  bir daha bu söhbətə qayıtmadı. Sanki aralarında gizli razılaşma var idi. Övladlar böyüdükcə oxuyan oxudu,

gəlin köçən köçdü, evlənən evləndi, nəvələr dünyaya gəldi. Amma Zülqədərə elçi düşənlər hamısı əliboş qayıtdı. Yavaş-yavaş pıçıltılar dolaşmağa başladı ki, qızın gözlədiyi var. Beləcə illər keçdi. Zülqədər düz on dörd il əhd-peymanına sədaqətini qorudu. Türməyə evdəkilərdən xəlvət gedib-gəlirdi. Böyüklərindən abır-həya edirdi. İlk illər Bakıda yaşayan xalasını görmək bəhanəsilə çıxırdı kənddən. Bacısı Həvva Bakıya gəlin köçəndən sonra işi xeyli yüngülləşmişdi.

Nəhayət, intizarın sonu yetdi. Dustaqlıqdan qayıdan Nəriman da əhdinə vəfalı çıxdı. El adətilə toy çaldırdı. Sədaqətli gözəl otuz beş yaşında gəlin köçdü. Əzablı günlərin, ayrılığın bitdiyini düşündü. Əsl müsibətin astanasına qədəm qoyduğunu ağlına gətirəmməzdi. Evləndilər. Amma sevgilərindən doymadılar. Altı ayın tamamında dul qaldı Zülqədər gəlinbacı. Ərini Mirmahmudun qardaşları öldürdülər. Qisasa qisas alındı.

Nərimanın ölümündən üç ay sonra sevgilərinin yeganə meyvəsi dünyaya gəldi. On dörd ilin intizarından sonra cəmi altı ayın gəlini olan Zülqədər saçının birini ağ, birini qara hörüb qızı Həmidəni böyütdü. On səkkiz yaşına çatanda gəlin köçürtdü.

– Şükür bu günü də gördüm, ay Nəriman. Kaş, sən də sağ olaydın. Qızının toyunu görəydin. Nəvələrimizə babalıq edəydin. Allah qismət eləsin, birinci uşaq oğlan olsun... sənin adını qoyacam, - deyə gəlinbacı ürəyində dərdləşir, yaşantılarını bölüşərək həyatdan nakam köçmüş ərinə təsəlli verirdi.

Tale bu sevinci də ona çox gördü. Zülqədər qızının toyundan bircə il sonra ciyərparasını əbədi itirdi. Adicə soyuqdəyməyə yenilən Həmidə üzünü görmədiyi atası Nərimanın yanına tələsmişdi. Hüzr yerində iynə atsan yerə düşməzdi.

– Balam, bu boyda müsibət olmaz. Bunlar qarğışa keçiblər. Torpağı xəbər aparmasın, hamısı Nərimanın cəzasıdı arvad-uşağı çəkir.

– Niyə elə deyirsən, ay Zivər, Nəriman da cavan-cavan getmədimi? Yazıx, dustaxlığını da çəkmişdi. Ömrü türmələrdə çürüdü. Axırı da belə.

– Sənə asan gəlməsin, Rəfiqə! Gülü burnunda ölən Mirmahmudu o vaxt anası qız bəyənməyə göndərifmiş bizim kəndə. Toydan igidinin cənazəsi qayıtdı üstünə. Ciyəri dağlanan arvad əllərini göyə açıf qarğıyıfmış ki, balama qıyanı görüm artmasın, törəməsin, toxumu Yer üzündən kəsilsin!

Zivər qarı əlini dizinə çırpıb sağa-sola boylandı. Mənalı-mənalı tay-tuşlarına baxdı. Elə bil dediyinə qahmar çıxan axtarırdı. Səs çıxmadığını görüncə sözünü tamamladı:

– Bilirsən də, özləri də ağır seyid tayfasıdılar. Nəfsləri ağırdı...

Yerində yırğalanan Rəfiqə deyilənləri başıyla təsdiqlədi:

– Orası elədi. Adamda höysələ yaxşı seydi. Zeynigilin toyunda bir hovur əl saxlasaydılar... Bizim dəliqannılar coşanda gözləri ayaxlarının altını görmür. Bir oyun havasına iki cavan qurban getdi. İndi də

Nərimanın gəlin qızını apardı qarğış... Yoxsa, soyuxdəymədən adam ölər? Top kimi gəliniydi rəhmətlik.

Zivər qarının qarğış söhbəti kənd arvadlarının ağlına batmışdı. Yasa pıçıldaşma düşdü:

– Mirmahmudun anası Nərimanı qarğıyıfdısa, bu yazıx Zülqədərin nə günahı? Gəlin oluf gəlinlərə qoşulammadı. Ana oluf övlad bəhrəsi yeyəmmədi. Eləcə zillət çəkdi.

– Ay qız, onun taleyini ad qoyan yazıf. Zülqədər, yəni zülümnü qədər. Heç kimdə taxsır yoxdu. Amma halal olsun anasının südü, atasının çörəyi. Bir gün yolunu azmadı. Namusnan-qeyrətnən oturuf balasını yekəltdi. Axırı da belə... Hayıfff!

– Vallah, Nərimanın anası axır nəfəsinə qədər gəlinbacının başına and içirdi, – bunu da söhbətə qoşulan qonşulardan biri söylədi. – Deyirdi, Zülqədər oğlumun çırağını sönməyə qoymadı, yurdunu abad eləyib, Allah da onun bircə balasını min budaq eləsin, çəkdiyi əziyyətlər yadından çıxsın.

...Beləcə, taleyin üz döndərdiyi Zülqədər sevginin ancaq ağrısını yaşadı. Sevdiyinə sədaqəti, isməti onu elin gəlinbacısına çevirdi. Nərimanın ölümündən illər keçdi, Zülqədər yaşlanıb nənələrə tay oldu. Ancaq hamı onu yenə də "gəlinbacı" çağırırdı, öz adı yaddan çıxmışdı.

* * *

Sərin may axşamında köhnə dərdlərini yada salan Zülqədəri istilik basdı. Elə bil ürəyinə od düşdü. "Altmış ildir yanıram, ay Nəriman. Ölüb gedibsən,

ancax hələ də yandırırsan. Sən türməyə düşdün, mən də azad dustax oldum. On dörd il atam öyündə oturdum gözlədim. İçin-için yandım. Gəncliyim kül oldu getdi. Gəldin, yanımda durmadın. Ərə getməyimnən dul qalmağım bir oldu. Qırx altı ildi sənsizliyimə yanıram. Axırı da balam əlimdən getdi... Bu dərd o birilərə bənzəmədi, Nəriman. Odsuz-ocaqsız, gecə-gündüz alovlandırır məni. Heç olmasa Həmidəylə təsəlli tapırdım. Ax, Nəriman. Məni yarı yolda... yox ey, yolun başındaca tək qoydun. O toyda höysələni bassan, bir az gec oynasan, ya heç oynamasan noolacaxdı ki?! Sən o axşam dəliqannılıx eləməsəydin, dinc dursaydın, heç bilirsən biz necə xoşbaxt olacaxdıx!.. Cavan-cavan girdin qara torpağın altına, qızını da çəkdin yanına. Məni niyə aparmadın?"

O an sanki filarmoniya bağındakı ağaclar da Zülqədərin sevgisinə, sədaqətinə təzimə başladılar. Qadın fikrində həyat dastanını vərəqlədikcə ağaclar gah başını yırğalayaraq Zülqədərin nağıla bənzər əhvalatına təəccüblənir, gah təəssüflənərək qol-budağını sağa-sola yelləyir, gah da məhəbbətinin və sədaqətinin böyüklüyü qarşısında diz çökərək yarpaqlarını onun ta ayaqlarının altınacan döşəyirdilər. Yarpaqlar yanaqlarını Zülqədər gəlinbacının tuflilərinə sürtməklə onu sığallamağa çalışır, yaralarına məlhəm olmaq istəyirdilər. Ürəyində keçmişi ilə söhbətə girişmiş ağbirçəksə bu incəliyi duyacaq halda deyildi.

"...Bil ki, səni sevdiyimə bir gün peşman olmadım. Başqa kişiyə meyl salmağı ağlıma gətirmədim. Bir na-

məhrəmə gözümün ucuynan baxmadım. Ancaq səndən sonra eltilər üstümə yaman ayaq aldılar. Neçə ki qayınanamla Fərrux babam sağıydı, mənə havadar dururdular, qahmar çıxırdılar. Rəhmətliklərdən sonra... Həmidənin ölümü lap əl-qollarını açdı. Sizinkilər hamısı evli-eşikli gözlərini dikiblər o daxmaya. Nərimanın vərəsəsi yoxdu, ev bizə çatmalıdı, – deyirlər. Başıma gətirmədikləri oyun qalmayıb, günümü qara əskiyə düyüblər. "Bəsdirin" deyən yoxdu heç birinə... Hər zülmə qatlaşdım. Ər ocağından çıxmadım. Əlimin zəhmətiynən qazandığım çörəyi yedim, Nəriman. Şükür Yaradanın məsləhətinə, bu yaşımadək məni kimsəyə möhtac qoymayıb. Heç qoymasın da."

O anda səslənən musiqili zəng Zülqədəri xəyaldan ayırdı. Yad kişiylə sarmaş-dolaş oturmuş qadın mobilini açan kimi bərkdən – caaan, mama qurban, can!! Ölərəm elə səndən ötrü! – deyə elə bağırdı ki, ətrafdakılar səksəndilər. Qadının "mama" deməsi Zülqədəri təbdən çıxartdı: "Booy, köpəkqızının uşağı da varmış!.. Kül sənin başına. Allah, göydən daş yağdır. Adımızı batırırlar."

Daha yerində otura bilmədi. Hərlənib düz onların qənşərində dayandı. Cavanların iyirmi altı-iyirmi səkkiz yaşı ancaq olardı. Geyim-kecimləri əslən əyalətdən olduqlarını nişan verirdi. Ürəyində onları qınayan ağbirçək "şəhərə gələn kimi nə tez yolunuzu azıbsız?" – dedi. Dərhal əlavə etdi: "Hərçənd indi dövran dəyişib, kənddə də cızığından çıxanlar var. Amma siz lap ağ elədiz..."

Zülqədər onlara baxıb-baxıb aralandı. Başa düşdü ki, gördüklərinin səbəbi nə sevgidir, nə də çarəsizlik. Səbəb – nəyin bahasına olur-olsun dünyadan kam almaq istəyidir. Ağbirçək bütün varlığıyla ikrah hissi duydu ucuz hisslərin bayağı təzahürünü həyatın zövqü sayanlara.

Qadının telefon danışığı davam edirdi:

– Gəlirəm, oğlum, yoldayam. Tıxacda qalmışam. Sənə nə alım, mənim balam? Mamasının ürəyi, həyatım! Həə, acıbsaan? Təranə hardadır, niyə sənə yemək vermir bibin? De, yumurta bişirsin. Yoxduu? Bəs nənən hayandadı? O niyə səni yedizdirməyib? Səhərdən acsaan? Caaan! Ölərəm elə. Ağlama oğlum, birtəhər döz. İndi mama gəlir. Nə istəsən alacam sənə. Həə. Bir az döz gəlirəm, avtobusdayam. Bir saatazada evə çataram. Maması qurban balasınaa! Nənənə de, atan işdən gələnədək yeməyə bir şey hazırlasın. Mən çörək alıb gətirəcəm. Di yaxşı, oğlum, gəlirəm.

Mobilini qapadan kimi qadın lap möhkəm sığındı kişinin qucağına. Heç evə tələsənə oxşamırdı. Uşağının ac qalması onun halına təfavüt eləməmişdi. Qadın öz kefindəydi.

Zülqədər bilmədi uşağın halına yansın, yoxsa öz taleyinə. Tale onunla oynayırdı. İndi də bu hadisəni qabağına çıxartmışdı: yaşadığı həyata kökündən zidd olan cılız eşq macərasını. Hər kəlməsindən iyrəndiyi nalayiq cavanları ona ürcah etməklə nə demək istəyirdi tale? Yarımadığı sevginin yolunda ömrünü puç

etməsinə gülürdü? Cavanlığını əldən verməsinə istehza edirdi? "Məgər, indikilər ailə quranda ta saf məhəbbət, sədaqət, vəfa axtarmırlar? Milli dəyərlərimiz qiymətdən düşüb? Ola bilməz! Rayonda hamı mənim başıma and içir." Sonuncu fikir beynindən keçən kimi duyduğu iftixardan qeyri-ixtiyari dikəldi ağbirçək, qamətini şax tutdu.

Qaranlıq asta-asta gündüzün gözəlliyinə pərdə çəkirdi. Filarmoniya bağı yenə adamla dopdoluydu. Hər tərəfdə həyat qaynayırdı. Fikir ağbirçəyi elə almışdı ki, işıq selində sayrışan Bakı gecələrinin əsrarəngizliyini duya bilmirdi. Ta gözünə heç nə görünmürdü. Fikrindəkilərin yükünü çəkə-çəkə metroya doğru yol aldı. Başını yırğalaya-yırğalaya qalmışdı: "Bakının təkcə görkəmi dəyişməyib. İnsanları da fərqlidir. Yadlaşıblar. Özümüzə oxşamırlar."

***sentyabr-oktyabr 2012***



## SIFIR NÖQTƏSİNDƏ

Kişi ac idi. Yemək axtarırdı. Stolun üstündə dişə dəyən heç nə yoxuydu. Soyuducunu açdı. – Lənətə gələsən! Sənin dolu günün oldu ki... – deyə söylənməyə başladı, – hədər o vaxt bunu daşıyıb gətirdim.

Kişi soyuducunu zibillikdən tapıb gətirmişdi. İndi onun qarasına deyinirdi. Əslində "Zil Moskva"nın heç bir günahı yoxuydu. Əlini cibinə saldı. İyirmicə qəpiyi qalmışdı. O da avtobus pulu. Məyusluğu artdı: "Sabah açılsa, qarnımızı doyuzdurardıq. Yəqin qızlar nəsə gətirərlər." "Qızlar" deyəndə kişi şöbə yoldaşlarını nəzərdə tuturdu. Mədəni, insaflı xanımlar idilər. Evdə bişirdiklərindən işə gətirir, onu da hər gün qonaq edirdilər. Durumunu bildiklərindən "toxam" deməyinə əhəmiyyət verən olmurdu. Mütləq yedizdirirdilər – kimisi perajki verirdi, kimisi isti yeməyə qonaq edirdi, kimisi də şirniyyatlı pürrəngi çaya.

Kişinin həyatı həyat deyildi. O, səfil günündə yaşayırdı. Bütün günü ona-buna dissertasiya yazsa da, heç vaxt cibində pulu olmurdu. Əlinə pul gələn gün keçmiş Arvadı əzrayıl kimi kəsdirirdi başının

üstünü. Elə bil tükünü yandırırdılar. Maaş günləri məlum, əvvəlcədən bəlliydi. Qəribəsi bu idi ki, ayrıldıqları on il ərzində kənar qazanclarından bircəsi də Arvaddan yan keçməmişdi. Qadın dərhal xəbər tutur və axırıncı qəpiyinədək əlindən alırdı. Kişi də guya uşaqlarının xətrinə dinmirdi. Və bu minvalla həyatın dibinə, sıfır nöqtəsinə yuvarlanmaqda davam edirdi. Əslində arvaddan qorxurdu.

Yemək tapmayacağını görüncə iştahasını küsdürməkçün çaydanı qaynatdı. Qənd də qurtarmışdı. Həyətə boylandı. "Əşi bu qonşular da toyuq kimi axşamdan tara çıxırlar. Zalım uşağı, noolub bəyəm?" Kişini hirs dalğası bürüdü. Hamı evinə çəkilmişdi, belə məqamlarda dadına çatan uşaqlar da gözə dəymirdilər. Nəsə istəməyə imkan yoxuydu. Qazın yanında qalıb qurumuş birdəfəlik çay paketini  isti suya saldı. Bir qurtum içən kimi dadsız su ürəyini bulandırdı. Hirsindən stəkanı yerə çırpdı. "Yox, belə olmaz. Bu dəqiqə gedirəm onlara. Deyərəm ki, təsadüfən burdan keçirdim, gəldim görəm necəsiniz..."

Ayaqqabısını geyinirdi ki, gözü saata sataşdı. Gecə saat on ikiyə qalırdı. "Mən gedib çatınca birə işləyəcək. Bu vaxt qardaşı evdə olar, arvad-uşağı da yataqda. Yaxşı çıxmaz." Kişi kor-peşman soyunmağa başladı. Yorğun və çarəsiz özünü yatağa atdı. Yataq da ki nə yataq. Bazardakı otuz kiloluq meyvə yeşiklərindən düzəltmişdi çarpayısını. Dostları da hansısa məhəllədən çölə atılmış mebel döşəyi tapıb gətirmişdilər.

Yıpranmış döşəyin yırtıqlarından çıxan məftillərin başını əyib içəri salmışdılar ki, bədənini deşməsin. Kasıbın olanından bir köhnə balıncı, bir də nimdaş adyalı vardı. Onu da başına çəkəndə ayaqları açıqda qalırdı, ayağını örtəndə kürəyi üşüyürdü. Kişi anlayammırdı ki, bu günə düşməyinin günahı kimdədir. Artıq belə yaşamağa vərdiş etmişdi. Səfaləti adiləşmişdi. Dost-tanış arasında özünə bəraət qazandırmaqçün deyirdi ki, tək yaşamağın özü bir mədəniyyətdir!

Bu axşam yuxu onun yeganə xilaskarı ola bilərdi. Amma əsəb və aclıq əzabını qat-qat artırırdı. Gözünü yuman kimi qarlar içində yıxıla-dura irəliləməyə çalışan uşaq durdu gözünün qabağında. Kimsəsiz dağlar arasında məktəbin yolunu azmış on-on bir yaşlı oğlan qorxudan ağlayırdı və həmin səs Kişinin beynini deşirdi. Diksinib ayıldı. Deyəsən, huşlanmışdı. Amma səs o qədər yaxından gəlirdi ki, bir anlıq bütün bunların indi baş verdiyini zənn etdi. Tez yataqda dirsəkləndi. Ətrafda səssizlik hökm sürürdü. Başını balınca qoyan kimi yenidən fəryad səsi qulaqlarını deşməyə başladı.

Kişi dağlar qoynunda doğulmuşdu. Kəndlərində ancaq ibtidai məktəb var idi. Dördüncü sinifdən sonra oxumaqçün qonşu kəndə gedərdilər. Yol uzaqdı. Yayı-qışı, qarı-yağışı varıydı. Həmin o qarlı-çovğunlu qış günündə Kişini donmaqdan canındakı qorxu hissi xilas etmişdi. Qorxudan o qədər çaba-

lamışdı ki, axırı insan yaşayan bir məskənə çatdırmışdı özünü. Atası dağətəyi kəndlərdən birində kolxoz sədriydi. Elə orda da yatıb-qalxar, zirvədəki evlərinə arabir gələrdi. Oğlunun itdiyini eşidəndə at belinə sıçrayıb dağları qarış-qarış axtarmışdı. Tapıldığını biləndə qurban kəsmişdi. Amma bu hadisə ailələrinin həyatında taleyüklü qərara səbəb olmuşdu: onu internata vermişdilər, evdəki bacı-qardaşlarını isə dördüncüdən sonra oxutmamışdılar.

Acından qıvrıldığı indiki məqamda o hadisənin yadına düşməsi Kişini lap özündən çıxardı. Durub çölə çıxdı, bir az həyətdə var-gəl elədi. Baxdı olmur. Pencəyini götürüb küçəyə atıldı. Heç qapını da bağlamadı. Oğurlanası nəyi vardı ki evində?.. Əlini-qolunu ata-ata, ucadan deyinə-deyinə gedirdi. Adəti üzrə yenə hökuməti söyüb-yamanlayırdı. Bəxti gətirməzliyini hökumətin, yeni quruluşun, müstəqillik istəyənlərin ayağına yazırdı. Dünyada özündən savayı hamını müqəssir bilirdi. Bu an onu görən olsa qorxardı, normal adama bənzəmirdi. Bir də ayıldı ki, o biri evinin qabağındadı. Kişi xaricdən, diplomatik fəaliyyətdən qayıdanda hökumət ona dördotaqlı mənzil vermişdi. Yaxşı da pulu vardı əlində. Evi gözəl təmir etdirmişdi. Tavanda güzgülər, bahalı mebellər... İndi yuxu kimi gəlirdi o həyatı. Arvadı çox gözüaçıq olduğundan tələbə vaxtı Kişinin atasının aldığı həyət evini də əllərində saxlamışdılar. Boşananda o köhnə ev Kişinin karına gəlmişdi. Başını soxmağa

dörd divarı olmuşdu. Arvad nə küy-kələk eləmişdisə, məhkəmə uşaqları da, dördotaqlı o gözəl mənzili də qadına kəsmişdi. Üstəlik aliment verirdi. Qalan maaşını da nağd olaraq alırdılar əlindən.

Gecənin sazağı ac adamı yaman üşüdər. O da soyuqdan titrəyə-titrəyə yeddinci mərtəbədəki evə tərəf bərkdən-bərkdən söylənirdi:

– Sabah bizimkiləri yığıb gedəcəm elçiliyə. Bundan sonra gününü görəcəm. Bəsdi daha. Evlənirəm! Allah vurmuşdu səni. İt qızı it.

Səsindən özü səksəndi: "Görəsən eşitmədi ki?.. Yaxşı ki qonşular yatıb."

Bu binada hamı onu hörmətli-izzətli alim, nəhəng Sovetlər İttifaqının diplomatı kimi tanıyırdı. Uşaqları burda böyüyürdü. Ən azından onların anasıydı bu "it qızı". Tez ordan uzaqlaşdı.

Bütün yolu evlənmək məsələsi beynində dolandıdurdu. Bu gecə keçmişi yaxasından əl çəkmirdi. Kişi əzabdan qovrulurdu. Evlənmək istədiyi Müəllimə Xanım gəldi gözünün qabağına. Hər dəfə onlardan qayıdanda kefi durulardı. Göyün yeddinci qatına qalxardı daxilən. Qırıq-salxaq maşınında evinə dönən Kişi yol boyu gülər, özünə mədhnamələr deyərdi. Müasir dəbli, səliqəli evdə gördüyü insani münasibət gözəl duyğular aşılayardı ona. Bir tərəfdən də yediyi ləzzətli təamlar, toxluq hissi əhvalını lap yüksəldərdi. Nə yazıq ki, axır vaxtlar "it qızı it" ucbatından bu duyğulardan məhrum olmuşdu.

O ayrılandan sonra bir neçə dəfə evlənməyə cəhd etmişdi. Hamısında da köhnə Arvad qabağına sipər çəkmişdi. Hətta bir dəfə hücum edib Kişinin görüşdüyü Həkim Xanımı döymüşdü. Həyət evindəki qonşulardan kimsə o qadına xəbər daşıyırdı. Kişinin hər addımı Arvadın ovcundaydı. Özü sərbəst gəzib-dolaşsa da, boşandığı ərin cilovunu əlində möhkəm saxlayırdı:

– Sənin övladların var, onları düşün. Mən sənə üç oğul saxlayacam, sən gedib q...lərlə kefə baxacaqsaan?!

Hardansa bir uşaq da peyda olmuşdu o qadının evində. "Atılmış uşaqdır, səhər dərsə gedəndə oğulların blokdan tapıb gətiriblər. İndi əl çəkmirlər ki, ana, qalsın bacımız olsun", - deyə həmin uşağı da bu Kişinin adına sənədləşdirmişdi. Qonum-qonşu deyirdi ki, nə tapılması.., özü doğub. Amma Kişi şübhələndiyini heç büruzə vermirdi. Daha doğrusu, o şübhəni balalarına qıymırdı.

Kişi mənəvi müvazinətini itirmişdi. Gecənin bu vaxtında yerlə göy arasında qalan çəkisiz məxluq kimiydi. İndi də beynindəki kinoçarx axırıncı dəfə Müəlliməgildən qayıtmağını əks etdirən lenti canlandırırdı:

...İlıq qış axşamında əhvalı göylərə pərvazlanmış halda evinə dönürdü. Uşaqları yaşayan binanın qabağından keçərkən qəfildən "it qızı it"in əməlləri durdu gözünün qabağında. Qanı necə qaraldısa, bir

anda əhvalı alt-üst oldu: "Lənətə gələsən, qadın! Bir axşam rahatlıq verməzsən." Hirsli-hirsli maşının sürətini artırdı. Burdan tez uzaqlaşmaq istədi. Sanki məsafə hər şeyi unutdurmağa qadir idi. Amma Kişi nə qədər tələssə də, özündən qaça bilmirdi. Ağrı onun içindəydi. Tapdanmış mənliyi ruhunu göynədirdi. Belə məqamlarda vücudunu təslim etdiyi içkiyə pənah gətirdi. İşdə vurduqları arağın dibində bir az qalmışdı. Ehtiyat üçün onu götürmüşdü. Maşını sürə-sürə şüşəni daxıldan çıxarıb başına çəkdi. Araq da yaddaşını korşaltmadı.

Qarmaqarışıq düşüncələrlə küçələri veyllənən Kişi bir də baxdı "xarabası"ndadı. Bu ev, bu yataq ona yaxşı heç nə təlqin etmirdi. Edə də bilməzdi. Yerinə uzanınca Müəllimə Xanımı evə gətirdiyi günü xatırladı. O görməsin deyə, yataq otağı adlandırdığı xarabalığın lampasını çıxartmışdı. Yarıqaranlıq otaqda çarpayı yerinə düzülmüş yeşikləri sezməsə də, dərhal hər şeyi anlamışdı qız. Kişinin zal kimi qələmə verdiyi darısqal otağa və mətbəx dediyi yamangünlü aynabəndə baxandan sonra bircə sual vermişdi:

– Səncə, mən bu evdə yaşaya bilərəm? Qardaşım razılaşar?

O zaman hələ Müəllimə Xanım bilmirdi ki, evlənmək barədə gedən söhbətlər boşboğazlıqdan başqa bir şey deyil. Kişi isə bilirdi. Bilirdi və bilə-bilə də susurdu. Həm özünü, həm də qızın ailəsini aldat-

maqda davam edirdi. Bir-iki dəfə kənddən anasıyla bacısı da gəlmişdilər qızgilə tanışlığa. Onu evləndirməkdən ötrü əldən-ayaqdan gedirdilər.

– Sən dünyanı gəzib-görmüş diplomat, elmlər doktoru, professor olsan da, biz o dağın kəlləsində səndən yaxşı yaşayırıq. Ayıbdır, özünə hörmət qoy. Adam kimi yaşa! – demişdi bacısı.

Dostları hey danlayırdılar ki, nəyi gözləyirsən, subaylığın daşını at, bu qızla evlən. Kişi bilmirdi onu çox istədiklərinə görə təkid edirlər, yoxsa öz canlarını qurtarmaq üçün. Çünki ərki çatanların qapısını lap yağır eləmişdi. Günaşırı dostlardan birinin evində axşamlayırdı. Söhbətcil, dünyagörmüş adam olduğundan ilk illər həvəslə qarşılanırdı. Zaman keçdikcə hərdən bir bəhanəylə gəlsə də hamı bilirdi ki, əsas dərdi yeyib-içməkdir. Ondan elə bezmişdilər ki, xanımlar artıq üzə durur, çıxıb getməyincə süfrə açmırdılar.

Kişinin dərdini heç kəs yerli-yataqlı bilmirdi. Hərdən keflənəndə həqiqətin bir parçasını açıb danışırdı. Ayılandan sonra kimin yadında nə qalırdı, onu bircə Allah bilir. Heç kəsə deyəmmirdi ki, köhnə Arvadı onun pasportunu alıb gizlədib. Hərdən institutdan xaricə konfransa göndərmək istəyəndə – mən vaxtında çox gəzmişəm, görməyənlər getsin, – deyə lovğalanaraq imtina edirdi. Həqiqəti yeddi qıfıl altında saxlayırdı. O, tanınmış şərqşünas idi. Bakıdan başlanan şanlı-şöhrətli tələbəlik həyatına SSRİ-nin

paytaxtında möhtəşəm bir əlvida demişdi. Moskva Dövlət Universitetini qırmızı diplomla bitirən kimi sovet hökumətinin ərəb ölkələrindəki səfirliklərindən birinə göndərilmişdi. Elə o ərəfədə evlənmişdi. Sən demə, universitetin bufetində işləyən qadın fakültənin fəxri sayılan, adı dillərdə gəzən tələbəyə çox mehribanlıq göstərirmiş. Körpəlikdən ailə şəfqətindən məhrum olmuş oğlan da bundan yaman xoşlanırmış. Bir də gözünü açıb ki, evlidir...

Həyatının danılmaz faktları yada düşdükcə Kişini lap od götürürdü. Kimsə Müəlliməni onun maşınında görüb köhnə arvadına xəbər vermişdi. Ultimatum gecikməmişdi:

– Mənim balalarımın boğazından kəsib aldığın maşında küçə arvadlarını gəzdirəmməzsən!.. - deyə kəm biçmişdi qadın ona, hədə-qorxu gəlmişdi.

Kişi Arvadının kəramətinə bələdiydi, Həkim Xanımla birgəliyinin aqibətini hələ unutmamışdı. Növbəti rüsvayçılıq istəmirdi. Təhdidin sabahısından etibarən Müəlliməni işdən gətirəndə qəsdən yolda üç-dörd dəfə qəza şəraiti yaratmağa başladı. Maşının tamam yararsız hala düşdüyünü isbatlamaqçün dodaqaltı mırtıldanır, düşüb kapotu açır, guya nəyisə düzəltməyə çalışırdı. Roldan-rola girdikcə qızın gözündə lap kiçildiyini vecinə almırdı... Yaddaşının ən dərin qatından püskürüb üzə çıxan bu hadisə Kişini özündən iyrəndirdi: "Sənə nə olsa, yeridir! Axmaq..."

Müəllimə məsələsinə görə hücuma keçən Arvadı Kişini doyunca söyüb-yamanlayandan sonra onun zəif damarına bir gül axıtmışdı:

– Sən nə təhər professorsan ki, oğlun instituta piyada gedib-gəlir?..

Və yenə hər şey qadının hesabladığı kimi olmuşdu. Robot kimi "it qızı it"in layihələndirdiyi növbəti proqramı yerinə yetirmişdi. Yaxın günlərin birində oğlunu çağırıb açarları təhvil vermişdi. Arvadı isə sürücülük vəsiqəsi alıb özü keçmişdi sükan arxasına. Maşını da verəndən sonra Kişi bu dünyada lat-lüt qalmışdı. Bulunduğu sıfır nöqtəsində də duruş gətirəmmirdi. Bir ömürlük qazancından əlində qalan heç nəydi. Maşınsız qapı-qapı gəzmək də alınmırdı. Hamıdan təcrid olunmuşdu. Yavaş-yavaş insan olduğunu unudurdu. Özünə heç fikir vermirdi. Aylarla çimmirdi. Paltarları ləkəli, ütüsüz. O yaxınlaşanda bəzi xanımlar büruzə vermədən burunlarını tutub uzaqlaşmağa çalışırdılar. Kişi özünü o yerə qoymasa da, hər şeyi anlayırdı.

...Səhər yuxudan qalxanda beyni uğuldayırdı. Bir az araq olsa, özünü tarazlayardı. Durub işə getdi. Bütün günü sustalmış vəziyyətdəydi. Gecəki qərarını dilinə yox, ağlına gətirməyə belə cəsarət etmirdi. Elə bil vücudunu döyüb-döyüb bir çuvala salmışdılar. Paltarlarının içində yırğalanırdı. Axşam tərəddüd içində Müəllimə Xanımgilə tərəf istiqamət gö-

türdü: "Gedim, getməyim??" Daha orda da üzünə xoş baxan yoxuydu. Nəzakət xatirinə qapıdan qovmurdular. Qızın qardaşı demişdi ki, ya evlənin, ya da bu əlaqəyə son verin. Qız da bezmişdi. Görüşəndə sevinmirdi. Əvvəlki parıltı yoxuydu gözlərində.

Qərarsız qalan Kişi yarıyoldan "xarabası"na döndü. Yenə soyuq və boş ev. Yenə narahat yataq, cavabsız suallar. Şanlı-şöhrətli başlanğıc və sezmədən yuvarlandığı uçurum... Həyatın dibində bərqərar olan Kişi hələ ki, düşüncəsində iki qadın arasında çabalayırdı. Evlənmək istədiyi qızın yanında olanda özünə inamı qayıdırdı. Özünü kişi, insan, ziyalı hiss edirdi. Şəxsiyyətinə hörmət yaranırdı ürəyində. Elə ki uşaqlarının anasıyla qarşılaşdı, dönüb olurdu şəxsiyyətsiz məxluq. Bu qadın onu əski parçası kimi, həşərat kimi tapdalayıb əzirdi. Diplomatlığı onun yanında keçmirdi. Əmrə müntəzir vəziyyətdə hər sözünə boyun əyirdi. Niyə, nədən?? Səbəbini bilmirdi.

Kişi yalquzaq kimi yalnız yaşayırdı. Amma bəlası yalnızlığında deyildi ki. Həyatda qazandığı ad-sana da, hazırda süründüyü sıfır nöqtəsinə də öz ağlı, öz xasiyyəti sayəsində gəlib çatmışdı. İndi özündə güc tapıb sıfır nöqtəsindən qalxmalıydı... Ya da ...burdan aşağıda qorxunc gələcək dayanırdı.

***1 yanvar 2012,***
***Şəki şəhəri***



## QAFQAZLILAR KURORTDA

O, xoşbəxt idi. Xoşbəxtlik kişinin çöhrəsini elə işıqlandırmışdı ki, üz-gözü bərq vururdu. Üç sarışının əhatəsində oturan qafqazlı balası astadan zümzümə edir, içindən gələn melodiyanın ahənginə uyğun başını ahəstə yırğalayırdı. Rahat-rahat oturmuşdu. Halından məmnun idi.

Gündəlik həyatında adətən iş dalınca tələsər, ciddi və sakit görkəmiylə diqqət çəkməzdi. İndi bambaşqaydı. Sanki içindən yeni bir adam çıxıb əvvəlkini kənara itələmişdi. Gözəllərin cilvəsi Samirə həyatının ən ləzzətli anlarını yaşadırdı.

– Mən bu yağmurun altında oynamaq istəyirəm, – deyə Birinci Sarışın şıltaqlığa davam edirdi. – Qalxın, nə oturmusuz? Getdik...

Çağırış hamısının ürəyindən oldu. Dərhal açıq havadakı restoranın yağış tutmayan rəqs meydançasına atıldılar. Şənlik, gülüş, qəhqəhə səsi leysanın şırıltısına qarışdı. İri yağış damcıları meşədəki qocaman ağacların yarpaqlarına dəydikcə "tap-tap-tap" səsləri rəqsə ritm tuturdu. Üzlər gülür, gözlər süzülürdü. Arada şimşək çaxdıqca rəqs edənlərə elə gəlirdi ki, göy qübbəsi də şaqqanaq çəkib gülür. Göylər

də gözəllərə gülümsəyir və sevincindən tez-tez dodağı qaçır. Meşəni çimizdirən leysan da göyün sevinc göz yaşlarıdır.

Dildən pərgar olan Əsas Sarışın özündən çox razıydı. Gözəlliyə qalsa o, Birinci Sarışının əlinə su tökməyə yaramazdı. Amma bu dəsgah onun şərəfinə qurulmuşdu. Kişi də onun erkəyi idi. Ona görə Əsas Sarışın özünü külli-ixtiyar sahibi kimi aparırdı. Tez-tez ofisiantı çağırıb yeni sifarişlər verirdi. Ətrafdakılara qaş-göz edir, yan masalardakı erkəklərə müştəri gözüylə baxmağı da unutmurdu. Hərdən diqqət çəkmək üçün qəribə jestlər nümayiş etdirir, qısa replikalar verirdi. Deyəsən, o lap Allahın bəlasıydı.

Bütün bunları dinməzcə seyr edən Üçüncü Sarışın yaşca onlardan böyük görünürdü. Əyləncənin yaşa dəxli yoxdur. İş burasındaydı ki, onun hərəkətləri də ölçülü-biçiliydi. Deyəsən, fələyin qismətindən nəsibinə düşən zövqü almaqla kifayətlənirdi. Cavan sarışınlar nədənsə bu qadına xüsusi hörmətlə yanaşırdılar. Aralarında rəqabət hissi olmadığı aydın görünürdü.

Qafqazlı balası sonalar gölünə düşmüşdü. İllərlə qəlbində gizlədiyi istəkləri, içinə yığdığı arzuları reallaşırdı. Həmişə dostları kurort macəralarından danışanda onun da ürəyindən keçmişdi bu səadəti dadmaq. Qismət bu günə imiş. Axır ki iş-güc, arvad-uşaq, qohum-əqrəba qayğısından göz açıb özünə vaxt ayırmışdı. Samir kama çatmışdı.

Badələrin çaqqıltısı onları elə şirnikdirirdi ki, içkidən doymaq bilmirdilər. Yoldan ötən həmyerliləri Samiri görüb ayaq saxladılar.

– Əəə, bir buna baax! Nə özünü vurub gözəllərin arasına...

– Danışanda bir az ehtiyatlı ol, Mikayıl, o yaşlı xanım bacısıdır. Onu o sıraya qatma.

– Bacısıdısa, üçdən biri əskik olsun daa, noolajax? Sən bunun canına-cürəpəsinə bax, yanında hərlədiyi canlara bax.  Canandılar ey... – Pəhləvan cüssəli Mikayıl bir anlıq boy-buxunundan utandı. Özünü əfəl sandı. – Əəə, məni bölsən iki Samir çıxar. Di gəl ki, yanımda canan nə gəzir...

– Ayə, əlindən almıyıflar ha... Sən də bir-ikisini yanla. Yoxsa buranın nəyi oldu kurort? Elə bil azad xəstəsən, axşamatan o həkim sənin, bu həkim mənim... Doxdur qapılarında gəzirsən. – Asəf əl-qolunu hərləyib mətləb üstə gəldi: – Prosedurlara nobat gözləməkdən canımız çıxdı. Əsas müalicəni almasaq, qalan hamısı havayı şeydi! Elə Bakıda da doxdura gedə bilərdik.

Dostlar əllərini əllərinə çırpıb xeyli gülüşdülər. Onların nəşəli gülüşü meşənin sükutunu diksindirdi. Onsuz da kurort yeri çox gözəldi, füsunkar təbiəti vardı. Allah-Təala yaradanda bu yerlərdən səxavətini əsirgəməmişdi. İndi də yağışda yuyunmuş meşə adama lap gəl-gəl deyirdi. Daş döşənmiş cığırlarla tənbəl-tənbəl irəliləyən qafqazlı dostlar sağa-sola baxınıb "quş" axtarmağa başladılar. Gəzə-gəzə gəlib

ikinci restorana çatdılar. Bura da dolub-daşırdı. Elə bil hər yeri qafqazlılar zəbt eləmişdilər. Asəf əlini yellədə-yellədə coşdu:

– Ayə, Azərbaycan bura köçüb, xavarımız yoxdu. Vallah bizim millət yaxşı yaşayır. Ziyalısı, vəzifəlisi, qarpız satanı, kartof becərəni,.. hamısı burdadı. Kənddə kimi dindirsən sızıldayır ki, sabaha çörək pulum yoxdu. Bəs, bu pulları hardan tapıb xərcləyirlər?

– Ağ eləmə. Sən, mən nətəhəri gəlmişiksə, onlar da elə. Arvad-uşağın boğazından, əynindən kəsif yığdıxları pulnan... Üstünü də borcnan düzəldif gəliflər ki, şəfa tapsınlar, – deyə Mikayıl dostunu məzəmmət etdi. – Varlılar indi Karlovı Varıya, Bali adalarına, ekzotik diyarlara gedir dincəlməyə. Kasıb-kusub da buralara gəlir. Onu da çox görürsən millətə?

– Yaxşı-yaxşı. Bir söz demədik. Səndən yaxşı advokat olardı. Bax gör, harda yer tapırıx...

Dostlar küncdə boşalan masaya əyləşdilər. On dörd-on beş yaşlarında bir qız yaxınlaşıb sifarişi aldı.

– Görürsən, bunların da çörək dərdi var. Yoxsa bu yaşda, bu gözəllikdə qızını kim göndərər ofisiant işləməyə?

Mikayılın kefi pozulmuşdu. Asəf dostunu başa düşürdü. Onun da evdə bu boyda qızı olduğundan bərk təsirlənmişdi.

– Canını çox sıxma, ayə. Kurort yerlərində qayda belədi. Mövsüm başlayan kimi uşaqdan-böyüyə hamı işləyir. Turistlər bunların əsas gəlir mənbəyidi. Yay tətilində müəllimlər də ekskursiyalarda bələdçilik edir.

Dostuna buraların qayda-qanunundan danışan Asəf pivəsini içə-içə siqaretini tüstülədirdi ki, birdən gözü tələbəlik dostu Namiqə sataşdı. Neçə illərdir bir-birindən xəbər-ətər tuta bilmirdilər. Çox mehriban görüşdülər. Namiqgilin masası qələbəlik idi, Asəflə Mikayıl qoşulduqdan sonra lap səs-küylü oldu. Ağız deyəni qulaq eşitmirdi. Nədənsə, bu masada tək bircə qadın varıydı. Onun da kimliyi kimsəyə bəlli deyildi. Sevgiyə susamış kişilər tanışlıq yaratmaqçün çırpınırdılar. Musiqi səslənən kimi, rəqs vaxtı danışıb-anlaşmaq niyyətilə hərəsi bir yandan dəvət edirdi qadını. Təzə qonaqlarının şərəfinə badə qaldıran Namiqin tostu məclisə su ələdi:

– Yanımda əyləşən bu gözəl xanım da mənim ikinci arvadımdı. Evdəki də bilir, uşaqlarım da. Mən öz səadətimi bu xanımda tapmışam. Bir ömür bərabər yol gedəcəyik.

Bayaqdan büzüşüb oturan, qafqazlıların acgöz baxışlarına yem olan, pərtliyini büruzə verməməyə çalışan gənc qadın sanki bu sözlərdən sonra böyüdü, qanadlandı, məclisə sığmaz oldu. Ondakı dəyişikliyi Namiq də sezdi, amma üstünü vurmadı. Qadın yerində dirçəlib ayağını ayağının üstünə aşırdı. Başını dik tutaraq masadakı erkəklərə oturuşu-duruşuyla meydan oxumağa başladı: "Gördünüz, mən kiməm?! Siz məni nə yerinə qoymuşdunuz? Hansı ampluada qəbul etmişdiniz? İkinci də olsam, mən bu kişinin arvadıyam! Siz düşündüyünüzdən deyiləm."

Masadakı erkəklərin hamısı sustalmışdı. Qızaran kim, utanan kim... Qadına girişmək fikrinə düşən

Asəfi də tər basdı: "Nə yaxşı, tələsmədim. Biabır olacaqdım Namiqin yanında. Bu heç kişilikdən deyildi. Kişi kişinin qadınına göz dikməz!" Məclis bitməmiş Asəfgil sabahkı müalicələrə hazırlığı bəhanə edib masadan qalxdılar. Əhvalları korlanmışdı.

– Adamda bəxt yaxşı şeydi, Mikayıl. Bizimki yatıb hələ. Az qalmışdı xəta törədəm. Yaxşı ki, Namiq vaxtında dilləndi.

– Gördüün, yan tərəfdəkilər də bizimkilərdi. Arvadından qorxan köpəkoğlu ailəsiynən oturduğunu bildirməkçün dəqiqə başı – elə deyilmi, arvadcan? – bağırırdı. Guya kimin nəyinə lazımdı sənin burda kimlə oturduğun?.. Fasonbaz oğlu, fasonbaz. Əzrayılın yanında olmayaydı, görəydim sənin ailənə sədaqətini...

– Qorxmursan, arvadlara "əzrayıl" deyirsən? Birdən evdəkinin qulağına çatar haa... – Asəf dostunu cırnatmağa çalışdı. Sonra ciddi görkəm alıb – hamını bir tutma, ayə, – dedi. Elə bizimlə oturan Natiqə fikir verdiin? Bir dəfə durub oynamadı. Nə qədər dürtmələdilər tərpənmədi ki, mən namuslu ailə başçısıyam. Əvvəl elə bildim zarafat eləyir, sonra gördüm yoox, ciddidi. Özü də yaraşıqlı, cavan oğlandı. Hansı "quş" ona "yox" deyər?

Dostlar söhbətdən, zarafatdan yola körpü sala-sala diskotekaya üz tutdular. Yenə ümidləri ora qalmışdı. Al-əlvan işıqların cütlüklərə göz vurduğu diskotekada musiqinin gurultusundan qulaq tutulurdu. Ritmik havalara atılıb-düşənlərin ayaq tappıltısı səsin şiddətini

lap artırırdı. Salonun ortasındakı dairəvi çökəkdə əsl kaloriverma yarışı gedirdi.

– Mikayıl, əsl sənin yerindi. Gedənəcən hər axşam gəlib burda oynasan, xeyli arıqlayarsan. Bədənin açılar. Əməlli-başlı idmandı.

Salonda ətir qoxusu tər iyinə qarışmışdı. Ortada gözəl rəqsiylə baxanları valeh edən də vardı, həvəsini öldürməkçün bədənini yırğalayan da. Tərləyənlər arada kənara çəkilib sərinləyir, yenidən meydançaya qayıdırdılar. Tərəfdaşı olmayanlar qıraqda durub qismətini gözləyirdi. O anda gördülər ki, Yasər dörd qadını qamarlayıb qapıya doğru aparır. Mikayıl dözmədi:

– Əəə, bu görməmiş oğlu görməmiş dördünü birdən hara götürür?

– Sən bilməzsən. Dördünü aparmağına baxma. Bir azdan əliboş qalacaq. Onun dədəsindən qalma bir şakəri var.

– Nə şakərdi elə?

– At alanda dişinə baxarlar haa...

– Hə.

– Bu da arvad tapanda yaşına baxır. Aparıb o tərəfdə min bəhanəylə yaşlarını öyrənəcək. Otuzdan aşağı olmayanları başından edəcək.

– Bu dəlidi-nədi? Xalxın arvadının yaşını neynir? Evlənmir haa. Bir-iki dəfəlik yaxınlığa yaş nə lazımdı?

– Neyləməli, o da belə xəstədi...

O arada bir dəstə qız dingildəyə-dingildəyə diskotekaya girdi. Təzə gələn "quşları bişirməyə" girişən dostlar Yasəri unutdular. Rəqs ehtirasıyla yanan qızlar dəvəti göydə qapdılar. Asəflə Mikayıl asanlıqla murada

yetdilər. Damarlarında qanı qaynayan sarışın gözəllər dağ vüqarlı qafqazlıların  qolları arasında şam kimi əriyərək onları təbdən çıxarırdılar...

Samirgilin qonaqlığı bitmək bilmirdi. Yaman uzun sürdü. Əyləncə hamısının ürəyindəndi. Amma ətrafdan əl-ayaq çəkilirdi. Masadan durmağın vaxtıydı. Qarnı tutduqca yeyib-içməyə çalışan Əsas Sarışının acgözlüyünü Samir də sezmişdi. Ancaq vecinə almırdı. Bu axşam xərc-xəracat gözünə görünmürdü. Ürəyində deyirdi ki, bu gün yaman yorulacaq, istədiyi qədər yeyib-içsin, gecə yarısı “acam” deyib zəhləmi tökməsin. Səxavət kisəsini açan Samir ömründə ilk dəfəydi ki, özünü əzizləmək fikrinə düşmüşdü. Bu kurort mövsümündə indiyədək ürəyində qalmış bütün istəklərini yerinə yetirəcəkdi. Özü öz qarşısında öhdəlik qoymuşdu elə bil.

– Burdan qalxan kimi diskotekaya gedək. Mən bu əhval-ruhiyyə ilə dörd divar arasına girib nəşəmi pozmaq istəmirəm, - deyə Birinci Sarışın yenə şıltaqlığını nümayiş etdirdi. Masanın erkəyi şıltağa dəstək verdi:

– Lap yaxşı olar. Diskoteka bağlanana qədər rəqs edərik.

Bu, səbəbkarı açmadı. O, kişini Birinci Sarışına qısqanırdı.

– Mən üşüyürəm. Oynadıq daa. Evə gedək, - deyib qəmzə atan Əsas Sarışın dərhal kişini qucaqlayıb ona sığınmaqla həlledici qərarı vermiş oldu.

– Elə isə meşənin içilə gedək. Daha romantik olsun.

Samir zövqdən-əyləncədən doymaq bilmirdi. Əlinə fürsət düşmüşkən, türklər demiş, dadını çıxarmaq istəyirdi.

– Ooo! Cavan oğlan, siz həm də romantika istəyirsiz?!

Şıltağın eyhamı hamıya çatdı. Ancaq Üçüncü Sarışın – gözəllik hamıya ləzzət edir – atmacasıyla eyhamın hədəfini dəyişdi. Görünür, o, açıq-saçıq söhbətlərdən abır-həya edirdi. Dərhal da sağollaşdı:

– Tanya otaqda təkdir. Mən gedim. Siz gəzişin.

Samir qızlarla meşə yoluna yenicə qədəm qoymuşdu ki, həmyerlilərinə rast gəldi. Çal saçlı, bəstəboy kişilər yeznə-qayın idilər. Vəzifəcə Bakıda mühüm postları tuturdular. Mədət müəllimin arvadı çoxdan rəhmətə getmişdi. Eldən-gündən abır-həya edib evlənməmişdi. Ailə içinə təzə arvad gətirmək onların kitabında yox idi. Qənbər müəlliminsə arvadı illər xəstəsiydi. Oğul evləndirib, qız köçürəndən sonra arvad boşamağı özünə sığışdırmamışdı. Neçə illərdi ki, bu iki qohum ümidini kurorta bağlamışdı. İl uzunu kurort həsrətilə alışıb-yanardılar. Yayın cırcıraması başlayan kimi yola düşərdilər. İstirahət də ki nə istirahət!.. Hər il eyni mövsümdə gəldiklərindən burda daimi tanışları, rəfiqələri vardı. Amma yenə də "təzə quş" görəndə nəfslərini saxlaya bilmirdilər. İndi də elə oldu. Samirgillə hal-əhval tutub, yerli-yataqlı tanış oldular cavan sarışınlarla. Eləmədilər tənbəllik, hətta birlikdə oturub məclis qurmağı da təklif etdilər.

– Samir, qadan alım, bu nə vaxtın "otboy"udu? İndidən evə girib neyləyəcəksiz? Gedək bir çay içək, sonrasına baxarıq. Xanımlar istəsə, yemək də yeyərik.

– Sağ olun, ay Mədət müəllim. Bu dəqiqə elə yeyib-içməkdən gəlirik. Qızlar yorulub. Əyinləri də nazikdi.

– Noolacax, gedək siz tərəfə, isti jaketdən-koftadan bir şey götürsünlər, gələk oturaq.

– Başqa vaxt otureriq, Mədət müəllim. Hələ buralardayıq, - deyib onlardan sovuşan Samir başının dəstəsilə beş addım aralanmamışdı ki, biznesmen həmyerliləri qabağını kəsdi. Belə gözəl axşamın sonunda onlara ürcah olması Samirçün taleyin istehzasıydı. Çünki Nazimlə Qərib sözün əsl mənasında yonulmamış kötük idilər. Hardansa əllərinə pul keçirib Bakıda dükan açmışdılar deyə, göylə gedirdilər. Sanırdılar ki, pulları varsa hər şeyə icazəlidirlər, hara addım atsalar yaşıl işıq yanacaq. Mərifət-qanacaqdan kasad olan Nazimgil kurorta kef eləmək iştahasıyla gəlmişdilər. Amma umduqlarından yeyə bilmirdilər. Dilini bilmədiyi qürbət ölkədə sualını, istəyini üzünə geyinib ünsiyyət qurmağa cəhd edən turistlərdən idi ikisi də. Mimikadan, him-cimdən, əl-qol hərəkətlərindən bir şey çıxmadığını görəndə yapışmışdılar Samirin yaxasından:

– Sən dil bilirsən. Bizə də "quş" tap. Onları başa sal ki, nə qədər istəsələr pulumuz var.

İndi də yanındakı qızları görüb qıcıqlanmışdılar. Samiri sorğu-suala çəkirdilər ki, bəs bizə verdiyin söz nə oldu...

– Kurorta təzə gələndə mən də elə bilirdim ki, bu millətin bütün qadınları gəzəyəndi. Ancaq tanış olduqca baxdım yoox, ərli qadınlar qətiyyən yaxın buraxmır adamı. Camaat bura dincəlməyə, müalicə olunmağa, ilin yorğunluğunu canından çıxartmağa gəlir. Hamı "siz deyən"dən deyil. Gəzmək, əylənmək istəyən özü işarət verir. Bir az dözün. Yaxşı olacaq.

Samir ha çalışdı, Nazimlə Qəribi yola gətirəmmədi. Köntöy cavanlar az qalırdı desinlər: "Sən çəkil kənara, biz davam edərik". Mübahisə etməyin mənası yoxuydu. Onsuz da başa düşməyəcəkdilər. Samir müdrikliyini işə salıb onları sakitləşdirdi:

– İki-üç günə mən gedirəm, onda tapşıracam qızlara siznən görüşsünlər.

Söz oğlanların ağlına batdı. Axır ki, əl çəkdilər.

Leysan ara vermişdi. Havada oksigen bolluğu yaranmışdı. İl uzunu təmiz havaya həsrət qalanlar kurort boyunca gəzişib bu nemətdən bəhrələnirdilər. Meşənin qaranlığında dolaşanları seçmək olmurdu. Amma asfalt yollarda, daş döşənmiş cığırlarda yanan rəngli işıqlar mehriban cütlükləri ifşa edirdi. Onların arasında qızı yerində gənclərə sarmaşanlar da vardı, tay-tuşu ilə şirin söhbət edənlər də. Qafqazlılarla oturub-duranlar yaxşı bilirdilər ki, onların kurort macəraları bir-birinə bənzəyir. Çünki hər il eyni ssenarilər təkrarlanırdı.

***avqust – sentyabr 2012,***
***"Bakı-Roma" təyyarəsi – Bakı***



## AZADLIQ QOXUSU... və QORXUSU

Mədinə hirslə yer belləyir, stressini atmağa çalışırdı. Hər dəfəsində elə güclü təpik vururdu ki, bel torpağın lap dərin qatlarına işləyirdi. Qadın torpağın altını üstünə çevirirdi. Sonra da əlindəki beli çəpəki tutaraq bərkimiş torpaqları döyəcləyir, kəsəkləri qırıb min parça edir, əzişdirə bildikcə əzişdirirdi. Yer bellədikcə torpağın alt qatlarından buxarlanıb qalxan qoxu ciyərlərinə dolur, Mədinənin sinəsini genişləndirirdi. Təzəcə göyərmiş otların başı kəsildikcə yayılan ətir ömrünə daha bir yazın gəldiyini müjdələyirdi. "Yaz da gəldi, bu kişi hələ gəlib çıxmadı. Hamının əri apardığını satdı-sovdu, gəldi oturdu arvad-uşağının yanında. Bizimkinin malı guya hələ durur. Görüm sənin yalanın batsın. Kişiliyin çatırsa düzünü de. De ki, hələ əlimdə pul var, gözəlçələr başıma dolanır, qazandığımı xərcləyib qurtaranda gələcəm."

Əlindəki beli torpağa sancıb gözlərini yumdu. Dərindən nəfəs alıb açıq havadan gələn ətirləri içinə çəkdi. Köksünü qabardıb nəfəsini saxladı. Ruhunu təzələyən bu gözəl havanı buraxmağa heyfi gəlirdi. "Qoy içimi gəzib-dolaşsın, min fransız ətrinə dəyər bu qoxu." Mədinə fransız ətirlərinin pərəstişkarıydı.

Əli də bunu bildiyindən alverdən hər gələndə arvadına iki-üç şüşə bahalı ətir alıb gətirməklə altı-yeddi aylıq yoxluğunun umu-küsüsünü aradan qaldırırdı. İndi, ərinin yoxluğunda ləzzət aldığı torpaq qoxusu bir anlıq ona azadlığın qoxusu kimi gəldi. Azadlıq qoxusunun ağlına gətirdiyi düşüncələr Mədinəni necə silkələdisə, qadın azadlıqdan qorxdu... Tez dırmığı götürüb qazdığı torpağı dırmıqlamağa başladı. Kərdi düzəldib göyərti əkəcəkdi. Hər il əkirdi. Balaca bostanında becərdiyi lobya, badımcan, bibər, göy-göyərti yay uzunu əlindən tuturdu. Məhsul bol olanda qışa tədarük etməyinə də yetirdi. Torpaqla əlləşmək uşaqlıqdan onun ən sevimli hobbisiydi.

– Yorulmayasan, ay qonşu. Yenə şirin cana qəsd eləyirsən. Əlidən hələ xəbər yoxduu?

– Yox.

– Necə yəni yox? Yay qapını kəsib. Xurma satanlar indidən ağacları behləyib. Camaat təzə reysə hazırlaşır. Səninki hələ ordadır?

Hirsindən partlayan Mədinə bir istədi desin ki, hamı sənin qızların kimi bəxtəvər deyil, il uzunu evinin başıpapaqlısını yanında saxlaya bilə. Nə düşündüsə dinmədi. Çəpərin yanında ayaq saxlayan Nabat gəlinin söhbətə girişmədiyini görüb yoluna davam etdi. O, Çinarlıda yeganə qadın idi ki, nə ərini, nə oğullarını, nə də kürəkənlərini çörək dalınca uzaq ellərə getməyə qoymamışdı. – Ac qulağım, dinc qulağım – deyib, kasıbçılığın hər üzünə dözmüşdü. Dərs deyən vaxtlar şagirdlərinə də öyüd-nəsihət edərmiş ki, pul qazanan oğul evinin içində qazanar.

Nabata məhəl qoymasa da, dedikləri Mədinəni qıcıqlandırmışdı. Torpaq ətrindən aldığı azadlıq qoxusu bircə anın içində qeybə çəkilmişdi. Bayaqdan genişlənən sinəsi indi durmadan daralırdı. Elə bil məngənəyə qoyub sıxırdılar. Dırmığı çəpərə söykəyib hovuzun başına keçdi. Əl-üzünü, boynunu, sinəsini və qollarını soyuq suyla isladıb ağacın altında oturdu. Yarpaqlar tərpəndikcə meh üzünə toxunur, islaq qollarının ağrısını alırdı. İndi hiss etdi ki, yorulub. Zərblə təpik vurmaqdan ayaqları da zoqquldayırdı. "Qış uzunu yeyib-yatmaqdan xamlamışam. Yaxşı ki, bu torpaq var. Formada qalmağıma kömək edir. Yoxsa oturaq iş axırıma çıxardı. Camaat elə bilir kabinetdə işləyənlər halva yeyir, day demirlər kompüterin qabağında canımız çıxır."

Dəmir qapının səsi həyətin sükutunu pozdu. "Nə yaman cırıldayır, gərək yağlayam. Əlidən mənə haray yoxdu."

– Sabahın xeyir, Medina, gördüün?

– Nəyi?

– Nəyi yox, Əjdərçiki. Doktor bəy yenə gəlib. Qız da qapıda qarovul çəkir.

– Fira bəsdi.

– Nə bəsdi? Yenə Fira günahkar oldu? Camaat sübhün gözü açılmamış...

– Belə lap yaxşı eləyir! - deyə Füruzənin dalınca həyətə girən Sərvinaz dilləndi. Ər köpəkoğlu illərlə evinə baş çəkməyəndə bilmirdi axırı belə olacaq? Xərclik göndərməklə iş bitir bəyəm?

Mədinə qeyri-iradi qonşu həyətə boylandı. Çiçək əllərini dalında çarpazlayıb qapıya söykənmişdi. Sanki kiminsə zorla evə girəcəyindən ehtiyat edirdi. Uşağa ürəyi yandı.

– Yazıq körpə, yenə qapı dalında qalıb.

– Neyləsin, anasını qoruyur daa. Əcəb ağıllı qızdır, sözəbaxan. Ərəbzəngi kimi kəsib qapını. Bizimkilər olsa başımızda turp əkərlər, - deyə Füruzə bərkdən güldü. Bu səhər onun kefi kök idi. Qonşuda baş verənlər də lap könlünü açmışdı.

– Bəsdi qonşunun halına yanasan, – Sərvinaz "halına yanasan"ı gülməli ədayla deyib Füruzəyə göz vurdu, – dur çay dəmlə. Mədinəni bostan yorub. Gün günorta yerinə qalxmamış açıq havada özümüzə məclis quraq. Oxayyy! Sabahın sərini, çiçəkləmiş ağacların ətri, biçilmiş otun qoxusu... Bəh-bəh-bəh! Mədinənin həyətbacası cənnətdi, cənnət. Hələ ki uşaqlar da yatır, rahat-rahat ürəyimizi boşaldarıq.

Sərvinaz Çinarlı icra hakimiyyətində humanitar işlərə baxırdı. Qəsəbədə elə ailə yox idi ki, ona işi düşməsin. Bu səbəbdən hamının cikinə də bələd idi, bikinə də. Özü də sözübütöv, mərd qadın idi. Hamıya əl tuturdu. Cavanlıqda komsomoldan keçmişdi raykoma. O vaxtdan çox yellər əsmişdi, çox dəyirmanların suyu qurumuşdu, icra başçılarının biri gedib-biri gəlmişdi... Sərvinaza dəyən-toxunan olmamışdı. Camaatla yaxşı dil tapırdı. Həlimliyi də vardı, hökmü də. Amiranəlik ona yaman yaraşırdı. Sözünün qabağında söz deyilməsini xoşlamırdı. Bunu bilən Füruzə zarafatından qalmadı:

– Baş üstə, Sərvinaz xanım, məktəb direktorunun həddi nədir icranın sözündən çıxa.

O, mahnı oxuya-oxuya mətbəxə yollandı. Fikri balaca Çiçəyin yanında qalan Mədinənin ürəyi dözmədi. Çəpərə yaxınlaşıb səsləndi:

– Çiçi, noolub? Yenə şuluqluq eləmisən, yoxsa anan narahatdı?

– Mən heç nə eləməmişəm, - deyə üzü çilli, sısqa Çiçək tez-tələsik cavab verdi.

– Onda... yenə ürəyi tutub?

– Doxdur özü baxır, Mədinə xala, siz gəlməyin.

– A qızım, mən demədim ki, gəlim. Dedim bəlkə kömək-zad lazımdı.

– Lazım deyil. İndi Əjdər əmi iynə vuracaq, anam sağalacaq. Tapşırdı ki, qonşulara əziyyət verməyə.

Həyətdə bir qəhqəhə qopdu, gəl görəsən. Rəfiqələrinin gülən üzünə baxan Mədinə də özünü saxlaya bilmədi. Qarınlarının əzələsi ağrıyana qədər pıqqıldaşdılar. Çiçək bildi ki, onun sözünə gülürlər. Uşağın mısmırığı sallandı.

– Bu yazığın evini kişisi yıxdı, kişisi, – deyə Sərvinaz axır ki özünü ələ alıb gülməyinə ara verdi. – Ciyəri yanmış toyunu eləyib gəlini evə gətirən kimi çıxdı getdi Rusetə. Gültəkin o damın altında təkbaşına qaldı. Çiçəyi doğdu, yekəltdi...

Füruzə tez atmaca atdı:

– Qızın üç yaşı vardı atasının üzünü görəndə.

– Hə, ad gününə gəlmişdi Mamed. Bir uşaq da onda qoydu gəlinin qarnına... o gedən getdi. Oğlu olanda min dollar pul göndərmişdi. Guya bərk sevinibmiş. Amma özü gəlmədi.

– Yazıq Gülü kişisini evə qaytarmaq ümidiylə uşağa Mamedin dədəsinin adını qoymuşdu.

– Heç uşaq naxoşlayanda da vecinə almadı. Nə illah etdilər gəlmədi. Gültəkin doxdur qapılarında sürünməkdən ürəktutması tapdı. Uşaq da tələf oldu...

Bayaqdan gülüşən qadınların üzünə qüssə çökmüşdü.

– Əjdər doxduru da elə o vaxtlar, körpəsinə əlac axtaranda tapmışdı. Deyirlər yaxşı həkimdi. Özü də insaflıdı. Pulgir deyil.

– Həə, qabaqlar Gülünün ürəyi tutanda rəhmdilliyindən gəlirdi. Gəlinin nanəcib əlində olduğunu bilirdi.

– Gültəkini qınayırıq. Amma elə kişiyə haqq eləyir. Çətin şeydi oğlun ölə, ərin gəlməyə. – Sərvinaz yağla balı lavaşa sürtüb dürmək düzəltmişdi. Bir dişləm alıb ləzzətdən başını yırğaladı. – Axır beş-altı ildə Mamedi buralarda görən olub, qızlar? Olmayıb. Belə kişiyə ər demək olar? Olmaz. Gültəkin acıq çıxır, acıq.

Sərvinazın sözləri Mədinənin canına üşütmə saldı. Bayaqkı azadlıq qoxusunun oyatdığı fikirlər yenə beynindən keçdi. Keçən kimi də azadlıqdan qorxdu. Bu dəfə lap bərk qorxdu. İstəmədi azadlığı. "Bircə Əli tez gəlsəydi. Axşam skaypa qoşulum görüm, dilə tuta bilərəmmi... Uşaqları da qabağa verərəm. Bəlkə ürəyi yumşaldı." Tez Sərvinaza etiraz elədi:

– Sən də söz danışdın daa... Hər ərindən gileyli yolunu azsa noolar? Bizim Çinarlıda arvadların yarıdan çoxu ərinin üzünü ildə bir-iki ay görür. İndi hamı Gülünün yolunu tutsun? Elə şey olar!? Bu Çiçi

anasından nə öyrənəcək? Daha uşaq deyil, yekə qızdı, hər şeyi başa düşür...

– Sən narahat olma, – deyə əhlikef Füruzə zarafatından qalmadı. – Elələrinin bəxti lap yaxşı kəsir. Qız indidən həyat məktəbi keçir, həyat. Gözü açılır.

– Fiiraa!

Mədinənin səsindəki xəbərdarlıq tonu Füruzənin dilindəki əyləci basdı. O, lağlağıya keçdi:

– Bu yay yelkənləri hansı səmtə açırıq? Bodrum, Antalya, Marmaris, Krım, yoxsa Maldiv adaları?

Qızları uğunmaq tutdu. Dəniz məsələsi üçünün də yaralı yeriydi. Hey can atsalar da yay gələndə yan bacadan bir əngəl çıxır, arzularına çatmağa imkan vermirdi. Mədinənin üzü güldü.

– Belə şeylərdən danışın, deyim "həə". Yoxsa başlamısız "it belə gəldi, qurd elə getdi..." O vaxta qədər Əli də gələr, bağa-bostana sahiblik edər. Mən də məzuniyyətimi götürüb uşaqlarla qoşularam sizə.

– Həə. Tələs, rəis xanım, tələs. Biz getdik, sən qaldın dalda – deyən Füruzə uğundu. – Ay qız, ağlın nə kəsir, sənin o qaraqabaq qonşun məni dənizə göndərər? On beş il getdi oturdu Murovun kəlləsində, heç demədi evdə cavan arvad qoyub gəlmişəm. İndi bu qoca vaxtımda mənə qısqanc ər rolunu oynayır.

– Qısqanmır ey, əda tökür. Kişilərin xasiyyətidi. Çətinə düşən kimi başlayırlar yalandan qısqanmağa. Bizimkilərdə o hünər nə gəzir, aparsın arvadını kurortlarda gəzdirsin.

– Niyə elə deyirsən, Naza? İsmayıl qardaşın pulu oldu, aparmadı? Aldığı hərbçi pensiyasıdı daa,

milyon deyil ki? Firagil korluq çəkməsin deyə səhərdən-axşama taksavatlıq edir. Burdan Bakıya gündə iki-üç yol maşın sürür.

– Etməlidi daa. Fira ona arvad olmayıb ey, qardaş olub, qardaş. O, Qarabağ müharibəsi başlayandan getdi cəbhəyə, qayıtmadı, qaldı orduda xidmət elədi. Bu qız namusla-qeyrətlə oturub ona uşaq saxladı, ev qurdu. Səhər məktəbdə dərs dedi, günorta evdə uşaq hazırladı. Oğulları da məktəbi qurtarmaq üzrəydi İsmayıl gələndə.

– Fira qız deyil ey, qızıl qırığıdı. Maşallah od parçasıdı. Allah ona dil veribsə, dibirçək də verib. Zirəkdi, bacarıqlıdı.

– Medina, heç sən də qoçaqlıqda Firadan geri qalmırsan. İl uzunu evi dolandıran özünsən. Uşaqların da hər yükü sənin çiynindədi. Xətrinə dəyməsin, Çinarlıda Əlinin üzünü görən var bəyəm? Həftə səkkiz-mən doqquz alverdədi.

Sərvinazın ikibaşlı tərifi Mədinəni açmadı. Onsuz da Nabat müəllimənin eyhamını hələ unutmamışdı. Ərindən nə qədər narazı olsa da, onun ünvanına başqasının dilindən artıq söz eşitmək şəstinə toxunurdu. Söhbəti dəyişmək istədi:

– Fira, düzünü de, on beş il necə dözdün? Heç darıxmadın?

– Xətrimə dəyirsən haa, Medina. Bir yaxşı-yaxşı bax gör, mən daşa-dəmirə oxşayıram? Naza, görürsən qonşunu, mənə Daşdəmir deyir... – Ədayla qaşgöz süzdürən Füruzə ciddiləşdi. – İsmayıl kimi ərin yolunu on beş il nədi, bir ömür də gözləsəm bezməzdim. Özüm sevib seçmişdim. Ancaq...

Bayaqdan ətrafa sevinc çiləyən Füruzənin baxışları qayğılandı. Bir dəfə görmüşdü ki, qayınatası arvadının çiyinlərini sığallayıb bişirdiyi yeməyi tərifləyir. Necə hirslənmişdisə, iki gün süfrə başına gəlməmişdi. Ən ağrılısı hər səhər qaynı arvadının gülər üzünü görməkdi. Heç nə Füruzəyə belə əzab verə bilməzdi. Hirsindən bəhanəni bəhanəyə qatıb Zərifəylə dalaşırdı. İndi bunları dilə gətirməyə utanırdı.

– Evin kişiləri xanımlarına mehribanlıq etdikcə darılırdım. Fikirləşirdim ki, mənim ərim səngərdə, güllə yağışı altında... bunlar burda... Nə isə. Baxdım dözə bilmirəm, iki ayağımı soxdum bir başmağa ki, mənə ayrı ev alın.

– Nəyi pis oldu ki? İsmayıl qurulu evə gəldi.

– Hə. Elə oldu. Amma hərbçi arvadı olmaq çətin şeymiş. Bizimkilərdən ayrılar-ayrılmaz gördüm ki, bütün gözlər üstümdədi. Bu qonşular var ha, – deyə Füruzə başıyla yan həyətlərə işarə elədi, – səhər-axşam qapımı güdürdülər. Bu evə yerləşən kimi rəhmətlik atam gəldi. Dedi: "Qızım, inadını yeridib ayrıldın. Buna sözüm yoxdu. Səndən arxayınam. Ancaq bil ki, ayağını bircə zərrə yan qoysan, yaman dillər birinin üstünə beşini də artırıb cəbhəyə xəbər uçurdacaq. O saat İsmayılın qol-qanadı sınar, düşmən qabağında əzmi zəifləyər. Ona görə də oturuşuna-duruşuna, hər sözünə fikir ver." Mən də kişinin dediklərini sırqa edib asdım qulağımdan.

– Halaldı sənə. Adına toz qondurmadın. Bir kəlmə dedi-qodu vermədin camaatın dilinə.

– Qızlar, mənə gülməyin. Öz əlim, öz başım olan kimi sakitləşdim. Elə bilirdim İsmayıl yanımdadı. Ta

əsəbiləşmirdim. Evimlə, uşaqlarımla günümü keçirirdim. Orda hər gün qanqaralığı salırdım, hər gün. Zərifə saman altdan su yeridirdi, mən aşkarda dava gəzirdim.

– Nahaq deməyiblər ki, qayın arvadı – xain arvadı.

– Qayınanamgil nə qədər başıma dolansalar, xeyri yox idi. Əlimi ağdan qaraya vurmurdum. Deyirdim, ərləri yanlarındadı, canları çıxsın, evin işini də özləri görsünlər. Amma öz evim olandan sonra bir əl-qol açdım ki, arvad məəttəl qaldı. Evdarlıqdan zövq almağa başlamışdım. Yavaş-yavaş səbrim də artırdı, məsuliyyətim də. İsmayıl bizdən ötrü canını oda atmışdı, Vətənimizi qoruyurdu. Mən də onun vətənini qorudum – ailəsini. İsmayıla canım da qurbandı. Ürəyi evdən arxayın olmasa, on beş il qalardımı orduda?

Füruzə susub fikrə daldı. Sanki o illərin ağırlığını üstündən atmağa çalışırdı. Bu an o deyib-gülən, əhlikef gəlin yox, qayğılı ailə başçısıydı. Mədinə çayları təzələdi.

– Di çayını iç, soyutma.

– Oğullarım sağ olsun, məni heç yalnız qoymadılar ki. Lap uşaqlıqdan evimin kişisi oldular, vaxtından qabaq böyüdülər. Vay odur məktəbdə bir kişi müəllim mənə yaxınlaşaydı, görəydiniz o saat yanımı necə kəsdirirdilər. – Füruzənin çöhrəsini təbəssüm bürüdü. – Yəni ki, biz burdayıq! O illəri İsmayıl ön cəbhədə, bizsə arxa cəbhədə hərbi rejimdə yaşadıq... Ayrı evə çıxandan sonra kişim tez-tez zəng vururdu, bu da mənə ləzzət eləyirdi. Arada bircə

həftəlik gəlib bizə baş çəkəndə analı-balalı bir il bayram edirdik.

Qulağı söhbətdə, gözü qonşu həyətdə olan Sərvinaz gördü ki, Çiçək qapıdan çəkildi. Tez rəfiqələrini səfərbər etdi:

– Qızlar diqqət! Xilaskar gedir.

Üçü birdən qonşu həyətə boylandı. Uzun boyunu əyə-əyə Gültəkinin alçaq qapısından çıxan Əjdər həkim sağa-sola nəzər fırladıb ətrafı yoxladı. Kimsə gözünə dəymədi. Portfelini yellədə-yellədə küçəyə çıxdı. Mədinə dilləndi:

– Gültəkin bu məhəlləyə bizdən sonra gəlin gəlib. Əvvəlcə bəxtəvərlik verirdik. Sonra yazığımız gəldi. İndi də qınayırıq. Həyat çox qəribədi.

– Hər şeyin bir ədəbi var. Ərdən üz döndərməyin də, – deyə Füruzə səsini ucaltdı. – Mərdi-mərdanə boşansın. Aliment istəsin. Sonra da başının çarəsinə baxsın. Zalımın qızı qurd ürəyi yeyib elə bil.

– Mamedi tapsa, boşanar.

– Qızlar, ağzınız isti yerdədi. Elə kişilər var ki, onlardan nə boşanmaq mümkündür, nə can qurtarmaq. Zəli kimi yapışdıqlarından qopmurlar.

Gün günorta yerinə qalxmışdı. Uşaqlar yuxudan durmuşdular. İkinci mərtəbənin eyvanında notbuku çəkişdirirdilər. Kompüter çıxandan televizor gözdən düşmüşdü, ona yaxın getmirdilər. Mədinəgilin ağzı söhbətə qızışdığından vaxtın necə keçdiyini duymamışdılar. Zamansızlıqda əylənirdilər. Astadan əsən meh sürətlə keçən maşının qaldırdığı tozanağı həyətə doğru qovurdu. O anda əcaib bir səs qulaqları

cırmaqladı. Qəfil basılan əyləcin səsi musiqili siqnalı boğdu. Dala-dala verilən maşın düz Gültəkinin doqqazında dayandı. Rəfiqələri heyrət bürüdü: maşından düşən Mamed idi. Azca yaşlanmışdı. Qorxa-qorxa bir-birinin üzünə baxdılar: "Bədbəxtin qızı bədbəxt. İndi görəsən noolacaq?.."

İstinin düşməsi rahatlıqlarını pozsa da, maraq onları içəri keçməyə qoymurdu. Birtəhər ağac kölgəsində daldalanırdılar. Hələ ki çəpərin o tayında sakitlik idi. Qonşu həyətə adlayıb vəziyyəti öyrənməyə də cürət etmirdilər. Mamed yaman pis vaxtda gəlmişdi. Nədənsə şübhələnsə, vay Gülünün halına. Gözləyə-gözləyə qalmışdılar ki, bir də gördülər Əjdər portfelini yelləyə-yelləyə gəlir. Boyu çox uzun, özü də arıq olduğundan yeriyəndə sanki irəli-geri yırğalanırdı. Sərvinaz istədi qabağa keçib onu yoldan qaytarsın, eyvanda papirosunu tüstülədən ərini görən kimi ayağını saxladı. Əlqərəz, həkim evə keçdi. Amma bu dəfə Çiçək qapının dalında durmadı. Həyəcandan rəng verib-rəng alan rəfiqələr tikan üstündə oturmuşdular. Hər dəqiqə həngamə qopa bilərdi.

– Allah kəssin belə gün görməyi. Arvad nədi, yolunu azdı nədi, - deyə Sərvinaz əlləri qoynunda həyətdə var-gəl edirdi. "Gültəkin bu işin altından necə çıxacaq? Mamed özü başa düşməsə də el-gün xəbər verəcək..."

Sərvinaz kişi kimi qadınıydı. Sinəsini qabağa verib çox davaları yatırtmışdı. İndisə tərəddüd edirdi. Çünki dildə qonşusuna haqq qazandırsa da, ürəyində bəraət verəmmirdi. Üstəlik içini qovuran bir peşman-

çılığı varıydı: ömründə bircə dəfə cızığından çıxmışdı, indiyədək əzab çəkirdi. O vaxt, ərini evindəki qonağın yatağında tutanda özünə söz vermişdi ki, bunun heyfini çıxacaq. Dediyini eləmişdi. Başı istiykən qüruru rahatlamışdı. Hirsi-hikkəsi soyuyandan sonra o bircə dəfəlik qisasın girovuna çevrilmişdi. "Mahmud xəbər tutacaq" - deyə ürəyi qopurdu. Yadına düşdükcə xəcalətindən əriyib yerə yapışırdı. Peşmançılıqdan tüstüsü təpəsindən çıxır, ərinə qeyzlənirdi: "Ah Mahmud, ah! Gör məni nəyə vadar elədin! Sərgüzəştlərinə o qədər göz yumdum, qulaq tıxadım ki... axır evimin içində... Yaman ağır gəlmişdi mənə o əməlin... yaman. Bilsəydim yaşlandıqca şakərini tərgidəcəksən, heç o qələti də eləməzdim!.."

– Doxdur nə ağılla durub gəlib? Yəqin içəridə vurçatlasındı. Haqq-hesab çəkilir.

– Elə şey olsa, indi səsləri aləmi başına götürmüşdü, Fira. Nədirsə, bu xına o xınadan deyil.

Gərginlikdən Mədinənin əlləri tərləmişdi. Ovuclarından puçur-puçur su axırdı. Füruzədə bət-bəniz qalmamışdı. Sərvinaz da ayaq üstə meyitə çevrilmişdi. Xeyli keçəndən sonra bəlalı qonşunun qapısı açıldı. Mamed özü həkimi doqqazadək ötürüb cibinə də pul qoyanda dərindən nəfəs aldılar. Təhlükə sovuşmuşdu. İrəli yeriyib hal-əhval tutdular:

– Xoş gəldin, ay Mamed qardaş. Sən hara, bura hara? Nə yaxşı döndün...

Mamed gülə-gülə dedi:

– Elə birdən beynimə vurdu. Gəldim görəm nə var-nə yox. Bizim arvad da yaman naxoşlayıbmış...

Mahmud qardaş necədi, Sərvinaz bacı, uşaqları evləndirmiş olarsız. Füruzə müəllimə, Mədinə xanım, sizlərdə nə var-nə yox? Əli yenə meyvə aparır, yoxsa buralarda iş qurub? Eşitdim, İsmayıl orduyla xudahafizləşib. Gözünüz aydın!

Mamed cavab gözləmədən – Gülü məni görərgörməz ürəyi getdi, – deyib özündənrazı ədayla qarnını sığalladı. – Sağ olsun Əjdər doxduru, dərmanını o bilirmiş. Bircə iynə vuran kimi arvadı diriltdi.

Rəfiqələr çaşqınlıqla bir-birinin üzünə baxdılar. Mamedlə hal-əhvallaşıb çəpərdən uzaqlaşdılar. Gültəkinin zirəkliyinə mat qalmışdılar. Mamedi necə inandırmışdısa... İşin dava-qırğınsız qurtarmağına sevinsələr də, içlərində acıq pöhrələnirdi.

– Sən qızdakı fərasətə baax. Bunun məzlum görkəminin altında nə hünərlər yatırmış...

– Xəbərimiz yoxmuş! Sən demə, üçümüzü də suya susuz aparıb, susuz gətirərmiş...

– Bisavadlığına baxmayın, hazırcavablığına baxın, qızlar. İki daşın arasında kimin ağlına gələrdi belə çözüm?..

Darvazanın cırıldaması giley-güzarı yarımçıq kəsdi. Gələn qonşu Gülsərən idi. Tövşüyə-tövşüyə özünü kürsüyə salıb – gördüz, bunun da əri gəldi, – dedi. – İndi Gültəkin də daxmasını söküb ikimərtəbə tikdirər.

Füruzəni gülmək tutdu:

– Keçi can hayındadı, qəssab piy.

– Mədinə, sərin suyun var, yanıram, – deyən Gülsərən üzünü yelləyə-yelləyə mətləbə keçdi. – Sərvinaz, sən də başbilənimiz. Məni başa sal

görüm, nə yolnan Fərruxun adını işdə saxlatdıra bilərəm. İstəyirəm üzümüzə gələn payız kişini alverə göndərəm. Müəllimlikdən bir şey çıxmır. İndiki zəmanədə ziyalıya qiymət verən yoxdu. Nə varsa, alverdə var.

– Dərdin nədi, ay Gülsərən? Niyə kişini çöllərə salırsan?

– Zaur da ikinci mərtəbə qaldırdı, ordan bizim həyətə baxır. Sağım-solum hamısı ikimərtəbədi. Ortada boynu bükük qalan ev bizimkidi. İndi bu Allahın mələməzi Gültəkin də qaldırar. Ondan soora gərək mən bu məhəllədə baş saxlamayam.

– Mən demişəm, arvadları öldürsə-öldürsə, bəhsə-bəhs öldürəcək. Kişilərinizi qızışdırıb göndərirsiz, sonra da haray-həşir qoparırsız ki, qoymayın ərimiz əldən getdi.

– Bu yaşımda ər nəyimə lazımdı? Getsin pul göndərsin, pul! Mən gün görmədim, barı uşaxlarım ağ günə çıxsın.

Ventilyatoru gətirib düz stolun başında qoşan Mədinə dilləndi:

– Mən əvvəlki evimdən də çox məmnundum. Bircə mərtəbə, üç-dörd otaq. Yığışdırıb-təmizləməyi də rahat olurdu. İndi ha əlləş ki, bir yana çıxassan. İnanın Əli gedəndən qonaq otaqlarının qapısını açmamışıq. Nə aşağıda, nə də yuxarıda. Gələnimiz kimdi? Mətbəxdə yeyirik. Sonra da hərə öz otağına çəkilir.

Söhbət Gülsərənin döşünə yatmadı. Ərik ağacının kövrək bir budağını şaqqıltıyla qırıb əlində hirsli-hirsli yelləməyə başladı.

– Sənin nə vecinədi? Əli qazanır, sən də eninə-uzununa xərcləyirsən. Hələ bir gileylənirsən də. Kişin gəlsin ayağını uzatsın otursun sənin yanında, onda görərəm gününü. Poçt rəisi olmağnan bu boyda qurqunu qurmağ olar? Sən küçəyə çıxanda ətrinin qoxusu ta bizim evə qədər gəlir. Bir saat doqqazda durub o havanı iyləyirik.

Hamının gözü çağırılmamış qonağın əlindəki budaqda qalmışdı: üstü çiçəklə doluydu. Füruzənin qəlbi göynədi. Havaya danışırmış kimi söylənməyə başladı:

– Medina, fikir vermisən, məhəlləmizdə kişilər azaldıqca ikimərtəbəli evlərin sayı artır. Bunların başı xarabdı. Elə bilirlər pul qazanıb göndərməklə arvadı bəxtiyar edirlər.

– Sən belə gözütoxsansa, niyə kişini göndərmişdin odun-alovun içinə? Özün də cavan gəlinkən. Elə bilirsən biz heç nə qanmırıx? Əlbəttə ki, pula görə. İsmayıl ordunu çapıb-talamasa, sən bu evi nəynən tikəcəkdin?

Füruzəni od götürdü. Elə bildi başına bir qazan qaynar su tökdülər.

– Əvvəla, yaxşı bilirsən ki, bu evi mən tikməmişəm, qayınatam hazır alıb. İkincisi, mənim ərim güllə qabağında torpaq təəssübü çəkəndə, sənin Fərruxun xəstəlik kağızı çıxarıb oturmuşdu məktəbdə. Nəinki ərin, qayınların da, qardaşların da başını girələyirdi. Çinarlının şəhidləri, Qarabağ əlilləri arasında bir nəfər də sizinkilərdən yoxdu! Hələ dilin də var, danışırsan? İsmayıl kimi büllur adama böhtan atırsan!? Mən səni məhkəməyə...

Sərvinaz işin yoğunladığını görüb araya girdi:

– İsmayıl qardaşın təmizliyi dillərdə dastandı. Hamı bilir. Bütün əsgərlər, zabitlər başına and içirdi. Bilirsən niyə, Gülsərən? Çünki İsmayıl aldığı halal-hümmət maaşını evə göndərmirdi, onlara xərcləyirdi. Dəfələrlə şahidi olmuşam.

Gülsərən pisikdi. Dilinə yiyəlik etmədiyinə peşman olmuşdu.

– Adın gül olsa da, tikanların çoxdu, Gülsərən. Ətrindən ürək açılmamış tikanların batır. Cızdığı yeri qanadır.

Suyu süzülə-süzülə evinə dönən qadını əri danlayırdı:

– Məni direktorumun yanında başıaşağı elədin, Gülsərən. Bu zəhər dilinə yiyəlik etməyi nə vaxt öyrənəcəksən?

– Sözümü dedim, ürəyimdən tikan çıxdı. Soorası noolur, olsun.

Mamedin gəlişi qəsəbəni silkələmişdi. Çoxunun başıpapaqlısı o tərəflərdə olduğundan, evlərin sözü-söhbəti o idi. "Görəsən qalacaqmı? Qalsa, arvadını boşayıb təzəsini alacaq, yoxsaaa?" Hamı intizarda ikən, Mamed öz kefindəydi. Hərdən Gültəkinlə Çiçəyi də yanına salıb aparırdı qonaqlığa. Gündə bir qohumun evində yeyib-içir, qazancıyla lovğalanırdı: "Qürbətdə iş qurmaq hər oğulun hünəri deyil. O bazarda mənsiz quş uçmaz. Hamı qabağımda farağat durur. Qubernator özü deyib ki, Mamed, qarabalaların ixtiyarı səndədi. Qardaş, işim iş, gözəllər də itə tök. Qazan, yaşa. Orda adamın başqa dərdi yoxdu ha!"

İşsizlik Çinarlının böyük bəlasıydı. Ona görə də buranın cəfakeş qadınları kişilərinin qabağını kəsə bilmirdilər. Taleyə boyun əymək, güzərana qurban getmək alınlarına yazılmışdı. İndi Mamed kişiləri başına yığıb pul qazanmağın fəndlərindən danışdıqca cavanların ürəyi atlanırdı. Bir həvəslənirdilər, gəl görəsən. Ən çox da gözəllərə görə. Elə ki, qonaqlıqlar qurtardı, Mamed daha Çinarlıda duruş gətirə bilmədi. Yenə çamadanını əlinə alıb yola rəvan oldu. Qəfil gəlişi kimi qəfil gedişi də beyinlərdə sorğular qoydu: "Arvadının əməlindən xəbər tutdu, utandığından getdi, yoxsa heç bilmədi? Necə bilməz? Heç canıyananı yoxdu bu yetimin?" Camaat yozub-yozub axırı bu qənaətə gəldi ki, Mamed bəlkə də bildi, özünü bilməməzliyə qoydu. Nəyinə gərək artıq başağrısı. Gözünü açandan Rusetdədi. Orda arvadı da var, uşağı da. Yəqin burdakını da qocalığına ehtiyat saxlayır. Onsuz da o zaman zorla evləndirmişdilər.

Yenə sabah açılmışdı. Sərvinazın xidməti maşını qapıda gözləmədəydi. Darvazanın önündə qırmızı "Nissan Tiida"sını əyləyən Füruzə siqnallayırdı. Mədinə tələsməyə başladı. "Bunlar da vaxtında durmur ki, öz əlimlə yedizdirəm, arxayın gedəm." Uşaqları yay tətilindəydi. Onlarçün hazırladığı süfrəyə nəzər saldı görsün əyər-əskiyi yoxdu ki. Arxayınlaşıb güzgü qabağına keçdi. Dodağını boyayıb özünə gülümsədi. Qəşəng görünürdü. Ətirləndi və çantasını götürüb çıxdı. Yolda söhbət hərlənib-fırlanıb qonşuların üstünə gəldi.

– Medina, fikir veribsən, Mamed gəlib-gedəndən sonra Gültəkin lap arxayınlaşıb. Daha Çiçəyi qapı dalında durquzmur.

– Üslubunu dəyişib. Əjdərçik gələn kimi Çiçini uşaqlarla oynamağa göndərir. – Mədinə yerində dikəlib rəfiqəsinin biləyindən tutdu. – Ancaq sən bircə addım qapıya yaxınlaş, o saat Çiçi oyunu yarımçıq qoyub özünü təngnəfəs yetirəcək. Fira, istəyirsən bir gün yoxla.

– Cəhənnəm olsunlar anası da, balası da. Mən belə abırsız adamlar görməmişəm. Qoy yuxarı sinfə çatsın, mən o qıza deyəcəyimi deyəcəm.

– O vaxtadək gec olmasın?..

Füruzə başını döndərib qəribə nəzərlə Mədinəyə baxdı. Xəbərdarlıq onu tutmuşdu. Sürəti artırıb təzəcə salınmış körpünün üstündən yel kimi keçdi. Mərkəzi parkın arxasından fırlanıb düz poçtun qabağında saxladı.

– Gülə-gülə, Medina. Axşam qayıdanda burdan keçəcəm. İşdə olsan, bərabər dönərik.

– Okey.

Axır vaxtlar Mədinənin bikef olduğu Füruzənin gözündən qaçmamışdı. Hər vəchlə rəfiqəsinin fikrini yayındırmağa, onu qorumağa çalışırdı. "Əlinin xiffətini eləyir. Gəlib çıxsaydı..."

Mədinə poçta girəndə işçiləri yeni avadanlıqları quraşdırırdılar.

– Yorulmayasız, ay qoçaqlar. Deyəsən, gecəni burda qalmısız.

– Bəs nə bilmişdiz, Mədinə xanım. Biz heç birinciliyi əldən verənə oxşayırıq? Arxayın olun.

Keçən il necə, bu il də eləcə. Nazirliyin mükafatını özümüz alacağıq. Bu ətrafda heç bir poçt camaata bizim kimi  xidmət edə bilməz. Keyfiyyət deyirsən, bizdə. Şirin dil deyirsən, o da bizdə.

Mədinə xoş əhvalla otağına keçdi. İşindəki uğurlar ona stimul verirdi. Yerini rahatlayıb yarışla bağlı təlimatı gözdən keçirməyə başladı. Gözü qarşısındakı sənədlərə baxsa da, fikri qonşuda qalmışdı. Nədənsə axır vaxtlar Əjdərçikin Gülügilə gəlib-getməsi tez-tez gözünə batırdı. Bostanını hər suvaranda torpaqdan gələn azadlıq qoxusu da bir yandan ruhunu qıcıqlandırırdı. Şitillər tutmuşdu. Bu gün-sabah bar verəcəkdi. Əlidən isə hələ də xəbər yox idi. Qadın azadlıq qoxusunun doğurduğu istəklərlə mübarizə etməkdən yorğun düşmüşdü. "Yaxşı ki bu Fira var. Ərinin qabağında əmrə müntəzir dayanan dağ kimi Naza var. Nabat müəllimə kimilər, lap o başdanxarab Gülsərən var. Yoxsa Gülü kimi qonşuya baxa-baxa adam gorunu oda yaxar."

Gündən-günə içinə işləyən azadlıq qoxusu Mədinəni rahat buraxmırdı. Tərslikdən Əli də bu yay lap gecikirdi. Hey söz versə də, gəlib çıxmaq bilmirdi. Mədinə azadlıq duyğusuyla çarpışa-çarpışa qalmışdı. Yavaş-yavaş azadlığın qoxusu azadlıq qorxusunu üstələyirdi. İstəməsə də.

***may 2014***

# Povest

## ÜÇBUCAQDA GEDİŞLƏR

Ruhu darmadağın idi. Daha bu həyatda özündən çox istədiyi kimsəsi qalmamışdı. Eşidəndə inanmamışdı. Gördü də inanmaq istəmədi. Amma faktdan qaçmaq çıxış yolu olmadı. Həqiqət barmaqlarını gözünə soxub oyanda ayıldı. Reallığı qəbul etməyə məcbur oldu. Sevgiyə elə uymuşdular ki, qapıya salınan açar səsini eşitməmişdilər. Heç içəri girdiyini də duymadılar. Nigar əlindəki dolu torbaları yerə qoyub uşaqları səsləyəndə ayıldılar. Qəfil yaxalandılar...

İndi neyləsin? Bacısından üz döndərsin, yoxsa nişanlısından vaz keçsin? Əslində bu durumda hər ikisi onunçün ən arzuolunmaz məxluqlar idi – persona non-qrata!!

Acı sürprizdən sarsılan Nigar kəlmə kəsmədən özünü bayıra atmışdı. Neçə saat idi küçələri dolaşırdı. Ürəyi daş kimi bərkimişdi. Sanki nəbzi döyünmürdü. Adamlar, ağaclar, maşınlar, binalar,.. ətrafda nə varsa hamısı o qədər mənasız görünürdü ki. Yaradanın dünyanı bu qədər lazımsız şeylə doldurduğuna heyrətlənirdi. Gördüyünü gördükdən sonra baxdığı hər şey gözünü deşirdi. Sanki mıx batıb

qalmışdı bəbəyinin içində. Deşirdi. Elə hey deşirdi. Baxmamağa çalışdı.

Parkdakı oturacağa sərilib gözlərini yumdu. Kirpikləri qovuşan kimi qor dolmuş sayaq ağrıtdı. Sanki göz qapaqlarının altına yumru-yumru daşlar, qum, çınqıl doldurmuşdular. Ağlamamışdı. Gözlər niyə bu gündəydi ki? Bir müddət gözlərini qapalı saxlamağa çalışdı. Nəhayət, ağrıya təslim olub açdı. Bəbəkləri yeni bir həmləyə məruz qaldı: günəş şüası ox kimi gözündən girib qəlbinə saplandı, içini yandırdı. Qıcıqdan gözləri yaşardı. "Sən nə istəyirsən?" - deyə ürəyində günəşin qarasınca söyləndi. Sellənən göz yaşını bəbəklərində dondurmağa çalışdı. Getdikcə içində həyat eşqi verən nə vardısa, hamısı qəlbinin ağrısına bələnərək gözlərindən axıb-axıb tükənirdi. Nigarın duyğuları korşalırdı.

Birdən gözü parkın ortasındakı daş qalağına sataşdı. Qədim dövrü, bakir təbiəti andıran mücərrəd gözəllik nümunəsiydi. Ağlına gələn fikirdən sevindi. Təxəyyülündə gözüylə ən iri daşları bir-bir yerindən oynadır, çəkib özünə yaxınlaşdırır və tuşlayıb onlara atırdı. Sağdan-soldan çarpayıya daş yağırdı. Amma xainlər öz işindəydi. Nigar ha çalışdı atdığı daşlardan biri onların başına düşsün, olmadı. Bir xeyli beləcə "əyləndi". Nisbətən yüngülləşmişdi.

Bu an o, qranit kimi möhkəm idi. Güclüydü. Qarşısına çıxanı yerlə-yeksan etməyə qadiriydi. İndiyədək həyatının mənasını əzizlərinin yolunda özünü fəda etməkdə görmüşdü. İndisə… Sevdanın



bir əməliylə dünyanın çarxı tərsinə dönmüşdü. Nigarın beynindəki siyahıdan əzizlərinin hamısı silinmişdi. Hamısı! Ömür vəfa etdikcə yanlarında olacağına inandığı insanlardan heç biri gələcəyə daşımalı olduğu siyahıda qalmamışdı.

Qara-qara düşüncələr Nigarın yaddaşının altını üstünə çevirirdi, varlığını didib-dağıdırdı. "Başıma pərvanə kimi dolanardılar, mənimlə qürur duyardılar, xoşbəxtliyimi arzulayardılar. Sən demə, hamısı yalanmış… Məni sevən-sayan yoxmuş. Özümü fəda etməyim hədərmiş. Heyf boşa xərclədiyim ömürdən, min heyf! Bundan sonra hərə öz problemini həll etsin. Yetər! Məndən bu qədər."

Üzüntüdən öləziyən Nigar yandırıcı günəş şüaları altında istidən qarsıyan gülə bənzəyirdi. Ha çalışırdı "nə baş verib" sualı ətrafında fikrini cəmləsin, alınmırdı. O, xəyanətin ən ağır növü ilə rastlaşmışdı. Bir yanda bacısı, bir yanda gələcəyə dair ümidlərini bağladığı Fateh.

* * *

– Yaxşı olmadı, heç yaxşı olmadı, – deyə evdə var-gəl edən Fateh Sevdanı danlayırdı – sənin evinin açarı bacında nə gəzir?!

– Yaşar öləndən sonra Nigar bizim evin kişisi olub. Həm yemək-içməyimizi alıb gətirib, həm əyin-başımızı. Onsuz mən bu uşaqları böyüdəmməzdim.

– Eləmiii? - deyə Fateh mənalı-mənalı başını tərpətdi. Sevda onun nəyə eyham vurduğunu anladı. Bulud kimi tutuldu. "Sən bundakı cəsarətə bax, məni nankorluqda suçlayır."

O an qapının zəngi çalındı. Hay-küylə içəri girən uşaqlar Fatehi görən kimi – Nigar xala hardadı? – deyə sevinə-sevinə axtarmağa başladılar. Hərəsi bir səmtə qaçdı. Dəcəllərin gülüşü, çığır-bağırı evi başına götürdü. Suç üstə yaxalanmış Sevdaya qanının bu qara vaxtında oğullarının şən əhvalı ağır gəldi. Fateh qapıdan çıxan kimi hirsini onlara tökdü:

– Bəsdi evi dağıtdınız. Paltarlarınızı dəyişin.

Ceyhunla Seyhun mətbəxdəki torbaları taparaq bir-birinə macal vermədən içindəkiləri töküşdürürdülər, xala hələlik yaddan çıxmışdı. Sevda isə özünü oğru kimi hiss edirdi – səadət oğrusu!

* * *

Nigar evin ilki idi. Adətən çoxuşaqlı ailələrdə böyüklər kiçiklərin qayğısına qalar. Amma onun huşu-fikri öz dərslərindəydi. Oynayanda da bacılarına yaxın durmazdı. Hərdən qardaşlarıyla yarışardı. Oğlan kimi bir uşaqdı. Ta sonbeşik doğulanacan. O körpə evə qədəm basdığı gündən Nigarın həyatı dəyişdi. Düz on iki yaş fərqilə eyni gündə doğulmuşdular. Zodiak bürcünə görə ikisi də pələng ilində, şir bürcündə dünyaya gəlmişdi. O, bu şirin körpəni elə sevdi ki, hətta anasına qısqanmağa başladı. Dərslərini axsatmırdı. Ancaq sonbeşiyin də hər qığıltısına özü yüyürürdü. Körpəni könüllü himayəyə götürmüşdü. Sevda böyüdükcə aralarındakı gözəgörünməz bağ daha da qüvvətlənirdi. Təkcə evdəkilər deyil, qonum-qonşu, qohumlar hamısı bu istəyin fərqinə varırdı. Bacıların böyüyü kiçiyi elə əzizləyirdi ki... Məhəllə-

dəki arvadlar zarafatla deyirdilər: "Elə bil özü doğub, doğmaca balasıdı."

İndi bacısıgildə gördüklərini düşündükcə yeri-göyü lənətləyirdi. Elə qəzəbliydi ki ata-anasına: "Yeddi uşaqdan sonra bunu neyləyirdiniiiz??" Bu fikir ürəyindən keçən kimi dərhal da peşmançılıq yaşadı. Guya o belə düşünən kimi tarix geri dönəcək, ailəsi yeddi uşaqla kifayətlənəcəkdi. "Allah, bu nə bəlaydı mən düşdüm... Keç günahımdan. Bir bişərəfə görə doğma bacımın yox olmasını istəyirəm."

O an başını qaldırıb göyə baxdı. Səma masmavi, buludlar ağ pənbə, günəş parlaq, hava şəffaf, həyat o qədər gözəl idi ki... Sanki yad bir planeti seyr edirdi və özünün buralara heç bir aidiyyatı yoxuydu. Bir an Nigara elə gəldi ki, haradasa yad bir şəhərdə – ezamiyyətdə, ya da istirahətdədir. Az öncə gördüklərinə də kinoda baxıb. Çox təsirlənib, ona görə özünə gələ bilmir. Bu düşüncə saniyədən qısa sürsə də, hər halda faydalı oldu. Qız soyuq mühakimə ilə baş verənləri götür-qoy etməyə başladı. Özünə söz verdi: hamıya obyektiv yanaşacaq, dürüst olacaq!

* * *

Nigar hüquqşünas idi. Özəl notariatı vardı. Ona görə də, belə məqamlarda fakta söykənirdi. Əslində ilk peşəsi həkimlikdi. Tibb Universitetini qırmızı diplomla bitirmişdi. Amma bir gün də həkim işləməmişdi. Tələbəliklə vidalaşan kimi inzibati vəzifə tutmuşdu. Bu da hüquqşünas ixtisasına ehtiyac yaratmışdı. Nigar eləməmişdi tənbəllik, ikinci ali təhsil almışdı.

Fatehlə ilk tanışlıqları elə notariatda olmuşdu. Hüquqşünas xanım təmənnasız-filansız bir xeyli müşküllərinin həllində onun əlindən tutmuşdu. Axırı dostlaşmışdılar. Görüşlər sıxlaşdıqca duyğular rəngini dəyişmiş, sevgiyə çevrilmişdi. İki ilə yaxın idi ki, öz aralarında nişanlanmışdılar. Oğlan evi də, qız evi də məsələdən xəbərdarıydı. İşin rəsmiləşməsi üçün Fatehin maddi durumunun yaxşılaşmasını gözləyirdilər. "Ev alan kimi evlənəcəyik", - deyirdi oğlan. Qız inanırdı. Və gözləyirdi.

İşin yorğunluğunu, günün gərginliyini axşam görüşlərində unudurdular. Birlikdə keçirdikləri vaxt onlara dünyanı bəxş edirdi. Keçmişə səyahət sevimli əyləncələri sırasındaydı. Saatlarca albomları ələk-vələk edərdilər. Oğlan bütün fotoların tarixçəsini, şəkildəkilərin kimliyini öyrənməmiş qızdan əl çəkməzdi. Retro filmlərə baxmaq sevgililərə xüsusi zövq verirdi. Hər filmin seyri qızğın mübahisələrlə, mövqe toqquşmalarıyla yadda qalırdı. Bu minvalla bir-birinə daha dərindən bələd olurdular.

Bir də gördün başlayırdılar çalıb-oynamağa. Fatehin çox gözəl tar çalmağı varıydı. Nigar qu kimi süzürdü. Adətən bu əyləncə yarımçıq kəsilirdi. Çünki rəqsin şirin yerində ikisindən birini gülmək tuturdu. Şən qəhqəhələr evi bürüyüncə Fateh tarı atıb Nigarı qucaqlayır, üz-gözünü, əllərini öpüşlərə qərq edirdi. Həmin anda "səni sevirəm" kəlmələri küləyin sovurduğu gül ləçəkləri kimi hər tərəfə ətir saçırdı. Hərdən də bir-birini cırnadırdılar:

– Oyy, nə çirkinsəən...
– Ay Allah, gözüm hardaydı bunu görəndə?
– Niyə mən indiyə qədər bu qulaqları, əyri dişləri görməmişəm?
Komplimentlərin ardınca gülüş səsləri yüksələrdi. Kənardan baxan olsa, bəxtəvərlik verərdi bu cütlüyə.
İşdən gec gəldikləri axşamlarda yeməyi birlikdə hazırlayırdılar. Əməllicə isinişmişdilər bir-birinə. Nigar dəfələrlə Fatehə demişdi ki, gəl gəncliyi bada vermədən ailə qurub burada yaşayaq. Vaxtında oğul-uşaq sahibi olaq ki, özümüz cavankən onları ərsəyə çatdıraq, yerbəyer edək. Oğlan qəti imtina etmişdi:
– Arvad qoltuğuna sığınmaq mənə yaraşmaz. Belə evliliyə qürurum yol verməz. Bir azca döz, səni villada yaşadacam.
Yaş ötürdü. Toyun yubanması Nigara sərf eləməsə də, Fatehin dedikləri ürəyindən xəbər vermişdi: "Əsl kişidir, baaax! Arvad qazancına göz dikən alfonslardan olsa, çoxdan qaça-qaça gəlmişdi." Gülümsünüb əlavə etmişdi: "O halda onu sevməzdim ki…"
Beləcə həftələr-aylar keçirdi, villa nədir, heç birotaqlı mənzilin də izi-tozu görünmürdü.

* * *

Nigar Fatehin bu həyatdakı ən etibarlı dayağıydı. Hey düşünürdü ki, Nigarsız olmaz, hələ ki heç olmaz. Yenicə şərikli iş qurmuşuq. Onsuz öhdəsindən gələmmərəm.
Maaşla dolanmaq çətin olduğundan Fateh alverə girişmək istəmişdi. Nigarsa – gəl birlikdə hüquq firması açaq – deyə daha elit təklifdə bulunmuşdu.

Söz Fatehin ağlına batmışdı. Sevdayla yaxalanmazdan az öncə firmanın sənədləşməsi başa çatmışdı. Ofisi açmışdılar. Ehtiyacı olanlara hüquq məsləhəti verir, ərizə-şikayətlərini yazmaqda, məktublarını lazımi qurumlara göndərməkdə yardımçı olurdular. Elə ilk gündən müştərilərin biri gedib, biri gəlirdi. Firmanın uğuru göz qabağındaydı. "Nigar işin başında durmasa, yol göstərməsə mənim hüquqdan, qanundan nə başım çıxır? Qurduğumuz iş ikicə gündə dağılıb gedər", - deyə Fateh əndişələnirdi.

* * *

Sevda çox nigaran qalmışdı. Özünə yer tapa bilmirdi. Qorxu-hürkü canını bürümüşdü: "Birdən anamgilə desə... Birdən qayınatamgil xəbər tutsa... Nigar məndən üz döndərsə... Fateh məni atıb getsə... Uşaqlar başa düşsə..." Fatehlə məhrəmləşəndən sonra Sevda işin bu tərəfini heç düşünməmişdi. Birgəliklərinin həzzini yaşamışdı. İndi ürəyində min cür ssenari qurur, özünü ən ağır sorğu-suala hazırlayırdı. Qəlbindəki məhkəmədə müttəhim kürsüsündəydi. Doğmaları onu məhşər ayağına çəkirdilər.

İnsanın elə hissləri var ki, onu özünə də etiraf edə bilmir. İndi Sevda içindəki "mən"i qarşısında çılpaq qalmışdı. Burada gerçəklikləri gizlətmək imkansız idi. Maskalanmaq olmurdu. İçinə çöldən boylanan Sevdaya belə fürsət verilmirdi. İyirmi yaşındaykən ərini itirməyin psixologiyasında açdığı sağalmaz yaranı görürdü. Yaşarı nə qədər sevsə də, dul qismətilə barışa bilmədiyini anlayırdı. "İçindəki

Sevda" Fatehlə əlaqəsində özünü haqlı sayırdı. Sevib-sevilmək istədiyini uca səslə bağırırdı. Elə bağırırdı ki, Sevda özü o bağırtını eşitməməkçün qulaqlarını tıxamağa məcbur olurdu. Ana olan Sevda, bacı olan Sevda isə "çöldə" dayanıb "içəridəki qadını" hey məzəmmət edirdi. Amma nə fayda?! "İçindəki Sevda"nın nəzərində qadın səadətinə haqqının olması aksiom idi. Kimsə bu haqqı ondan alammazdı! Məsələni mübahisə mövzusu edib teoremə çevirə bilməzdi!

* * *

Nigarın həyatını alt-üst edən hadisədən günlər ötsə də, duyğuların kələfi açılmırdı. Tapdanmış qürurun ağrısı qızın ruhunu inlədirdi. Başını iş-güclə qatmağa çalışsa da, qəlbi sakitləşmirdi. Pas dəmiri yeyən kimi, fikir onu içəridən çürüdürdü. Ən çox bacısına acığı tuturdu: "O, yad oğludur! Bəs sənə nə gəlmişdi? Başına kişi qəhət idi?!"

Gündə yüz dəfə, min dəfə beynindən keçirdiyi bu sual Nigarı xəstəhal etmişdi. Vücudunda qəribə proseslər gedirdi. Səhhəti korlanmışdı. Son günlər uşaqlıqdan yaddaşına həkk olunmuş bir əhvalat tez-tez yadına düşürdü. Dərhal səksənirdi: "Yooox, mən belə sonluğu özümə rəva görmərəm!"

Hadisə qonşuluqda baş vermişdi. Gülsüm arvadın böyük qızı Afət uzaq rayonlardan birində ərdəydi, özü də beş uşaq anasıydı. Sonradan nə təhər olmuşdusa, gözü düşmüşdü kiçik bacısının ərinə. Təzə gəlin olan Nərmin də yeznə ilə baldızın

arasındakı gizli eşqdən duyuq düşmüşdü. Amma utandığından açıb-ağartmamışdı. Bu dərdi ürəyinə sala-sala xəstəlik tapmışdı. İlki bələkdə ikən dünyasını dəyişmişdi. Onun yasına gələn böyük bacı utanıb-qızarmadan Nərminin ərini də, yatağını da zəbt etmişdi. Bir daha öz evinə qayıtmamışdı.

Cavan gəlinin ölümü hamını yandırmışdı. Ən çox da anası Gülsümü. Ahıl çağında övlad itkisi qəddini əymişdi. Südəmər körpəni böyüdənədək yumağa dönmüşdü arvad. Camaatın gözü qabağında şam kimi əriyirdi. Amma kimin əlindən nə gələrdi ki?! Ölümə çarə yoxdur. Gülsüm arvad qızının ətrini nəvəsindən alırdı. Körpənin ayağı yer tutunca Nərminin yadigarını yanına salıb tay-tuşlarıyla dərdləşməyə gedirdi. Nigarın nənəsi Sənəmlə hələ qız vaxtından bir-birlərinə sirr verib, sirr alardılar. Çay süfrəsi başında yana-yana dedikləri hələ də Nigarın qulaqlarında cingildəyirdi. Yadındaydı, Gülsüm nənə ətrafdakılar eşitməsin deyə Sənəmə tərəf əyilərək astadan danışırdı:

– Evdə dura bilmirəm, ay Sənəm. O utanmazları gördükcə gözüm ağrıyır. Ona görə uşağı da götürüb çıxıram.

Gülsüm arvadın oğlu yoxuydu deyə, sonbeşiyini ərə verəndə evi onun adına saldırıb yeznəni evə gətirmişdi. İndi də məcburən üzüqara çıxmış Adillə bir damın altında oturması ona bu dünyada cəhənnəmi yaşadırdı. Üstəlik də elin tənəsi Gülsüm arvadın belinə ömürlük xəcalət şələsi yükləmişdi. Nərminin kəfəni saralmamış bacısı Afətin öz ailəsini

dağıdıb onun yerinə gəlməsi el-obanı mat qoymuşdu. İkrahla qarşılanmışdı o izdivac. İşin üstü açılanda ağsaqqallar, ağbirçəklər yığışıb məsləhət-məşvərət eləmişdilər, amma yeznə-baldızın üzü bərk çıxmışdı, tutduqları yoldan dönməmişdilər. Naəlaclıq zamanla əlbir olub söz-söhbəti səngitmişdi. Ancaq Gülsüm nənə yenə də abır-həya edirdi.

– O vaxt ha soruşurdum ki, ay bala, durduğun yerdə nooldu sənə, niyə naxoşladın? Bədbəxt balam deyirdi ki, ana, mən öləndən soora biləcəksən. Sən demə, bu imiş Nərminimin dərdi.

Söhbətin bu yerində nənələr ikisi də dərindən ah çəkərdilər.

Qəfildən Nigarın xatirələri dolaşdı. Sanki beynində əyləci basıb valı dəyişdilər. Sevdanın qayınatasıgil yadına düşdü. Oğullarının ili çıxandan sonra bağırlarına daş basıb məsləhətə gəlmişdilər. Sevda razı olsa, onu subay qaynı Vüqara alacaqdılar. Niyyətləri də bu idi ki, Yaşarın yadigarları gözümüzün qabağında böyüsün, gəlin də cavandır…

O zaman Sevda daş atıb, başını tutmuşdu ki, "olmaz!" Elçilik əhvalatı qudalar arasına soyuqluq salmışdı. Sonradan eşitmişdilər ki, Vüqar da razı deyilmiş həyatdan nakam köçmüş qardaşının arvadıyla evlənməyə. Böyükləri məcbur edirmişlər. Sevdanın "yox" cavabı onun da çiyinlərindən daşıya bilməyəcəyi yükü götürmüşdü.

Şimşək tək bir andaca çaxıb sönən sonuncu xatirədən Nigarı Gülsüm nənənin yaddaşdan gələn səsi ayırdı:

– Ay anam-bacım, mənim başım qarışdı hüzrə. Bir yanda da yetim qalan südəmər körpə. Qırx çıxmamış bir də gördüm bu gəlin ölmüş, bu yarımamış girib Adilin qoynuna. Vallah Nərminin balası olmasa, od verib özümü yandırardım. Amma neynim, ortada uşaq var, mən ölsəm onu kim böyüdəcək?..

– Özünə toxtaqlıq ver, ay Gülsüm. Sən neyniyəsən? Axirətdə onnarı qır qazanında yandıracaxlar. Hələ duuur.

– Qancığın gözü nətəhəri qızmışdısa, beş balasını aldı ayağının altına. Boyu bərabəri oğullarını, ərlik qızını "uf" demədən atdı. Yanındakı küçüyü var haa, bu gələndə lap xırdacaydı. Gecə-gündüz anasını istəyirmiş. Baxıllar ki, uşağı ovutmaq olmur, qorxullar ağlamaxdan ölə.

Bu yerdə Gülsüm arvad nəfəsini dərib əlavə etmişdi:

– Yoxsa bu cür ayağısürüşkənə uşaq-zad verməzdilər. İllah da qız övladını heç etibar eləməzdilər. Əlacsız qaldılar. Bibisi vurdu qoltuğuna, gətirdi atdı bu abırsızın üstünə. Əri gəlsə, başını kəsərdi qancığın. "O cür arvad üçün ömrünü türmədə çürütməyə dəyməz! Balaların var, əlini qana bulama", - deyə evdəkilər zorla almışdı qabağını. Bunu da ZAQS-dan, kəbindən çıxartdılar, məhkəməynən analıqdan məhrum elədilər. Qaldı bircə xırda qızın ümidinə. Vallah, o el oğlundan heç narazılığım yoxdu. Yaxşı adamıydı. Bədbəxtin balası özünə lənət oxuyurmuş. Deyirmiş:

– On yeddi il çörəyimi Afət kimi gözüdağınığa yedirtmişəm. Bir yastığa baş qoyduğum arvadı tanı-

mamışam. Papağımı yerə soxdu! Allah mənim kimi kişiyə lənət eləsin.

Gülsümə qulaq asa-asa "həə…" deyən Sənəm mənalı-mənalı başını yırğalayırdı.

Hafizəsində canlanmış hadisələrdən ürpəndi Nigar. Beyni necə qarışmışdısa, fikirlərini nizamlaya bilmirdi. Götür-qoy etdikcə daha dərinə batırdı. Qeyri-ixtiyari fikri yenə Afətlə Adilin əhvalatına kilidləndi. Eldən-gündən utanmayan yeznə-baldız qoşa qarıdılar. Bir ömür şad-xürrəm yaşadılar. Ta qocalıb əldən düşənə, dünyalarını dəyişənə qədər "can" deyib, "can" eşitdilər…

Qəzəbdən Nigarın qəlbi alovlandı: "Dünya nə qədər ədalətsizdiiir!! Nərmin cavan-cavan torpaqda çürüdü, xain bacısı isə onun ərinə sahiblənib ölənədək kefə baxdı."

* * *

Atasının vəzifəsilə əlaqədar Nigargil çoxdan rayondan köçmüşdülər. İndi Bakıda yaşayırdılar. El-oba da uzaqda qalmışdı, adətləri də, qınaq qorxusu da. Meqapolisdə kim kimi tanıyırdı ki... Məsələnin üstü açılsa, nəsildəcə həngamə qopacaqdı. Çünki iki oğul anasının kişi adı çəkməsi, nəslin davamçılarının ögey ata qoltuğuna verilməsi onların düşüncəsində yolverilməz idi. Əslində hamı anlayırdı ki, ər dünyasını dəyişəndə arvad insanlıqdan çıxmır, qadınlığı ölmür. Amma mətləb o qədər incəydi ki, kimsə şəninə sığışdırıb gülü burnunda ikən dul qalanların insanlıq haqqını müdafiə etməzdi.

Nigar əmin idi ki, doğmaları xəbər tutsalar, Fateh məsələsi iki bacının qovğası olmaqdan çıxacaq. Başıbəlalı Sevdanın cəzası ağır olacaq. Ancaq Fateh kimi gözüdağınığı ailəyə caladığına görə Nigarın da başını sığallamayacaqlar. Ən çox qardaşlarının kiçiyindən ehtiyat edirdi. Elyar Qarabağda kontuziya almışdı, başında qəlpə daşıyırdı. Müharibədən hospitala gətiriləndə sağ qalacağına ümid yoxuydu. Onu göydə Allah, yerdə həkimlər həyata qaytarmışdı. Cəbhədə şəhid olan böyük qardaşı Eldardan sonra Elyarı da itirsələr, dözülməz faciə olardı. Şükür, Elyar yaşadı. Bu yaxınlarda toy da çaldırdılar. Ancaq müharibənin qanlı caynaqları Elyarın səhhətində də, xasiyyətində də kobud izlər buraxmışdı. Əsəbiləşdisə, özünə hakim olammırdı. Ona görə də, işin sonrası Nigarı yaman qorxudurdu: "Evdə böyük qalmaqal yaşanacaq. Sonrasını düşünmək dəhşətlidir… Elyar dinc durmaz. Fatehi… Elə Sevdanı da…"

* * *

Axşamüstü atasıgilə gələn Nigara qapını Dilrüba acdı. Gəlini görcək qızı fikir aldı: "İşin üstü açılsa, Dilrübanın üzünə necə baxarıq? Hamımız gözükölgəli olarıq qabağında."

Dilrüba olduqca namuslu-qeyrətli gəlin idi. Ərinin şəhid adını elə uca tuturdu ki! Həyatını övladlarına həsr etmişdi. Hamı xətrini istəyirdi. Bütün nəsil Dilrübanın başına pərvanə kimi dolanırdı. Eldarın ölümündən sonra o, qayınatasıgildən ayrılmaq istəməmişdi. Gəlinin qərarından ürəyi dağa dö-

nən Hidayət kişi də oğullarını evləndirdikcə ayırmışdı. "İşdi-şayət birdən Nigar ailə qurammasa, biz dünyadan köçəndən sonra qoltuqda qalmasın", - deyə böyük qızına da ayrıca ev almışdı. Beləliklə, ata yurdu şəhid Eldarın balalarına qalmışdı. Uşaqların üçü də atalarıyla öyünürdülər, onun döyüş yolunu, Qarabağdakı şücaətlərini əzbər bilirdilər…

Nigar evinə dönəndə hava çiskinliydi. Tıxacdan yaxa qurtaranlar evlərinə tələsirdilər. Yağışın yuduğu küçələrdə gölməçələr yoldan keçənlərin qənimimə çevrilmişdi. Vıyıltıyla yanından ötən maşın Nigarın da üst-başını "bəzədi".

* * *

Bir ara sevimli bacısı naminə nişanlısından vaz keçmək istədi Nigar. "Onun kitabı bağlanıb, mənim hələ şansım var, – deyə özünə təsəlli verirdi. – O çox erkən dul qalıb. İllərlə gözünün yaşı qurumayıb. Xoşbəxt olmağa haqqı var. Noolar beş gün xoş yaşasa?"

Özünü bu düşüncəyə köklməyə nə qədər çalışdısa, alınmadı. Zahirən sakit və təmkinliydi. Geyimi-kecimi, saçının səliqəsi yerindəydi. Ruhunun harmoniyası pozulmuşdu. O hamıdan pünhan öz içində ölürdü. Hər gün bir az daha çox, misqal-misqal, qram-qram tərk edirdi həyatı. Qəlbindəki tufan qızın yaxasından əl çəkmir, onu məchul sonluğa sürükləyirdi. Nigarçün dünyanın axırı gəlmişdi.

Sevdaya o qədər inanırdı ki, onu Fatehlə görəndə ilk anlar yanıldığını düşünmüşdü: "Yəqin gözlərim məni aldadır." Günlərdir ürəyində hey umu-küsü

edirdi: "Mən səndən heç nəyimi əsirgəmədim. Ərin öləndə illərlə yanında qaldım. Dərdinə şərik oldum. Balaların korluq çəkməsin deyə, özümə ailə qurmadım. Qazancım da, sevgim də sizin oldu…"

O ərəfədə Nigarı bir yaxşı oğlan istəyirmiş. Qızın da könlü varmış. Ata-anası da tələsdirirmiş, çünki ondan kiçikləri çoxdan ərdəydilər. Evlər toy-nişan əhvalını yaşadığı yerdə yeznələri Yaşarın faciəli ölüm xəbəri gəlmişdi. Onun qırxı çıxmamış böyük qardaşları Eldar şəhid olmuşdu. Nigar ər söhbətini qatlayıb qoymuşdu palazın altına. "Bacım uşaqlarını, qardaşım uşaqlarını böyütsəm, elə bil mənimkidirlər, nə fərqi var…" – demişdi.

* * *

Sevda işdən qayıtmışdı. Günortaydı. Uşaqlara yemək hazırlamalıydı. İndicə məktəbdən gələcəkdilər. Baxdı ki, evdə ərzaq tükənib. Bir istədi Nigara zəng vurub – bacı, nahara çıxanda biz tərəfə keç, bir az da bazarlıq elə, – desin. Əli dəstəyə uzalı qaldı: "Hansı üzlə?" – O hələ ki böyük bacısıyla üzləşməyə cəsarət etmirdi. Əslində bacılar ikisi də bir-birini çox istəyirdilər. Bir incəlik vardı ki, Nigar həmişə sevən bacı olmuşdu, Sevda sevilən bacı. Ömründə böyük bacı kiçiyin bir arzusuna "yox" deməmişdi, ona görə də yaman ərköyünləşmişdi balaca.

Nigarın beynində üçlüyün söz güləşi bitmirdi. Hərdən qəzəbdən çılğınlaşırdı: "Hələ Fatehə bax. Guya evimin dirəyi, uşaqlarımın atası olacaqdı. Guya

məni bir ömür sevməkdən doymayacaqdı. Guya mən ölsəm, dalımca özünü o dünyaya yetirəcəkdi. Yalanın batsın, şərəfsiz! Gözümün içinə baxa-baxa doğma bacımı yoldan çıxartdın. Belə sevgi olaar?"

Əzablar burulğanında çabalayan Sevda da əməlinə bəraət axtarırdı: "Nigar başa düşməlidir ki, belə olmağını mən istəmədim, belə alındı! Yəqin fələyin oyunuymuş. Yoxsa mən bacımın nişanlısına göz dikərdimmi heç? İndi iş işdən keçib. Onun pərəstişkarları çoxdur. Gül kimi qızdır, daha yaxşısını seçə bilər. Gərək elə Fateh ola?.. Mən ər adı çəksəm, hamı qınayar. Oğullarımı ögey ata qanadında böyütsəm, Yaşarın ruhu məni bağışlamaz. Hələ bizimkiləəər… məni topa qoyub atarlar! Yox-yooox! Ər olmaz, qəti olmaz. Camaat adama nə deyər? Həm də Yaşarı heç kəslə əvəz edəmmərəm! Kim onun yerini verə bilər ki!? Yolum hər yandan bağlıdır. Noolar, arabir Fatehlə görüşsəm? Kimə nə ziyanı var, mən də insanam axı… Fatehdən heç kəs şübhələnməz."

* * *

Sevda arıq, uzun gəliniydi. Gözəl deyildi, amma cazibəsi vardı. Gözünü zilləyib bir kişiyə zəndlə baxdımı, necə deyərlər, atlını atdan saldırardı. Gülərüz və ünsiyyətcil idi. Yeniyetməlikdə çox temperamentli qız olduğuna görə instituta girən kimi ərə vermişdilər. Namuslu, başıaşağı gəlin olmuşdu. Qızlığındakı çılğınlıqdan əsər-əlamət qalmamışdı. Bütün sevgisini ərinə vermişdi. Üç ildən sonra – iyirmi yaşında dul qalmışdı. Əri öləndə hələ tələbə idi, iki körpəsi də qucağında. Doğmaları sahib çıx-

masa, batıb gedərdi. Şükür, onu tək qoymamışdılar. Dövlətdən də yardım almışdı. İnstitutda da sıxışdırmır, qiymətini yazırdılar. Bu minvalla diplomunu da almışdı, uşaqlarını da böyütmüşdü.

Amma Yaşarsız ömrün hər günündə yüz dəfə ölüb-dirilirdi. Ağlamaqdan gözləri zəifləmişdi. Gecələr axıtdığı göz yaşları Nigarın çiynini isladardı. Səhərədək üç-dörd balınc dəyişərdilər. Bacısını sakitləşdirməkçün əlac tapmayan Nigar, nəhayət, onu qorxutmağı qərara almışdı. Həkimlə dilbir olub Sevdanı inandırmışdılar ki, əgər bir az da belə davam etsən kor olacaqsan. Tədbir işə yaramışdı. Korluqdan qorxan Sevda yavaş-yavaş ağlamağı tərgitmişdi. Get-gedə həyata qaynayıb-qarışmışdı. Tədricən rəngi-ruhu özünə gəlirdi. Evdən çıxsın, eyni açılsın deyə Nigar onu uşaq bağçasında yarımştat işə də düzəltmişdi.

İndi oğulları məktəbə gedirdilər, ikisini də eyni sinfə qoymuşdu. Həyat davam edirdi. Yaşamaq lazımıydı. İyirmi beş yaşlı Sevda iki uşaq doğsa da, qızlıq sifətini itirməmişdi. Yolda-izdə dalına düşən, tanış olmaq istəyənlər çoxaldıqca, əri ilə birgə qəbrə gömdüyü qadınlıq duyğuları oyanırdı. Həyat eşqi coşurdu. Duyğularındakı dirilmə onu yanlış axara salmışdı. Cavan gəlin selin qabağındakı çöp kimi axına düşüb gedirdi.

* * *

Bu üçbucaqda rahat adam yox idi. Həyat ideallaşdırılmış hazır düsturlardan ibarət olmadığına görə Fateh ha baş sındırır, Nigarın könlünü almaq, həm də Sevdanı əldə saxlamaq üçün yollar arayırdı. Nigar da

Nigarıydı ha. Kübar, dünyagörüşlü, hər şeyin yerini bilən, özünə inamlı, gözəl qızıydı. Tanımayan iyirmi yeddidən artıq yaş verməzdi ona. Amma bu yay otuz yeddisini tamamlamışdı. Bu qız Fateh üçün başdan-başa cazibə qüvvəsiydi. Görüb-götürməli, örnək almalı xanımıydı. "Əlbəttə, müqayisəyə qalsa, Sevda Nigarın əlinə su tökməyə yaramaz. Amma o var ki, Sevda əsl qadındır, maraqlı və cazibədar qadın. Nigar kimi kişixasiyyət deyil. ...Bir azca yumşaq olsaydı, bəlkə heç bu Sevda əhvalatı da baş verməzdi."

Günün birində Fateh bütün cəsarətini toplayıb Nigarın evinə yollandı. Qapını açan qız heyrətdən donub qaldı: "Nə üzlə gəlib?" Qarşısındakı elə məzlum görkəmdəydi ki. Hirslənsə də, tənhalıq qızın nəfəsini kəsdiyi üçünmü, yoxsa xəyanətkarın dilindən səbəbi duymaq istəyindənmi, Fatehin içəri girməsinə mane olmadı. Otağa keçib hərəsi divanın bir küncünə qısıldı. Sükut ömürlərindən yarım saat aldı, dinən-danışan olmadı. Eləcə baxışırdılar. Oğlan gözünü qızdan çəkmirdi, qorxurdu anındaca Nigar yox olar, ya da nəyisə götürüb onun başına çırpar.

Nigar həyəcandan rəng verib rəng alırdı: "Abırsıza bax, nə gözünü zilləyib. Elə bil o boyda qələti qıran bu deyilmiş." Fatehin inadkar baxışları get-gedə Nigarı daha çox əsəbiləşdirirdi. Amma dinə bilmirdi. Sanki dili tutulmuşdu. Arada havasızlıqdan boğulan kimi oldu. Nəfəsi çatmırdı. Ağzını açıb dərindən nəfəs almağa çalışdı. Evin səssizliyində ürəyinin döyüntüsü aydınca eşidilirdi. Danışa bilməsə də, qəlbindən

keçənlər üzündən oxunurdu: alçaldılmış məhəbbət, təhqir olunmuş şəxsiyyətin qəzəbi, uğradığı haqsızlığa üsyan, qisas almaq ehtirası, qarşısındakını məhşər ayağına çəkmək qətiyyəti, düşdüyü depressiyanın yorğunluğu, əzablarından qurtulmaq istəyi…

Bir an bacısı gəldi gözünün qabağına və… Nigar elə bildi keçmiş nişanlısını evə buraxmaqla Sevdaya xəyanət edib. "Daha nə fərqimiz oldu ki?.." Özündən utandı. Duyduğu xəcalətdən gözü yaşardı.

Qızın beynindəkilərdən bixəbər oğlan Nigarın çöhrəsinin yazıqlaşdığını görüncə onun yumşaldığını düşündü və… xəyanətin atəşində qovurduğu nişanlısına bütün gücüylə sarıldı. O an Nigar çox zəifləmişdi, ölmək dərəcəsində halsızdı. Fatehin təmasını duyunca yer ayağının altından qaçdı. Qızı dəlicəsinə öpüşlərə qərq edən Fateh onun ən incə, ən həssas nöqtələrinə toxunurdu. Sanki illər həsrətlisiydi. Göz açmağa aman vermirdi. Nigarın üzünü, boynunu, sinəsini qarsan nəfəsi od püskürürdü. Atəş qulaqlarını qarsınca qızdan hönkürtü qopdu. "İlahi, səsdə necə böyük qüdrət var! Gör bu lal hönkürtü nələr deyir, nələr danışır..." fikri Fatehin ciyərini dağladı. Xəyanətinin ağırlığını bütün qəlbilə hiss etdi. Qızı qucağından buraxmadan önündə diz çökdü. Qollar Nigarın belindən aşağı sürüşdü. Fateh əyilib qızın ayaqlarını öpməyə başladı. Öpüşlər topuqdan dizəcən od sala-sala yol gəldi. Hönkürtü kəsilmədi. Yaşadıqlarının acısı Nigarı göynədirdi. Fateh heç vaxt onu belə aciz gör-

məmişdi. "Möhkəm qızıydı. Dünya dağılsa, soyuqqanlığını itirməz, çarə tapardı. Necə sarsılıbsa, özünü ələ alammır."

Tanışlıqlarından illər ötürdü. İndiyədək Fateh heç vaxt Nigarı belə ehtirasla öpməmişdi, heç vaxt bu qədər sərbəst davranmamışdı. İndi bu cəsarəti hardan almışdısa, gözlənilməz "hücumdan" çaşmışdı qız. Fateh Nigardan həmişə çəkinmişdi. Qızın bir tərs baxışı yetirdi ki, oğlan özünü yığışdırsın. Qəlbindən başqa fikir keçən kimi Nigarın xofu basardı onu, elə bilərdi qız xəbər tutdu. Həm də öz aralarında sözləşdikləri gün Nigar şərtini açıq demişdi:

– Toya qədər heç bir intim münasibət olmayacaq! Əks halda bu evin qapısına yaxın düşmə.

Niyyətinin ciddiliyini isbatlamaq istəyən Fateh də təsdiqləmişdi ki, əlbəttə, heç elə şey olar?!

Bütün bunları beynindən keçirən Nigar saniyədə Yerdən Günəş məsafəsi qədər yol gedən düşüncələrin caynağında can çəkişirdi. Nə qədər küskün və acıqlı olsa da, Fatehin doğma qoxusunu alınca kövrəlmişdi. O anlaya bilmirdi: "Fateh neyləmək istəyir? Niyə belə coşub? Bəlkə mən yanlış görmüşəm?" Sonuncu fikir bircə anlığa qəlbinə sevinc cücərtiləri səpdi. Tez də məyus oldu: "Elə isə Sevda niyə həftələrdir susur?"

Birdən Nigara elə gəldi ki, Fatehin tanış qoxusunda Sevdanın da ətri var. Necə ürpəndisə, oğlanın sinəsindən ikiəlli itələdi. Qəfil həmləni gözləməyən Fateh yerindəcə səndirlədi. Az sonra qapı şaqqıltıyla çərçivəsinə çırpıldı. Hər şey o qədər sürətlə baş verdi

ki! "Qovuldum! Bacarmadım. Nigardan ayrılmaq olmaz. Sevgimiz belə qurtara bilməz. Mən onsuz qalammaram. Mən Nigarı sevirəm."

O an Fatehə elə gəlirdi ki, içini bürüyən haray səmimidir. Oğlan başını itirmişdi. Yol boyu Nigarlı günlərini fikrindən keçirir, heç cür özünə gələ bilmirdi. Birdən nişanlısı üçün elə darıxdı..! O şirin, mənalı, sevgi dolu axşamlardan ötrü ürəyi əsdi.

Yetkin adamlar idilər. Sevib-sevildikləri xeyli vaxt olsa da, Nigar onunçün tükənməmişdi. Hər dəfə yeni bir ampluada kəşf edirdi qızı. Son görüşlərindən cəmi iyirmi beş gün ötürdü. Amma vücudunda bir ömürlük həsrət yığılmışdı. O həsrətin tonqalında qovrula-qovrula kirayədə yaşadığı mənzilə yollanan Fateh bir də gözünü Sevdanın qapısında açdı. Buraya necə və niyə gəldiyi müəmmaydı. Heç bir məntiqə sığmırdı. Duyğuların seli Fatehin reallıq hissini lap dərinə gömmüşdü.

Tapmacanın cavabını tapmamış əli zəngin düyməsinə uzandı. Çağırış özünü yubatmadı, qapı dərhal açıldı. Fatehi görən Sevda itirilmiş sərvətini tapanlar sayaq oğlanın üstünə atıldı. Çılğınlıqla ona sarıldı. Jest o qədər cəld baş verdi ki, qonşuların görə biləcəyini düşünmək ağlının ucundan keçmədi. Məhrəm duyğularını və nigaranlıqdan öləziyən iç dünyasını bölüşə biləcəyi yeganə adam gəlmişdi.

– Bilirdim gələcəksən. Mən bilirdim. Biz bir-birimizçün yaranmışıq.

Sevdanın bu günlərdə yaşadıqlarıyla, beynindən keçən fikirlərlə dilinə gələn sözlər heç uzlaşmırdı. Fatehin qəfil gəlişi ona necə təsir etmişdisə… Azca toxtayan və harda olduğunu dərk edən Fateh tez uşaqları soruşdu.

– İndicə yatırtmışam. Oyanmazlar. Bu gün həyətdə çox oynayıblar. Elə yorulmuşdular ki.

Bu sözə bənd imiş kimi Fateh ilan tək Sevdaya sarıldı. Yataqda qalanan ocağın atəşi ərşə dirəndi. Od püskürən nəfəslərdən od tutub yanırdı otaq. İki ehtiraslı aşiq bütün dünyanı unutmuşdu. Əslində Fatehin beyni dumanlıydı və istədiyi bu deyildi. Amma isti başda soyuq ağıl nə gəzir.

Bəxtlərindən Sevdanın baldızı Xədicə rayondan hələ qayıtmamışdı. Elə bil onları günaha batırmaqçün fələk qəsdən hər şəraiti düzüb-qoşmuşdu. Sevda o qədər gənc və dərdliydi ki, doğmaları onu yalqız qoymağa qorxurdular. Yaşardan sonra canına qəsd etməsi gözlərinin odunu almışdı. İlk illər Nigar o dərdin altına çiyin vermişdi. Sonra qayınanası gəlib oturmuşdu yanında. Kənddən kişinin xəstələndiyi xəbərini alanda Xəzangül daha şəhərdə duruş gətirməmiş, oğlunun ailəsini qiyabidə oxuyan qızına əmanət edib getmişdi.

* * *

…Məşuqlarda ağıl və məntiqdən əsər-əlamət qalmamışdı. Eşq macərasındakı riskin çoxluğu onları daha da coşdururdu, ehtizaza gətirirdi. Bu görüş tam fərqliydi. Yeni bir çalar vardı hisslərdə, münasibətlərdə. Bir-birlərinə yazıqlarımı gəlirdi, ayrılıq qorxu-

suydumu, nə idisə… Ehtirasın məngənəsindən çıxan kimi oğlan dilləndi:

– Özün necəsən? Nigarla danışdın? Nə dedi? Sizinkilər xəbər tutmadı ki?

Fatehin yataqdaca Nigarı yada salması Sevdanı açmadı. Həvəsi qaçdı. Acıqlı-acıqlı cavab verdi:

– Xanım hələ göynən gedir. Qoy yerə ensin, danışacam. Mən bilirəm ona nə deyəcəm.

Əslində Sevdanın özünə açığı tutmuşdu: "Gör Fatehə nə qədər üz vermişəmsə, mən qucağında ola-ola başqa qadının qeydinə qalır! Noolsun ki, o qadın doğma bacımdır. Bu, yolverilməzdir. Tərbiyəsiz!"

Cavabdakı hirsli tonu, Nigara sayğısızlığı tutan Fateh qıcıqlandı. Bütün qəlbilə qollarındakı qadını sancmaq istədi. Sanki düşdüyü çıxılmaz durumun təktərəfli baiskarı o imiş.

– Ordan gəlirəm. Mənimlə də danışmadı.

Heyrətdən ağzı açıla qalan Sevda dəli kimi yataqdan qalxıb geyinməyə başladı. "Bu boyda təhqir olmaz. Bu lap ağ elədi."

– Sənin orda nə işin var? Nəyə getmişdin?

– Barışmağa. Küsülü qala bilmərik axı. Necə olsa, üstümdə haqqı-sayı var. İllərin dostuyuq. Bir ton duz-çörək kəsmişik. Üstəlik də müdirimdi.

– İndi onun adına "dostluq" deyirlər?

Sevda necə əsəbiləşdisə, qəzəbi gözlərində parladı. Onun baxışlarından xoflanan Fateh tənbəl-tənbəl qalxıb geyindi. Qadını dilə tutmağa çalışdı:

– Ay dəli, axı o sənin bacındır. İstəmirəm aranızda düşmənçilik yaransın. Getdim deyəm ki, bütün günah məndədir. Sevdanın qəbahəti yoxdur.

Hövsələsi lap daralan qadın əsəbindən əlinə keçən balıncın qotazlarını didişdirməyə başladı. Bu an o, balaca uşağa oxşayırdı. İstədi desin ki, bacım olduğu indi yadına düşüb? Sözünü uddu, dillənmədi.

* * *

Sabahısı işdən çıxan Fateh yenə Nigargilə üz tutdu. Qapı açıldı, onun üzünü görcək örtüldü. O, aşağı düşüb həyətdə oturdu. Ətraf yaşıllıq idi. Həmin gündən Fateh qovağın altındakı oturacağı "özəlləşdirdi". Pəncərədən arabir kölgə kimi görünən yarımçıq siluetdən bir şey anlaşılmasa da, onunçün qənimət idi. Fateh hələ də Nigarı sevdiyinə inanırdı.

O, arabir gündüzlər Sevdayla görüşürdü. Amma axşamlar harda olduğunu bildirmirdi. Taktikasını dəyişmişdi. Başa düşmüşdü ki, ehtiyatlı davranmalıdır. Yaxalandıqları gündən aylar keçirdi. Bu arada bacılar da görüşüb danışmışdılar. Ancaq söhbətin məğzi barədə Sevda kəlmə kəsməmişdi. Fatehin təkidləri cavabsız qalmışdı.

Son günlər yağışlar ara vermirdi. Bakının boz-bulanıq günləri başlamışdı. İslansa da Fateh yenə hər axşamkı postundaydı. Əməlli-başlı soyuqlamışdı. Ciyərləri zəif idi, özünü qorumalıydı. Amma… özündən asılı olmayaraq ayaqları onu bura gətirirdi. Ürəyində özünü söyür, yamanlayırdı. "Sən kişi deyilsən", - deyirdi. Xeyri olmurdu. Yenə gəlirdi. "Görəsən niyə? Subay olsam da, həyatımda qadın var. Amma Nigarın boşluğunu doldurmur..."

Güclü küləyin leysan yağışını qovaladığı bir axşam Nigarın qapısı onun üzünə açıldı. Fatehdən nə qədər zəhləsi getsə də, onun səhhətindəki zəiflikdən xəbərdar olan Nigarın həkim ürəyi dözməmişdi. Qadın ki, qadın. Gör bir, hər şey əksinə olsa, kişi qəlbi yumşalardımı bu səbəbdən?! Nigarçün o an Fateh sadəcə yardıma möhtac biriydi. O, içəri aldığı xəstəsinə şəfqət göstərirdi. Ağlına gəlmirdi ki, bu canıyananlıqda şüuraltındakı məhəbbətin də payı var.

İsti çay, isti otaq Fatehi cana gətirdi. Deyəsən, lap heyi kəsilmişdi. Duyduğu halsızlıq, vücudundakı əzginlik təkcə soyuğun, yağışın nəticəsi deyildi. Bağışlanmamaq qorxusuyla yaşadığı ayların yorğunluğuydu. Səsi kallaşmışdı. Fateh xırıldaya-xırıldaya danışmağa başladı. Üzünə açılmış qapının örtüləcəyindən qorxurdu. Fürsəti əldən vermək istəmirdi.

– Sənsiz yaşaya bilmirəm, Nigar! Ölürəm. Sən yoxsan, dünya gözümdə sıfırdır. Qul xətasız, ağa kərəmsiz olmaz. Keç günahımdan, Nigar. Cavanlığıma bağışla. Sən olan yerdə bütün qadınlar yalandır. Bilirəm, qəbahətim böyükdür. Qürurunu sındırmışam. İnan ki, nəyin necə baş verdiyini mən də bilmədim. İnsanı bəzi əməllərə sürükləyən duyğular idarə olunmur… Necə oldu bilmədim – deyən Fateh qızın dinlədiyini görüb ürəkləndi. – Aylardır qapında sürünürəm. Məni geri çevirmə. Arzularımızı nakam qoyma, Nigar. Necə dözərsən doğulmamış körpələrimizin yetim qalmasına? – deyə oğlan qızın lap zəif damarından vurdu. – Qıyma məhəbbətimizə. Mən səni özümdən çox sevirəm. Sən mənim idealım-

san. Həm qadın idealımsan, həm insan idealımsan. Məhəbbətini məndən əsirgəyəcəksənsə heç bu çayı, dava-dərmanı vermə. Onsuz da diri-diri ölmüşəm. Sənsiz həyat mənasını itirib.

Bu yerdə Fatehi öskürək tutdu. Getdikcə qəhərlənən səsi sürəkli öskürəkdən tamam zəiflədi.

– Hər şeyə həvəsim sönüb. İşə də getmək istəmirəm. Peşmançılığımı sübuta yetirməkçün mənə şans ver. Nigar! Şans ver ki, səni necə bəxtəvər edəcəyimi hamı görsün. Evlənək. "Yox" demə. Yalvarıram. Bir də o söhbətə qayıtmayaq. Onsuz da təsadüfi əlaqəydi. Şeytan əməliydi. Mən çox əzab çəkirəm. Gecələr yata bilmirəm. Fikrim-zikrim sənin yanındadır. Ayrılığa dözə bilmirəm. Sən mənim yeganə məhəbbətimsən. Sarsılmaz eşqimsən. Həyatımdan bir deyil, yüz qadın keçsə, yenə sənə olan eşqimi söndürə bilməz. Səni sevirəm!.. Lap çox sevirəm!!! Nigar?!

Nigardan səs çıxmadı.

* * *

Üç axşamıydı ki, Fateh həyətdə görünmürdü. Üç sutkaydı ki, onun xırıltılı və həzin səslə kəsik-kəsik söylədiyi sözlər Nigarın qulaqlarında cingildəyirdi. Yalvarışları kəlmə-kəlmə yaddaşına ilişib qalmışdı. Qapı başından asılmış zəngə bənzəyirdi Fatehin etirafı, hər toxunduqca, o tərəf-bu tərəfə keçdikcə zəngulə vurub özünü yada salırdı.

Fatehin monoloqu yaddaşında təkrarlandıqca Nigar özünü sorğu-suala çəkirdi: "Yetkin adamlarıq. Kişidir. Bir dəfə xəyanət etməklə dünya dağılmayıb ha? Pisi odur ki, bu qələti mənim bacımla

edib. Əslində, başqasıyla olmuş olsaydı, yəqin çoxdan bağışlayardın, həə Nigar xanım?.. Fateh xəstələndi. Yoxsa, qeyb olmazdı…"

Telefonu götürüb Fatehin mobilini yığdı. Oğlanın səsini duyan kimi qürur mərhəməti üstələdi. Nigar "aloo, alooo?" çağırışlarına qulaq asdı, səsin rəvanlandığını sezib arxayınlaşdı: "Sağalıb."

Dəstəkdəki səssizlik Fatehi əsəbiləşdirdi, qaşları düyünləndi: "Bu kimdirsə, mənə sataşır." Acılamağa hazırlaşırdı ki, birdən zəif taqqıltı duydu. Aram-aram eşidilən səda ona tanış gəldi. Nigarın hərdənbir taxdığı iri sırqaları durdu gözünün qabağında. Yadına düşdü ki, mobili qulağına yaxınlaşdırdıqca qızın sırqaları dəstəyə toxunub oxşar səs çıxarırdı. Diqqət kəsildi. Yanılmamışdı. Dəstəkdəki Nigar idi! Nəfəsindən tanıdı sevgilisini. Sanki dünyanı Fatehə bağışladılar. "Deyəsən, kəfəni yırtdıq. Hələ unudulmamışıq."

Fateh sevinirdi. Sevincini bölməkçün Sevdagilə yollandı.

* * *

Nigar xəbər tutanadək Fatehlə Sevdanın məhrəm görüşlərinin ömrü beş-altı ay sürmüşdü. Amma əlaqənin kökündə xeyli öncələr baş vermiş təsadüf dayanırdı. Hər şey Nigarın yaxın rəfiqəsi Zümrüdün toy günü başlanmışdı. O axşam qış qəfil hücuma keçmiş, yağan qar yolları bağlamışdı. Bəyin dostları zarafata salıb deyirdilər ki, yəqin gəlinimiz çox qazan dibi yeyib. Ceyhunla Seyhun bəs deyincə toyda şənlənib-yorulmuşdular. Nigar baxdı ki, uşaqları

yuxu aparır. Məclisi yarımçıq tərk etsə Zümrüd inciyərdi. Fatehdən rica etdi ki, sən Sevdayla uşaqlarını evə çatdır, mən özüm gələrəm.

Nə oldusa, o gün oldu. Adətən şadlıq evlərinin ətrafında fırfıra kimi fırlanan taksilər gözə dəymirdi. Güc-bəlayla maşın tapan Fateh Sevdagilə çatan kimi pulunu verib taksini yola saldı. Mürgülü uşaqları qucaqda qaldırdılar evə. Fateh çəkinə-çəkinə içəri girdi. Buraya ilk gəlişi deyildi, Nigar yanında olmadığından sıxılırdı. Həyəcandanmı, soyuqdanmı Fatehi titrətmə tutmuşdu. Ürəyində özünü danlayırdı ki, nahaq buraxdım maşını. Uşaqları rahatlayandan sonra Sevdanın çay təklif etməsi ürəyincə oldu. Mətbəxdə oturub çay içdilər. Fateh getməyə qalxanda qadın elə bir baxış baxdı ki, oğlanın ciyəri dağlandı. O baxışda sirli bir yazıqlıq, qorxu, həsrət vardı, ürkək çağırış vardı. Anlaşılmaz cazibədən başı gicəllənən Fateh tez sağollaşıb çıxdı. Ağlına gələn fikir də qorxutmuşdu onu.

Gecəyarısınadək evin önündə taksi gözlədi. Qəribəydi, Fateh soyuqdan donurdu, amma taksinin gəlməyini istəmirdi. Arada gözucu Sevdagilin pəncərəsinə baxırdı. Bir də gördü gəlin pəncərədədir.

Bacılar az öncə zəngləşib hal-əhval tutmuşdular. Havanın ucbatından Nigar rəfiqəsigildə gecələməli olmuşdu. Gülə-gülə iki daşın arasında son xəbərləri Sevdaya çatdırmışdı:

– Gəlinin atdığı gülü yenə tuta bilmədim, deməli, yaxın aylarda üfüqdə parıltı görünməyəcək.

Sonra da tapşırmışdı ki, səhər uşaqları məktəbə göndərmə. Bu hava tezdənə çətin düzələr. Qoy yatsınlar.

Küçədə çovğun səngimək bilmirdi. Pəncərədən boylanan Sevda Fatehin qaraltısını sezdi. Müvazinətini güclə saxlayan qaraltı yıxılmamaqçün ağacdan yapışmışdı. Yolda-izdə maşın-filan görünmürdü. Gecə saat ikiyə işləmişdi. "İşin tərsliyinə bax, bizi gətirib evə çatdırdı, özü qaldı küçədə. Yəqin Nigarın da xəbəri var. İndi mən neyləyim?"

Axırı Sevda aşağı düşüb Fatehi evə çağırdı. Oğlan əməlli-başlı donmuşdu. Əl-ayağını isti suya qoymaq kifayət etmədi. Sevda onu spirtlə ovmağa məcbur oldu. "Nigar da yaxında deyil ki, köməyə çağıram. İndi buna qulluq etməsəm, bacım inciyər. Deyəcək, nişanlımı siz xəstələndirdiniz."

O gecədən sonra Fateh bərk naxoşlamışdı. On gün işə çıxmamışdı. Tədricən sağalsa da, ruhunda bir qırıqlıq qalmışdı. O gecəki yardımın həsrətini çəkirdi. Əllərin hərarətini unuda bilmirdi. Bəzən o dərəcədə hissə qapılırdı ki, sanırdı o masaj indi baş verir. Tez-tez Sevdanı düşünürdü. Cavan gəlinin taleyi, tez açıb tez də solan güllər kimi ailə həyatı, gənc yaşında dul qalması yadından çıxmırdı. Hərdən Nigardan onu soraqlayırdı. Sevdanı özündən çox istəyən Nigar da dili ağzına sığmadan danışır, ağlına heç nə gətirmirdi.

Aralarında heç bir yaxınlıq olmamışdı. Amma nədənsə o gecədən sonra Fatehlə Sevda bir-birindən utanır, çəkinirdilər. Harda rastlaşsalar baxışlarını qaçırırdılar.

Qarlı toy gecəsindən iki-üç ay sonra Fateh qəfildən Sevdagilə getdi. Gündüz vaxtıydı. Uşaqlar evdə deyildilər, bibiləri onları qardaşı Vasifgilə aparmışdı. Vasif Yaşarın balalarını dünyalar qədər istəyirdi, onların hər nazıyla oynayırdı, ona görə də əmilərinin adı gələndə qanad açıb uçurdu uşaqlar. Sevda təzə yarpaqdan dolma bükə-bükə seriala baxırdı. Fatehi görüncə sövq-təbii nəyə gəldiyini anladı. Hisslərin dili gəlini duyuq saldı. Ona görə də ev yiyəsi heç nə soruşmadı. Qonaq da bir söz demədi. Eləcə oturmuşdular. Birdən Fateh dilləndi:

– Sevda, sənə təşəkkür etməyə gəlmişəm. O gecə sən olmasan, ölmüşdüm.

Gəlindən bir qəhqəhə çıxdı, gəl görəsən. Az qaldı ürəyi gedə.

– Məzən olsun, ay Fateh! Nə tez yadına düşüb, - deyib uğundu.

Fatehi də gülmək tutdu. Qarınlarının əzələsi ağrıyana qədər gülüşdülər. Elə şən, bəxtiyar oldular… Emosiyalar səngiyəndən sonra da pıqqıltılar kəsilmirdi.

– Bu centlmenliyinin qarşılığında dolma qonaqlığı necədir?

– Əla!

– Həm də sənə təşəkkür borcumu ödəmiş olaram. O qarda-boranda sən gəlməsəydin, təkcanıma uşaqların ikisini birdən necə qaldıracaqdım yuxarı? Bərk yatmışdılar. Yaxşı yetişdin dadıma.

Bu sözlərdən sonra otaqda ab-hava ılıqlandı. Cavan oğlanla cavan gəlin bir anın içində yüz illik məsafə qət etdilər sanki. Elə yaxınlaşıb mehriban-

laşdılar ki... Adı bəlli olmayan əlaqənin bünövrəsi həmin gün qoyuldu. Doğmalar, ailələr, adət-ənənə… yaddan çıxmışdı. Çox xoşbəxt idilər. Və o məqamda həmin xoşbəxtliyi pozmağa qadir qüvvə yox idi.

* * *

Sonrakı həftələrdə daha sıx-sıx görüşməyə başladılar. Duyğuların selində üzürdülər. Qurduqları əlaqə onları heç nəyə məsul etmirdi. Kökündə dayanan sevgiydi, yoxsa ehtiras – bu da heç birini maraqlandırmırdı. Eləcə onu bilirdilər ki, birgəlikləri ikisinə də zövq verir. İnsanların və yazılmamış qaydaların təsirindən uzaq idilər.

Yay gələn kimi Xəzangül nəvələrini kəndə aparmışdı. Sevda hələlik şəhərdə qalıb məzuniyyətini gözləyirdi. Gündüzlər evdə əlinə-ayağına dolaşan, bürkülü havada gəlib-gedən yoxuydu. Bacı-qardaşları hərəsi öz hayındaydı – bağa köçən, ailəsini götürüb xaricə istirahətə gedən… İstilər Hidayət kişini necə təntitmişdisə, o da gəlib-gedəmmirdi. Telefondaca hal-əhval tuturdu qızından.

Sanki gözəgörünməz bir qüvvə görüşləri idarə edirdi, cavanlar heç bir maneəylə qarşılaşmırdılar. Yay aylarında lap isinişdilər. Ailə buxovlarından azad olması Sevdanın əl-qolunu açmış, Fatehi də rahatlatmışdı. Göz yaşları okeanında boğulduğu illərin əvəzini çıxırdı qadın. Fatehə o qədər bağlanmışdı ki, bu kişinin doğmaca bacısının nişanlısı olduğunu tamam unutmuşdu. Vüsalın şirinliyi başını gicəlləndirmişdi. İkisi də əməlli-başlı eyforiyaya





qapılmışdılar. Yay görüşləri onlara xeyli gözəl anlar bəxş etdi.

Münasibətlər çox rəvan davam edirdi. Ta o məşum günəcən. Nigarın heyrəti, sinəsindən qopan o müdhiş səs unudulmurdu. Yaxalandıqdan sonra Sevdagilin əlaqəsinə təhlükə çaları da qarışmışdı. Əslində görüşlər seyrəlməliydi. Ancaq izaholunmaz bir qüvvə onları təhlükəyə meylləndirirdi, ən darmacalda belə görüşməyə can atırdılar. Sevda hərdən özünü günahkar saysa da, dərhal fikrindən daşınırdı: "Mən əxlaqlı qadınam. Ərimdən sonra heç bir kişiyə meyl salmamışam. Qaynıma istədilər, getmədim. İndi Fatehlə... belə alındı. Bacıma canım qurban. Neynim ki bəxtim qaradır, mənə qismət göndəriləndə dağdan ağır sınaqlar da üstündə pay verilir."

Nigar onunçün nələr eləməmişdi? Heç yadından çıxmırdı, ərə gedəndə dükan-bazarda qıtlıq dövrüydü. Cehizi düzüb-qoşmaq müşkülə düşmüşdü. Bacısı min arzuyla özü üçün alıb-yığdıqlarının çoxunu ona bağışladı. Toy qapını kəssə də, Sevdanın bəyəndiyi mebel hələ alınmamışdı. Yenə Nigar irəli durdu, kişi kimi çıxarıb mebelin pulunu saydı. "Təki hər şey bacımın könlüncə olsun", – dedi. Bunları unuda bilməzdi Sevda. Ancaq Fatehdən geri durmağı... ağlına da gətirmirdi. Bu məsələdə hər şeyi hisslərinə qurban vermişdi, bacısını da.

* * *

Məhəbbət üçbucağında yanan tərəf kim idi – Nigar, Fateh, yoxsa Sevda? Eşq savaşında pərvanə olmaq kimin alnına yazılmışdı? Sualın cavabı hələ heç birinə aydın deyildi. Nigarın əzabları tükənmirdi. Yanıb-yanıb qovrulurdu. Fateh dincliyini itirmişdi, nə Sevdadan doyur, nə də Nigarı əldən qoyurdu. Sevda tərəddüdlər dənizində çalxanırdı. Vicdan əzabı üstün gələndə gücü ərinin qarasınca söylənməyə çatırdı: "Nə məni düşündün, nə övladlarını. Eləcə – vətənə iki əsgər vermişəm, – deyib özünü oda atdın. İyirmi yaşında mənə qara bağlatdın. Mən səni qrad düşmüş evin adamlarını xilas edib ölməyə göndərmədim, Yaşar. Mən səni Qarabağda döyüşüb düşmən üzərində zəfər çalmağa, qalib kimi dönməyə göndərdim!"

Bir az hirsi soyuyan kimi yumşalırdı. Bayaq dediklərindən peşman olurdu Sevda. Sanki Yaşar qəbirdən qalxıb o sözləri eşitmişdi. Utanırdı, xəcalət çəkirdi ərinin ruhu qarşısında. Üzrxahlığa başlayırdı: "Sən mənim sərsəmləməyimə fikir vermə. Özün bilirsən ki, dəli-doluyam. Oğulların böyüdükcə sənə oxşayır. Elə darıxıram səninçün! Evin hər küncündə izin görünür. Neyləyim ki, əlimi atanda boşa çıxır, səni tapmıram. Ay Allah, varsa, keç günahımdan."

Öz-özünə nə qədər danışsa da, Sevdanın ürəyi sərinləmirdi. Dalğalar özünü qaldırıb qayalara çırpdığı kimi, o da özünü tənələrə sarı çırpırdı. "Sən cəbhəyə yetişməsən də, qəhrəman kimi vidalaşdın bu dünyayla, Yaşar. Bir ailənin həyatını xilas elədin.

Mənsə... nəfsimə yenildim, hisslərimi cilovlaya bilmədim. O dünyada sənə qovuşmağa da ümidim qalmayıb. Sən cənnətdəsən. Mənim yerim cəhənnəmlikdir. Qır qazanında yandıracaqlar istəkli arvadını, Yaşar, yəqin xəbərin olacaq."

Günlərin birində Sevda iradəsini toplayıb bacısıgilə yollandı. Nigar onu çox soyuq qarşıladı. Üzünə baxmırdı. Alışmadığı rəftardan qırıldı ərköyün bacı. Deyəcəyi yumşaq sözləri unutdu, üzrxahlığa gəldiyi yadından çıxdı. Yavaş-yavaş qəlbi kinlə, acılamaq ehtirasıyla dolurdu. Gözləri parlamağa başlayanda Nigar bildi ki, Sevda savaşmağa hazırlaşır. Uşaqlıqdan beləydi xasiyyəti, xoruz kimi döyüşkəndi. Gözləri parladısa, demək, savaş şeypuru çalındı. Nigar yanılmamışdı. Vulkan püskürdü.

– Nə özünü dartıb qoyubsan dağın başına. Adamzad öldürmüşəəm? Ay bacı, sən qızsan, mən qadın. Başa düş, Fatehə qadın lazımdı, qadın!

Sevda həddini aşmışdı. Amma daha quş qəfəsdən uçmuşdu. Deyilən sözü geri qaytarmaq mümkünsüzdü.

– Elə gərək Fateh olaa? Kənd adamıdırlar, beş yaş böyük qızı alarlarmı? Almazlar axı! Amma sən başa düşmürsən. Elə məni qınayırsan. Nə Elyarın toyunda, nə də Gülnarın yubileyində dindirmədin, üzümə baxmadın. Bir qələtdi eləmişəm, geri dönəsi deyiləm ha? Mən papaq-zadam gündə bir başa qoyulaam?! - Sevda hirsindən ağlamağa başladı. Nigar matı-qutu qurumuş ona qulaq asırdı.

– Yaşar öləndə canıma qıydım, qoymadın öləm. İndi nə istəyirsən? Bacımsan, bir az da məni düşün. Eqoist olub gedibsən. Otuz yeddi yaşındasan, hələ subay gəzirsən. Çünki pulun var, yaxşı işin var, kefin sazdır, ərə ehtiyacın yoxdur. Fateh səni alan olsa, bu neçə ildə alardı daa. Niyə anlamırsan? Taylarım hələ ərə getməyib, mən iki yetim saxlayıram. Elə bilirsən asandır?

Bu məqamacan susan Nigar qəfildən partladı:

– Sənin kimi yüzü var, mini var, xanım qız, hansı bu qələti eləyir? Odur eeey, qardaşımız Eldarın arvadı da sənin kimi gəlindir, iyirmi dörd yaşında ərsiz qalıb!.. Üç uşaq saxlayır, üstəlik sənin qoca ata-anana baxır. Bir gün görübsən Dilrüba yolunu aza? Bəhanələr uydurma. Sənin canındaymış naqislik, fürsət axtarırmışsan. Beş yaş böyük qızı almayan ata-ana yanı ikibalalı gəlini alarmı subay oğluna?? Bunu da düşün!

Nigarın hər cümləsi sərrast atılmış güllə kimi Sevdanın ürəyini deşib kürəyindən çıxırdı. Haqlı ittiham qarşısında dili lal olmuşdu.

* * *

Qəribəydi, bütün günü beynini əzablı düşüncələrin ixtiyarına verən Sevda Fateh gələn kimi yüz səksən dərəcə dəyişirdi. Şən və şux olurdu. Kefi göyün yeddinci qatına qalxırdı. Çox inamlı davranırdı. Özündən arxayın, rahat… Gəlinin bu halı Fatehi də arxayın salırdı. Nigarın intizarında yaşadığı qüssədən qurtulurdu. O qədər məsud olurdular ki!..

Nigarsa heç nə ilə ovunmurdu. Fatehin xatirələri evlə bir idi. Hər yana dağılmışdı. Qaçıb qurtulammırdı. Evin dizaynını necə dəyişsə də, hər tərəfdən Fatehli günlərin yağışı yağırdı. Xanım qız o yağışda təpədən-dırnağacan islanır, xatirələrin leysanına qarşı çətir tapa bilmirdi. Xatirələr onu fırtınaya düşmüş qayıq kimi parçalayır, məhv edirdi. Gur şəlaləyə çevrilib Nigarın təpəsinə-təpəsinə döyəcləyirdi.

* * *

– Bahar, başına dönüm, dur bizə gəl.

– Xeyirdimi, a Nigar? Səsin niyə belə gəlir, xəstələnibsən?

– Yox, yoox. Eləcə ürəyim sıxılır. Dedim bir gələsən dərdləşək. Çoxdan görüşmürük.

Bahar hiss etdi ki, nəsə olub, bacısının ürəyi doludur. Yoxsa, Sevda duran yerdə Nigar onunla dərdləşməzdi. Dərsi qurtaran kimi bacısını görməyə yollandı. Baharı görən Nigarın üzündə güllər açdı.

– Xoş gəldin, a bacı! Nə yaxşı gəldin.

– Xoş günün olsun, gözümün işığı. Necəsən?

Nigarın sevinci Bahara da sirayət etdi. Telefondakı şübhələri dağıldı. Gələndən dil boğaza qoymadan danışan Bahar qəfildən sözünü kəsib sorğu-suala keçdi. Nigarın kəlmə kəsmədiyini, eləcə matdım-matdım qulaq asdığını sezmişdi.

– Hə, de görüm noolub? Elçilərin gəliir? Axır Fateh tərpəndi, həə? - deməyilə Nigarın yarasına duz basmağı bir oldu. Qızarıb-bozaran Nigar pərtliyini gizləyəmmədi.

– Ondan evlənən çıxmaz. Deyəsən, ayrılacağıq…

– Nəəəə?

Heyrətdən Baharın boğazı qurudu. Bir müddət dinə bilmədi. Nəhayət, özünü toplayıb işin əslini öyrənməyə çalışdı. Nigar da Sevda məsələsinə toxunmadan, məsləhət bildiyi məzmunda əhvalat uydurdu.

– Can bacı, vaxtında ərə getsən indi övladların məktəbi bitirərdi. Ömrünü-gününü oxumağa, karyera qurmağa həsr etdin. Onun da bəhrəsini bizlər yedik, sənə əziyyəti qaldı. Neçə ildir Fateh başını qatanda gərək arxayın düşməyəydin. Əsl məqsədini öyrənəydin. Bəs yaxşı, özü nə deyir?

– …

– Yüz elə Fateh qurban olsun sənin ağlına-kamalına. Nə çoxdur səni istəyən. Birini seç. Daha yubatma. Subaylıq sultanlıqdır, o da bir yerə qədər. Yaman yerdə axşamladın.

Nigar dinmədi. Bahar da sözünü ikiləmədi. Acdığını bəhanə edib mətbəxə keçdi. Evdə biş-düş yox idi. Soyuducuda təzə meyvə-tərəvəzdən əsər görməyincə, vəziyyətin ciddiliyini anladı. "Qız tamam ruhdan düşüb. Görəsən, Fatehlə aralarından nə keçib? Sevda bilməmiş olmaz. Ondan da söz almaq mümkün deyil, elə bil Ştirlisdi. Yenə də ağzını yoxlayaram görüm nə deyir..."

Qolunu çırmayıb künc-bucağı eşələyən Bahar şkafdan yarım torba makaron, bircə dənə də kartof tapa bildi. Yemək bişirməyə başladı.

Bacısının qayğıkeşliyi, anlayışlı davranışı Nigarın qəlbini kövrəltmişdi. Yavaş-yavaş beyni və qəlbi rahatlayırdı. Yanan ürəyinə su səpilirdi: "Bacı belə olar." Özünü əvvəllər olduğu kimi, arxalı-köməkli hiss etməyə başladı. Aylardan bəri altında əzildiyi yükdən yüngülləşirdi. Sanki Bahar o yükün altına çiyin vermiş, bacısını ağırlıqdan qurtarmışdı. İndi Nigar dərdin hamısını olmasa da, yarısını tək daşımırdı.

* * *

Böhranlı dövr arxada qalmışdı. Kin-küdurət yumşalmışdı. Yarıküsülü olsalar da, Sevda uşaqları götürüb gəlmişdi bacısıgilə. Nigar qollarını açıb Ceyhunla Seyhunu bağrına basmışdı. Qapıdan içəri keçməyə cəsarət etməyən günahkar ürəklənmişdi:

– Nigar, məni qınama, buna məcburdum. Uşaqlar sənsiz dözmürlər. Körpələrə necə başa salım aramızdakı soyuqluğu? Atalarını doyunca görmədilər, indi də xalalarından əlləri üzülsə…

Sellənən göz yaşları Sevdaya imkan verməmişdi sözünü bitirə. Onun yazıq duruşundan, ürək dağlayan etirafından təsirlənmişdi Nigar, bacısını da içəriyə almışdı. Bağrına basdığı uşaqları iyləyib ağlamışdı. Xeyli vaxtıydı o tərəflərə keçmirdi. Son günlər Ceyhungil hey zəng vurub onu çağırırdılar. Nigar hərdən bir bəhanəylə uşaqların başını aldadırdı. Axır ki, xalasız dözməyən körpələr analarını məcbur etmişdilər. Gəlişləri lap yerinə düşmüşdü.

O gündən sonra gec-gec də olsa, Nigar hərdən baş çəkirdi bacısıgilə. Mətbəxdən o tərəfə keçməz, çox oturmazdı. Uşaqların könlünü alan kimi qayıdırdı.

Axşamlar nə yaman uzun olarmış… İşdən çıxan Nigar yenə vaxtın əlində naçar qalmışdı. Çox düşünmədən atasıgilə yollandı. Evə çatar-çatmaz uşaqları başına yığdı.

– Gündəlikləri açın görüm, neçə almısız? Kim bibisinə daha qiymətli hədiyyə gətirib?

Eldarın yadigarları çantalarını bibilərinin yanına sürükləyib, "əla" və "yaxşı" qiymətlərini nümayiş etdirməyə tələsdilər. İlham qürrələndi:

– Ən birinci mənim qiymətlərimə baxacaqsan, mən bu gün dörd dənə "beş" almışam.

– Bibi, "ay pipiyi qan xoruz"u deyim?

– Həə, bibinin ağıllı qızı, de.

Şirin uşaq ləhcəsilə şeir deyən Rəna sözünü bitirməmiş Polad məsələ dəftərini sərdi Nigarın qarşısına.

– Nigar bibi, bunu başa düşmürəm ey…

Beləcə bir axşamı da yola verən Nigar uşaqlar yatandan sonra ayaqlarını sürüyə-sürüyə öz evinə yollandı. Əslində getmək istəmirdi. Qorxurdu burda qalsa, əhvalatdan duyuq düşərlər. Lap mehmanxanaya döndərmişdi evini. Heç nəyə əl vurmur, yemək bişirmir, sadəcə yatıb-durub gedirdi. Yeknəsəqlikdən yaxa qurtarmaqçün arada ortancıl bacılarına baş çəkirdi. Vaxtını öldürürdü, amma içindəki boşluğu doldura bilmirdi. Getdiyi evlərdə Nigarın iç dünya-

sına boylanan, onun yaşantılarıyla maraqlanan olmurdu. Bahardan başqa dərdini bilən yoxuydu. Ağrılarını ürəyində aparıb, ürəyində gətirirdi. Məyusluğunu içində gizlədirdi. Lap çox darıxanda Günəşlidə yaşayan prokuror qardaşıgilə gedirdi. İlqarla Nigarın söhbəti tuturdu. Amma o da işdən gec qayıdır, həmişə evdə tapılmırdı.

Tənhalıqdan çıxış yolu axtaran Nigar bir ara tələbə yoldaşlarını başına yığmaq istədi. Yığdı da. Amma birinci görüşə həvəslə gələnlər ikinci, üçüncü görüşə vaxt tapa bilmədilər. İllər insanların həyatını yükləmişdi, maraqlarını dəyişmişdi, onun tanıdığı qayğısız gənclərdən əsər-əlamət qalmamışdı. Anladı ki, gedən qatarın dalınca qaçmaq mənasızdır.

* * *

Fateh Nigardan əl çəkmirdi. Qız hara addım atsa, oğlan ağac kimi qarşısında bitirdi. Daha "yox" deməkdən usanmışdı Nigar. Fatehin inadkarlığı uzandıqca Nigarın bu yaşacan inandığı etik normalar alt-üst olurdu. Ehkam kimi əməl etdiyi dəyərlər gözündən düşürdü. Olanları necə yozacağını, nə qərar verəcəyini kəsdirə bilmirdi. Fikir-xəyal beynini qurd kimi gəmirirdi: "Fateh məni sevməsə, bu qədər inad edərmi? Etməz, çoxdan üz döndərib getmişdi. Deməli… Əgər yolunda can qoyduğum bacım məni ayaqlayıb keçdisə, mən niyə öz xoşbəxtliyimi ona qurban verirəm? Sevgini, səadəti tapmaq asandırmı?" Dəqiq bilirdi ki, bundan sonra onunku Fatehlə tutmaz. Ancaq nişanlısını Sevdaya güzəştə getməyi də qüruruna sığışdıra bilmirdi.

Günlərin birində bacısıgilə gedəndə dözmədi, içini tökdü:

– Sevda, öz içimdə hakim rolu oynamaqdan, ittiham etməkdən yoruldum! Nə əzablarım səngiyir, nə də beynimi deşən suallara cavab tapılır. İçim içimi yeyir. Belə getsə... Mənə düzünü de. Necə oldu? Yenə birlikdəsiz?

Sevda cavab vermədi. Susub məlul baxışlarla bacısına baxırdı.

Məhəbbət və xəyanət, ruh düşkünlüyü Nigarı elə dəyişmişdi ki, bəzən özü-özünü tanıya bilmirdi. Qisas duyğusu durmadan onu bulunduğu mərtəbədən aşağılara çəkirdi. Hisslə ağıl arasındakı mübarizə canını üzür, qızı özündən uzaqlaşdırırdı. "Onun iki oğlu var, mənim iki diplomum. Sabahkı gündə Sevdanın oğulları böyüyüb analarının qayğısını çəkəcək. Ancaq mən əldən düşəndən sonra diplomlarım da işə yaramayacaq. Bilsəm ki, Fatehlə ailə quracaq, çəkilərəm kənara. Ancaq yoox... onların evlənməyi baş tutan iş deyil! O halda mən də nişanlısını güzəştə gedən qız deyiləm."

Tərəddüdlər gəmisində ağır yolçuluğa çıxan Nigarı hisslərin dalğası hansı səmtə sürükləyəcəkdi, hələlik məlum deyildi. Doğma düşmənlərinə tuşlanmış nifrəti tez-tez libasını dəyişir, hərdən bir ayrı dona girirdi. Ürəyində özünü danlayırdı: "Ömrünü bağışlamısan əzizlərinə, Nigar, amma yad oğlundan keçə bilmirsən. Bacından artıqdır? Niyə bu məsələdə güzəşt tanımırsan? Sən gəl məğlubiyyətinlə barış, Fatehi Sevdaya

bağışla, ərməğan et və biryolluq üzünü döndərib get. Get ki canın qurtarsın əzablardan! Ya da…"

Nigar fikrindəkiləri həyata keçirə bilməyəndə anladı ki, qadınlıq başqa şeymiş, burda güzəştə yer yoxmuş. Əslində öz içində Fatehin itkisiylə çoxdan barışmışdı. Hərdən ona elə gəlirdi ki, bacısının günahından da keçib. Amma Sevdanın diliuzunluğu onu təbdən çıxarırdı. Beləcə ömrünə calanan boz-bulanıq günlərin birində Fatehlə barışdı.

– Ömrüm-günüm, o gündən sonra Sevdanı bir daha görməmişəm, heç bir əlaqəm yoxdur. Həmişəki kimi yenə səni sevirəm, ancaq səni! Yalnız səninlə quracağım ailədən xoşbəxtlik gözləyirəm, inan mənə. Niyə şübhə edirsən? Hər axşam sənin qapında qarovul çəkdiyimi bilmirsən məgər?

Fatehin şirin dillərinə aldanmamaq üçün Nigar kifayət qədər ağıllıydı. Amma inanmaq istəyirdi. Özünü aldadıb ovunmaq istəyirdi. Özü ilə mübarizə aparmaqdan yorğun düşmüşdü. Olub-bitənlərdən usanmışdı. Qəlbi rahatlıqçün susamışdı. Ona elə gəlirdi ki, axtardığı rahatlığı hələ ki ancaq Fatehi geri qazanmaqla tapa bilər. Tapdanmış qadınlıq heysiyyatı yalnız o halda qisasını almış olacaq. Şirin yalanlar qızı inandırmasa da, qürurunu oxşayırdı. Fateh dil tökdükcə o özünü möhtəşəm qadın mərtəbəsində hiss edirdi. Ruhunu əzən yüklərdən yüngülləşirdi. Qüssəylə çırpınan ürəyi sevinc işartılarına bələnirdi.

* * *

Yenidən bərqərar olan axşam görüşləri ilk günlər qıza tənhalığını, oğlana arxasızlığını unutduran kimi oldu. Amma bu hal uzun sürmədi. Görüşlərin əvvəlki şövqü qalmamışdı. Münasibətlər alınmırdı. Sanki don vurmuş birini cana gətirməyə çalışırdılar. Cəhdlər uğursuzluğa düçar olurdu. Hərəkətlərini zərgər dəqiqliyi ilə ölçüb-biçən Fateh suçunu yumaq üçün əvvəlkindən qat-qat artıq həssaslıq göstərsə də, vurduğu yaralar sağalmırdı.

– Sənə inanmaq istəyirəm, amma qəlbimin dərinliklərində hiss edirəm ki, dediklərin hamısı yalandır.

– Nigar, lütfən bu söhbətləri yığışdır. Biz uşaq deyilik. Mən səni niyə aldadım?

O an Nigarın gözü pəncərədən görünən ağaclara sataşdı. Yenicə cücərməyə, yaşıllaşmağa başlayırdılar. Həyat təzələnirdi. Təsadüfən diqqətini çəkən bu mənzərə nəyəsə işarəydimi? "Biz – şüurlu insanlar bu dilsiz-ağızsız ağaclar qədər də yoxuq. Necə də xoşbəxtdirlər, hey ölüb-dirilirlər, həyata yenidən başlayırlar. Görəsən biz də hər şeyi yenidən başlaya bilərikmi? Fatehlə mən..." Ağlına gələn düşüncədən Nigarın əti ürpəşdi. "Heç vaxt! Bu, mümkün deyil."

* * *

Fateh yaman tələsirdi. Qeydiyyat jurnalına qol çəkə-çəkə direktorun yerində olub-olmadığını soruşdu.

– Bu gün çətin gələr. Konfransa gedib, - cavabını alanda sevindi, əllərini bir-birinə sürtə-sürtə qəbul otağından çıxdı. Foyedəcə dayanıb qol çəkməyə gələn

iş yoldaşlarından hal-əhval tutmağa başladı. Özünü mümkün qədər çox adama göstərmək istəyirdi, sonra soruşan olsa hamı desin ki, burdaydı. Onsuz da son vaxtlar institutda çox vaxt itirmirdi. İmkan tapan kimi firmaya qaçırdı. İndilikdə Fatehçün hüquq firmasından önəmli yer yox idi.

Barışıqdan sonra işlər yenidən canlanmışdı, firma yaxşı gəlir gətirirdi. Nigar da pul bölgüsündə əməlli-başlı səxavət göstərirdi. "Mən onun yerində olsam, qəpik göstərməzdim. Bu isə… görəsən, niyə belə edir? Məni pulla şirnikdirmək istəyiir? Yoox. Nəsə başqa məqsədi var. Bəlkə məni bu yolla alçaltmaq, yazıqlaşdırmaq..?" Şübhələr Fatehi tərk etmirdi. Nigarın əliaçıqlığına yozum tapmayanda hər şeyi həyatın axarına buraxmaq qərarına gəldi. "Əşşi, nə ürəklə edir-etsin, təki pulum gəlsin! Bu da bir fürsətdir, əldən vermək olmaz. Qoy özümü tutum, sonrasına baxarıq. Bu yaşa çatıb, hələ də sadəlöhvlüyündən əl çəkməyib. Elə bilir mən hər ay kəndə, atamgilə pul göndərirəm. Öz aləmində humanitar yardım göstərir. Deyən gərək, bağları-bostanları var, əkib-becərib dolansınlar daa. Elə gərək mənim boğazıma ortaq olalar?.. Yaşım otuzu haqlayıb başımı soxmağa daxmam yoxdur."

* * *

Fateh Nigarın başına dolanırdı Amma… Sevdayla əlaqəsini də kəsmirdi. Bu məsələdə qəti inkar mövqeyində dayansa da, Nigar qadın həssaslığıyla hiss edirdi ki, münasibətlər bitməyib. Qəlbini qısqanclıq duyğuları çulğayırdı. Əlində faktı yoxuydu. Neçə

dəfə qəfildən Sevdagilə getsə də, Fatehlə rastlaşmaq ehtimalı puça çıxmışdı. Barışıqdan sonra Nigarda qəribə bir istək baş qaldırmışdı: mütləq keçmiş nişanlısını bacısıyla bir yerdə tutmaq və dəhşətli qisas almaq istəyirdi. Həmin qisasın necə olacağını təsəvvür etməsə də, mütləq öcünü alacaqdı. Hərdən Fateh onu qucaqlamağa cəhd edəndə oğlanın Sevdaya da beləcə sarıldığını düşünüb çıldırırdı. Nigarın etirazı, üsyanı Fatehi itələməklə bitmirdi. Ürək bulandıran sorğular meydan sulayırdı.

– Uşaqlıq eləmə, Nigar. Mənim bircə sevgilim var, o da sənsən! Gözümün işığı, özünü hədər üzürsən. Vallah inciyirəm, - deyə Fateh yağlı dillərini işə salırdı. Nigarsa şübhələrdən xilas olammırdı. Sevdagilə gedəndə Fatehin qoxusunu almaq ümidiylə xəlvətə salıb yorğan-döşəyi iyləyirdi. Uşaqlardan söz almağa çalışırdı. Bir şey çıxmırdı.

Nişanlıların indiki birgəliyi yalançı görüntüdən ibarət idi. Fateh çiliklədiyi qəlbin qırıntılarını toplayıb bitişdirməyə, sönmüş ocağı alovlandırmağa çalışdıqca Nigarın duyğuları qamçılanmış at kimi hürküb qaçır, daha sürətlə uzaqlaşırdı. Fateh kor deyildi. Bunu görüb anlayırdı. Tənələr, kinayəli baxışlar, ox kimi hədəfə sancılan sözlər görüşlərin istiotunu-bibərini dözülməz həddə çatdırdıqca Fatehi bezdirirdi. Bezdikcə Sevdaya daha çox meyllənirdi. Həm də… gələcək həyat yoldaşını kənarda aramağa başlamışdı. Bacıların ikisi də bundan xəbərsiz idi.

O arada Sevdanın da psixoloji durumu gərgin idi. Fatehlə görüşlərində hey yalvarırdı ki, bacımdan əl çək, bizi düşmən etmə.

– Az qalıb, bir az da döz. Tezliklə hər şeyi açıb deyəcəm. Nigar məni başa düşər. Bizi bağışlayar. Sən səbr elə. Həm də sən niyə narahatsan ki? Nigarla biz ancaq dostuq. O mənim qadınım deyil ki… Yes-yekə arvadsan, özün hər şeyi yaxşı bilirsən.

– Noolar, Fateh, getmə ora. Bir halda ki dostsuz, iş yerində görüşdüz bəsdi. Getmə ora. Bunun axırı pis olacaq. Ay Allah, bu nə iş idi düşdük?!

Sevda nə desə, necə desə də xeyri olmurdu. Fateh bildiyini dədəsinə verməzdi. Yalvarışlar nəticəsiz qalırdı. Əlacı kəsilən Sevda bacısıyla danışmağa qərar verdi.

– Nigar, qurbanın olum, Fatehdən uzaq dur.

– Sən hələ Fateh deyirsəən? Utanmırsan?

– Bacı, biz səni aldatdıq. Yalan dedik. O vaxtdan birlikdəyik. Heç ayrılmadıq. Fateh səndən çəkinir. Düzünü deyə bilmir. Mən də qorxurdum. Amma daha bıçaq sümüyə dirənib. Uzaqlaş. Özünə vaxt ikən yurd-yuva qur. Fateh səni almayacaq. Amma məndən əl çəkən deyil.

Heyrətdən Nigarın gözləri bərəldi. Həyatında aldığı ikinci ağır zərbəydi bu etiraf. İkisi də sevimli bacısından. Bu dəfə qüruru incimədi, qəzəb və qısqanclıq boğdu onu. "Biz səni aldatmışıq, heç ayrılmadıq" sözləri qulağında dəfələrlə əks-səda verdi. Nigar özü də hiss etmədən hücuma keçdi.

– Sən əl çək Fatehdən! O mənim nişanlımdır. Qızda abırsızlığa bax. Keçib qarşıma deyir ki, nişanlını mənə ver.

– Bacı, qurban olum, sözümü qəribliyə salma. Fateh məni istəyir. Sənə dost gözüylə baxır.

– Sus, alçaq qadın! Sus!

– Yalvarıram…

– Fateh hər axşam gəlib mənə eşqnamə oxuyur, səninlə yediyi qələtə görə üzrlər diləyir. Sən deyirsən almayacaq? Almasın! Sənə nə? Görürsən ki o nadürüst oğlu  nadürüst bacını aldadır, yaxşı bacısansa imkan vermə. Gələndə qov onu evindən. İti qovan kimi qov!

– Sən qov! Sən iradəlisən. Mən bacarmaram. Həm də ki, gec-tez sən ərə gedəcəksən. Mənsə ömrüm boyu iki yetimlə dul qalacam. Fatehdən imtina edə bilmərəm!

Deyişmə qızışdıqca sözlər qurğuşun kimi ağırlaşırdı. Hərəsini bir batman balla yemək olmazdı. Qan bağı olan iki qadının qarşılıqlı ittihamları araya nifrət çəpəri çəkirdi. Bu an onlar bacıdan çox, qənimət üstündə didişən şüursuz məxluqlara oxşayırdılar. İkisi də açarını itirmişdi.

* * *

Nigarla işdə, Sevdayla evdə tez-tez görüşən Fateh bacıların bir-birindən tamam soyuduğunu görürdü. Qəsdən özünü bilməməzliyə vururdu. “Axır ki, mənim də bəxtim açıldı. Bundan sonra dünya dağılsa, bacıların heç biri məni qapı dalında qoymaz.

Yaman bəhsəbəhsə düşüblər. Adamı belə acığa salarlar ha, Nigar xanım, bəsdi aylarla qapında yatdım." O, bacıların hərəsini bir cür aldadaraq gününü xoş keçirirdi. "Canları cəhənnəmə!.." – deyirdi ürəyində və mümkün qədər tez özünə gün-güzəran düzəltməyə tələsirdi. Bəzən onlara dediyi sözlər yad adamdan eşitdiyi ürəkbulandıran söhbət kimi döyürdü qulağını. Diksinirdi öz səsindən, saxta nəvaziş dolu sözlərindən. Nə əvvəlki tək Nigardan utanıb-çəkinir, nə də Sevdaya rəhm duyurdu. İçində qabaqkı Fatehdən əsər-əlamət qalmamışdı.

Axır ki, ev sahibi olmuşdu. Firmadakı qazancı sayəsində ipoteka götürüb ikiotaqlı mənzil almışdı. Əlinə pul düşdükcə təmir etdirirdi. Elə rahatlamışdı… Heç vaxt yaşamadığı duyğular yaşayırdı. Bəxtiyar idi. Özünü əvəzolunmaz kişi sayırdı. Qəribəydi, ev sahibi olandan sonra nişanlısı da onun gözündə statusunu dəyişmişdi. Daha Nigara xilaskarı, arxası, dayağı kimi baxmırdı. Öz sevgisinə də şübhəylə yanaşırdı. Dilindən qopan sözlər ürəyində kinayəli gülüş doğururdu: "Nə goplayırsaaan…" Mənən əməlli-başlı dəyişmişdi. Sevdayla yaxalandığı vaxt qəlbində tüğyan edən fırtına çoxdan yatmışdı.

Üçbucaqdakı gedişlərdə baş rolu oynayan Fateh düşdüyü çuxurda çabalaya-çabalaya həqiqəti tapmışdı: "Sevdayla intim münasibətlərdən sonra Nigarı almağım illüziyadır. Qız məndən iyrənir. O mənə ərə gəlməz! Qırımından bəllidir. Yarımca saat yanında

durmağıma dözmür. O ki qaldı... Barışmağı da bacısından heyf çıxmaq üçündür. Mənə görə deyil."

Durumunu dərk elədikcə Fatehin xasiyyəti dəyişirdi. Qəddarlaşır, amansız olurdu. Sanki yamyaşıl ağacın dibinə yanacaq tökmüşdülər, ağac quruyurdu. "Dünya dediyin nədir ki: insanın əlində bir oyuncaq. Pultunu hansı səmtə tutsan, o səmtə yönələcək. Ağlın varsa, özünə gün ağlarsan."

* * *

Sevdayla birgəliklərinin ikinci ildönümünü qeyd etdikləri gün Fateh onu qəfil şoka saldı.

– Yaxında evlənirəm.

– Nigarlaaa?

– Yox, bizim layihə institutundan bir qızla. Anamgil "hə"sini alıblar. Gələn ay toy olacaq.

Eşitdiyi xəbərdən necə sarsıldısa, Sevda dinə bilmədi. Fateh onun yanağından öpüb qaçdı. Uzun müddət durduğu yerdən tərpənməyən Sevda özünə gəlincə bir istədi Nigara zəng etsin, nə düşündüsə fikrindən vaz keçdi. "Bu nə əclaf gədəymiş! İndi hünərin çatırsa, Fatehi evlənməyə qoyma görüm necə qoymursan, Sevda xanım, – deyə özünə kinayə etdi. – Bilməliydin axırı belə olacaq. Nigar kimi qızın qədrini bilməyən oğlan sənin qədrini nə biləcəkdi?! Nahaq yerə özünü də alçaltdın, bacını da. Sənə bu da azdır!"

Qadını titrətmə tutdu. Həyatındakı ikinci kişinin onu tərk etməsi birincinin ölüb getməsindən daha

ağırıydı. Fatehlə bərabərliyi onun həyatına rəng qatmışdı, fərəh gətirmişdi. Dul qaldığı illərdən bəri indi-indi özünə fikir verirdi, sığallı-tumarlı gəzirdi. Yenidən köhnə ab-havaya girmək… ağlasığmazıydı.

* * *

Sevdayla məsələni asanlıqla, qalmaqalsız həll etdiyini görən Fateh lap ürəkləndi. "Əşi, nə deyə bilərdi ey? Sevda kimdi mənə mane ola? Cınqırını çıxarsa, açaram sandığı, tökərəm pambığı. Ağzı nədi dinsin? Ağlı varsa, susacaq. Əsas məsələ Nigarı yola gətirməkdi. Dost qalsaq yaxşıdı. Hələ ki firmada ona ehtiyacım var. Bu yaşdan soora gedib bir institut da oxumayacam ha. Sivil qaydada ayrılsaq yaxşıdır." Sonuncu fikir beynindən keçən kimi Fatehi gülmək tutdu. "A zalım balası, sən lap dəhşətsən haa. Qızın başına bu qədər oyun açandan sonra hələ bir sivil donu da geyindirirsən əməllərinə. Bu gedişatnan sənə zaval yoxdu, Fateh. Havaxt belə inkişaf elədin?"

Kefi yaman kökəlmişdi. Nəyə sevindiyini özü də dəqiq bilmirdi. Ancaq bacıların kələfindən asanlıqla sıyrılmağından çox razıydı. Əl altından düzüb-qoşduğu evlənmək məsələsinin üstü açılanda Nigarla münasibətlərinin pozulacağı vecinə gəlmirdi. "Nə olar-olar…" - deyirdi. Huşu-fikri toya hazırlığın yanındaydı. Fatehi rahatlayan o idi ki, əsas gəlir mənbəyi olan firmada onların keçmişini bilən yoxuydu. "Bədəbəddə üz döndərib getsin Nigar. Lap yaxşı. Firma mənə

qalar. Azdan-çoxdan işin çəmini öyrənmişəm. Onsuz da işçilər mənə tabedir. Toyadək bir az da aramızı düzəltsəm, əla olar. Ay balam, bu dövrdə kim dəlidir işdən çıxaa? Hamıya çörək lazımdı. Nə fərqi var firmanın başında duran kimdi. Əsas puldu, pul! Quzu kimi oturub işləyəcəklər."

Toy günü dəqiqləşmişdi, şadlıq evi danışılmışdı. Ancaq Fateh barmağına nişan üzüyü taxdığı qızla şəhərə çıxmağa cürət etmir, min bir bəhanəylə boyun qaçırırdı.

– Səbinə, mən firmaya qaçıram, müştəri var. Bilirsən daa, nişanlın olmasa orda işbilən yoxdu haa. Gələn müştəri üzüqoylu qayıdacaq. Ona görə hökmən getməliyəm. Səni evəcən ötürməsəm inciməzsən ki?

Səbinənin etiraz etmədiyini görüncə – bütün ömrümü sənə həsr edəcəm, mənim tələbə gözəlim, saatlar-günlər nədir ki, – deyərək yenə aradan çıxdı. – Ordan da evimizin əyər-əskiyini düzəltməkçün usta dalınca gedəcəm. Sənə qovuşmağa bilirsən necə tələsirəm… Ürəyimi yanında qoyub gedirəm haa.

Səbinənin çöhrəsini xoş təbəssüm bürüdü:

– Yaxşı, yaxşı. Narahat olma. Sən yoxkən məni kim aparıb-gətirirdi? İşində ol.

Əslində Fateh Nigarın qardaşlarından ehtiyat edirdi. Fikirləşirdi ki, toya qədər problem çıxmasın, iş-işdən keçəndən sonra bilsələr də, ziyanı yoxdur. Fatehin daşdan keçən bəhanələri işə yarayırdı, təzə nişanlısı

təkid etmirdi. Qəribə təmkini vardı qızın. İyirmi iki yaşlı gəncə heç oxşamırdı. Səbinə kollektivə təzə gələndə institutdakı "köhnə qurdlar" ona Fatehin Nigara sevgisindən danışmışdılar. Gəncliyinə baxmayaraq qız əsib-coşmamışdı, heç əhəmiyyət verməmişdi deyilənlərə:

– Əsas odur mənimlə evlənir. Əgər istəsəydi, onu alardı, - deyə söz-söhbətə son qoymuşdu. Bu cavabdan sonra kimsə söhbəti təzələməyə cürət etməmişdi, mövzu birdəfəlik qapanmışdı. Sanki Fateh-Nigar əhvalatı yerli-dibli olmamışdı.

* * *

Vaxt daralırdı. Nigarla danışmaq lazımıydı. Günlərdir Fateh ürəyində o söhbəti qurur, məsələni qıza açırdı. Amma üz-üzə gələn kimi cəsarəti qırılır, sözlər boğazından geri qayıdırdı. "Bir dəli şeytan deyir, Nigara heç nə demə. Hesabat vermirsən ki? Get, toyunu elə daa. Gec-tez eşidəcək. Sən işində ol!" Nəzərləri paylanmamış dəvətnamələrə sataşınca fikrindən daşınırdı: "Onda gərək bunları da çağırmayam. Gör nə qədər ziyana düşürəm? Müdir adamam, yaxşıca pul salacaqlar."

Fateh tərəddüddə qalsa da, içindən gələn səs təkid edirdi: "Səndən eşitsə yaxşıdır. Adam ol. Şərikli işiniz də var. Hara qaçacaqsan? Bu boyda cidanı çuvalda gizlətmək olar? Nigar mədəni qızdır, məsələni böyütməyi özünə sığışdırmaz. Heç bacısıyla tutanda hay-küy qaldırmadı… Əsas qorxu ailəsindəndir. Atası

ömrü boyu vəzifələrdə işləyib, indinin özündə də əli hər yerə çatır. Qardaşı da prokuror. İstəsələr, ilişdirib-eləyərlər. Səni ilim-ilim itirərlər, izini-tozunu tapan olmaz. Kimin var dalında dura? Camaatın şərəfiylə oynamısan. Hələ Sevda məsələsinin üstü açılsa… hamısı cəhənnəm, kontujnı qardaşı Elyar var haa, adamı diri-diri boğar. Ağlın olsun, Fateh. Bu işi Nigarın əliynən yoluna qoy."

Yenə axşam idi. Nigarın evinə gələn Fateh dilini sürüyən kimi qız sözü uzatmağa qoymadı:

– Axır vaxtlar sözlü adama oxşayırsan, noolub, evlənirsən?

Nigar özü də bilmədi ağlına gəlməyən bu sual dilinə hardan gəldi. Fatehin başıyla təsdiqlədiyini görəndə kinayə ilə dedi:

– Allah xeyir versin!

Və… duydu ki, hisslərinin cilovu sürətlə əlindən çıxır. Nigarın içində dəhşətli ağrılar baş qaldırdı, ürəyi şar kimi durmadan şişirdi. Sanki dağıdıcı zəlzələ, ya da sunami başlayırdı. Bir-iki dəqiqəyə iç dünyası tar-mar olacaqdı. Arzuolunmaz qonaq tez çıxıb getməliydi. Bir azdan burda göz yaşı dağ çayı kimi gurlayıb qarşısına çıxan hər şeyi yuyub aparacaqdı. Duyğuların üsyanı ağlı məmləkətdən qovacaqdı. Qəzəb tüğyan edib ömrün puç olmuş illərini öz alovunda yandıracaqdı. Tapdanmış qadınlıq heysiyyatı nərə çəkəcəkdi. O anda Fateh gözünün qaba-

ğında olsa… nələr edə biləcəyini təxmin etmək qorxuncdu. Ona görə də Nigarın hissləri ağlını üstələməmiş o getməliydi! Fatehsə tərpənmirdi. Sanki durduğu yerə mıxlanmışdı.

– Ta nə var? - Nigarın qəzəbli sorğusu dalğa-dalğa yayıldı evə.

Vəziyyətin qəlizləşdiyini görən Fateh aradan çıxmağa tələsdi:

– Yalvarıram, toyuma gəl, firmadakıların yanında biabır olmayaq, - deyib dəvətnaməni kamodun üstünə qoydu və ildırım sürətilə qapıdan çıxdı.

İndiyədək Nigar şüuraltında ümidvar idi ki, bu addımı özü atacaq: günün birində Fatehi tərk edəcək, xəyanətkara "əlvida" deyəcək. Amma yenə Fateh onu qabaqlamışdı. Bu dəfə baltanı lap kökündən vurmuşdu.

* * *

Nigar toy salonuna boylananda bəylə gəlin ortadaydılar. Fateh gəlinin üstündə bərq vuran brilyantların işığında elə xoşbəxt-xoşbəxt rəqs edirdi ki, görüntüdən Nigarın başı gicəlləndi. Tez kənara çəkilib özünü foyedəki divana çatdırdı.

Furşet masasının ətrafı qonaqla doluydu. Çoxdan görüşməyənlər qızğın söhbətə girişmişdilər, siqaret çəkənlər ləzzətlə papirosu sümürərək canlarına qəsd edirdilər. Kənardan baxanda divanda yalqız oturmuş yaraşıqlı xanım dərhal diqqət çəkirdi. Toya tək gəlmiş erkəklərdən bəzisi onu

gözucu izləyir, sağa-sola boylanaraq yaxınlıqda bu xanımın məhrəmi olub-olmadığını öyrənməyə çalışır, söhbətə körpü salmaqçün fürsət axtarırdı.

İçəridə toyun ən coşqun məqamıydı. Masaların ətrafında adam qalmamışdı. Hamı ortadaydı. Qonaqlar bir-birinə macal vermədən rəqs edirdilər. Səs-küydən ağız deyəni qulaq eşitmirdi. Nigarsa foyedə xəyallar aləminə dalmışdı. Ətrafdakılara baxsa da, onları görmürdü. Daha salondan gələn musiqinin gurultusunu da eşitmirdi. Nə qədər iradəli görünməyə, möhkəm olmağa calışsa da, evdən çıxanda üzünə qondurduğu çarəsiz təbəssüm ağlayırdı.

…Nigar bəyazlar içində Fatehlə rəqs edirdi. Gəlinlik ona elə yaraşmışdı ki… Gözəlliyini birə-min artırmışdı. Birdən haradansa özgə gəlin peyda oldu. Fateh yad gəlinlə rəqsə başlayan kimi, gəlin Nigar meydandan qeybə çəkildi. Salonda iki Nigar vardı: qonaq qismində toyda oturmuş Nigar ha sağa-sola boylandı, gəlin Nigarı tapa bilmədi. Təkrar nəzərlərini ortada süzən bəxtəvərlərə yönəltdi. Deyəsən, Fateh gəlinin dəyişdiyinin fərqinə varmamışdı, ya da Nigarın yoxa çıxmağını vecinə almırdı. Üzündən məmnunluq yağırdı. Bu ifadə qonaq Nigarı necə qıcıqlandırdısa, anındaca Fatehdən zəhləsi getdi. Bəyin üzündəki o ifadə sanki keçmiş nişanlısına meydan oxuyurdu...

Qəfil sual Nigarı bərk səksəndirdi:

– Xanım, nəsə narahatlığınız var?

Çaşqın nəzərlərlə səs gələn tərəfə baxaraq – yox, narahat olmayın – fikrini qəlbindən keçirən Nigar anındaca reallıqdan uzaqlaşdı. O, səsinin çıxmadığını, qeydinə qalanın təəccüblə baxıb-baxıb uzaqlaşdığını sezmədi. Özünə elə qapanmışdı ki. Yenə xəyal dünyasının pəncərəsindən toydakı cütlüyə boylandı. Fatehin üzündəki o ifadə şimşək tək çaxdı gözünün önündə. Qısqanclıqmı, qadınlıq heysiyyatımı – hansısa duyğu bu əzabları Nigara yaşatmağındansa bəyin ölməyini, yox olmağını istədi. Və birdən-birə Fatehin siması dəyişdi. Bu, tanıdığı Fatehin – Nigarı sevən, illər boyunca ona eşqnamələr oxuyan, evlənəcəkləri günün həsrətilə yaşayan Fatehin siması deyildi. Yad çöhrəydi. Çünki Fateh Nigardan başqasına belə baxa bilməzdi. Bu bəy kim idisə, Fateh deyildi! Sadəcə Fatehin üz cizgilərini daşıyırdı. Bəlkə də oğurlamışdı, plastik əməliyyat etdirmişdi. Qonaq Nigar bu düşüncələr içində bir də boylanıb bəy-gəlinə baxanda ürpəndi: cütlük rəqs edirdi, amma bəyin üzü yox idi. Boyu, bədəni yerindəydi, arxaya dönəndə başı da görünürdü. Ancaq üzü-gözü yox olmuşdu. Qalstukdan yuxarıda qorxunc boşluq qaralırdı. Mayn Ridin romanındakı başsız atlı kimi, rəqs edən bu bədənin də siması, çöhrəsi yoxuydu! Tam boşluq!! Nigar gördüyündən dəhşətə gəldi. Yüyürüb Fatehin üzünü tapmaq istədi. Ayaqları onu qaldırmadı. Heysiz idi.

* * *

Nigar xəyaldan ayılanda dərin depressiyadaydı. Mobilini açıb Fatehə son mesajını yazdı:

Sənin toy günündə yasım düşübdür,
Təbriklər – verilən başsağlığımdır.
Bir qəlbdə sevinc var, bir qəlbdə kədər,
Hüzrümə gələnlər axın-axındır.
Bizim məclisimiz yaman yaxındır.
Sənin bəylik taxtın – mənim tabutum,
Ucalıb şənliyin çiyinlərinə.
Tabutdan boylanan cansız bədənim
Əl çalır bəy-gəlin rəqslərinə.
Havada oynayan əllər ox kimi
Sancılır sevgimin heykəl bağrına.
Cənazəm yeriyir məclis üstünə,
Süzür çal-çağırda "Vağzalı" üstə.
Məhəbbət heykəli ortada qalıb,
İçimdə bir ümid xəyala dalıb:
"Uzatsam əlimi-ayaqlarımı,
Canımı tapşırsam – təsirlənərmi?
Buraxıb gəlinin ətəklərini,
Yüyürüb üstümə - "getmə!" - deyərmi?"
Sənin toy günündə yasım düşübdür,
Təbriklər – verilən başsağlığımdır.
Bu gün sənə yaman işim düşübdür,
Qəlbimi yola sal son mənzilinə!..

Saat ona qalırdı. Hələ də foyedə oturan Nigarın bütün vücudu dartınır, onu burdan uzaqlaşmağa çağırırdı. Gördüklərindən və qarabasmalardan bərk sarsılmışdı. Onsuz da son günlər iki dünya arasında çarmıxa çəkilmiş vəziyyətdəydi. Gah reallığa qovu-

şur, gah qorxunc xəyalların ağuşuna düşürdü. Əhvalatdan xəbər tutan Bahar ona dönə-dönə tapşırmışdı ki, toya getmə, cəhənnəmə ki firmadakılar nə düşünəcəklər, sən öz şəxsiyyətini qoru, əsəblərinin qeydinə qal! Nigar sözə baxmamışdı. Qərarsızlıq onu çıxılmaz duruma salmışdı. "Beş-on dəqiqə məclisdə görünüb qayıdaram" – niyyətilə özünə güvənib Fatehin toyuna qədəm basmağına çox peşmanıydı indi. Mənəviyyatının bu dərəcədə xırpalanacağını bilsəydi, gəlməzdi.

* * *

Başını qatmaq üçün sübh tezdən internetə girən Nigar Fatehin məktubunu gördü. Dərhal göndərildiyi vaxtı yoxladı. Gecə saatlarında yollanmışdı. "Yəqin zifaf gecəsindən əvvəl göndərib. Bəlkə də sonra…" fikri qəlbini əzdi.

"Əziz dostum Nigar!" – kəlmələrilə başlayan məktub ilk cümləsindən qızın əsəblərini yerindən oynatdı. – "Bilirsən ki, dünya güclülərin, bəxti gətirənlərin dünyasıdır. Nəyin bahasına olur-olsun, istəyinə nail olanların dövranıdır. Mən də çalışıb istəklərimə nail oldum. Bundan sonra həyatımdakı bütün insanlarla münasibətdə qaydaları mən qoyacam. Səndən öyrəndiyim vacib şeylərdən biri budur. Səni bu qədər zəif bilməzdim. Toyuma gəlmədin."

– Nəə? – deyə Nigar öz-özünə səsləndi, – bu mənim mesajımı oxumayıb?

Ani pərtlik yaşadı, dərhal fikri dəyişdi:

– Yaxşı ki oxumayıb. Kaş heç almayaydı. Deyəsən, hissə qapılıb çox zarımışam orda.

Nigar indi başa düşdü ki, yazdıqları Fatehin içini göynətməyəcək. Əksinə onu qürrələndirəcək. "Mənim o toyda nə işim vardı ki, o hala da düşəydim", - deyə özünü qınadı. Telefonunu açıb göndərdiyi mesaja bir də baxdı. Lap pərt oldu. "Belə məktubu sevərək ayrılmağa məcbur qalan adama yazarlar, Fateh kimi xainə yox."

Gözlərini yumub başını kresloya söykədi. Bu məktubu yazan Fatehin o mesajı oxuyacağı haldakı üz cizgilərini, mimikasını təsəvvür etməyə çalışdı. Heç nə alınmadı. Sanki hafizəsindən Fateh deyilən adamın surəti birdəfəlik silinmişdi.

Nigar həyəcanla məktubun ardını oxudu:

"Arada ömrümüzün ağlı-qaralı illəri vardı. Gərək gələydin. Evlənməyə məcburdum. Yoxsa ikinizin arasında dığırlana-dığırlana ömrümü bada verəcəkdim. Sən daha məni sevmirdin. Üçbucaqdakı gedişlər mənim xeyrimə cərəyan etmirdi. Çox gözlədim ki, ikinizdən biriniz geri durasız. Mənasız rəqabətdən əl çəkəsiz. Olmadı. Bilirsən nə vaxt gözümdən düşdüz? İki bacı ikiniz də hər şeyi bilə-bilə məni qəbul edəndə. Yatsam yuxuma gəlməzdi ki, qadınlıq rəqabəti insanı bu həddə çatdıra bilər. Sizdə heçmi qürur yoxdu? O vaxtadək hərdən vicdan əzabı çəkirdim, özümü qınayırdım. Sağ olun, məni o əziyyətdən qurtardız.

Sənə qarşı əclaflıq elədiyimi bilirəm. Amma məni suçlayanda dönüb özünüzə də bax. İkinizi birdən al-

mayacaqdım ki?.. Nə fikirləşirdiz, ömrümü sizə həsr edəcəkdim? Mən oyundan çıxdım. Məhəbbət üçbucağı dağıldı. Hipotenuzasız üçbucaq olmaz ki! Amma siz katetləri birləşdirən başqa bir cəhət də var – bacısınız. Bilmək olmaz, bəlkə mənim yoxluğumda aranız düzəldi. Ağıllı olun.

Nigar! Mən sənə dəymədim, toxunmadım. Təmizliyinə hörmət qoydum. Səni şahzadələr kimi uca tutdum, kölələr kimi sevdim. Sən də mənim həyatıma mayak oldun. Əlimdən tutub bataqlıqdan çıxartdın. Mənə çətinlikləri dəf etməyi öyrətdin. Ayrılıq məqamında bunları unuda bilmərəm. İstəsən bundan sonra da həyatımda ola bilərsən – dost kimi, yoldaş kimi… Əlimdən gələni əsirgəmərəm. Qərar sənindir. Onsuz da şərikli firmamız var.

Əllərindən öpürəm. Adı sənin, qəlbi sənin, cismi özgənin olan Fateh."

Məktub Nigarı təbdən çıxardı. Qəfildən susadığını hiss etdi. Dili-damağı qurumuşdu. Bütün bədəni su təşnəsində yanırdı. Tez duşa girdi. Başından bədəninə axan su üşütməyə başlayanda anladı ki, ancaq soyuq suyu açıb. Bir qədər titrətdi. İsti suyun temperaturunu tənzimləyib cakuzidə uzandı. Beyni qaynayır, bədəni yanırdı. Ürəyində qalanan ocağın alovu ərşə dirənmişdi. Gözünü tavana zilləyib suyun şırıltısına qulaq verdi. Vanna dolunca şırıltı səsi boğuldu. Nigar duş kabinəsindəki radionu işə saldı. Həzin mu-

siqi təranələri xoş gəldi. Adəti üzrə suya köpük qatıb vannadakı yerini bir az da rahatladı.

Stressdən ölmək dərəcəsinə çatan Nigar həmin gün saatlarca vannada qaldı. Hamamdan çıxanda xeyli yüngülləşmişdi. Sanki su dərdlərini və bulaşdığı çirkabı yuyub aparmışdı. Özünü çarpayıya atdı. Elə yorğunuydu ki. Beyni tablamırdı. Dərin yuxuya getdı.

* * *

Hidayət kişi nadir hallarda topladığı ailə məclisini yığmışdı. Oğullar, qızlar böyük otaqdakı dəyirmi masanın başındaydılar. Eldarın yerində arvadı Dilrüba əyləşmişdi. Hamını maraq bürümüşdü: görəsən atamız nə deyəcək? İlqar yığışmalarının səbəbini öyrənməkçün qaş-gözlə Nigara him-cim edirdi. Mətləbdən bixəbər olduğu üçün Nigar da narahat idi. Baharla Gülnar astadan pıçıldaşırdılar. Qoşqarla Elyar tikan üstündə oturmuş kimi durmağa tələsirdilər. Sevda sarısını udmuşdu. Nədənsə bu yığıncaqdan heç gözü su içmirdi. Ataları yaşlansa da hökmünü, ixtiyarını əlində saxlamışdı, ondan bərk çəkinirdilər. Hidayət kişi övladlarını çox istəyirdi. Uşaqlıqdan onları sərbəstliyə alışdırmışdı. Həmişə deyərdi ki, əldə-ovucda böyüyən uşaq həyatda qapazaltı olar, çətinliyə düşəndə çıxammaz. Amma… vay o gündən ki, kimdənsə narazı qalaydı...

İlk dəfə ailə məclisi yeddi il öncə, Yaşarla Eldarın ölümündən sonra toplanmışdı. Hidayət kişi – bu

yaşımda məni aparsalar, gözümü qırpmadan gedərəm Qarabağda döyüşməyə – demişdi övladlarına. – Başınızı dik tutun. Vətən sağ olsun! Oğlum Vətən yolunda şəhid oldu. Yeznəm də əcəldən macal tapıb döyüş bölgəsinə yetişəmmədi, ancaq od tutub yanan Qarabağ kəndlərində bir ailənin həyatını xilas elədi, qəhrəman kimi dünyasını dəyişdi. Övladlarımın ikisi də ölümüynən bizə baş ucalığı gətirib, ikisi də cənnətməkandı.

Ailənin böyüyü hamıya ürək-dirək verəndən sonra tapşırmışdı ki, əzizlərimizin balalarından muğayat olun. Kimin neçə uşağı varsa, beşini də üstünə gəlsin, bundan sonra aldığını-qoyduğunu bu hesabla saysın.

Sonra da üzünü evin ilkinə tutmuşdu:

– Nigar, qızım, hamıdan çox sənə güvənirəm. Eldarın sağlığında da sənin yerin birinciydi, indi şəriksiz birincisən. Şükür, Vətənə qurban verəsi üç oğlum da var. Dünyanın işini bilmək olmaz. Hələ dava gedir. Bəlkə sabah onlar da cəbhəyə yollandılar… Məndən sonra… ailənin böyüklüyü səndədir, Nigar qızım, bugündən etibarən uşaqlarım-nəvələrim sənə əmanətdir! - deyib qızının zərif çiyinlərinə ağır məsuliyyət qoymuşdu. Atasının etimadından qürrələnsə də, zaman-zaman Nigar o yükün altında əzilirdi. Ağsaqqalı yanıltmamaqçün var qüvvəsini sərf edirdi. O səbəbdən ailədə Nigarın yeri, hörməti başqaydı.

Hər kəs intizar içindəykən qapı açıldı. Öncə Sarabəyim girdi içəri. Tez irəli yeriyib analarıyla

görüşən övladları – xatun, noolub bulud kimi dolmusan? – sualına cavab alammadılar. Nigargil analarına "xatun" deyə müraciət edərdilər, atalarının dilindən almışdılar bu sözü. Sarabəyim xatun ağ birçəklərini kəlağayısının altına yığa-yığa keçib oturdu yerində. Nəhayət, Hidayət kişi gəldi. Sir-sifətindən rəsmiyyət yağırdı. Rəngi boğulmuşdu. Görkəmi lap raykomun büro iclaslarına getdiyi dövrləri xatırladırdı. O, quruca salamlaşmadan sonra birbaşa mətləbə keçdi:

– Burda özümüzük. Kənar adam yoxdu. Nigar, a bala, de görüm bu nə məsələdir, eşitdik Fateh evlənib?

Sanki Nigarı güllə ilə vurdular. Atasının zəhmi onu basdı. Utandığından yer ayrılsa, yerə girərdi Nigar. Hidayət kişi bərk qəzəbliydi.

– A qızım, sən o gədəni neçə il yanında gəzdirdin. Evimizə aparıb-gətirdin. Xeyrimizə-şərimizə qoşdun. Biz də səni ağlı başında bir qız bildiyimizdən dinmədik. Dedik noolar, zəmanə cavanlarıdır. Neçə kərə anana tapşırdım ki, qızını başa sal, bu işi çox uzatmasın. Dedi: "Darıxma, hər şey yaxşı olacaq." Buydu sənin yaxşıın??

Hidayət kişinin səsi gurlayırdı. Hər kəlməsi şilləyirdi Nigarı. Sevda bayılmaq üzrəydi. İlqar ha istədi atasını sakitləşdirsin, deməyə söz tapmadı. Qoşqar vurnuxa-vurnuxa qalmışdı. Yenə araya su səpən Bahar oldu.

– Ata, yəqin sənin xəbərin olmayıb. Nigarla o gədə çoxdan ayrılıblar. Şərikli işləri vardı deyə ayda-ildə bir görüşürdülər. Bacım onu çoxdan rədd

etmişdi. Atam canı! Vallah o gədə bizim tayımız deyildi. Mən lap o başdan Nigara demişdim ki, Fateh nə sənə layiqdir, nə də ailəmizə, uzaq dur ondan.

Baharın açıqlaması şok üstünə şok yaşatdı. Hamı anladı ki, ortada qəliz məsələ var. Elyar əsəblərini cilovlayammadı. Coşmağa başlayırdı ki, İlqar ona təpindi:

– Biz duran yerdə sən ortaya düşmə. Bir şey lazım olsa, hələ ölməmişik, burdayıq. Kiçiksən, kiçik yerində otur.

Hirsindən zəncir çeynəyən Elyarın gözü atasına sataşan kimi özünü yığışdırdı, düyünlənmiş yumruğunu havada sağa-sola yelləyib çətinliklə aşağı saldı. O, uşaqlıqdan dəliqanlıydı. Böyük qardaşı şəhid olanda institutu yenicə bitirmişdi. "Eldarın qisasını alacam", - deyə diplomunu gözləmədən Qarabağa getmişdi. Doğmaları onun harda döyüşdüyünü öyrənənədək çox əziyyət çəkmişdilər. Baş vurmadıqları hərbi komissarlıq qalmamışdı. İndi Hidayət kişi vəziyyətin gərginləşdiyini görüb sözünü qısa kəsdi:

– Öz taleyinə sahib çıxammayan adamdan özgəyə fayda olmaz. Fatehdən çoxdan ayrılmışdınsa, gərək bizi xəbərdar edəydin və gələcəyini düşünəydin. Aç qulaqlarını yaxşı eşit, bu saatdan sonra şəriklik-filan olmaz. Xitam verəcəksən o işə!

Hidayət kişi səsinin tonunu alçaldıb davam etdi:

– Bugünkü aqibətində mənim də günahım az deyil. O vaxt səni çox yüklədim. Başın doğmalarına

qarışdı, özünü unutdun. Bu gündən səni ailə böyüklüyündən azad edirəm. Neçə ki sağam, özüm hamınızın başındayam. Mən haqq dünyasına köçəndən sonra böyüyə ehtiyacı olan İlqara üz tutar! Sən get bir halal süd əmmişini tap, ailəni qur. Bir də səhv eləmə! Başımızı yerdən qaldır.

Ata sözünü bitirən kimi masadan qalxdı. Hökm qısa və konkretdi. Ana qarışıq hamı yerində donub qalmışdı. Kimsə durmağa cürət etmirdi. Gərginliyi Dilrüba pozdu:

– Durum çay dəmləyim.

Gəlin çıxandan sonra Sarabəyim incik nəzərlə qızını tərs-tərs süzdü:

– Ağbirçək vaxtımda məni kişiyə danlatdın. Afərin sənə.

Pərtlikdən büzüşmüş Nigarı anasının tənəsi lap balacalatdı. O, dinməzcə Sarabəyimi öpüb ata ocağını tərk etdi. Qəlbi küskün də olsa, ana nigaran nəzərlərlə ilkini qapıyacan uğurladı. Böyük bacılarının başına gələnlər hamını dilxor eləmişdi. Qapıdan çıxan bu qızın əvvəlki Nigara bənzəri yoxuydu. Dağ kimi arxalandıqları vüqarlı, şux, cəsarətli, möhkəm qız yumağa dönmüşdü. Əslində Nigarın bu hala düşməsi bir anın işi deyildi. Fateh onu kiçik bacısıyla aldatdığı gündən qız içdən əriyir, qəlpə-qəlpə sökülüb-tökülürdü. Nigar daxilən çoxdan sınmışdı, proses görüntüdə indi reallaşdı.

Çay süfrəsi ortada qalmışdı. Kimsə stəkana əl uzatmırdı. Həmişə evə gələni hökmən yedizdirib-

içizdirən Dilrüba da bu gün təkid etmirdi. Fəlakət gəmisində oturmuş kimiydilər. Ən birinci Bahar qalxdı.

– Gedim, uşaqların yeməyi yoxdu.

Əslində Bahar Nigara yetişməyə tələsirdi. Gülnar da ona qoşuldu. Dar gündə bacılarını tək qoymaq istəmədilər. Sarabəyim mat qalmışdı Sevdanın qalxıb Nigarla bərabər getmədiyinə. Sonbeşiyin təlaşını görüb bu susqunluğunu həyəcana yozdu. Qızlar çıxandan sonra qardaşların da hərəsi bir bəhanəylə durub getdi. Sevda elə taqətsiz idi ki, ayaq üstə güclə dayanırdı. Onu Qoşqar ötürdü evinə. Yol boyu kəlmə kəsmədilər. Hərə öz aləminə dalmışdı.

Həmin gün Sevdanın gözündə yeni pəncərə açıldı və ordan baxanda Nigar-Fateh-Sevda məsələsi əvvəlki tək görünmədi daha. İlk dəfə olaraq o necə böyük qəbahət işlədiyini dərk elədi: "Bacıma çox böyük pislik etmişəm. Nəfsim ucbatından əməlli-başlı taleyilə oynamışam qızın. Atamın gözündən düşməyinə də baiskar mənəm. Bu günahım bağışlanası günah deyil."

İki il ərzində həyatına və qəlbinə sevinc gətirmiş əla-qə indi çox eybəcər təsir bağışlayırdı. Fateh sevdası cazibədarlığını itirmişdi. Sevda özündən iyrənməyə başlamışdı. Zamanı geri almağa gücü yetmirdi, dəm vururdu göz yaşlarına. O gündən sonra Sevda hər gecə ağlayırdı. Dəfələrlə gözünü açanda qorxmuş uşaqlarını başının üstündə görmüşdü. Ceyhunla Seyhun analarını oyatmağa çalışırdılar, elə bilirdilər ki, yuxuda kimsə onu incidir.

Sevda özünü bağışlaya bilmirdi. Xəcalətindən Nigara yaxın düşəmmirdi. Ovunmaq üçün Yaşarın səsini, nəfəsini axtarırdı. Toy kasetlərini qoyub baxırdı. Ərinin paltarlarından onun qoxusunu almağa çalışırdı. Yuxuda Yaşar onu sığallayırdı. Əllərin hərarətinə isinib ayılanda yanını boş görürdü. Hönkürtüsü ürək dağlayırdı.

* * *

Atasının tənəsi Nigarı silkələyib ayıltmışdı. Baharla Gülnarın qınağı, tənbehi də bir tərəfdən təkan vermişdi oyanışa. İlqara elə ehtiyacı vardı ki! Amma hələ ki qardaşlarıyla üzləşməyə cəsarət etmirdi. Nigar öz içində götür-qoy aləmindəykən qəfildən İlqar gəldi. Bacısının solmuş bənizini, çuxura düşmüş gözlərini görcək qəlbi sızladı. O, hüquq firmasıyla bağlı sənədləri hazırlatdırıb gətirmişdi. Nigara imzalamaq qalmışdı.

– Atamın etimadını axıracan doğrulda bilmədim, qardaş. İndiyədək çəkdiyim əziyyətlər hədər getdi. Yaşadığım ömür puç oldu… O heç vaxt məni bağışlamaz, - deyib kövrəldi Nigar.

– Bilirəm, bu işdə sənin qəbahətin yoxdur. Özünü topla ki, hər şeyi yenidən başlaya biləsən. Mənim bacım belə asanlıqla həyata yenilən qız deyil. Qorxma, hamımız arxandayıq. Sən bizim ailənin tacısan. Kişinin hirslənməyinə baxma, çox istədiyindəndir. Axı, sən onun sevimli qızısan. Taleyin üçün narahatlıq keçirir.

İlqar bir qədər susub yenidən dilləndi:

– Yadındadır, uşaqlıqda həmişə bizə deyərdin ki, insan özü-özünə kömək etməlidir, əgər özü istəməsə

heç kəs onu dardan çıxara bilməz?! İndi sən özünü doğrult, tanıdığımız Nigar olduğunu bir daha sübut elə. O zaman görəcəksən ki, heç nə hədər getməyib.

Bacı-qardaş xeyli söhbət elədilər. Gedəndə İlqar cibindən bir konvert də çıxartdı:

– Az qala yadımdan çıxacaqdı. Avropa səyahətinə putyovka və bilet necədir səninçün? Dedim oralarda dostun-tanışın çoxdur. Get bir az dincəl. Gəz, dolaş eynin açılsın. Qayıdanbaşın tarixini açıq saxlatmışam biletdə. Ürəyin istəyəndə dönə bilərsən. Notariatdakı işlərini də özüm yoluna qoyacam, arxayın ol. Səndən bircə istəyim var: ruhi müvazinətini bərpa elə. Qalan hər şey yaxşı olacaq.

Nigar elə təsirlənmişdi ki, nə deyəcəyini bilmədi.

* * *

Səyahətə yollanan Nigar Bakıdakı qayğılardan uzaqlaşmışdı. Hollandiyada tələbəlik dostu Zərifəgilə düşdü. Onun gəlişi bayrama çevrilmişdi, ailə sanki vətənə qovuşmuşdu. Elə Amsterdama gəldiyi günün axşamı Zərifə onu şəhərə apardı. Nigarı təəccübləndirən ilk şey velosipedlərin çoxluğu oldu.

– Burda şəhər əhalisinin əsas nəqliyyatı velosipeddir.

– Desənə, o üzdən sizdə hava təmizdir. Ekologiyanızı qoruyursuz. Kaş, bizdə də dəb düşəydi.

– Düşər, darıxma. Hər şeyin öz vaxtı var. Sən özündən danış. Evdəkilərin yanında özüm soruşmadım, şəxsi həyatında nə var-nə yox? Bilirəm, yoldan gəlib yorulubsan. Amma… gözümə qəmgin dəydin, - deyib Nigarın boynunu qucaqlayan Zərifə yoldan keçənlərə məhəl qoymadan onu doyunca öpdü.

– Di başla.

İkilikdə ürəyindəkiləri çəkinmədən boşaldan Nigar yavaş-yavaş rahatlayırdı. Sanki illər ayrısı deyildilər, dünən aralanmışdılar. Rəfiqəsinin başına gələnlərdən xəbər tutan Zərifə ağlamaqdan güclə saxlayırdı özünü. Gözləri yaşarmışdı. "Mənim Nigarım nə çətin günlər yaşayıb!.. Sabahdan öz hesabıma məzuniyyət götürüb oturacam yanında. Dərdinə şərik olacam. O bura gəzməyə yox, mənəvi dayaq tapmağa gəlib."

* * *

O arada İstanbuldan Zərifənin qaynı gəldi. Tamer holdinq sahibiydi. Şirkətin əlaqələrini genişləndirirdi. Amsterdama yeni filialın açılışına gəlmişdi. Buradakı işləri yoluna qoyandan sonra bir müddət Londonda yaşayacaqdı. Orda da ofis açmaq fikri varıydı. Təzə qonağı görən Nigar yarızarafat-yarıgerçək dedi:

– Qonaq qonağı istəməz, ev yiyəsi heç birini. Mən otelə daşınım, Zərifə.

– O sözü bir də ağzına alma. Neçə ilin başında beş-on günlüyə gəlmisən, onu da mənə çox görürsən? Kaan da inciyər, uşaqlar da.

Azacıq mübahisədən sonra Nigar təslim oldu. Sonrakı günlər elə maraqlı keçdi ki, otelə daşınmadığına sevindi. Tamer çox mədəni, ziyalı insandı. Amsterdamı beş barmağı kimi tanıyırdı. Gəzintiyə hər çıxdıqlarında qədim tikililər, şəhəri hörümçək toru kimi bürümüş kanallar, Van Qoqun və Madam Tyussonun məşhur muzeyləri barədə elə maraqlı məlumatlar verirdi ki, sanki bütün ömrünü burada yaşamışdı. Tamer deyəndə ki, şəhərdəki

kanalların üstündən altı yüzdən çox körpü keçir, Nigar özünü saxlaya bilmədi:

– Tamer bəy, deyəsən Amsterdamı məxsusi tədqiq etmisiz.

Söz yiyəsinə yaman ləzzət elədi. Dodaqlarında qürurlu təbəssüm, çöhrəsində özündənrazılıq ifadəsiylə dedi:

– Mən turizmdən çörək qazanıram. Tək Hollandiyanın yox, ofis açdığım bütün ölkələrin cikinə-bikinə bələd olmaq işimin tələbidir. Yoxsa bu sektorda kor qəpik də qazana bilməzsən, Nigar xanım. İnsanları səyahətə aparacağın yerə öncə özün bələd olmalısan…

Gülümsünüb əlavə etdi:

– Mənim Amsterdamdakı ilk turistlərim sizsiniz. Bu şənbə sizi Blauburq körpüsünə aparacam, ordan şəhərin ən mənzərəli yerlərini seyr edəcəksiniz.

Kaan işdə olduğundan gəzintiyə qoşula bilməmişdi. Tamer qardaşının ailəsiylə Nigarı şəhərə çıxarmışdı. Damrak küçəsindən keçib Mərkəzi vağzala gəldilər. Qırmızı kərpicdən hörülmüş binanın özünəməxsus arxitekturası varıydı. Nigarın maraqla baxdığını sezən Tamer ona yaxınlaşıb astadan tikilinin tarixindən söz açdı. O, tarixi səhifələdikcə Nigarın gözü önündə binaya girib-çıxanların görkəmləri və libasları dəyişir, yüzilliklər bir-birini əvəz edirdi. Zərifə subayların şirin söhbət etdiklərini görüb oğullarını kənara çəkmişdi.

Bir azdan dəstəylə Amsterdam meşəsinə yollandılar. Şəhər əhalisinin sevimli istirahət yeri dolub-

daşırdı. Axşamdan xeyli keçənədək əyləndilər. Zərifə məəttəl qalmışdı: hər dəfə yemək masaya gələndə bəlli olurdu ki, Tamerlə Nigar eyni menyünü sifariş ediblər. Əyləncə seçimləri də üst-üstə düşürdü. Axırı dözə bilmədi:

– Bu nədir, siz sözləşirsiz? Yoxsa təsadüfən belə alınır?

O məqamacan bunun fərqinə varmayan Nigargil təəccübləndilər. Tamer gülümsündü:

– Əlbəttə, təsadüfən belə alınıb. Amma yengə, bilirsən ki, təsadüfdən zərurət doğar. Təsadüfən eyni seçimi ediriksə, bu o deməkdir ki…

– Zövqləriniz eynidir, - deyə hazırcavab Yusif əmisinin sözünü tamamladı. Hamı gülüşdü.

Xanımlara çox həssaslıqla yanaşan Tamerin qadınlarla münasibətdə incə zövq sahibi olduğu Nigarın diqqətindən yayınmadı. Evə dönüşdə özünü yeni dünya kəşf etmiş sayaq hiss edirdi. Könlü açılmışdı.

* * *

Başı daşdan-daşa dəyən Sevdanın könlü qubar etdikcə Yaşarın portretiylə söhbətə başlayırdı, uzun-uzadı "dərdləşirdilər": "Yanında üzüqarayam, bilirəm. Amma qarşındakı günahlarıma bir də başqa səmtdən baxmağa çalış. Heç məni yox, müharibənin əjdaha kimi udduğu ər igidlərin yurdunda qalan cavan-cavan gəlinləri, lap elə bizim Dilrübanı düşün. Onların günahı nəydi ki, dul qaldılar? Məgər insan bu dünyaya xoşbəxt olmaq üçün gəlmir? Niyə kimlərinsə torpaq iddiası bizim həyatımızı pozmalıdır, bizə dərd, ələm yaşatmalıdır? Sənin yoxlu-

ğundakı bu yeddi ildə mən çox böyüdüm, Yaşar, çox şeyi başa düşdüm. Bizə verilmiş həyatın kəpənək ömrü qədər qısa olduğunu anladım. Allah müharibə salanlara lənət eləsin! Yaşar, Qarabağ müharibəsi olmasa nə sən qrad düşmüş evdə yanardın, nə mən dul qalardım, nə də Nigarın əli nişanlısından üzülərdi. Bacımdakı fədakarlığa bax ki, o boyda itkilərinin qabağında mənim qəbahətimi açıb-ağartmadı. Bircə kəlməsi yetərdi rüsvay olmağıma. Hamı üz döndərərdi məndən. Amma dinmədi. Dinsə heç kəs deməyəcəkdi ki, Sevda müharibənin güdazına getdi. Hamı məni suçlayacaqdı! Əslində isə tək mənim yox, Nigarın da bəxti-taleyi müharibənin ucbatından bağlandı."

Qapı zəngi Sevdanı fikirdən ayırdı. Gələn bacılarıydı. Baharla Gülnar Sevdanı doluxsunmuş görüb narahat oldular. İkisi birdən dilləndi:

– Noolub?

– Bu nə haldır?

– Heç. Yaşarla söhbət edirdim.

Qızların ürəyinə od düşdü. "Bunu tək buraxmaq olmaz. Hələ özünə gəlməyib. Yenə başına bir oyun açar, qalarıq yana-yana." Bilmədilər Sevdaya necə təsəlli versinlər, başladılar danlamağa:

– Yeddi il keçir, sən hələ Yaşarın ölümünü qəbul edə bilmirsən? Hamımızın axırı oradır da, kim dünyanı tutub duracaq? Sənin haqqın yoxdur özünü üzməyə, oğulların var, onları düşün.

Sevda Gülnarın sinəsinə sığınıb hönkür-hönkür ağladı. Ürəyi yaman doluydu. Onun bu halı bacıları çox əndişələndirdi.

– Başına dönüm, özünü ələ al. Sakitləş. Danış görək noolub. Biz Nigarın dərdini çəkəmmirik, sən də bir yandan başlama.

Nigarın adını eşidən Sevda lap kövrəldi. Hıçqırıqlara boğula-boğula dedi:

– Ba... ba... bacımın taleyi üçün gecə-gündüz Allaha yalvarıram. Tanrı qismətini aaaçsın, ona xoşbəxtlik... nəsib eləsin. Yoxsa mən bu dərdi çəkəmmərəm. Nig... Nigar... Nigarın xoşbəxtliyi üçün canımı verməyə hazıram, bircə Allah-Təala məni bu əzabdan qurtarsın.

Söz bacıları tutdu. Sualedici nəzərlə bir-birinin üzünə baxdılar. İkisi də çiyinlərini çəkdi. Qayıdanbaş Baharı da, Gülnarı da qayğı götürmüşdü: "Sevdanın nə əlaqəsi ola bilər ki, nişanın pozulmağında?.."

* * *

Tamerin həyatından cürbəcür qadınlar keçmişdi. İllərlə uzanan eşq macəraları, qısaömürlü görüşlər, əyləncələr... Amma o qadınlardan heç biri beynini işğal etməmişdi. Huşu-fikri öz biznesindəydi. Nigarda nə görmüşdüsə, qız fikrindən çıxmırdı. Hər an Nigarı düşünürdü. Hiss edirdi ki, onun yanında olanda əhvalı yüksəlir. Ona görə də, qızla daha çox söhbət etməyə can atırdı. Tamerin Nigara meyli Kaangilin gözündən qaçmadı.

– Qardaş, deyəsən qonağımızdan xoşlanırsan. Amma xətrinə dəysən, Zərifəni qarşında bularsan. Nigar onunçün çox əzizdir. Onu başqa qadınlara bənzətmə.

– Nə danışırsan, abi. Xətrinə dəymək nə demək? Mən bu qızda axtardığımı tapmışam. Axıracan mən deyən olsa, bekarlığımla vidalaşacam.

– Eləmii? - deyə bağıran Kaanın sevincdən gözləri yaşardı.

Səsə Zərifə özünü yetirdi. Təzə xəbəri alınca qaynını qucaqlayıb üzündən öpdü:

– Yanılmazsan, Tamer, Nigar əla qızdır! İkiniz də subaylığın daşını atarsız.

– Subay-filan nə deməak, yengə, mən əsgərə getməyə hazırlaşmıram, evlənirəm.

– Zarafatı burax, Tamer. Guya bilmirsən ki, sizdə "bekar" deyilən adama bizdə "subay" deyilir? Axır ki, inadın qırıldı həə. Səni də çoluq-çocuqlu görmək varmış qismətimizdə.

Zərifə sevincindən uçurdu: "Bircə Nigarı razılaşdıra bilsəm..." Bilmədi təzə xəbəri rəfiqəsinə necə yetirsin, birbaşa mətləbə keçdi.

– Nigar, yadında tələbə vaxtı özümüzə nə arzulardıq? – deyib düz rəfiqəsinin gözünün içinə baxdı. – İki qardaşa nişanlanmağı. Nə yaxşı buraya subay gəlibsən...

– Yaxşı görək.

– Ciddi deyirəm. Tamer səni yaman bəyənib. Sənin də ürəyinə yatırsa, iş tamamdır.

Zərifənin qırımından məsələnin ciddiyyətini anlayan Nigar günlərlə düşünüb-daşındı. Tərəzinin bir gözündə doğmaları vardı, o biri gözündə məchul gələcəyi... Ürəyində Tameri keçmiş nişanlısıyla da müqayisə elədi: "Fateh Tamerin yanında sıfırdır! Halbuki ömrümün neçə ilini hefslənmədən onun yolunda puç elədim. Bəlkə qismətim beləymiş? Bu iş nədən olmasın ki? Ola bilər..." Nəhayət, Tameri yaxından tanımağa qərar verdi.

* * *



İşdən çıxan Fateh yolunu sahildən salmışdı. Evə getmək istəmirdi. Fikirləşib çıxış yolu tapmalıydı. Dünən yenə Səbinənin qaş-qabağı yer süpürürdü. Hikkəsindən mətbəxdəki qabları bir-birinə çırpırdı. Fateh nə qədər çalışsa da, arvadının qılığına girib bir şey öyrənə bilməmişdi. Son günlər qız durduq yerdə yüz səksən dərəcə dəyişmişdi. "Sevdiyim kübar xanımı dünənki uşaqla dəyişməyim mənə bəla gətirdi. Yəqin İlahinin ədalətidir, bacıların həyatını cəhənnəmə döndərməyimin cəzasını verir. Nigara qarşı çox haqsızlıq etdim, çooox. Qızı dəlicəsinə sevirdim. Nooldu mənə birdən-birə, o nə qələt idi elədim, özüm də bilmədim."

Fateh dənizlə söhbətini bitirib evə yetişəndə saat ona qalırdı. Qapını açan Səbinə ərinə möhkəm təpindi:

– Hardasan? Evinə vaxtında gələ bilmirsən? Burda mehmanxana açıb məni də administrator qoymusan?

Arvadından bu dərəcədə kobudluğu gözləməyən Fateh kor-peşman içəri keçdi, otaqda büzüşüb oturmuş əmisigili görəndə lap pərt oldu. Tez özünü ələ alıb onlarla mehriban görüşməyə çalışdı. Ancaq dilxorçuluğu üzündən yağırdı.

– Mahmud əmi, Zərəngiz xala, niyə belə oturmusuz, bir çaydan-zaddan… Çoxdan gəlmisiz?

– Narahat olma, oğul, maşallah gəlinimiz bizi elə qarşıladı ki, çörəyimizi yedik.

Əmisinin eyhamını anlayan Fateh söhbəti yayındırmaq istədi:

– Ramiz, nə yaman böyüyübsən, lap yekə kişi olubsan. Deyirlər gecə-gündüz oxuyursan, kitabdan başını qaldırıb toyuma da gəlmədin. Görəcəyik daa hünərini.

Mahmud kişi oğluna macal vermədən dilləndi:

– Uşağı qəbula gətirmişdik, dedik burda qalar imtahan qurtarınca… amma eybi yoxdur, gedərgələr. Rayonla Bakının arası iki saatlıq yoldur. Səni gözləyirdik. Gecə avtobusuyla yola düşəcəyik.

Elə bil Fatehin başına bir qazan qaynar su tökdülər. Bilmədi, əmisigil Səbinənin indicə dediklərini eşidib inciyiblər, yoxsa əvvəldən pis qarşılanıblar. Ab-havanı yumşaltmaqçün zarafata keçmək istədi. Amma heç zarafatlıq halı yoxuydu. Qonaqların da qanı qaraydı. Ürəyindən keçdi desin ki, getməyin, qalın. Ortalarda görünməyən Səbinənin bayaqkı ədasını yadına salıb susdu. "Getməkləri yaxşıdır. Özüm təklikdə soruşaram görüm mən gələnədək nələr baş verib, bu qıza noolub belə itə dönüb. Dünən bir, bu gün iki. İndidən ailədaxili söz-söhbətlərə qohum-əqrəbanı qoşsam, kənddə düdük çalarlar." Fateh sustalıb oturdu. Bir az kənddən-kəsəkdən söhbət etdilər. O arada əmisigilə bir çay dəmlədi. Nə qədər etsə də, yemək hazırlamağına razı olmadılar. Kirayələrdə yaşadığı illərdən vərdişliydi Fateh

biş-düşə, süfrə açmağa. Gecə yarısına az qalmış qonaqlar durub getdilər. Fateh onları taksiylə avtovağzala yola salıb qayıtdı. Səbinə yatmışdı.

* * *

İlqar yenə zəng vurmuşdu.

– Qalmaq istəsən, problem yoxdur. Kartına beş yüz dollar yüklədim. Arxayın xərclə. Lazım olsa yenə göndərərik.

Nigar elə razıydı ki, qardaşından. "Atam düz elədi, ailədə böyüklüyü İlqara tapşırdı, etibarlı oğlandır, – deyə ürəyində Hidayət kişiyə haqq qazandırırdı. – Mən də çalışıb əzizlərimə yaşatdığım utancı aradan qaldıracam. Bircə, Sevda məsələsindən xəbər tutmasınlar, o yükü kimsə daşıyammaz. Mən özümü doğruldacam. Yenidən atamın güvəndiyi Nigar olacam."

Evdəkilər yaman nigaranıydılar Nigardan, aldığı zərbələrdən ayağa durmasını səbirsizliklə gözləyirdilər. Qardaş-bacıları bu yolda canıyananlıqlarını əldən qoymurdular. Sarabəyimin əli göylərə açılı qalmışdı, gecə-gündüz dua edirdi. Hidayət kişi də xəlvətə salıb qızını İlqardan soraqlayırdı. Bahar arada Zərifəylə danışıb Nigarın halını-əhvalını öyrənirdi. Tamer məsələsini biləndə İlqara üstüörtülü işarə vurmuşdu ki, vizanın vaxtını uzatsan yaxşı olar.

* * *

Səhər açılmışdı. Fateh arvadının yanağından öpüb sağollaşdı:

– Əzizim, mən işə gedirəm.

Yuxulu-yuxulu yerində qurcalanan Səbinə dodaqaltı mızıldanmağa başladı:

– Qohum-əqrəbanın ayağını kəs burdan. Mən nökərçiliyə gəlməmişəm.

Yataqda xumarlanan gəlinin səsi tədricən yüksəlir, sərtləşirdi.

– Ərizəmi yazmışam, gələn həftədən işə çıxacam. Ha dedim, on beş gün bəsdir, sən öz bildiyini elədin. Dörd divar arasında bağrım çatlayır. Camaat toydan sonra səyahətə gedir, mən də oturmuşam kəndçilərin müftə mehmanxanasında, gələn-gedənə qulluq edirəm.

Fatehi hirs boğdu. Ancaq nə deyəcəyini kəsdirə bilmədi. Verdiyi vədləri yerinə yetirəmmirdi deyə, dili gödək idi. Qapını çırpıb yola düzəldi. Toy ərəfəsində gəlinin zinət əşyalarına çox pul xərclədiyindən şadlıq evinə xeyli borclu qalmışdı. Bankdan kredit götürüb o borcu bağlamışdı. İndi dərdi-səri bankın kreditini ödəmək idi. Bu vurhavurda Səbinənin səyahət arzusu lap əfsanəydi. Fatehin qanı it qanına dönmüşdü.

* * *

– Nigar, bundan sonra biz gəlməyək. İkiniz çıxın. Yetkin, mədəni adamlarsız. Özünüzə bir şans verin.

– Nə deyirəm ki…

Günün proqramını Tamer qururdu. İşgüzar görüşlərini yoluna qoyan kimi evə tələsirdi. O arada

Nigar da internetə girib gedəcəkləri yer barədə informasiya toplayırdı ki, Tamerin yanında çox utanmasın. Subayların ünsiyyəti tuturdu. Səyyah kimi dolaşırdılar Hollandiyanı. Yol yoldaşlığı açılmamış sandıqların pambığını tökürdü. Həyat hekayələrini çəkinmədən danışmağa başlamışdılar. Tamerin təcrübəli kişi gözü Nigarın qəlbindəki dərin yaranı görmüşdü. Yollar məhəbbət tellərinə çevrilib cavanları bir-birinə bağlayırdı.

Haaqadan Kaangilə qayıdırdılar. Pəncərədən görünən mənzərələr Nigarı əfsunlamışdı. Sarı-qırmızı zanbaq plantasiyaları, yamyaşıl çəmənliklər, otlağa dağılmış naxır, qədim dəyirmanlar… nağıllar aləmini andırırdı. Tamer düşüncələrə dalmışdı: "Nə çox axtardım səni, Nigar, nə çox axtardım? Halbuki Zərifənin toyunda da varmışsan. O zaman niyə diqqət eləmədim, niyə görmədim? Həə… yadıma düşdü, o vaxt ürəyim Eylül xanımdaydı… Daha səni əldən buraxmaq yoxdur, Nigar! Qismət bu günəymiş."

Zərifə əzizlərini gülə-gülə qarşılayıb dərhal Nigarı otağa çəkdi:

– Yol təəssüratlarını danış görüm, necə getdiz, haraları gəzdiz?

– Sən təəssüratları bir kənara qoy. Bilirəm, dərdin o deyil, – deyə gülümsünən Nigar Zərifəni nigarançılıqdan qurtardı, – onun yanında özümü rahat hiss edirəm. Hər durumda dadıma yetişəcək biri varmış

kimi. Bu mənimçün yeni duyğudur. Ağlım kəsəndən ətrafımdakılar mənə güvənib. Hətta…

Nigar susub sözünün dalını gətirmədi. Onun bu halı Zərifəni həyəcanlandırdı.

– Nə hətta? Dinsənə, yoxsa…

– Narahat olma. Tamerlik məsələ deyil. Adını çəkmək istəmədiyim məxluqla bağlıdır. Hətta Fateh də mənə güvənirdi, mən ona yox! Bunu demək istədim.

Qeyri-iradi üçbucaqdakı gedişləri xatırlayan Nigar o müdhiş hisslərin əsarətində yaşadığı aylara heyfsiləndi. Çöhrəsindən qara bulud keçdi. Rəfiqəsini gözdən qoymayan Zərifə Nigarı fikirdən yayındırmaqçün onu mətbəx işlərinə qoşdu.

– Çoxdandır şəkərbura yeməmişik. Bir mərifətini göstər. Kaangilin də ağzı dada gəlsin.

* * *

Sərin bir yay günündə Tamer  Nigarı Amstel çayının sahilinə apardı.

– Yəqin bilirsən ki, Amsterdam şəhəri adını bu çaydan alıb – Amstel çayından. Yəni bura başlanğıcdır, təməldir, bünövrədir. Mən də istədim ki, həyatımda açacağım yeni səhifəyə burda başlayım. O səhifənin ilk  kəlməsindən son nöqtəsindək bütün yazıları Amstelin suları kimi dupduru, şəffaf olsun. Quracağımız ailəyə qaranlıq sirrlər kölgə salmasın. Bu yaşadək hərəmiz bir həyat yaşamışıq. Ömrümüzdən kimlər gəlib-kimlər keçibsə, hamısı zamanın o

tayında qalıb. Əgər mənə dəyər verirsənsə, məni sevə biləcəyinə inanırsansa, məni özünə layiq görürsənsə ömür binamızın bundan sonrakı mərtəbələrini birlikdə ucaldaq. Mən eşq kişisiyəm. Eşqsiz yaşaya bilmərəm. Səni sevdim! Sən necə, məni sevərsənmi? Sevərsənsə, evlənək!

Nigar heyran-heyran Tamerə qulaq asırdı. Bu yaşacan çox eşq elanları eşitmişdi. Beləsi yadına gəlmirdi. Tamerin danışığında bir intonasiya ustalığı da vardı. Vurğuları elə yerli-yerində işlədir, səs tonunu elə gözəl tənzimləyirdi ki, dedikləri birbaşa qəlbə yayılıb beyinə hopurdu. Nigar onu tanımasa düşünərdi ki, artistlik edir. Az da olsa tanıdığı üçün bilirdi ki, Tamerin danışıq tərzi belədir. Ruhundan, mədəniyyətindən dilinə hopmuş dost-doğma üslubudur bu.

– İstəyirəm ailəmiz sevgidən, sayğıdan, qarşılıqlı anlaşmadan, etibardan yoğrulsun. Həyat mürəkkəbdir. İnsan başına gələcəkləri biləmməz. İstəyirəm ki, nə olursa-olsun, bütün çətinliklərdə ən yaxın dost, ən etibarlı sirdaş qalaq, bir-birimizə güvənimizi heç itirməyək. Qocalıb əldən düşəndə də övladlarımızdan çox ikimiz bir-birimizə arxa-dayaq olaq.

Axan çayın şırıltısı Tamerin səsinə qarışıb romantik duyğulara rəvac verirdi. Nigar Amsteldə güzgülənən çöhrəsinin işıqlandığını gördü. Sudan ona xoşbəxt bir xanım baxırdı.

Sözünü bitirən Tamer əlini Nigara uzatdı. Məktəblilər sayaq əl-ələ tutuşdular. Tamer iri ovcundakı əli bərk-bərk sıxdı. Ürəklərin istisi barmaqların ucuna axıb cavanları isitdi. Sınayıcı nəzərlərlə baxışdılar. Yavaş-yavaş rahatlaşan baxışlarda ümid şöləməndi. Tamer Nigarı paytaxtın gəzməli-görməli yerlərindən olan Vondel parkına dəvət etdi. O an Nigarçün hara gedəcəklərinin fərqi yoxuydu. Yol yoldaşının zövqünə inanırdı. Parka çatanda möhtəşəm bir abidənin önündə ayaq saxladılar.

– Bax, gördüyün parkın yüz əlliyə yaxın yaşı var, özü də bu kişinin adını daşıyır – niderlandların böyük yazarı Yost van den Vondelin adını.

Nigarı gülmək tutdu.

– Deyəsən, siz gerçəkdən  vurulmusuz bu şəhərə, onun tarixinə.

– Bu şəhərə yox, sizə vurulmuşam, möhtərəm Nigar xanım. Bircə rəqibiniz var – o da işimdir. Başqa qısqanacaq yeriniz olmayacaq. Seçim sizindir.

Yaşıllıqlara qərq olmuş Vondel parkında ruhu dincəldən ab-hava vardı. Təmiz havada dincəlməyə gələn ailələrin, sevgili cütlüklərin dəm-dəsgahı bir ayrı ovqat yaradırdı. Baxdıqca göz oxşayan al-əlvan gülkarlıqlar Bakını yada saldı. Nigar bir anlıq dogma şəhər üçün darıxdı. Əzizlərindən ötrü burnunun ucu göynədi. Yadına düşdü ki, bir aydır,

doğmalarını görmür. Dönüb Tamerə baxdı. Sakit və təmkinli görkəminin altından boy göstərən nigaranlığını gördü. Tamer cavab gözləyirdi.

* * *

Səbinə təsadüfən Fatehin parolunu tapmış, "e-mail"indəki məktubları oxuyaraq Nigar-Sevda əhvalatını öyrənmişdi. Əvvəlcə dəhşətə gəlmişdi, inanmamışdı. Sonra bütün məktubları çözüb ərinə nifrət etmişdi. "Gör mən kimlə ailə qurmuşam?! O vaxt institutdakılar deyəndə gərək araşdıraydım… – deyə məyus olmuş, cürbəcür xəyallara düşmüşdü. – Toyumun sədası hələ qulaqlardan getməyib. Nə edə bilərəm? İndi aydın olur nişanlı vaxtı niyə Fateh mənimlə şəhərə çıxmırdı, qoşa gəzməkdən, camaat arasında görünməkdən niyə boyun qaçırırdı…"

Ərinin sirrini öyrənməsi Səbinəyə baha başa gəlmişdi. İlk günlər çox acıqlıydı. Fatehin əmisigilin gəlişi də o dövrə düşmüşdü. Sonradan öz içində peşmançılıq yaşamışdı: "Qohumlarının nə günahı? İndi elə biləcəklər ocaqlarına gəlin əvəzinə əzrayıl gəlib, məni qaralayacaqlar. Daha nə bilsinlər öz oğulları canavardır.., camaatın başına oyunlar açıb. Bu elə məsələdir ki, anamgilə desəm… – iki daşın arasında tanımadığın adama ərə gedəndə belə olacaqdı, – deyə məni qınayacaqlar. Yox. Fatehə özüm gəlmişəm. Bu işi də özüm çözməliyəm."

Günlərlə götür-qoy edən Səbinə çox düşünüb-daşınmışdı. Axırı bu qərara gəlmişdi ki, boşanmağa tələsməsin. Nigar-Sevda əhvalatını öyrəndiyini ərinə bildirməsə də, məyusluğunun acısını Fatehə yaşadırdı. "Ona ömrü boyu unuda bilməyəcəyi dərs vermək lazımdır", - deyə düşünürdü. Ərinin mehribanlıq etdiyi bir axşam rişxəndlə bəyan etmişdi ki, mən hələ uşaq-zad istəmirəm, heç həvəslənmə. Özüm uşağam. Hələ magistraturada oxuyacam, ingilis dili öyrənəcəm, sürücülük kurslarına yazılacam… Bir sözlə, öz inkişafımla məşğul olacam. Yaxamdan əl çək.

Arvadını heyrətlə dinləyən Fateh qulaqlarına inanmamışdı. Eyvana çıxıb dəli kimi hayqırmışdı. Otuz beş yaşa qədəm qoymuş kişi olaraq təcili uşaq istəyirdi o.

* * *

Özünün doğruları və yanlışlarıyla baş-başa qalan Sevdanın qadınlıq həvəsi ölmüşdü. Bundan sonrakı ömrünü uşaqlarına qurban vermək arzusundaydı. Nigarın yoxluğu onların həyatında böyük yarğan açmışdı. Xəcalət hissi Sevdanın saçına dən salmışdı. Ağ cığırlar qara əməllərin yadigarı kimi hər gün gözünə batırdı.

* * *

Fatehin toyundan üç ay sonra Nigar gəlin köçdü. Bakıdan uzaqlarda, Londonda məskunlaşdılar. Gə-

ləcəkdə Tamerin İstanbuldakı evinə daşınacaqdılar. Qırxın astanasında subaylığın daşını atan təzə bəylə gəlin hələ ki Avropa mühitində evliliyin dadını çıxarırdılar. Nigar bəxtiyar idi. Qismətinə ləyaqətli kişi çıxmışdı. Sevən, qayğıkeş, dürüst. O, yaşanmamış qadınlığını yaşayırdı.

* * *

Səbinə ərinin burnunun ovulmağını gözləyirdi. "Qoy peşmanlıqlar yaşasın, xətalarından nəticə çıxartsın, qadına dəyər verməyi öyrənsin, insan olsun… sonrasına baxarıq." Ona elə gəlirdi ki, yalnız böyük əzablar Fatehi islah edər, içini təmizləyər, günahlarından arındırar.

Səbinə ana olmağı, ərinə atalıq sevinci yaşatmağı o zamana saxlamışdı. Fatehsə bundan xəbərsiz idi.

***noyabr-dekabr 2011***

***Oxucularıma sevgi və sayğılarla!..***

*Sizlərin fikirləriniz mənimçün çox dəyərlidir. Lütfən, düşüncələrinizi e-mail ünvanıma –* ***manzara1.mm@gmail.com****-a göndərin, aramızda körpü olsun.*

## KİTABIN İÇİNDƏKİLƏR

### HEKAYƏLƏR

Eşq ........................................................................ 5
Ehtiraslar labirintdə .................................................. 25
Kişi ........................................................................ 69
Qadın ..................................................................... 83
Karusel .................................................................. 91
Tale oyunu ........................................................... 113
Sıfır nöqtəsində .................................................... 135
Qafqazlılar kurortda ............................................ 147
Azadlıq qoxusu... və qorxusu .............................. 159

### POVEST

Üçbucaqda gedişlər ............................................. 181

Oxucularıma sevgi və sayğılarla! ......................... 270

MƏNZƏRƏ SADIQOVA

**"Qadınlar və kişilər"**

(hekayələr və povest)

**Bakı, "Nurlan", 2014. 272 səh.**

**«Nurlan» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

Korrektor: **Aysel AYDINQIZI**
Cild dizaynı: **Vəfadar FARİZOĞLU**
Texniki redaktorlar:
**Rövşanə NİZAMİQIZI, Günay MƏMMƏDOVA**

Çapa imzalanmış **26.06.2014**
Şərti çap vərəqi **17.** Sifariş № **555**
Kağız formatı **84x108 1/32.** Tiraj **1000**

---

Kitab «**Nurlan**» nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail:** ***nurlan1959@gmail.com***
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.

